# İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

İLHAM
ƏLİYEV

# DOXSAN BEŞİNCİ KİTAB

## MAY 2019 - AVQUST 2019

AZƏRNƏŞR
BAKI - 2019

# İLHAM ƏLİYEV

## ÇIXIŞLAR * NİTQLƏR

## BƏYANATLAR * MÜSAHİBƏLƏR

## MƏKTUBLAR * MƏRUZƏLƏR

## MÜRACİƏTLƏR

AZƏRNƏŞR
BAKI – 2019

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56** **İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2019, 392 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf – məqsədimizdir» çoxcildliyinin bu cildində dövlət başçısının ölkəmizə rəsmi səfərə gəlmiş Polşa Respublikasının Prezidenti, Türkiyə Böyük Millət Məclisinin vitse-spikeri, həmçinin ATƏT Parlament Assambleyasının Prezidenti ilə görüş və danışıqlarına dair materiallar verilmişdir.

Azərbaycan Prezidentinin bütün görüş və danışıqlarında Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli yolları prioritet məsələ kimi qaldırılır ki, bu da hər bir cilddə öz əksini tapır.

Dövlət başçısının Ramazan bayramı ilə bağlı Azərbaycan xalqına təbriki, 28 May – Respublika Günü münasibətilə keçirilmiş rəsmi qəbulda və XXVI Beynəlxalq «Xəzər Neft və Qaz–2019» sərgi və konfransında iştirakına aid materiallar da bu cilddə yer almışdır.

**ISBN 978-9952-8100-7-3**

**Я** $\dfrac{\textbf{0801000000}}{\textbf{M – 651(07)– 2019}}$ **ББК - 32**

© Azərnəşr, 2019

## MÜSƏLMAN ÖLKƏLƏRİN AZƏRBAYCANDAKI SƏFİRLƏRİ VƏ DİPLOMATİK NÜMAYƏNDƏLİKLƏRİNİN RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞ

*17 may 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 17-də müqəddəs Ramazan ayı münasibətilə müsəlman ölkələrin Azərbaycandakı səfirlərini və diplomatik nümayəndəliklərinin rəhbərlərini qəbul etmişdir.*

### Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Hörmətli səfirlər!

Müqəddəs Ramazan ayında bizim görüşlərimiz ənənəvi xarakter daşıyır. İlk növbədə, xahiş edirəm ki, mənim səmimi salamlarımı, xoş arzularımı təmsil etdiyiniz ölkələrin dövlət və hökumət başçılarına çatdırasınız. Bildiyiniz kimi, müsəlman ölkələri ilə bizim çox sıx əməkdaşlığımız vardır. Siyasi sahədə fəal dialoq aparılır. Əlbəttə, çox istərdik ki, iqtisadi sahədə daha da fəal əməkdaşlıq olsun. Ticarət dövriyyəsinin artırılması, qarşılıqlı sərmayə qoyuluşu, digər sahələrdə birgə fəaliyyətimiz xalqlarımız üçün çox

böyük əhəmiyyət kəsb edə bilər. Müsəlman ölkələrinin rəhbərləri ilə çoxsaylı görüşlərimdə bu məsələlər daim gündəlikdədir. Əlbəttə, biz çox istərdik ki, təmsil etdiyiniz ölkələrdən olan şirkətlər Azərbaycanda müxtəlif layihələrdə daha fəal iştirak etsin.

Son vaxtlar Azərbaycanda turizmin inkişafı sürətlə gedir. Çox şadam ki, müsəlman ölkələrindən olan turistlər Azərbaycana gəlirlər və onların sayı ildən-ilə artır. Bir sözlə, ikitərəfli formatda əlaqələrimiz uğurla inkişaf edir. Bu əlaqələrin gələcək inkişafı üçün çox yaxşı şərait və imkanlar vardır.

Biz beynəlxalq təşkilatlar çərçivəsində də çox fəal əməkdaşlıq edirik, BMT-də, İslam Əməkdaşlıq Təşkilatında bir-birimizə qarşılıqlı dəstək göstəririk. Bu qarşılıqlı dəstək bizim əlaqələrimizin yüksək səviyyədə olmasının təzahürüdür. Xüsusilə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı müsəlman ölkələrinin dəstəyi bizim üçün çox əhəmiyyətlidir. Bildiyiniz kimi, Ermənistan Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağı və onun ətrafında yerləşən 7 rayonu uzun illərdir işğal altında saxlayır. Bu münaqişə və etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı öz doğma torpağında qaçqın-köçkün vəziyyətinə düşübdür. Bu, beynəlxalq hüququn pozulmasıdır. Beynəlxalq təşkilatların bu məsələ ilə bağlı müxtəlif qərar və qətnamələr qəbul etməsinə baxmayaraq, əfsuslar olsun ki, işğalçı dövlətə onlar lazımi təzyiqi göstərmirlər. BMT Təhlükəsizlik Şurası – dünyanın ali orqanı 4 qətnamə qəbul edib və bu qətnamələrdə göstərilir ki, işğalçı

qüvvələr işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılmalıdır. Ancaq bu qətnamələr kağız üzərində qalıb və bu, ikili standartların təzahürüdür. Bütün dünya Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Dağlıq Qarabağ bizim tarixi torpağımızdır və Azərbaycanın ərazi bütövlüyü tam beynəlxalq dəstək alıbdır. Ancaq işğalçıya kifayət qədər təzyiq göstərilmir. Münaqişənin həlli ilə bağlı ölkəmizin mövqeyi birmənalıdır. Bu münaqişə ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. Beynəlxalq təşkilatlarda bizə göstərilən dəstəyə görə müsəlman ölkələrinə bir daha təşəkkürümü bildirirəm.

Azərbaycan da öz növbəsində, beynəlxalq təşkilatlarda müsəlman ölkələrini daim dəstəkləyir. Biz islam həmrəyliyinin gücləndirilməsinə çox böyük əhəmiyyət veririk və bu istiqamətdə əməli addımlar atılır. Azərbaycanda keçirilmiş çoxsaylı tədbirlər islam həmrəyliyinin möhkəmləndirilməsinə xidmət göstərir. Biz hamımız yaxşı bilirik ki, islam həmrəyliyinin möhkəmləndirilməsi gündəlikdə duran əsas məsələlərdən biridir. Azərbaycan öz tərəfindən bu istiqamətdə çox ciddi addımlar atır və atacaqdır.

Eyni zamanda, ölkəmizdə mədəniyyətlərarası dialoqla bağlı çoxsaylı tədbirlər keçirilir. Bu yaxınlarda Bakıda keçirilmiş V Mədəniyyətlərarası Dialoq Forumu da bu sıradan olan tədbirlərdəndir. Ümumiyyətlə, Azərbaycan islam mədəniyyətini dünyada təbliğ etməklə bağlı çox böyük səylər göstərir. Bir çox ölkələrdə konfranslar, sərgilər, təqdimatlar keçirilir və

beləliklə, biz islamı dünyaya sülh, mərhəmət dini kimi təqdim edirik.

Keçən il Naxçıvan – bizim qədim şəhərimiz «İslam mədəniyyətinin paytaxtı» elan edilmişdir. Bu qərara görə biz bütün müsəlman ölkələrinə minnətdarıq. Onu da qeyd etməliyəm ki, İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanın islam həmrəyliyinin möhkəmləndirilməsində oynadığı rolu çox yüksək qiymətləndirir.

Mən bir daha sizi ürəkdən salamlayıram. Xahiş edirəm ki, mənim səmimi salamlarımı dövlət və hökumət başçılarına çatdırasınız. Təmsil etdiyiniz ölkələrin xalqlarına sülh, əmin-amanlıq və xoşbəxtlik arzulayıram.

* * *

**Nasir Əbdül Kərim Əbdül Rəhim** (*Fələstin Dövlətinin Azərbaycandakı səfiri*): Zati-aliləri cənab Prezident!

Azərbaycan Respublikasında akkreditasiya olunmuş müsəlman ölkələrinin səfirləri və diplomatik missiya rəhbərləri adından Sizi müqəddəs Ramazan ayı münasibətilə təbrik etmək mənim üçün böyük şərəfdir.

Cənab Prezident, biz hamımız bu müqəddəs ayda bizimlə görüşmək üçün dəyərli vaxtınızı ayırdığınıza, əsasını qoyduğunuz ənənəyə görə Sizə minnətdarıq və bu Sizin müsəlman ölkələrini və xalqlarını birləşdirən qardaşlıq əlaqələrinə dəstək və dayaq olmaq öhdəliyinizin bir təzahürüdür.

Bu müqəddəs ayda müsəlmanlara sülh, həmrəylik ab-havasında bir araya gəlmək imkanı verilməklə, islamın xeyirxah dəyərlərinə çağırış edilir, fikir və ruh yüksəlir, bununla da sakitlik, sabitlik, mənəvi yüksəliş və xeyirxahlığa doğru birlikdə addım atılır. Beləliklə, hər birimizin içində zəiflərə və aztəminatlılara yardım etmək, qardaşlıqda və ortaq taledən agah olaraq, bağışlamaq və qəbul etmək xüsusiyyəti oyanır.

Cənab Prezident, gənc Azərbaycan Respublikası müstəqilliyin ilk illərində bir çox çağırışlarla üzləşmişdir və o zaman onların öhdəsindən gəlmək qeyri-mümkün görünürdü. Lakin ölkə rəhbərliyinin müdrikliyi və uzaqgörənliyi sayəsində Azərbaycan bu təhlükələrin öhdəsindən uğurla gələrək, inkişaf etdi, müasirliyi qəbul edən və gələcəyə doğru sürətlə addımlayan bir ölkəyə çevrildi, islam mədəniyyətini də qoruya bildi.

Müsəlman ölkələrinin səfirləri kimi, biz qardaş Azərbaycanın möhtəşəm inkişafını, yenidən qurulmasını, bir çox sahələrdə apardığı islahatları və uğurlu transformasiyasını heyranlıqla müşahidə etmişik.

Müsəlman ümmətinin əziz, ayrılmaz və vacib bir üzvü kimi, Azərbaycan müsəlman aləminin Dağlıq Qarabağdan tutmuş, əl-Qüds, əl-Şərif, Kəşmirə qədər və digər işğal olunmuş müsəlman əraziləri ilə bağlı məsələlərdə ədalətli haqq işini böyük səylə dəstəkləyir, habelə bu günün çoxsaylı çağırışları ilə mübarizədə birgə səylərin önündədir. Bunlardan biri də məkrli və yanlış məfhum olan islamofobiya ilə mübarizə aparmaqdır.

Sakit düşüncə ilə təsdiqlənə bilən danılmaz mədəni, tarixi və dini faktları gətirməklə, bu məfhumu təkzib edərək, islamın tarixdə, öz «qızıl» əsrində insan birliyi və mədəniyyətinin bütün sahələrinə əsas töhfə verən və bəşəriyyətin hamisi kimi böyük rolunu vurğulayaraq, Bakıda mədəniyyətlərarası və konfessiyalararası dialoqa dair çoxsaylı vacib konfranslar keçirməklə, «Bakı prosesi»nə start verməklə, Siz bəşəriyyətin universal və ortaq dəyərlərinə hörmət bəslənilməsinin vacibliyini qeyd etməyə davam edirsiniz. Sadəcə, fikir ayrılıqlarını aradan qaldırmaq, eləcə də sivilizasiyaların toqquşması adlanan yanlış arqumenti ifşa etmək üçün bəşəriyyətin nəyi paylaşdığını vurğulamaqla, şərəfli missiyanın önündəsiniz. Biz bunu bir neçə gün öncə Bakıda keçirilmiş V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda da gördük. «Qoşulmama Hərəkatı»na bu il rəhbərlik etməklə, inkişaf etməkdə olan ölkələrin və bəşəriyyətin üzləşdiyi məsələlərin həllində fəal iştirak edirsiniz.

Azərbaycanın sülhün, inklüzivliyin və hörmətin üstünlük təşkil etdiyi, müxtəlif dinlərin nümayəndələrinin bir-biri ilə harmoniya içində yaşayıb-çalışması ilə islamın həqiqi ruhunu nümayiş etdirən parlaq ulduzlardan biri olması danılmazdır. Bunu müşahidə etmək zövq verir. Beləliklə, dünyanın müxtəlif guşələrindən olan qonaqlar çox müsbət təəssüratlarla öz evlərinə qayıdır, Azərbaycan və islam haqqında məlumatlar onların yaddaşına həkk olunur.

Cənab Prezident, müsəlman ümməti Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü

çərçivəsində, sülh yolu ilə, beynəlxalq hüququn norma və prinsiplərinə əsasən, həllini dəstəkləyir və bu məsələdə Azərbaycanın yanındadır, BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi bütün qətnamələrin seçmə üsulu ilə yox, bərabər şəkildə icrası üçün çağırış edir. Bu müqəddəs ayda biz bütün işğal olunmuş müsəlman ərazilərinin və müqəddəs yerlərin öz həqiqi sahiblərinə qayıdacağı, ümməmizin islamın adına ləkə gətirən pis, bədxah və cahil qüvvələri məğlub edəcəyi və bununla da bəzi ölkələrimiz üzərində olan qara buludların çəkiləcəyi, habelə qardaş ölkələrimiz arasında birlik və harmoniyanı bərqərar etmək üçün fikir ayrılıqlarının aradan qaldırılacağı günün yaxınlaşmasını arzu edirik. Bu da bizə innovasiya və tərəqqidə bəşər sivilizasiyasına mühüm töhfə verən tərəf kimi, öz həqiqi yerimizi tutmağa imkan verəcəkdir.

Zati-aliləri, müsəlman ölkələrinin səfirləri və diplomatik missiyaların rəhbərləri adından sidq ürəklə Sizə və ailənizə cansağlığı, səadət və uğurlar, qardaş Azərbaycan xalqına isə davamlı sülh, inkişaf və rifah arzulayırıq.

Allah Sizi, Azərbaycanı və islam ümmətini qorusun! Çox sağ olun, cənab Prezident.

## ÜMUMRUSİYA BƏDİİ GİMNASTİKA FEDERASİYASININ PREZİDENTİ İRİNA VİNER-USMANOVA İLƏ GÖRÜŞ

*17 may 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 17-də Ümumrusiya Bədii Gimnastika Federasiyasının prezidenti İrina Viner-Usmanova ilə görüşmüşlər.*

*Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında idman sahəsində əlaqələrin möhkəmləndirilməsində xidmətlərinə görə İrina Aleksandrovna Viner-Usmanova Prezident İlham Əliyevin sərəncamına əsasən, «Dostluq» ordeni ilə təltif edilibdir.*

*Dövlət başçısı ordeni İrina Viner-Usmanovaya təqdim etdi.*

*Prezident İlham Əliyev Ümumrusiya Bədii Gimnastika Federasiyasının prezidenti İrina Viner-Usmanovanı Azərbaycanın yüksək mükafatlarından olan «Dostluq» ordeni ilə təltif olunması münasibətilə təbrik etdi və onun ölkələrimiz arasında idman və ümumilikdə dostluq əlaqələrinin inkişafındakı rolunu xüsusi vurğuladı. Prezident İlham Əliyev İrina Viner-Usmanovaya Azərbaycanda gimnastika məktəbinin yaradılması işinə verdiyi böyük töhfəyə görə də minnətdarlığını bildirdi. Dövlət başçısı İrina Viner-*

*Usmanovanın təkcə Azərbaycanda deyil, dünya idman ailəsində böyük nüfuza malik olduğunu qeyd edərək, məhz onun səyləri nəticəsində Rusiya gimnastlarının uzun illərdir yüksək nəticələr göstərdiyini vurğuladı. Prezident İlham Əliyev İrina Viner-Usmanovaya gələcək fəaliyyətində yeni-yeni uğurlar arzuladı.*

*Xoş sözlərə görə minnətdarlığını bildirən İrina Viner-Usmanova Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva tərəfindən ona göstərilən diqqətdən böyük məmnunluq hissi keçirdiyini qeyd etdi. O, Birinci vitse-prezident xanım Mehriban Əliyevanın Azərbaycanda bədii gimnastika növünün əsasının qoyulmasında və inkişafında xüsusi rolunu yüksək qiymətləndirdi. İrina Viner-Usmanova Azərbaycanda bədii gimnastika növünə göstərilən qayğıdan danışaraq, Bakıda çox möhtəşəm gimnastika arenasının inşa edildiyini qeyd etdi. Azərbaycana səfərlərindən məmnunluq hissini ifadə edən İrina Viner-Usmanova ölkəmizə hər gəlişi zamanı böyük inkişaf proseslərinin, yeni-yeni memarlıq nümunələrinin şahidi olduğunu vurğuladı.*

## UKRAYNANIN AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ VLADİSLAV KANEVSKİ İLƏ GÖRÜŞ

*17 may 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 17-də Ukraynanın ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Vladislav Kanevskinin etimadnaməsini qəbul etmişdir.*

*Səfir Vladislav Kanevski Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Vladislav Kanevski etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Söhbət zamanı Azərbaycan–Ukrayna münasibətlərinin müxtəlif aspektləri, o cümlədən ticarət dövriyyəsi, iqtisadi əməkdaşlıq, sərmayə qoyuluşu, mədəni əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

*Səfir əminliyini ifadə etdi ki, ölkəmizdəki diplomatik fəaliyyəti dövründə Ukrayna–Azərbaycan əlaqələrinin inkişafı istiqamətində səylərini əsirgəməyəcəkdir.*

## SABUNÇU DƏMİR YOLU VAĞZALI KOMPLEKSİNİN AÇILIŞINDA İŞTİRAK

*21 may 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 21-də Sabunçu dəmir yolu vağzalı kompleksinin açılışında iştirak etmiş, yeni inşa edilmiş Bakı – Sabunçu dəmir yolu xətti üzrə görülən işlərlə tanış olmuşdur.*

*Dövlət başçısı əvvəlcə qəsəbə sakinləri ilə görüşüb söhbət etdi.*

**Arazxanım Mərdanova** (*Sabunçu qəsəbəsinin sakini*): Bizim Sabunçu qəsəbəsinə xoş gəlmisiniz! Bu gün Sizin sayənizdə burada möhtəşəm dəmir yolu vağzalı açılır. Siz bunları xalqımızı, övladlarımızı düşünüb edirsiniz. Allah Sizə cansağlığı versin! Siz ulu öndərimizin davamçısısınız. Biz Sizə güvənirik, Azərbaycan Sizə güvənir. Siz bizim böyük dayağımızsınız. Sakinlər adından Sizə «Sağ olun!» – deyirəm.

**İlham Əliyev:** Çox sağ olun, təşəkkür edirəm. Mən də çox şadam ki, bu gün bu gözəl vağzal kompleksi istifadəyə verilir. Çox gözəl binadır. Bu binanın tikintisi bir daha göstərir ki, hər bir qəsəbənin problemləri diqqət mərkəzindədir. Çalışırıq ki, bütün qəsəbələrdə quruculuq-abadlıq işləri aparılsın,

vətəndaşlar üçün yeni imkanlar yaradılsın. Dünyanın ən qabaqcıl şirkətlərindən birinin istehsalı olan yeni vaqonlar alınıb və bundan sonra gediş-gəliş çox rahat olacaqdır. Yolboyu Bakıxanov, Keşlə dayanacaqları da yenidən qurulub. Bu vağzal kompleksi göz oxşayır. Şadam ki, belə gözəl tədbiri birlikdə qeyd edirik. Bu bir daha göstərir ki, şəhər nəqliyyatına çox böyük diqqət yetirilir. Avtobuslar alınıb, bu il də əlavə 300 avtobus alınacaq. Metro tikintisi gedir, yeni vaqonlar alınır, yollar çəkilir, dəmir yolu vağzalları tikilir, yəni nəqliyyat infrastrukturumuz kompleks şəkildə yenilənir. Sizdə işlər necədir?

**S a k i n l ə r:** Sağ olun, minnətdarıq.

**İ l h a m Ə l i y e v:** Həllini gözləyən, bu gün hələ həll olunmamış hansı məsələlər vardır?

**Ə k b ə r H ü s e y n o v** (*sakin*): Adi bir qəsəbədə belə gözəl vağzal inşa olunub. Bu qəsəbənin sakiniyəm, 70 ilə yaxındır ki, burada yaşayıram. Ancaq nə vaxtsa belə bir möhtəşəm binanın inşa olunacağı heç ağlımıza da gəlməzdi. Hər bir açılışı televizordan görəndə fərəhlənirdik. Bu gün özüm bu açılışda iştirak edirəm və bunu əyani surətdə görürəm. Çox sevinirəm. Əlbəttə, bunlar hamısı xalqın rifah halının yaxşılaşdırılması üçün Sizin gördüyünüz işlərdir. Sizə təşəkkür edirik.

**İ l h a m Ə l i y e v:** Sağ olun. Demək olar ki, hər gün ölkəmizdə – Bakıda, bütün rayonlarda, Bakıətrafı qəsəbələrdə, hər yerdə hansısa obyektin açılışı olur, istər sosial obyekt, istər infrastruktur obyekti. İndi yol çəkilişi sürətlə gedir, Sabunçu rayonunda da

yollarının təmiri ilə bağlı işlər görülür. Yəni çalışırıq maksimum nə mümkündürsə edək ki, insanlar daha da yaxşı yaşasınlar, maddi rifah artsın, dolanışıq daha yaxşı olsun. Ona görə bu istiqamətdə bundan sonra da addımlar atılacaq. Pensiyaların, əmək haqlarının, müavinətlərin artırılması gündəlikdə duran məsələlərdən biridir. Belə gözəl binalar vətəndaşlara xidmət edəcəkdir.

**Ə k b ə r H ü s e y n o v:** Əlbəttə, hamısı Sizin sayənizdədir. Bu dəmir yolunun fəaliyyətə başlaması avtobusların yükünü xeyli azaldacaqdır.

**İ l h a m Ə l i y e v:** Əlbəttə, vaxt baxımından da çox sərfəli olacaqdır.

**S a k i n l ə r:** Təşəkkür edirik, sağ olun.

* * *

*Sonra Prezident İlham Əliyev yaxınlıqdakı mağazaya gəldi, alıcılar və satıcılarla söhbət etdi.*

**M ə z a h i r O r u c o v:** (*Qarabağ müharibəsi əlili*): Xoş gəlmisiniz, cənab Prezident! Sizinlə fəxr edirik. Allah Sizi qorusun!

**S ə y y a r ə N ə z ə r o v a** (*şəhid anası*): Xoş gəlmisiniz, cənab Prezident!

**İ l h a m Ə l i y e v:** Sağ olun, necəsiniz?

**S ə y y a r ə N ə z ə r o v a:** Çox sağ olun, Allah Sizdən, dövlətimizdən razı olsun. Siz çox gözəl insansınız, dövlətimiz çox yaxşı dövlətdir. Çünki hər yerdə əmin-amanlıqdır, hamı qayğımızı çəkir, çox sağ olun.

**M ə z a h i r  O r u c o v:** Cənab Prezident, biz Qarabağ qaziləri Sizinlə fəxr edirik. Allah Sizi, dövlətimizi qorusun.

**İ l h a m  Ə l i y e v:** Ticarət necə gedir?

**S ə y y a r ə  N ə z ə r o v a:** Çox yaxşı, şükür Allaha.

**İ l h a m  Ə l i y e v:** Məhsulların neçə faizi yerlidir?

**S a t ı c ı:** Demək olar ki, 90 faizi.

**S a k i n l ə r:** Çox sağ olun, cənab Prezident. Sizinlə fəxr edirik. Allah Sizi qorusun!

* * *

*Prezident İlham Əliyevin 2018-ci il 22 yanvar tarixli Sərəncamına əsasən, Bakı–Sabunçu dəmir yolu yenidən inşa olunub. Layihənin tərkib hissəsi olan Sabunçu dəmir yolu vağzalı tamamilə yenidən qurulub. İnşasına ötən ilin iyunundan başlanılmış üçmərtəbəli binanın ümumi sahəsi 4,1 min kvadratmetrdir. Artıq Sabunçu dəmir yolu vağzalı kompleksi sərnişinlərə xidmət göstərməyə tam hazırdır.*

*Prezident İlham Əliyev Sabunçu dəmir yolu vağzalının rəmzi açılışını bildirən lenti kəsdi.*

*«Azərbaycan Dəmir Yolları» Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanov dövlət başçısına layihə üzrə görülən və görüləcək işlər barədə ətraflı məlumat verdi.*

*Qeyd edildi ki, layihəyə əsasən Bakı dairəvi dəmir yolu xətti üzrə görülmüş işlərin davamı olaraq, Məmmədli kəndində uzunluğu 17 metr olan yeraltı avtomobil keçidi, həmçinin Kürdəxanı kəndində uzunluqları 22*

*metr olan yeraltı avtomobil və yerüstü piyada keçidləri tikilibdir.*

*Prezident İlham Əliyev Sabunçu dəmir yolu vağzalında yaradılmış şəraitlə tanış oldu.*

*Binanın birinci mərtəbəsində gözləmə zalı, bilet satışı kassaları, məlumat bürosu, server otağı, əşyaların saxlanılması kameraları yerləşir. Hər üç mərtəbədə ticarət mərkəzlərinin yaxın günlərdə istifadəyə verilməsi planlaşdırılır. Burada müasir dizaynla tərtib olunmuş istirahət guşələri sərnişinlərin rahatlığını təmin edəcək. İşçilərin əmək fəaliyyəti üçün bütün lazımi şəraitin olduğu binada eyni zamanda, hərəkət qabiliyyəti məhdud olan insanlar üçün də xüsusi şərait yaradılıb. Vağzalda müasir təhlükəsizlik kameraları, yanğınsöndürmə və havalandırma sistemləri, əlavə olaraq eskalator, lift, 17 turniket quraşdırılıb, 2 piyada alt keçidi inşa edilibdir. Layihə çərçivəsində Sabunçu vağzalında 2 yeni platforma salınıb, işıqlandırma dirəkləri və müasir sərnişin dayanacaqları quraşdırılıb, stansiyadakı 3 dəmir yolu xətti tamamilə yenidən qurulubdur. Sabunçu vağzalında dəmir yolu polisinin üçmərtəbəli binası da tikilib və zəruri avadanlıqlarla təchiz olunubdur.*

*Sonra Prezident İlham Əliyev Bakı–Sabunçu dəmir yolu xətti üzrə görülmüş işlərlə tanış olmaq üçün qatarla Bakı Dəmir Yolu Vağzalına yola düşdü.*

*Qeyd edildi ki, bu marşrut üzrə dəmir yolu xəttinin uzunluğu bir istiqamətdə 13,5 kilometrdir. Bakı–Sabunçu dəmir yolu xətti üzərindəki Bakıxanov, Koroğ-*

*lu, Keşlə və Nərimanov dayanacaqları tamamilə yenidən qurulubdur.*

*Bu gün Azərbaycan nəqliyyatının ən böyük sahələrindən biri dəmir yolu sektorudur. Azərbaycanın nəqliyyat sisteminin əsas sahələrindən olan dəmir yolu nəqliyyatı indi özünün sürətli inkişaf mərhələsindədir. Belə ki, son zamanlar bu sahənin inkişafı, yüksək dünya standartlarına çatdırılması istiqamətində məqsədyönlü layihələr, böyük həcmli işlər həyata keçirilir. Prezident İlham Əliyevin imzaladığı sərəncamlar, qəbul olunan dövlət proqramları bu sahədə islahatların daha da sürətləndirilməsinə, dəmir yolu nəqliyyatı vasitələrinin müasirləşdirilməsinə müsbət təsirini göstərib. Bakı–Sabunçu dəmir yolu xəttinin yenilənməsi də bu işlərin davamıdır.*

*Dövlət başçısı Bakıxanov dayanacağında yaradılmış şəraitlə tanış oldu.*

*Dayanacağın ümumi sahəsi 7000 kvadratmetrdir. İki turniket binası, platforma, 16 turniket, uzunluğu 30, eni 3,9 metr olan yerüstü piyada keçidi inşa edilibdir. Bakıxanov dayanacağının ərazisində yaşıllıqlar salınıb, avtomobillər üçün dayanacaq yaradılıbdır. Müasir işıqlandırma sistemi ilə təchiz olunmuş platformalarda sərnişinlərin rahatlığı üçün hər cür şərait vardır.*

*Bildirildi ki, Bakı–Sabunçu dəmir yolu xətti üzərində yerləşən Koroğlu dayanacağının ümumi sahəsi 15 min kvadratmetrdir. Dayanacaqda iki turniket binası inşa edilib, 17 turniket, müasir işıqlandırma dirəkləri, oturacaqlar quraşdırılıbdır.*

*Sonra Prezident İlham Əliyev Keşlə dayanacağında yaradılmış şəraitlə tanış oldu.*

*Məlumat verildi ki, ümumi sahəsi 10 min kvadratmetr olan Keşlə dayanacağında da iki turniket binası tikilib. Bundan başqa, dayanacaqda iki platforma, 10 turniket, uzunluğu 39, eni isə 2,5 metr olan yeraltı piyada keçidi mövcuddur. Ətrafda yaşıllıq və abadlıq işləri görülüb, avtomobillər üçün dayanacaq yaradılıbdır.*

*Diqqətə çatdırıldı ki, Nərimanov stansiyasının binası da əsaslı təmir edilib, platformalar və buradakı yerüstü piyada keçidi yenidən qurulubdur. Stansiyada yeni dəmir yolları salınıb və müasir işıqlandırma dirəkləri quraşdırılıbdır. Bakı–Sabunçu dəmir yolu xətti üzrə bütün rabitə və işarəvermə işləri tamamilə yenilənib, elektrik dirəkləri, rigelləri və kontakt şəbəkəsi yenidən qurulubdur.*

*Bütün bunlar son illərdə ölkəmizdə nəqliyyat infrastrukturunun davamlı inkişafı üzrə dövlət siyasətinin tərkib hissəsidir. Bu gün Azərbaycanda dəmir yolu infrastrukturunun müasirləşdirilməsi, beynəlxalq standartlara uyğun qurulması Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü iqtisadi inkişaf strategiyasının bəhrəsidir. Bu strategiya Azərbaycanı qərb ilə şərq, şimal ilə cənub arasında ən mühüm nəqliyyat qovşağına çevirir.*

*Prezident İlham Əliyevin görülmüş işlərlə tanışlığı Bakı Dəmir Yolu Vağzalında başa çatdı.*

## RUSİYA FEDERASİYASI ELMLƏR AKADEMİYASININ PREZİDENTİ ALEKSANDR SERGEYEV İLƏ GÖRÜŞ

*21 may 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 21-də Rusiya Federasiyası Elmlər Akademiyasının prezidenti Aleksandr Sergeyevi qəbul etmişdir.*

*Qəbula görə minnətdarlığını bildirən Rusiya Elmlər Akademiyasının prezidenti Aleksandr Sergeyev Azərbaycan Respublikasının Prezidenti ilə bu görüşün onun üçün və ümumilikdə Rusiya Elmlər Akademiyası üçün böyük önəm daşıdığını dedi. Əvvəlki illərdə akademiyalar arasında birgə səmərəli əməkdaşlığın həyata keçirildiyini qeyd edən Aleksandr Sergeyev sonrakı dövrlərdə elmi əlaqələrin qırıldığını vurğulayaraq, indi bu əlaqələrin yenidən bərpa edilməsinin zəruriliyini bildirdi. O, ölkəmizə səfərinin əsas məqsədinin bundan ibarət olduğunu diqqətə çatdırdı.*

*Dövlət başçısı elm sahəsində əvvəllər mövcud olan ənənəvi əlaqələrin hazırkı dövr və gələcəkdə əməkdaşlığın inkişaf etdirilməsi üçün yaxşı əsas yaratdığını bildirdi. Rusiya elminin son illər əldə etdiyi nailiyyətlərinə toxunan dövlət başçısı ölkələrimizin gələcək elmi əməkdaşlığı üçün yaxşı potensialın olduğunu*

*vurğuladı. Prezident İlham Əliyev Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi və digər sahələrdə uğurlu inkişafının elm sahəsində də əlaqələrin genişləndirilməsi və birgə layihələrin həyata keçirilməsi üçün yaxşı imkan yaratdığını dedi. Dövlət başçısı İlham Əliyev Rusiya Elmlər Akademiyasının prezidenti Aleksandr Sergeyevin Azərbaycana səfərinin ölkələrimiz arasında elmi əməkdaşlığın inkişafı və bu sahədə konkret addımların atılması işinə öz töhfəsini verəcəyinə əminliyini ifadə etdi.*

*Söhbət zamanı əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

**İORDANİYA KRALI ƏLAHƏZRƏT**
**II ABDULLAH BİN ƏL-HÜSEYNƏ**

Əlahəzrət!

Əziz qardaşım!

İordaniya Haşimilər Krallığının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, qardaş İordaniya xalqına daim sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 may 2019-cu il*

## TƏZƏPİR MƏSCİDİNİN QARŞISINDA YENİ BAĞIN VƏ FÜZULİ KÜÇƏSİ BOYUNCA SALINMIŞ MƏRKƏZİ PARKIN AÇILIŞI MƏRASİMİ

*22 may 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 22-də Bakının Yasamal rayonu ərazisində yerləşən Təzəpir məscidinin qarşısında yeni bağın və Füzuli küçəsi boyunca salınmış Mərkəzi parkın açılışında iştirak etmişlər.*

*Dövlət başçısına və xanımına görülən işlər barədə məlumat verildi.*

*Prezident İlham Əliyevin göstərişinə uyğun olaraq, Nazirlər Kabinetinin müvafiq qərarlarına əsasən, keçmiş «Sovetski» adlanan ərazidə abadlıq və yenidən qurulma işlərinə 2013-cü ilin noyabr ayında start verilib və işlər mərhələlərlə icra olunmaqdadır.*

*Dövlət başçısı və xanımı buradan paytaxtın mənzərəsini seyr etdilər.*

*Ərazi orijinal layihə əsasında yüksək səviyyədə abadlaşdırılıb, burada müasir tələblərə uyğun yeni istirahət parkı salınıbdır. Avstriyanın məşhur memarı Yans Hoffmanın layihələndirdiyi Mərkəzi parkın ən mühüm xüsusiyyəti Nəriman Nərimanov prospektin-*

*dən Heydər Əliyev sarayınadək olan ərazidə piyadalara yol keçmədən maneəsiz hərəkət imkanının yaradılmasıdır. Layihənin əsas məqsədi şəhərin simasını daha da gözəlləşdirmək, paytaxt sakinlərinin və turistlərin mədəni istirahətinə xidmət etməkdir.*

*Dövlət başçısına Hüseyn Cavid parkı–Nərimanov prospekti ilə bağlantı yolu və Cavanşir yol ötürücüsünün yerində inşa olunacaq yeni eyni səviyyəli yol qovşağının tikintisi layihəsi barədə də məlumat verildi. Mərkəzi parkın ərazisində iki kafe də fəaliyyət göstərəcək. Bu istirahət məkanında insanların rahat hərəkətini təmin etmək məqsədilə yeraltı və yerüstü piyada keçidləri istifadəyə verilib. Bu keçidlər əsasən avtomobillərin intensiv hərəkət etdiyi Nəriman Nərimanov, Mirzəağa Əliyev və Abdulla Şaiq küçələrinin kəsişmələrində inşa olunub. Ərazidə bütün yaş qruplarından olan insanlar üçün 7 istirahət və oyun meydançası yaradılıb. Ərazidə böyüklər üçün şahmat, nərd və idman qurğuları, balacalar üçün yelləncəklər, futbol meydançası salınıbdır.*

*Görülən işlər çərçivəsində Təzəpir məscidinin qarşısındakı bağdan məscidə əlavə giriş imkanı da olacaqdır. Həmçinin Füzuli meydanı ətrafında ərazi yenidən qurulub, burada əhalinin təhlükəsiz hərəkəti üçün piyada keçidinə yeni giriş yaradılıb. Parkın ərazisində ümumilikdə 9 fəvvarə, müasir işıqlandırma sistemi və infrastrukturun bir mərkəzdən idarə olunması üçün təhlükəsizlik kameraları quraşdırılıbdır.*

*Ərazisi 20 hektar olan parkın 14 hektarında yaşıllıqlar salınıb. Burada 2100-dən çox 19 növ ağac və*

*137 mindən artıq gül və kol bitkiləri əkilib. Parkın yaşıllaşdırma işləri aparılarkən flora və iqlim mühiti təhlil edilərək, əraziyə uyğun bitki və ağaclara üstünlük verilib. Mərkəzi parkın yaşıllaşdırma konsepsiyasında ilin bütün fəsilləri nəzərə alınıb. Parkda yaşıllıqları suvarmaq üçün müasir sistemlərə uyğun olaraq, 6,5 kilometrdən çox sahədə damcılama üsulu tətbiq edilib. Bundan başqa, Mərkəzi parkın ərazisində drenaj xətlər də çəkilib. Ümumilikdə Mərkəzi parkın inşası ilə Füzuli meydanının ətraf ərazilərində Bakının «ağciyəri» hesab olunan yeni yaşıllıq zolağı salınmaqla, Prezident İlham Əliyevin «Bakı şəhərinin Yasamal rayonu ərazisində Füzuli meydanının ətrafındakı yol-nəqliyyat infrastrukturunun yaxşılaşdırılması və abadlıq işlərinin aparılması ilə bağlı bəzi tədbirlər haqqında» 2016-cı il 4 avqust tarixli, «Təzəpir məscidi kompleksinin ətraf ərazisinin abadlaşdırılması ilə əlaqədar tədbirlər haqqında» 2016-cı il 5 avqust tarixli sərəncamlarının icrası olaraq, «Təzəpir məscidi kompleksini ziyarət edənlər üçün parklama imkanlarının yaradılması işləri» layihəsinin ikinci mərhələsi tam yekunlaşdırılıb, vətəndaşlarımızın istirahəti və dincəlməsi üçün istifadəyə verilibdir. Ərazinin abadlaşdırılması zamanı burada XIX əsrin sonu – XX əsrin əvvəllərində Bakıya Şollar su kəmərinin çəkilişi ilə əlaqədar şəhərin müxtəlif məhəllələrində tikilmiş və yerli sakinlər arasında «Qüllə» kimi tanınmış su qüllələri və quyuları aşkarlanaraq bərpa edilib. Həmin su quyularından bu istirahət məkanında aparılan suvarma işlərində istifadə olunur.*

*Parkın ərazisində Mirzəağa Əliyev küçəsi və Təzəpir məscidi arasında müasir standartlara cavab verən 347 yerlik yeraltı avtomobil dayanacağı tikilib. Dayanacaq təbii havalandırma, müasir işıqlandırma, təhlükəsizlik kameraları ilə təchiz edilib. Son illərdə Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə uyğun olaraq, Bakıda həyata keçirilən abadlıq-quruculuq işlərinin həcmi daha da artıb. Bu işlər paytaxt sakinlərinin və ölkəmizə gələn turistlərin istirahəti üçün ən müasir parkların və yeni-yeni yaşıllıq zolaqlarının salınması, paytaxtın qədim tarixi memarlıq nümunələrinin bərpası və yeni, müasir binaların tikilib istifadəyə verilməsi ilə müşayiət olunur. Bütün bunlar Bakını dünyanın ən gözəl şəhərlərindən birinə çevirib. Bunu istər paytaxt sakinləri, istərsə də şəhərimizin qonaqları dəfələrlə vurğulayırlar. Yeni park, istirahət məkanı və guşələrinin yaradılması, əhaliyə xidmət göstərən müasir infrastrukturun qurulması bu məsələdə mühüm rola malikdir. Yeni salınmış bu park da Bakının simasının daha da gözəlləşməsi baxımından mühüm rol oynayır.*

*Prezident İlham Əliyev görüləcək işlərlə bağlı müvafiq tapşırıqlarını verdi. Sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Füzuli abidəsinin önündə sakinlərlə görüşüb söhbət etdilər.*

*Dövlət başçısı və xanımı vətəndaşların problemləri ilə tanış oldular. Bildirildi ki, sakinlərin müraciət etdiyi problemlərlə bağlı məsələlər yaxın zamanda operativ şəkildə həll olunacaqdır.*

**GÜRCÜSTAN PREZİDENTİ**
**XANIM SALOME ZURABİŞVİLİYƏ**

Hörmətli xanım Prezident!

Gürcüstanın milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan ilə Gürcüstan arasındakı münasibətlər tarixən dostluq və mehriban qonşuluq şəraitində yaşamış xalqlarımızın iradəsindən qaynaqlanır. Belə möhkəm təməllərə əsaslanan dövlətlərarası münasibətlərimizin yüksək səviyyəsi məmnunluq doğurur.

İnanıram ki, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımız, qarşılıqlı etimad və dəstəyə əsaslanan strateji tərəfdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Gürcüstan xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 may 2019-cu il*

## RAMAZAN AYI MÜNASİBƏTİLƏ İFTAR MƏRASİMİNDƏ İŞTİRAK

*Qafqaz Müsəlmanları İdarəsi*

*23 may 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 23-də Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadənin Ramazan ayı münasibətilə iqamətgahında keçirdiyi iftar mərasimində iştirak etmişdir.*

*İftar mərasimi Qurandan ayələrin və Ramazan duasının oxunması ilə başlandı.*

*Şeyxülislam Allahşükür Paşazadə çıxış edərək, müqəddəs Quranın nazil olduğu, «11 ayın sultanı» mübarək Ramazan ayı münasibətilə açılmış iftar süfrəsinə dəvəti qəbul etdiyinə görə Prezident İlham Əliyevə və qonaqlara dərin minnətdarlığını bildirdi.*

**Allahşükür Paşazadə:** Bismillahir-rəhmanir-rəhim.

Möhtərəm cənab Prezident İlham Əliyev!

Dəyərli qonaqlar!

Allah-taalanın mübarək Ramazan ayının iftar süfrəsində Sizləri salamlayır, qonaqlarımıza, xüsusən dövlətimizin başçısı, möhtərəm Prezidentimiz İlham Əliyev cənablarına məclisimizdə iştirak etdiyinə görə Azərbaycan dindarları adından və şəxsən öz adımdan

salam-dualarımı və dərin minnətdarlığımı bildirirəm. Burada iştirak edən dəyərli din və dövlət xadimlərinə, dini konfessiya rəhbərlərinə, deputatlara, xarici ölkələrin nümayəndələrinə də təşəkkür edirəm.

Quranın nazil olduğu, duaların qəbul edildiyi mübarək Ramazan ayında iftar mərasimində Sizinlə görüşmək böyük dəyər kəsb edən əlamətdar ənənəyə çevrilib. Bu qardaşlıq məclisini bizlərə böyük insan, dahi dövlət xadimi, mənim unudulmaz, əziz qardaşım ulu öndər Heydər Əliyev əmanət edibdir.

Hər il biz Heydər Əliyev şəxsiyyətinin dəyər və miqyasını, ucalıq və müdriklik zirvəsini bir daha kəşf edir, əziz xatirəsini böyük ehtiramla yad edirik. Ulu öndər bizə müstəqil dövlət, möhkəm dövlət–din münasibətləri, nadir multikultural mədəniyyət nümunəsini əmanət edib. Xalqımıza, dövlətimizə müdrik rəhbər bəxş etmiş dahi Heydər Əliyevə və möhtərəm Zərifə xanıma Allah rəhmət eləsin, ruhları şad olsun.

Zati-aliləri, Azərbaycan torpağına qədəm basan hər kəsin şahidi olduğu tərəqqi və uğurların təməlində Sizin – dövlət başçımızın fəaliyyəti və müdrik siyasəti durur. Sizin həyata keçirdiyiniz siyasətin yaşam gücü xalq–dövlət birliyində, vətəndaş–Prezident həmrəyliyindədir. Bu həm siyasi, həm də mənəvi baxımdan ən düzgün yoldur.

Azərbaycan tarixən dinlərarası tolerantlıq və multikulturalizm mühitinin təşəkkül tapmasına böyük önəm verib. Mədəniyyətlərarası əməkdaşlığa dair onillik tarixə malik «Bakı prosesi»nin müəllifi məhz

dövlətimizin başçısı möhtərəm İlham Əliyevdir. Azərbaycanın Birinci vitse-prezidenti möhtərəm Mehriban xanım Əliyevanın ölkəmizdə və beynəlxalq aləmdə genişmiqyaslı fəaliyyəti, milli-mənəvi irsimizi yüksək səviyyədə təbliğ etməsi, ümumbəşəri dəyərlərə diqqəti və himayəsi Azərbaycanın bu istiqamətdə söz sahibinə çevrilməsinə xidmət edir, dünyaya təqdim olunan Azərbaycan modeli sivilizasiyalararası dialoq, dinlər və mədəniyyətlərarası əməkdaşlığın inkişafına öz töhfəsini verir.

Möhtərəm cənab Prezident, biz Sizin dünya səviyyəsində qəbul olunan qlobal ideyalarınızdan ilham alaraq, bir çox beynəlxalq tribunalardan Azərbaycanın multikulturalizm və tolerantlıq modelini böyük qürurla təqdim edirik.

Zati-alinizin xeyir-duası və təşəbbüsü ilə Qafqaz Müsəlmanları İdarəsinin nəzdində yaradılmış Bakı Beynəlxalq Dinlər və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzinin məramı nadir multikulturalizm modelinin yaradılmasına və inkişafına dair qlobal ideyalarınızı təbliğ etməkdir. Məhz bu məramla, inşallah, bu ilin iyununda mərkəzimiz tərəfindən BMT Cenevrə İnsan Haqları və Qlobal Dialoq Mərkəzinin, habelə Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzinin həmtəşkilatçılığı, Azərbaycanın Avstriyadakı səfirliyinin, Avstriya dövlətinin ali dəstəyi və iştirakı ilə Vyanada 10-dan artıq beynəlxalq təşkilatın, 40-a yaxın ölkənin 300-ə yaxın din və dövlət nümayəndəsinin, elm və ictimai xadiminin iştirak edəcəyi beynəlxalq konfrans keçiriləcəkdir.

Dünyanın bir çox ölkələrində mənəvi dəyərlərə qarşı savaş açıldığı, islamofobiya, antisemitizm zəminində təqiblərin, terrorun, ekstremizm və radikallığın artdığı mürəkkəb zamanda müxtəlif qitə nümayəndələrinin, din və mədəniyyət təmsilçilərinin Azərbaycan Prezidentinin elan etdiyi multikulturalizm, islam həmrəyliyi kimi qlobal əhəmiyyətli ideyalar ətrafında bir araya gəlməsi dövlətimizin uğuru və Sizin siyasətinizin təntənəsidir. Bu gün Azərbaycan iqtisadi, siyasi, mədəni sahələrdə liderliyi ilə yanaşı, dünya çapında dini-mənəvi dəyərlərin inkişafına böyük töhfələr verən multikulturalizm mərkəzi kimi tanınmaqdadır. Beynəlxalq ictimaiyyəti narahat edən problemlərin həlli yönündə dünyanın tanınmış dini liderləri, ictimai-siyasi xadimləri arasında səmərəli fikir mübadiləsi üçün Azərbaycanda dövlət tərəfindən hər cür şərait yaradılıbdır. Biz Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Prezident Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsi ilə əməkdaşlıq çərçivəsində zati-alinizin irəli sürdüyü istiqamətlər yönündə yeni əməli layihələr üzərində işləyirik.

Fərəhləndirici haldır ki, ölkəmiz 2010-cu ildə keçirilmiş Dünya Dini Liderlərinin I Bakı Sammitinin davamı olaraq sivilizasiyalararası dialoqun inkişafına daha bir töhfə verməyə hazırlaşır. Zati-alinizin Dünya Dini Liderlərinin II Bakı Sammitinin keçirilməsi barədə sərəncamı, heç şübhəsiz, tarixi bir qərar oldu. Müxtəlif dini konfessiyalar arasında əməkdaşlığın genişlənməsinə, qarşılıqlı etimad mühitinin

yaradılması işinə önəmli töhfə olacaq bu beynəlxalq tədbirin dəyərini zaman və dünya ictimaiyyəti verəcəkdir.

Zati-aliləri, Azərbaycandakı dövlət–din münasibətlərinin yüksək səviyyəsinin təmini istiqamətində əməli addımlarınız, milli mədəni irsin dirçəlişinə göstərdiyiniz maddi və mənəvi yardım ulu öndərin Bibiheybətdən başlatdığı ali mənəviyyat yoluna sadiqliyinizi hər zaman əməli səylərinizlə nümayiş etdirirsiniz.Ali himayənizi heç vaxt əsirgəmədiyiniz, xalqımız üçün müqəddəs məkan sayılan Təzəpir məscidinin ətrafında aparılmış abadlaşdırma işləri, genişləndirilən ərazidə salınmış möhtəşəm park, məscidin ilkin tarixi layihəsinə uyğun yenidən qurulması barədə iradəniz – bütün bunlar milli-mənəvi dəyərlərimizə, tariximizə olan yüksək qayğının təzahürü, xalqımıza böyük hədiyyədir. Zati-alinizin mənəvi irsimizə sahib çıxaraq, XX əsrdə Vladiqafqazda azərbaycanlı xeyriyyəçi Muxtarov tərəfindən inşa edilmiş məscidi tam bərpa etdirməniz isə bütün Qafqaz bölgəsi müsəlmanlarına, orada yaşayan soydaşlarımıza böyük hədiyyədir.

Möhtərəm cənab Prezident, zati-alinizə xas olan yüksək mənəvi xüsusiyyətlərdən biri də odur ki, Siz təkcə islamın deyil, bütün dinlərin mədəni irs nümunələrinə sahib çıxaraq, ölkəmizdəki, həmçinin ölkə xaricindəki istər xristian, istər yəhudi məbədlərinə eyni dərəcədə diqqət və himayə göstərirsiniz.

Peyğəmbərimiz Məhəmməd Salavatullahın hədisində buyurulur ki, insanların ən xeyirlisi xalq üçün daha faydalı olanıdır.

Zati-aliləri, Azərbaycanın iqtisadi qüdrətinin artırılması yönündə səyləriniz, beynəlxalq əhəmiyyətli enerji və nəqliyyat layihələrində fəal iştirakınız, sosial layihələrə verdiyiniz dəstək xalqımızın rifahına, dövlətimizin mənafelərinə xidmət edir. Siz və Mehriban xanım bütün vətəndaşlara həyatın ən çətin məqamlarında – təbii fəlakətlərdə, yanğınlarda, baş verən faciələrdə yüksək insani dəyər verir, onların problemlərinə diqqətlə yanaşırsınız. Dünyanın inkişaf etmiş dövlətlərinin miqrant böhranını aradan qaldıra bilmədiyi bir dövrdə Siz, möhtərəm cənab Prezident, Azərbaycanın qaçqın və məcburi köçkünləri üçün böyük qayıdış planları həyata keçirirsiniz. Cocuq Mərcanlıda zati-alinizin inşa etdirdiyi məscidin, aparılmış quruculuq işlərinin mənəvi önəmi xalqımız üçün sözlə ifadə olunmayacaq qədər böyükdür.

Ölkəmizdə həyatın bütün sahələrində gerçəkləşdirdiyiniz islahatlar əsl liderə xas əzəmət və siyasi qüdrət nümunəsidir.

Zati-aliləri, qədirbilən xalqımız Sizin siyasətinizin dövlətimizin uğurlu gələcəyinə xidmət etdiyindən əmindir. Lakin bizi istəməyən, gözü götürməyən bədxah qüvvələr Azərbaycanı bu qədər inkişaf etmiş gördükcə böhtan və iftiralarla xalq–dövlət birliyini pozmağa cəhd edirlər. Təəssüf ki, bədxah qüvvələr Azərbaycana qarşı mübarizələrində bəzən soydaşlarımızdan da istifadə etməyə çalışırlar. Şey-

xülislam olaraq, bildirmək istəyirəm ki, doğru yola qədəm qoysunlar, xalqımızın, dövlətimizin mənafelərini hər şeydən uca tutsunlar.

Bu yaxınlarda 10 milyonuncu vətəndaşımızın dünyaya gəlməsi gündən-günə geriləyən, maddi və mənəvi iflasa uğrayan, demoqrafik böhran yaşayan Ermənistan üçün ağır zərbədir. Ordumuzun artan qüdrəti, insanlarımızın Sizə sədaqəti bədxahları narahat edir, hətta dini zəmində qarşıdurma yaratmaq, məzhəb ayrıseçkiliyi salmaq niyyətində olan daxili və xarici qüvvələr də az deyildir. Lakin belə insanlar heç nəyə nail olmayacaqlar. Allahın köməyi və Azərbaycan xalqının dəstəyi həmişə Sizinlədir, möhtərəm cənab Prezident. Sizi əmin etmək istəyirəm ki, apardığınız siyasi xəttin qələbəsi yolunda hər zaman Sizin yanınızdayıq. Biz dindarlar Sizi dövlət rəhbəri kimi, Məkkədə – müqəddəs məkanda seçmişik, xeyir-dualar vermişik və seçimimizə sadiqik. Allah-taala hər zaman haqqın tərəfindədir.

Zati-aliləri, 70 illik yubileyim və şeyxülislamlıq fəaliyyətimin 40 illiyi münasibətilə verdiyiniz ali qərar və sərəncamınızla cənabınıza xas olan böyüklük nümayiş etdirərək, şəxsimə, Azərbaycan xalqı, dövlətçiliyimiz, müqəddəs dinimiz yolunda xidmətlərimə böyük dəyər verdiniz. Şeyxülislam olaraq, 40 il ərzində dini mərkəzimizi ulu öndər Heydər Əliyevin xeyirduası ilə onun əmanəti kimi saxlamağa, cənab Prezident, Sizin dəstəyinizlə dünyanın tanınmış dini təşkilatı səviyyəsinə qaldırmağa nail olmuşuq. Bu illər ərzində idarəmizə, şəxsimə olan hörmət və diqqətiniz,

özəl münasibətiniz, fəaliyyətim barədə dəyərli fikirləriniz mənim üçün ən qiymətli hədiyyə olubdur. Zati-alinizin məni dost, qardaş adlandırmasını özüm üçün ən böyük mükafat hesab edirəm və bu yüksək etimadınızla fəxr edirəm. Hər zaman, hər yerdə qürurla deyirəm ki, harada dövlət və din birliyi varsa, orada dövlətin və xalqın siyasi, iqtisadi və mənəvi rifahı üçün təminat vardır, Heydər Əliyev yolunun davamı və uca Yaradanımızın xeyir-duası vardır.

Möhtərəm cənab Prezident, bizim yeganə problemimiz, ağrılı yerimiz Dağlıq Qarabağ münaqişəsidir ki, onun da tezliklə Allahın köməyi və Ali Baş Komandanımızın əzmi, qətiyyəti sayəsində həllini tapacağına, torpaqlarımızın azad olunacağına əminik. Bu əziz gündə Vətən uğrunda canlarından keçən şəhidlərimizə Allahdan rəhmət diləyirik. Allah-taala Sizin rəhbərliyinizlə müzəffər ordumuzun əzəli torpaqlarımıza zəfər bayrağı sancmasını görməyi bizlərə nəsib etsin, inşallah! Bu müqəddəs və mübarək Ramazan ayında zati-alinizə və möhtərəm ailənizə ən gözəl arzularımızı yetiririk. Uca Allah hər zaman Sizi qorusun, yardımçınız olsun.

Müqəddəs Ramazan ayında etdiyimiz dualar qəbul olar, inşallah. Bu niyyətlə hamıya – dəvət olunmuş mötəbər qonaqlara, dini konfessiyaların möhtərəm başçılarına, diplomatik nümayəndələrə bir daha «Xoş gəlmisiniz!» – deyir, Allahdan hər birinizə xeyir-dualar diləyirəm.

Allah-taala Azərbaycanı hifz eləsin! Amin!

**A l e k s a n d r a t a** (*Rus Pravoslav kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu*):

Hörmətli cənab Prezident!

Möhtərəm şeyxülislam!

Hörmətli din xadimləri, xanımlar və cənablar!

Dini və milli ənənələrimizi yeniləmək və möhkəmləndirmək üçün Ramazan ayı günlərində bir yerə toplaşmaq əlamətdar ənənəyə çevrilib. Bu görüş Azərbaycanda yaşayan xalqların öz tarixi və dini köklərinə bağlılığının parlaq təsdiqi, milli mentalitetin, dövlətlə din arasında konstruktiv qarşılıqlı münasibətlərin əyani təzahürüdür. Bu əlamətdar günlərdə bütün Azərbaycanda, bütün şəhərlərdə və kəndlərdə ailələrdə, dostların və tanışların əhatəsində belə iftar süfrələri açılır. Bizim iştirak etdiyimiz bu iftar süfrəsi də ölkədə sabitliyin, xalq–iqtidar birliyinin, dinlərarası dialoqun yüksək səviyyəsinin və multikulturalizmin Azərbaycan modelinin uğurunun parlaq təsdiqi, cəmiyyətin inkişafının ümummilli lider Heydər Əliyev tərəfindən müəyyən edilmiş siyasi kursunun dəyişməzliyinin sübutudur. Azərbaycanın bütün iqtisadi, siyasi, ictimai, elmi və mədəni həyatı bu məcrada inkişaf edir. Bu baxımdan Azərbaycanın Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi, bu il 15 illiyini qeyd etdiyimiz Heydər Əliyev Fondunun fəaliyyətini xüsusi qeyd etmək istəyirəm. Cənab Prezidentlə birlikdə din xadimlərinin, hökumət nümayəndələrinin, Milli Məclis üzvlərinin, elm və mədəniyyət xadimlərinin, respublikada akkreditə olunmuş diplomatik missiya rəhbərlərinin iştirak

etdikləri bugünkü iftar mərasimi də dini həyat vəziyyətinin yüksək səviyyədə olmasının göstəricisidir. Bu, tolerantlıq ruhunun və ölkə rəhbərliyimizin yürütdüyü multikulturalizm siyasətinin çox güclü təzahürüdür.

Möhtərəm cənab Prezident, icazə verin, Sizi əmin edək ki, Azərbaycanın din xadimləri Azərbaycan Respublikasının rəhbəri vəzifəsində Sizin fəaliyyətinizə dərin ehtiramla yanaşır, Sizin yürütdüyünüz siyasi kursu səmimi dəstəkləyir, Sizin cansağlığınız və ümumi evimiz olan Azərbaycanın tərəqqisi üçün ürəkdən dua edirlər.

İcazə verin, Sizə Rus Pravoslav kilsəsinin başçısı, Moskvanın və bütün Rusiyanın patriarxı zati-müqəddəsləri Kirilin fevral ayında ölkəmizə son səfəri zamanı ona göstərdiyiniz mehriban və səmimi qəbula görə onun dərin təşəkkürünü çatdırım. Hamınızı Ramazan ayı münasibətilə təbrik edirəm.

**Melih Yevdayev** (*Azərbaycandakı Dağ Yəhudiləri Dini İcmasının rəhbəri*): Möhtərəm Prezident! Şeyx həzrətləri!

Xanımlar və cənablar!

Bacılar və qardaşlar!

Bu müqəddəs Ramazan günlərində ənənəvi iftar süfrəsi arxasında hamınızı yəhudi xalqı adından salamlayıram. Qoy Allah-taala hamınızı öz qanadı altına alaraq, şər qüvvələrdən hifz etsin. Allah-taala tutduğunuz orucların və etdiyiniz duaların əvəzində sizə cansağlığı, xoşbəxtlik, səadət, bol ruzi-bərəkət bəxş etsin.

Müqəddəs Ramazan ayını üç hissəyə bölmək olar: əvvəli rəhmət, ikincisi bağışlanma, sonu isə cənnətə doğru. Orucun mənası isə ucalmaq, yüksəlmək deməkdir. Adəm övladı öz iradəsi ilə nəfsinə qalib gəlirsə, həm öz gözündə, həm də Allah-taalanın gözündə ucalaraq yüksəlir.

Bu gün Azərbaycanın sürətli inkişafını, uğurlu xarici və daxili siyasətini, o cümlədən dövlət və din münasibətlərinin səmərəli tənzimlənməsini şərtləndirən başlıca iki amil mövcuddur. Birincisi, ulu öndərin əsasını qoyduğu sağlam bünövrə, ikincisi isə ümummilli liderin layiqli davamçısı möhtərəm Prezidentimiz İlham Əliyevin həmin sağlam bünövrə üzərində həyata keçirdiyi uğurlu strategiyadır.

Biz qədirbilən Azərbaycan xalqı ilə birgə bugünkü Azərbaycana, bu əmin-amanlığa, gücə, qüdrətə görə ulu öndərə minnətdarlıq edib qəni-qəni rəhmət diləyirik.

Ulu öndər cəmiyyətimizdəki tolerantlıq və humanizm mühitinə görə xalqımızın yaddaşına borclu olduğumuzu dönə-dönə qeyd edirdi.

Möhtərəm Prezident, 15 ildən çoxdur ki, Siz bu siyasi xətti uğurla davam etdirirsiniz. Sizin yüksək səviyyədə humanist, insanpərvər, Vətənini və xalqını sevən, bunu bütün dünyaya bəyan edən Prezident olmağınızla fəxr edir və qürur duyuruq.

Möhtərəm Prezident, müəyyən müddət idi ki, Azərbaycanda Yəhudi Mədəniyyət Mərkəzinin tikilməsini arzulayırdıq. Yəhudi Mədəniyyət Mərkəzinin tikilməsi üçün ayırdığınız torpaq sahəsinə görə Sizə

Azərbaycanda yaşayan bütün yəhudilər, həmçinin bütün dünya yəhudiləri adından dərin minnətdarlığımızı bildiririk. Bu vaxta qədər bütün dünyada analoqu olmayan bir hal kimi bizə bəxş etdiyiniz sinaqoqla yanaşı, tikiləcək bu Mədəniyyət Mərkəzi də dünyada analoqu olmayan bir hal kimi tarixə düşəcəkdir.

Möhtərəm Prezident, Allah-taala bütün arzularınızı böyük və kiçik çillələrdən keçirərək çin etsin. Çünki Sizin arzularınız bizim arzularımızdır.

Möhtərəm Prezident, Azərbaycanda yaşayan yəhudilər həmişə olduğu kimi, respublikanın ictimai-siyasi həyatında fəal iştirak edirlər. Respublikamız mötəbər tədbirlərə ev sahibliyi edir. Həmin tədbirlərə dünyanın hər yerindən gələn çoxsaylı qonaqlar bizim həyat tərzimiz və fəaliyyətimizlə tanış olur, öz dövlətlərinə qayıdandan sonra Azərbaycanın bugünkü həqiqətlərindən danışırlar. Lakin bu həmişə belə olmur. Bizim inamlı qələbələrimizdən qıcıqlanan bəzi üzdəniraq qonaqlar bugünkü sülh və əmin-amanlıq şəraitində yaşamağımızdan yazmaq əvəzinə, ikili standartlara əl atır, doğru sözümüzü demirlər.

Biz bu yaxınlarda Azərbaycanın Milli Qəhrəmanı Albert Aqarunovun 50 illiyini Şəhidlər xiyabanında və sonra Beynəlxalq Muğam Mərkəzində yüksək səviyyədə keçirdik. Bu tədbirin keçirilməsində, inanın Allaha, bütün respublika bizə kömək etdi. Prezident Administrasiyası, Nazirlər Kabineti, şeyx həzrətləri, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi və aidiyyəti

nazirliklər – Müdafiə, Mədəniyyət, Gənclər və İdman nazirlikləri, icra hakimiyyətləri bizə dəstək oldular.

Möhtərəm Prezident, əlbəttə ki, bütün bunlar Azərbaycanda mümkündür.Bu əziz günlərdə dünyasını dəyişənlərimizə və cəmi şəhidlərimizə Allah-taala qəni-qəni rəhmət etsin. Qoy onların qəbirləri nurla dolsun. Hər bir qəhrəman Vətənin şöhrəti və yaraşığıdır. Məzarda olsalar belə, həmişə həyatda, bizim qəlbimizdə, ürəyimizdədirlər. Əlbəttə, atalarımız, analarımız dünyalarını dəyişiblər, Allah-taala onlara da qəni-qəni rəhmət etsin, qəbirləri nurla dolsun.

Bizim ən hündür bayrağımız Qarabağ səmasında dalğalananda mən sevincimi, bütün xalqın sevincini Sizinlə bölüşəcəyəm. Sağ olun.

**Vladimir Fekete** (*Katolik kilsəsinin Azərbaycandakı yepiskopu*): Zati-aliləri cənab Prezident İlham Əliyev!

Möhtərəm şeyxülislam Allahşükür Paşazadə!

Hörmətli xanımlar və cənablar!

Şadam ki, Ramazan ayı ilə əlaqədar bu il də biz hörmətli şeyxin evində bir yerə toplaşmışıq. İcazə verin, mən ilk növbədə, ev sahibi kimi, ona artıq dəfələrlə hiss etdiyimiz qonaqpərvərliyə görə dərin minnətdarlığımı bildirim. Hörmətli şeyxülislam, mən Azərbaycan katolikləri adından Sizə 70 illik yubileyiniz münasibətilə ən xoş arzularımı çatdırmaq istəyirəm. Ulu Tanrı sizi, ailənizi qorusun və sizə kömək etsin ki, həyatınız, zəhmətiniz gələcəkdə də dini dözümlülük ideyalarının möhkəmləndirilməsinə və bu gözəl ölkənin bütün sakinlərinin əməkdaşlığına kömək etsin.

Hörmətli cənab Prezident, mən Azərbaycan katoliklər adından bu dövlətin başçısı kimi, Sizə təşəkkürümü bildirmək istəyirəm. Burada və digər yerlərdə dəfələrlə səsləndirildiyi kimi, Siz bütün bəşəriyyətə çox böyük töhfə verən tolerantlıq və multikulturalizm proseslərinin qarantısınız. Sizin rəhbərliyinizlə həyata keçirilən bu siyasət həm ölkəmizdə uğurla inkişaf edir, həm də bütün dünyada müsbət əks-səda doğurur.

Bu ilin fevralında Papa Fransisk Əbu-Dabiyə səfərə gəlmişdi. Bu səfərin ən mühüm hadisələrindən biri «Bəşəri Qardaşlıq haqqında Sənəd»in imzalanması oldu. Həmin sənəddə Papa və «Əl-Əhzar»ın ali imamı əl-Tayib birlikdə bütün insanları qardaş olmağa, bir-birinə hörmət etməyə çağırdıqlarını bəyan edirlər. Sənəddə deyilir: «Bizim zəmanəmizdə bəziləri dinə münaqişə mənbəyi kimi baxır. Biz birlikdə islamla xristianlıq arasında görüşün mümkünlüyünün daha bir aydın və qəti nümunəsini göstərdik. Göstərdik ki, bütün mədəni müxtəlifliyə və ənənələrin fərqliliyinə baxmayaraq, xristian dünyası ilə islam dünyası arasında hörmət və dialoq mümkündür. Həm xristian dünyası, həm də islam dünyası ümumi dəyərləri – həyatı, ailəni, dini hissləri, böyüklərə ehtiramı, gənclərin tərbiyəsini və s. dəyərləndirir və qoruyur».

Azərbaycanda olduğum müddətdə mən dəfələrlə Papanın həmin sənəddə ifadə olunmuş arzularının burada təcrübədə, gündəlik həyatda reallaşdığını müşahidə etmişəm. Mən azərbaycanlıların qonaqpərvərliyinə və səmimiliyinə, eləcə də onların tarixi səhvlərə və ədalətsizliyə qarşı qəhrəmancasına dözümlü və

səbirli olmasına heyranam. Mən əminəm ki, bunların hamısı bütün bəşəriyyət üçün dəyərli töhfə olacaq. Mən indi də, qarşıdakı illərdə də Sizin rəhbərliyinizlə Azərbaycanın insanlar arasında sülhün, xoş münasibətlərin və əməkdaşlığın adası olaraq qalması, bütün şərəfli zəhmətkeş insanlar üçün kifayət qədər məkanın olduğu, öz vətəndaşlarının və burada yaşayanların hamısının azadlığını və ləyaqətini qoruyan ölkə kimi qalması üçün dua etmək və işləmək istəyirəm. Bizi yaradan qüdrətli Tanrı hamımıza – öz düşüncəsinə görə bizi yerləşdirdiyi yerlərdə hər birimizə – gələcək nəsillər üçün daha gözəl və fərəhli dünya qurmaqda kömək etsin.

Zati-aliləri, hörmətli şeyxülislam, icazə verin, bir daha sizə ürəkdən möhkəm cansağlığı, Tanrının köməyini və bütün müsəlman qardaşlarımıza firavanlıq, inkişaf və tərəqqi arzulayım. Təşəkkür edirəm.

## Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

Hörmətli şeyx həzrətləri!

Hörmətli din xadimləri!

Xanımlar və cənablar!

Hər il olduğu kimi, mübarək Ramazan ayında şeyx həzrətlərinin iftar süfrəsində görüşürük. Bu, gözəl ənənədir. Bu ənənə yaşayır və yaşayacaq. Bu, dövlət–din münasibətlərinin bariz nümunəsidir. Dövlət–din münasibətləri hər bir ölkə üçün xüsusi əhəmiyyətə malikdir və Azərbaycanda bu münasibətlər nümunəvi xarakter daşıyır.

Bu münasibətlərin təməlində ulu öndər Heydər Əliyev və şeyx həzrətləri dayanır. Onların şəxsi dostluğu, bir-birilərinə olan hörməti dövlət–din münasibətlərinin inkişafına çox böyük təsir göstəribdir. Mən onun şahidiyəm ki, şeyx həzrətləri və ulu öndər Heydər Əliyev bir-birinə çox yaxın insanlar olublar və onların xalq, vətən qarşısında gördükləri işlər bugünkü Azərbaycanın uğurlu inkişafına şərait yaradıbdır.

1993-cü ilə qədər dövlət–din münasibətlərində müəyyən boşluqlar var idi. 1993-cü ildən sonra bu sahədə də bütün istiqamətlər üzrə işlər ən yüksək səviyyədə tənzimləndi. Mayın 10-da, ulu öndərin anadan olmasının 96-cı ildönümü günündə onun xalq, dövlət qarşısında gördüyü işlər haqqında danışdıq. Heydər Əliyevin Azərbaycan xalqı qarşısında müstəsna xidmətləri vardır. Bugünkü müstəqil Azərbaycan onun əsəridir. Dövlətçiliyin əsaslarının qurulması, Azərbaycanın strateji inkişaf istiqamətlərinin müəyyən edilməsi məhz Heydər Əliyevin müdrikliyi və uzaqgörənliyi sayəsində mümkün olubdur.

Hörmətli şeyx həzrətləri xalq və dövlət qarşısında böyük xidmətlər göstərir, həm Azərbaycanda, həm Qafqazda, həm də dünyada böyük nüfuza malik görkəmli din xadimidir və Azərbaycanı dünyada öz dəyərlərinə sadiq, eyni zamanda, müasir, tolerant ölkə kimi təqdim edir. Onun çoxşaxəli beynəlxalq fəaliyyəti Azərbaycanı dünyaya tanıtdırır, Azərbaycan reallıqlarını dünya ictimaiyyətinə təqdim edir və şeyx həzrətlərinin uğurlu fəaliyyəti ölkəmizi gücləndirir.

Ölkəmizdə milli həmrəylik, vətəndaş həmrəyliyi vardır. Konstitusiyaya görə din dövlətdən ayrı olsa da, əslində din və dövlət bir-birinin yanındadır. Bizim gücümüz birliyimizdədir. Bu gün Azərbaycanın uğurlu inkişafı dövlət–din münasibətlərinin uğurlu inkişafından yüksək dərəcədə asılıdır.

Dünyada vəziyyət gərginləşir. Həm bölgəmizdə, həm dünyada yeni toqquşmalar, yeni münaqişə ocaqları yaranır, yeni risklər, təhdidlər meydana çıxır. Dünyanın gələcəyi ilə bağlı, sabitliyin gələcəyi ilə bağlı müxtəlif fikirlər, fərziyyələr irəli sürülür. Bizim əsas vəzifəmiz Azərbaycanda sabitliyi qorumaq, Azərbaycan xalqının rifah halını yaxşılaşdırmaq və ölkəmizi mümkün olan risklərdən qorumaqdan ibarətdir. Son illər ərzində bu istiqamətdə böyük işlər görülüb. Azərbaycan inkişaf yolu ilə gedir. İnkişaf dinamikamız çox müsbətdir. Əminəm ki, gələcək illərdə aparılan dərin islahatlar sayəsində ölkəmizin uzunmüddətli, dayanıqlı inkişafı təmin ediləcəkdir.

Biz dərin milli-mənəvi təməl üzərində müasir dövlət qurmuşuq. İslam dəyərləri milli-mənəvi dəyərlərimizin ayrılmaz hissəsidir. Biz öz dinimizə bağlıyıq, dünyada islam mədəniyyətini təbliğ edirik. Dünyada çoxsaylı konfranslar, sərgilər, təqdimatlar keçirilir, Azərbaycan həqiqətləri, islam mədəniyyətinin həqiqətləri dünya ictimaiyyətinə təqdim edilir. Biz islamı olduğu kimi, sülh, mərhəmət dini kimi dünyaya təqdim edirik və bu fəaliyyəti bundan sonra da davam etdirəcəyik.

Müsəlman ölkələri ilə bizim ənənəvi dostluq, qardaşlıq əlaqələrimiz vardır. Bu, xarici siyasətimizdə prioritet istiqamətlərdən biridir. Azərbaycan bütün müsəlman ölkələri ilə sıx əlaqələr qura bilib və beynəlxalq müstəvidə biz daim bir-birimizi dəstəkləyirik. Eyni zamanda, ikitərəfli formatda çox fəal əməkdaşlıq edirik. Bir neçə gün bundan əvvəl müsəlman ölkələrinin səfirləri ilə görüş əsnasında bu məsələlərlə bağlı fikir mübadiləsi apardıq.

Azərbaycan eyni zamanda, İslam Əməkdaşlıq Təşkilatının fəal üzvüdür və bu təşkilat çərçivəsində islam həmrəyliyinin möhkəmləndirilməsinə öz dəyərli töhfəsini verir. Ölkəmizdə İslam Əməkdaşlıq Təşkilatının xətti ilə bir çox tədbirlər keçirilir. İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanda islam dəyərlərinin qorunması işində apardığımız siyasətə çox yüksək qiymət verir. Biz bundan sonra da təşkilat çərçivəsində islam həmrəyliyinin möhkəmlənməsi işində öz səylərimizi davam etdirəcəyik. Onu da bildirməliyəm ki, 2016-cı ildə İslam Əməkdaşlıq Təşkilatı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi üzrə Kontakt Qrupu yaradıb və təşkilat bu münaqişə ilə bağlı bizim haqq işimizi daim dəstəkləyir.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinin bir yolu var – Azərbaycanın dünya birliyi tərəfindən tanınmış ərazi bütövlüyü bərpa edilməlidir. Dağlıq Qarabağ bizim tarixi, əzəli torpağımızdır. Biz bu həqiqətləri dünyaya çatdırırıq. Əfsuslar olsun ki, münaqişə başlanan zaman münaqişə ilə bağlı dünyada

kifayət qədər məlumat yox idi. Keçən əsrin 90-cı illərinin əvvəllərində torpaqlarımız işğal altına düşmüşdür. Ölkəmizdə o vaxt yaşanan böhran, hərc-mərclik, xaos Ermənistana imkan verdi ki, bizim tarixi torpaqlarımızı zəbt etsin. O vaxt biz beynəlxalq təcriddə idik, öz səsimizi dünya ictimaiyyətinə çatdıra bilmirdik. Beləliklə, dünyada münaqişə ilə bağlı yüksək dərəcədə təhrif edilmiş rəy formalaşdırılmışdı. Bizim müntəzəm səylərimiz nəticəsində artıq bütün dünya bilir ki, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir, tarixi torpağımızdır. Münaqişəyə dair çoxsaylı kitabların çap edilməsi, təqdimatların, konfransların keçirilməsi dünya ictimaiyyətinə münaqişə ilə bağlı həqiqətləri çatdırır.

Hər kəs görür ki, münaqişə ilə bağlı ikili standartlar mövcuddur. Necə ola bilər, dünyanın ali orqanı olan BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul edir, bu qətnamələrdə açıq-aydın deyilir ki, Ermənistan silahlı qüvvələri işğal edilmiş torpaqlardan çıxarılmalıdır və bu qətnamələr icra olunmur?! Ona görə hesab edirəm ki, dünyada mövcud olan ikili standartlar ən böyük problemlərdən biridir. Münaqişənin həlli üçün biz səylərimizi davam etdirəcəyik. Biz iqtisadi gücümüzü artırırıq, siyasi çəkimiz artır, hərbi baxımdan Azərbaycan bu gün güclü ölkələr sırasındadır. Döyüş meydanında üstünlüyümüzü təmin etmişik. Vaxtilə işğal altına düşmüş torpaqların bir hissəsini azad etmişik. O torpaqlarda bu gün Azərbaycan bayrağı dalğalanır. İşğaldan azad edilmiş torpaqlarda Şuşa məscidinin bənzəri olan məscid tikilib, qəsəbə salınıb, oraya həyat qayıdıbdır. Bu bir daha göstərir ki, Azərbaycan xalqı bu

işğalla heç vaxt barışmayacaq. Bu gün dirçələn və inkişaf edən Cocuq Mərcanlı kəndi Azərbaycan xalqının əyilməz ruhunu təcəssüm etdirir. Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqlar mövzusu olmayıb və olmayacaqdır. Bir daha demək istəyirəm ki, bu münaqişə yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır.

Biz tarixi, dini abidələrimizi qoruyuruq və burada da dövlət və din bir yerdədir. Son illərdə yüzlərlə məscid tikilib və ya təmir edilibdir. Onların arasında tarixi məscidlərimiz xüsusi yer tutur. Şeyx həzrətləri qeyd etdi, Təzəpir məscidinin ətrafında salınmış möhtəşəm park həm şəhərə yeni nəfəs verəcək, yəni 20 hektar ərazidə salınmış yaşıllıqlar bu zonada iqlimin yaxşılaşmasına xidmət edəcək, insanların rahatlığı üçün imkanlar yaradacaq, eyni zamanda, Təzəpir məscidinin əzəmətli görkəmi artıq bütün vətəndaşlara açıq olacaqdır. Çünki vaxtilə Təzəpir məscidinin ətrafında tikilmiş binalar imkan vermirdi ki, biz onu uzaq məsafədən seyr edək. Digər məscidlərimizin əsaslı şəkildə bərpası bizim niyyətimizi, siyasətimizi göstərir. Bibi-heybət, Əjdərbəy, Şamaxı Cümə məscidlərinin, İmamzadə tarixi dini kompleksinin əsaslı şəkildə təmir edilməsi dövlət–din münasibətlərinin təzahürüdür. Heydər məscidinin tikintisi tarixi hadisədir.

Bildiyiniz kimi, keçən il Prezident seçkilərindən sonra iştirak etdiyim birinci tədbir Hacı Cavad məscidinin yeni binasının açılışı oldu. Bu da təsadüfi deyil. Mən seçkilərdən sonra istənilən yerə gedə bilərdim. Məhz Hacı Cavad məscidinin yeni binasının açılışını birinci növbədə qeyd etməyimiz dövlət–din münasibətlərimizə, islam dininə göstərdiyimiz hörmətdir.

Ölkəmizdə dinlərarası münasibətlər ən yüksək səviyyədə tənzimlənir. Bu, artıq reallıqdır. Bütün dünya bu

reallıqları bilir və qəbul edir. Bu gün Azərbaycan dünya miqyasında dinlərarası dialoqun aparılması üçün bir mərkəzə çevrilib. Təsadüfi deyil ki, çoxsaylı beynəlxalq tədbirlər məhz bizim təşəbbüsümüzlə ölkəmizdə keçirilir. Əgər biz bu təşəbbüsü göstərməsəydik, bu tədbirlər də keçirilməzdi.

Hörmətli şeyx həzrətlərinin dediyi kimi, bu il Dünya Dini Liderlərinin II Zirvə görüşü keçiriləcəkdir. Bu məsələ ilə bağlı qərar qəbul edildi. Şeyx həzrətlərinin yubileyi və fəaliyyətinin 40 illiyi dövlət səviyyəsində təntənəli şəkildə qeyd ediləcəkdir. Əminəm ki, Azərbaycan müasir, öz dini, milli köklərinə bağlı olan ölkə, eyni zamanda, tolerant və multikultural dəyərləri təbliğ edən dövlət kimi, öz reallıqlarını dünyaya bir daha təqdim edəcəkdir. Azərbaycanda keçirilən çoxsaylı beynəlxalq tədbirlər həm ölkəmiz, həm daxildə gedən proseslər, həm də dünya üçün böyük məna daşıyır.

Çünki Azərbaycan çoxmillətli, çoxkonfessiyalı ölkədir. Bu bizim böyük sərvətimizdir. Azərbaycanda bütün xalqların, bütün dinlərin nümayəndələri mehribanlıq, əmin-amanlıq şəraitində yaşayır. Biz bir ailə kimi yaşayırıq və bizim gücümüz birliyimizdədir. Bu tədbirlərin dünya üçün də böyük əhəmiyyəti vardır. Çünki bu gün dünyada dinlərarası münasibətlərlə bağlı fərqli fikirlər var, yəni birmənalı yanaşma yoxdur. Bəzi hallarda çox təhlükəli fikirlər səslənir, çox böyük fəsadlara gətirib çıxara biləcək addımlar atılır. Ona görə bizim təşəbbüslərimiz dünya üçün böyük əhəmiyyət daşıyır. Sonuncu böyük tədbir Mədəniyyətlərarası Dialoq Forumu idi. Bu forum çərçivəsində çox önəmli məsələlər müzakirə edildi və Azərbaycanın bu sahədəki müsbət rolu bir daha qeyd

olundu. Biz bu sahədə öz səylərimizi davam etdirəcəyik. Bir daha demək istəyirəm ki, bu bizim üçün lazımdır və bu, dünya üçün lazımdır. Çünki biz istəyirik ki, dünyada proseslər müsbət məcrada getsin, dini, milli zəmində qarşıdurma, anlaşılmazlıq olmasın, sülh, bərabərlik, ədalət olsun. Müqəddəs islam dinimiz bunu tələb edir və biz dövlət olaraq, bu istiqamətdə öz səylərimizi davam etdirəcəyik. Ölkəmizin uğurlu, dayanıqlı inkişafı təmin olunacaq, ölkə qarşısında duran vəzifələr icra edilir və ediləcək, mövcud problemlərin həlli üçün çox aydın baxışlar, konkret proqramlar var və onlar icra edilir. Bu gün Azərbaycan reallıqları belədir ki, ölkəmiz inamla, nikbinliklə irəliyə gedir, nikbinliklə yaşayır. Ölkə qarşısında duran bütün problemlərin həlli üçün bizdə həm güclü siyasi iradə, həm də cəmiyyət tərəfindən böyük dəstək vardır.

Hörmətli mərasim iştirakçıları, mən hörmətli şeyx həzrətlərinə, digər din xadimlərinə mənim haqqımda, ünvanıma deyilən bütün xoş sözlərə görə bir daha minnətdarlığımı bildirirəm. Bütün dünya müsəlmanlarını Ramazan ayı münasibətilə təbrik edirəm. Bütün dünya müsəlmanlarına sülh, əmin-amanlıq, rifah arzulayıram. Sağ olun.

*Sonra iftar süfrəsi açıldı.*

## ÇİN XALQ RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ VAN YİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*23 may 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 23-də Çin Xalq Respublikasının Xarici İşlər naziri Van Yinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlət başçısı ilk növbədə, Çində keçirilmiş «Bir kəmər – bir yol» II Beynəlxalq Foruma dəvətə görə Çin tərəfinə minnətdarlığını bildirərək, bunu ölkələrimiz arasında dostluq münasibətlərinin göstəricisi kimi dəyərləndirdi. Prezident İlham Əliyev forumun uğurla keçirilməsi və bu mötəbər beynəlxalq tədbirdə qəbul olunmuş qərarlar münasibətilə təbriklərini çatdırdı.*

*Dövlət başçısı eyni zamanda, Çin Xalq Respublikasının Sədri Si Cinpinin 28 May – Respublika Günü münasibətilə təbrik məktubunu göndərməsi ilə bağlı minnətdarlığını çatdırmağı xahiş etdi. Prezident İlham Əliyev bildirdi ki, Çinə son səfəri zamanı Si Cinpinin sədrliyi ilə keçirilmiş görüşlər və aparılmış səmərəli müzakirələr əlaqələrimizin strateji xarakter daşıdığını bir daha təsdiq etdi. Dövlət başçısı Çin Xalq Respublikasının Xarici İşlər nazirinin ölkəmizə səfərinin*

*Azərbaycan ilə Çin arasında əməkdaşlığın çox yüksək səviyyədə olmasını nümayiş etdirdiyini bildirdi. Prezident İlham Əliyev vurğuladı ki, Azərbaycan Çini daim onun üçün vacib olan məsələlərdə dəstəkləyir. İkitərəfli münasibətlərə toxunan dövlət başçısı siyasi əlaqələrimizin yüksək səviyyədə olduğunu və iqtisadi-ticari sahədə əməkdaşlığımızın yaxşı perspektivlərə malik olduğunu qeyd etdi. Prezident İlham Əliyev bir daha Çin Xalq Respublikasına səfərini xatırladaraq, orada Çinin aparıcı şirkət rəhbərləri ilə keçirdiyi görüşlərin ölkələrimiz arasında ticarət, investisiya sahələrində və digər sahələrdə əməkdaşlığın genişlənməsi baxımından önəmini vurğuladı. Dövlət başçısı bildirdi ki, Azərbaycan Asiya və Avropa arasında vacib tranzit məntəqəsinə çevrilib və nəqliyyat sahəsinin inkişaf etdirilməsi ölkəmizin prioritetlərindən biridir. Prezident İlham Əliyev nəzərə çatdırdı ki, Azərbaycan «Bir kəmər – bir yol» layihəsini ilk dəstəkləyən ölkələrdən biri olub və ölkəmizin nəqliyyat infrastrukturundan bu layihə çərçivəsində nəqliyyat daşımaları üçün istifadə edilə bilər.*

*Xarici İşlər naziri Van Yi Çin Xalq Respublikasının Sədri və onun qeyd etdiyi kimi, Prezident İlham Əliyevin dostu Si Cinpinin salamlarını dövlət başçısına çatdırdı. Qonaq Azərbaycana ilk dəfə səfər etməsindən məmnunluğunu ifadə edərək, Bakının dünyada məşhur şəhər olduğunu və ilk saatlardan paytaxtımızın gözəlliyinin dərin təəssürat bağışladığını söylədi. O bildirdi ki, Çin–Azərbaycan əlaqələri strateji xarakter daşıyır və ölkəsi Azərbaycanın müstəqil-*

*liyini, suverenliyini və ərazi bütövlüyünü dəstəkləyir. Van Yi qeyd etdi ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda siyasi və sosial sabitlik təmin olunub, ölkəmiz iqtisadi baxımdan davamlı inkişaf edir, əhalinin rifah halı ardıcıl surətdə yüksəlir, Azərbaycanın beynəlxalq aləmdə nüfuzu daim artır və möhkəmlənir. Ölkəmizin uğurlarının Çində maraqla izlənildiyini bildirən qonaq əldə olunmuş bu nailiyyətlər və eyni zamanda, qarşıdan gələn 28 May – Respublika Günü münasibətilə təbriklərini çatdırdı.*

*Dövlətimizin başçısı Çin Xalq Respublikasının Sədri Si Cinpinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Çin dövlətinin başçısına çatdırmağı xahiş etdi.*

*Söhbət zamanı «Bir kəmər – bir yol» layihəsi çərçivəsində Azərbaycan və Çin arasında əməkdaşlıq üçün geniş imkanların olduğu vurğulandı, nəqliyyat, enerji, sənaye, turizm və informasiya-kommunikasiya texnologiyaları sahələrində əlaqələrin inkişafına dair geniş fikir mübadiləsi aparıldı.*

## ALMANİYA FEDERATİV RESPUBLİKASI BUNDESTAQININ ÜZVÜ YOHANNES KARSIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*23 may 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 23-də Almaniya Federativ Respublikası Bundestaqının Sosial Demokratlar Partiyası fraksiyasının üzvü, Almaniya–Cənubi Qafqaz parlament qrupunun sədri Yohannes Karsın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlət başçısı Almaniya Bundestaqının Sosial Demokratlar Partiyası fraksiyasının üzvü, Almaniya–Cənubi Qafqaz parlament qrupunun sədri Yohannes Karsın başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana səfərinin regionlardan başlanmasının qonaqların Azərbaycan haqqında daha geniş məlumata malik olmaları üçün yaxşı imkan yaratdığını bildirdi. İkitərəfli münasibətlərə toxunan Prezident İlham Əliyev Almaniya Federal Kansleri Angela Merkelin Azərbaycana ilk səfərini xatırladaraq, bunu əlaqələrimizin inkişafında tarixi hadisə kimi dəyərləndirdi və səfərin çox uğurla keçdiyini qeyd etdi. Eyni zamanda, Prezident İlham Əliyev özünün də Almaniyaya səfərlərinin münasibətlərimizin möhkəmləndirilməsinə*

*töhfə verdiyini bildirdi. Dövlət başçısı əməkdaşlığımızın çox yüksək səviyyədə və yaxşı perspektivlərə malik olduğunu nəzərə çatdırdı. Prezident İlham Əliyev ölkələrimizin biznes dairələri arasında da əlaqələrin uğurla inkişaf etdiyini, ölkəmizdə xeyli sayda Almaniya şirkətlərinin müxtəlif layihələrdə iştirakının önəmini vurğuladı.*

*Dövlət başçısı İlham Əliyev parlamentlərarası əməkdaşlığın ikitərəfli münasibətlərimizin inkişafı baxımından rolunu qeyd etdi.*

*Almaniya Bundestaqının Sosial Demokratlar Partiyası fraksiyasının üzvü, Almaniya–Cənubi Qafqaz parlament qrupunun sədri Yohannes Kars paytaxt Bakının və ölkəmizin regionlarının onlarda böyük təəssürat yaratdığını, Qəbələyə səfərləri zamanı məcburi köçkünlərlə görüşdüklərini və Azərbaycan hökuməti tərəfindən onların həyat şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlərlə tanış olduqlarını bildirdi. Yohannes Kars Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə töhfə verən ölkə olduğunu xüsusi vurğuladı.*

*Görüşdə parlamentlərarası əməkdaşlığın ölkələrimiz arasında əlaqələrin inkişafında mühüm əhəmiyyət daşıdığı bildirildi, Azərbaycan və Almaniya arasında siyasi, iqtisadi və mədəni əməkdaşlığın genişləndirilməsinə dair fikir mübadiləsi aparıldı.*

**İTALİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SERCİO MATTARELLAYA**

Hörmətli cənab Prezident!

İtaliya Respublikasının milli bayramı – Respublika Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm. Azərbaycan–İtaliya münasibətlərinin hazırkı səviyyəsi məmnunluq doğurur. Ölkələrimiz arasında əlaqələr bu gün siyasi, iqtisadi və humanitar sahələrdə geniş və səmərəli əməkdaşlığımızla yeni mərhələyə qədəm qoyubdur. İtaliya Respublikası Prezidentinin Azərbaycana ilk səfəri olaraq, keçən il ölkəmizə səfərinizi, apardığımız danışıqları və müzakirələri ən xoş təəssüratlarla xatırlayıram. İnanıram ki, dost və strateji tərəfdaş olan ölkələrimizin ikitərəfli və çoxtərəfli qaydada qarşılıqlı fəaliyyəti bundan sonra da xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İtaliya xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 may 2019-cu il*

**EFİOPİYA FEDERATİV DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ XANIM SAHLE-VORK ZEVDEYƏ**

Hörmətli xanım Prezident!

Efiopiyanın milli bayramı münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, xalqınıza sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 may 2019-cu il*

## RUSİYA FEDERASİYASININ ƏMƏK VƏ SOSİAL MÜDAFİƏ NAZİRİ MAKSİM TOPİLİN İLƏ GÖRÜŞ

*24 may 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 24-də Rusiya Federasiyasının Əmək və Sosial Müdafiə naziri Maksim Topilini qəbul etmişdir.*

*Söhbət zamanı Azərbaycan ilə Rusiya arasında strateji tərəfdaşlığa əsaslanan ikitərəfli münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, sosial təminat sahəsində əlaqələr, təcrübə mübadiləsi məsələləri müzakirə edildi.*

*Görüşdə Rusiyada və Azərbaycanda sosial sahənin müxtəlif istiqamətləri ilə bağlı həyata keçirilən islahatlardan danışıldı, təcrübə mübadiləsinin aparılması üçün yaxşı imkanların olduğu qeyd edildi. Eyni zamanda, Maksim Topilinin səfəri zamanı müvafiq nazirliklər arasında imzalanacaq sazişin əhəmiyyətinə toxunuldu.*

*Söhbət zamanı əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

**İNDONEZİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB COKO VİDODOYA**

Hörmətli cənab Prezident!

İndoneziya Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə İndoneziya arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı yolunda səylərimizi bundan sonra da müvəffəqiyyətlə davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost İndoneziya xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 may 2019-cu il*

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN ŞƏRƏFİNƏ UCALDILMIŞ ABİDƏNİ ZİYARƏT

*27 may 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 27-də Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə paytaxt Bakının İstiqlaliyyət küçəsində ucaldılmış abidəni Respublika Günü münasibətilə ziyarət etmişdir.*

*Abidənin ətrafında Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Dövlət başçısı abidənin önünə əklil qoydu.*

*Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.*

*101 il bundan əvvəl – 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması ölkəmizin həyatına böyük tarixi hadisə kimi daxil oldu. Müstəqil, azad, demokratik respublika qurmaq məqsədini qarşıya qoyan Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 aylıq fəaliyyəti dövründə xalqın milli mənlik şüurunu özünə qaytardı, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu nümayiş etdirdi. 1918-ci il mayın 28-də qəbul edilmiş İstiqlal Bəyannaməsindən – Əqdnamədən də göründüyü kimi, bu möhtəşəm tarix xalqımızın müstəqillik hisslərini daha da gücləndirdi.*

*Yeni qurulmuş Azərbaycan Xalq Cümhuriyyəti öz üzərinə götürdüyü çətin tarixi vəzifəni şərəflə yerinə yetirdi. Azərbaycanın ilk parlamenti və hökuməti, dövlət aparatı təşkil edildi, ölkənin sərhədləri müəyyənləşdirildi, bayrağı, himni və gerbi yaradıldı, ana dili dövlət dili elan edildi, ordu quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi, maarifin və mədəniyyətin inkişafına xüsusi diqqət yetirildi. Azərbaycanın ilk universiteti təsis olundu, təhsil milliləşdirildi, xalqın sonrakı illərdə mədəni yüksəlişi üçün zəmin hazırlayan, ictimai fikir tarixi baxımından müstəsna əhəmiyyətli işlər görüldü.*

*Mövcudluğunun ilk günlərindən xalq hakimiyyəti və insanların bərabərliyi prinsiplərinə əsaslanan Azərbaycan Xalq Cümhuriyyəti bütün ölkə vətəndaşlarına eyni hüquqlar verərək, irqi, milli, dini, sinfi bərabərsizliyi ortadan qaldırdı. Dünya birliyi tərəfindən tanınmış Xalq Cümhuriyyətinin fəaliyyəti sayəsində ölkəmizin beynəlxalq hüququn subyekti olması 1920-ci ilin aprel ayında bolşevik işğalından sonra Azərbaycanın bir dövlət kimi, dünyanın siyasi xəritəsindən silinməsinin qarşısını aldı.*

*XX əsrin sonlarında yenidən müstəqilliyinə qovuşan Azərbaycan öz suverenliyini qoruyub saxlamağı bacardı. Yenidən hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyev Azərbaycan dövlətçiliyinin qorunması üçün qətiyyətli tədbirlər gördü, ölkədə davamlı ictimai-siyasi sabitliyi bərqərar etdi. Beləliklə, Heydər Əliyevin şah əsəri olan müasir müstəqil Azər-*

*baycan dövləti quruldu və sürətli inkişaf yoluna qədəm qoydu.*

*Ulu öndər dəfələrlə bildirmişdi ki, biz bu gün demokratik Azərbaycan dövlətini qururuqsa, ayağa qaldırırıqsa, Xalq Cümhuriyyətinə borcluyuq. Azərbaycan Xalq Cümhuriyyətinin tariximizdəki yeri və roluna xüsusi qiymət verən Heydər Əliyev deyirdi: «Biz ilk Demokratik Cümhuriyyətin yaranması gününü əziz tutaraq, onu Azərbaycanın dövlət müstəqilliyi günü – Respublika Günü elan etmişik və bu bizim milli bayramımızdır» .*

*Ümummilli liderin bu siyasətini Prezident İlham Əliyev uğurla davam etdirir. Dövlət başçısının sərəncamları ilə 2018-ci il ölkəmizdə «Azərbaycan Xalq Cümhuriyyəti ili» elan olundu və AXC-nin 100 illik yubileyi təntənəli şəkildə qeyd edildi. Xalqımız Cümhuriyyətin yarandığı 28 May – Respublika Gününü bu il də milli bayram kimi qeyd edir.*

**28 MAY – RESPUBLİKA GÜNÜ MÜNASİBƏTİLƏ KEÇİRİLMİŞ RƏSMİ QƏBULDA İŞTİRAK**

*«Buta» sarayı*

*27 may 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 27-də «Buta» sarayında Azərbaycanın milli bayramı – Respublika Günü münasibətilə keçirilmiş rəsmi qəbulda iştirak etmişlər.*

*Rəsmi qəbul Azərbaycan Respublikasının Dövlət himninin səsləndirilməsi ilə başlandı.*

*Dövlət başçısı rəsmi qəbulda nitq söylədi.*

**Azərbaycan Prezidenti İlham Əliyevin nitqi**

Hörmətli xanımlar və cənablar!

Mən sizi və bütün Azərbaycan xalqını qarşıdan gələn Respublika Günü münasibətilə ürəkdən təbrik edirəm.

Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması tarixi hadisə idi. Çünki ilk dəfə olaraq müsəlman aləmində demokratik respublika yaradılmışdı. Biz haqlı olaraq fəxr edirik ki, məhz Azərbaycan xalqı

müsəlman aləmində ilk demokratik respublikanın yaradılmasının müəllifi olubdur. Bu onu göstərir ki, xalqımız çox mütərəqqi xalqdır. Onu göstərir ki, Azərbaycanın görkəmli ziyalıları ölkəmizin inkişafı üçün çox böyük işlər görüblər. Xalq Cümhuriyyətinin ömrü uzun olmasa da, 23 ay ərzində çox böyük işlər görə bilibdir. Dövlət bayrağı, Azərbaycan vətəndaşlığı təsis edilib, milli ordu yaradılıb və Qafqaz İslam Ordusu ilə birlikdə Bakını işğalçılardan azad edibdir. Bakı Dövlət Universiteti yaradılıb. Bu onu göstərir ki, təhsilə çox böyük diqqət yetirilirdi. 200-dən çox qanun, onların arasında qadınlara səsvermə hüququ verən qanun da qəbul edilmişdir. Yəni bütün bu və digər addımlar onu göstərir ki, Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları ölkəmiz, xalqımız üçün çox böyük işlər görmüşlər. Azərbaycan dövləti və xalqı Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının xatirəsini əziz tutur. Onların xatirəsi bizim qəlbimizdə yaşayır. Bir neçə il bundan əvvəl mənim sərəncamımla Bakı şəhərinin mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə abidə ucaldılıbdır. Keçən il isə ölkəmizdə «Azərbaycan Xalq Cümhuriyyəti ili» elan edilmişdir.

23 aydan sonra respublika süqut etdi və bu bir daha onu göstərir ki, müstəqilliyi saxlamaq onu əldə etməkdən daha çətin işdir. 1918-ci ildə qaldırılmış bayraq 1920-ci ildə endirildi. Ondan sonra ilk dəfə olaraq rəsmi qaydada bu bayrağı ulu öndər Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sessiyasında rəsmi Dövlət bayrağı kimi

qaldırdı və təsis etdi. Əslində müstəqilliyə gedən yol bu tarixi andan başlandı. Sovet İttifaqı hələ yaşayırdı və belə cəsarətli addım ulu öndərin öz xalqına, dövlətinə, xalqının, dövlətinin gələcəyinə nə qədər bağlı olduğunu, nə qədər böyük önəm verdiyini göstərir.

1991-ci ildə Sovet İttifaqının dağılması nəticəsində digər müttəfiq respublikalarla birlikdə Azərbaycan da müstəqilliyə qovuşdu və əlbəttə ki, bizim üçün XX əsrdə ikinci şans yarandı. Ancaq əfsuslar olsun ki, ölkədə gedən xoşagəlməz proseslər imkan vermirdi ki, gənc müstəqil Azərbaycan ayaqda möhkəm dayana bilsin, öz müstəqil siyasətini apara bilsin və xalqın maraqlarını doğrulda bilsin. Çox ağır, faciəvi illər idi. 1992-ci ildə AXC–Müsavat rejimi hakimiyyəti qanunsuz şəkildə zəbt etdikdən sonra vəziyyət daha da ağırlaşdı, pisləşdi. Ölkə idarəolunmaz vəziyyətə düşmüşdü. Məhz o illərdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi alovlandı və torpaqlarımız işğal altına düşdü. Ölkəmizdə xaos, total böhran hökm sürürdü, iqtisadiyyat iflic vəziyyətdə idi, AXC–Müsavat rejimi ölkədə vətəndaş müharibəsini başlamışdı. Əlbəttə ki, Azərbaycan xalqı çıxış yolu axtarırdı. Xalqımız nicat yolunu Heydər Əliyevin simasında görüb, onu hakimiyyətə dəvət etdi və bir daha öz müdrikliyini təsdiqlədi.

1993-cü il müasir tariximizdə dönüş nöqtəsi idi. Məhz 1993-cü ildən sonra Azərbaycan inkişaf yoluna qədəm qoydu, Azərbaycanda sabitlik təmin edildi və ölkə inamla irəliyə getməyə başladı. Ulu öndər Heydər Əliyevin xalq, dövlət qarşısında misilsiz

xidmətləri vardır. 1993-cü ilə qədər müstəqilliyimiz formal xarakter daşıyırdı, ölkəmiz müstəqil siyasət apara bilmirdi. Heydər Əliyevin xalq qarşısında xidmətlərindən biri də o idi ki, Azərbaycan əsl müstəqillik yoluna qədəm qoydu. Həm siyasi, həm iqtisadi, həm də digər sahələrdə çox ciddi islahatlar aparılmağa başlandı. Nizami ordu yaradıldı, ölkəmizə böyük həcmdə xarici sərmayə gəlməyə başlandı, dövlətçiliyin əsasları qoyuldu, azərbaycançılıq ideologiyası rəsmi ideologiya kimi qəbul edildi. Bir sözlə, məhz o illərdə Azərbaycanın strateji inkişaf istiqamətləri müəyyən edildi. Bu gün Azərbaycan bu strateji inkişaf istiqamətlərini əsas tutaraq, bölgədə, dünyada dəyişən vəziyyətə uyğun olaraq, öz inamlı siyasətini aparır. Bu gün ölkəmiz müstəqil siyasət apararaq, milli maraqların təmin olunmasında çox böyük addımlar atıb, çox böyük uğurlar qazanıbdır. 2003-cü ildən bu günə qədər Heydər Əliyev siyasəti Azərbaycanda yaşayır, davam etdirilir, zənginləşdirilir. Əlbəttə ki, o vaxtdan bu günə qədər çox böyük işlər görülüb, ancaq eyni zamanda, dünya da, bölgə də dəyişib. Dünyada, bölgədə yeni təhlükə mənbələri üzə çıxır, yeni çağırışlar meydana gəlir və biz həmişə çalışırıq və çalışmalıyıq ki, ölkəmizi mümkün olan risklərdən qoruya bilək. Son illərin təcrübəsi göstərir ki, biz buna müvəffəq ola bilmişik.

Ölkəmizin hərbi qüdrəti güclənir. Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsi, Naxçıvan Muxtar Respublikasında keçirilmiş əməliyyat nəticəsində böyük torpaq sahəsi işğalçılardan azad edilibdir.

Hərbi qüdrətimizin artırılması nəticəsində bu gün Azərbaycan Ordusu beynəlxalq reytinqlərdə güclü ordular sırasındadır.

Biz son 16 ildə iqtisadi inkişafa nail olduq və bir çox iqtisadi məsələlər öz həllini tapdı. Ölkəmizə böyük həcmdə sərmayə gətirildi. Qoyulmuş 260 milyard dollardan çox vəsait bu gün ölkəmizin, xalqımızın inkişafına xidmət edir. Həm neft, həm qeyri-neft sektoruna qoyulmuş vəsait ölkəmizin iqtisadi potensialını xeyli gücləndiribdir.

Sosial sahə ilə bağlı çox ciddi addımlar atılır və insanların rifah halı xeyli yaxşılaşıb. Məcburi köçkünlərin problemləri öz həllini tapır. 100-dən çox şəhərcik salınıb və bu məsələ ilə bağlı bundan sonra da addımlar atılacaq. Azərbaycanda çox müasir infrastruktur yaradılıb və bu sahəyə çox böyük vəsait qoyulubdur.

Bir sözlə, son illər ərzində bütün istiqamətlər üzrə inkişaf, tərəqqi vardır. Sosial infrastrukturun inkişafı ilə bağlı çox böyük işlər görülüb, məktəblər, xəstəxanalar tikilibdir. Bütün bunlar Azərbaycan reallıqlarıdır. Biz artıq güclü iqtisadi potensial, güclü iqtisadi baza yaratmışıq. Əgər bizim təşəbbüsümüzlə uğurla reallaşan nəqliyyat və enerji layihələrini əlavə etsək görərik ki, doğrudan da Azərbaycan böyük yol keçibdir.

Bu gün biz beynəlxalq nəqliyyat mərkəzlərinin birinə çevrilmək üçün çox fəal iş aparırıq. Bu istiqamətdə də böyük addımlar atılır, böyük sərmayə qoyulur. Dəmir yolu infrastrukturu, avtomobil yollarının

tikintisi, 6 beynəlxalq aeroportun fəaliyyətə başlaması, dəniz nəqliyyatının müasirləşdirilməsi – bunlar son illər ərzində görülmüş işlərdir.

Görülmüş bütün işləri sadalamaq üçün bir neçə saat vaxt lazım olacaq. Sadəcə olaraq, demək istəyirəm ki, bu gün Azərbaycan müstəqillik yolunda inamla irəliləyir və ölkə qarşısında duran problemlər həll edilir. Ancaq biz gələcəyə baxmalıyıq, əldə edilmiş nailiyyətlərlə kifayətlənməməliyik. Ölkə qarşısında duran problemlər bizim üçün əsas məsələ olmalıdır və bütün müvafiq tapşırıqlar bu istiqamətdə verilir.

Bundan sonra dayanıqlı inkişafı təmin etmək üçün biz fəal işləməliyik və qəbul olunmuş qərarlar icra edilməlidir. Hesab edirəm ki, bu, qarşıda duran ən vacib məsələlərdən biridir. Çünki bəzi hallarda qərarlar qəbul edilir, sərəncamlar imzalanır, ancaq onların reallaşdırılması yubanır. Ona görə bundan sonrakı dövrdə mütləq bu sahəyə daha ciddi diqqət göstərilməlidir ki, qəbul edilmiş qərarlar, qanunlar, imzalanmış sərəncamlar həyata keçirilsin. Biz müharibə şəraitində yaşayırıq. Müharibə hələ bitməyib. Belə olan halda, hərbi potensialımızın gücləndirilməsi əsas prioritet məsələlərdən biri olmalıdır. Bu istiqamətdə çox ciddi addımlar atılıb. Deyə bilərəm ki, son illərdə hərbi hissələrimizin 80 faizi tamamilə yenidən qurulub. Növbəti illərdə qalan, hələ də təmirə ehtiyacı olan hissələr də təmir ediləcəkdir. Azərbaycan bu gün çox güclü hərbi potensiala malikdir. Buna baxmayaraq, bundan sonra da bu istiqamətdə praktiki addımlar atılacaqdır.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və torpaqlarımızın işğal altına düşməsi AXC–Müsavat rejiminin acı mirasıdır. Biz çalışırıq bu məsələni həll edək. Həm hüquqi, həm siyasi, həm iqtisadi, həm hərbi nöqteyi-nəzərdən Azərbaycan bu istiqamətdə yüksək dərəcədə güclənib. Son illərdə mötəbər beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş qərar və qətnamələr bizim ədalətli mövqemizi dəstəkləyir və münaqişənin həlli üçün bu, çox güclü hüquqi baza yaradıb. Qondarma «Dağlıq Qarabağ respublikası»nı heç bir ölkə tanımayıb, orada keçirilmiş qanunsuz referendumlara dünyanın aparıcı təşkilatları və bir çox ölkələr tərəfindən sərt, mənfi reaksiya verilibdir. Biz münaqişə ilə bağlı həqiqətləri dünyaya çatdırırıq və bundan sonra da çatdırmalıyıq. Hesab edirəm ki, bu gün vəziyyət tamamilə fərqlidir. Çünki əgər əvvəlki dövrlərdə erməni lobbisi tərəfindən yayılan saxta, təhrif edilmiş məlumatlar daha çox yer tuturdusa, bu gün münaqişə ilə bağlı dünya ictimaiyyəti kifayət qədər məlumatlıdır. Hər kəs xəritəyə baxsa görər ki, Azərbaycan işğala məruz qalan ölkədir.

Bu məsələ ilə bağlı biz bundan sonra da ardıcıl siyasət aparacağıq. Bizim prinsipial mövqemiz dəyişməz olaraq qalır. Biz bu mövqedən dönməyəcəyik. Münaqişə yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır və müvafiq beynəlxalq təşkilatların qərar və qətnamələri icra edilməlidir.

Biz bundan sonra da sosial sahəyə çox böyük diqqət göstərəcəyik. Çünki bu sahə hər bir ölkə üçün

prioritet olmalıdır, o cümlədən bizim üçün. Baxmayaraq ki, son illər ərzində dəfələrlə maaşlar və pensiyalar artırılıb, biz bundan sonra da bu istiqamətdə addımlar atacağıq. Bu yaxınlarda çox böyük sosial paket qəbul edildi. Bu islahatların anonsu keçənilki Prezident seçkilərindən sonra verilmişdir. Bu ilin əvvəlindən çox ciddi sosial təşəbbüs icra edilməyə başlanılıb. Qəbul edilmiş qərarlar 3 milyon insanı əhatə edir və bu vətəndaşların maddi vəziyyəti yaxşılaşır.

Ancaq hesab edirəm ki, biz bundan sonra da bu istiqamətdə tam qətiyyətlə addımlar atacağıq. Çünki vətəndaşların sosial rifahı bizim üçün ən prioritet məsələdir. Ancaq təbii ki, bu, iqtisadi inkişafa bağlıdır. Çünki iqtisadi inkişaf, maddi imkanlar olmasa, sosial proqramları həll etmək mümkün olmayacaq. Ona görə iqtisadi sahədə aparılan islahatlara bu gün çox böyük diqqət göstərilir və bu islahatlar artıq nəticə gətirir. Nəticə ondan ibarətdir ki, büdcə daxilolmaları artır. Bu ilin əvvəlindən büdcə daxilolmaları böyük dərəcədə – yüz milyonlarla manat həcmində artıbdır. Bu bizə əlavə imkanlar yaradır ki, ilk növbədə sosial sahədə bu artım özünü göstərsin.

İşsizliklə bağlı problemlərin həlli daim gündəlikdə duran məsələdir. Çünki 2003-cü ildən bu günə qədər 2 milyon iş yerinin yaradılmasına baxmayaraq, yenə də işsizlik vardır. Düzdür, başqa ölkələrə nisbətən Azərbaycanda işsizliyin səviyyəsi çox aşağıdır, ancaq biz hesab edirik ki, bundan sonra da bu istiqamətdə addımlar atılmalıdır. Bu ilin əvvəlindən təkcə dövlət

sektorunda 50 minə yaxın iş yeri yaradılıbdır. Əlbəttə, biz yaxşı başa düşürük ki, ilk növbədə, özəl sektorda iş yerləri yaradılmalıdır, özəl sektorda da yaradılır. Biz dövlət olaraq, özəl sektora dəstək göstərərək, onları da bu işə sövq edirik.

İşsizlik hər bir ölkəyə xas olan problemdir. Bu məsələnin həlli böyük səylər tələb edir. Biz bu səyləri göstəririk və nəticə də əldə olunur. Ancaq onu da bilməliyik ki, son 15 il ərzində Azərbaycan əhalisi 1,7 milyon artıbdır. İşsizliklə bağlı tədbirlər müntəzəm olaraq aparılmalıdır. Bu, gündəlikdə daimi duran məsələdir və biz bu məsələ ilə ciddi məşğuluq.

Bu gün dünyada informasiya müharibəsi aparılır və hər bir vətəndaş bunu açıq-aydın görə bilir. Azərbaycan uzun illərdir ki, informasiya müharibəsinin hədəfində dayanan ölkədir. Ölkə haqqında təhrif edilmiş, yalan məlumatlar, uydurma faktlar, saxta xəbərlər geniş vüsət alıb. Biz buna adekvat cavab verməliyik, öz həqiqətlərimizi dünyaya çatdırmalıyıq. Bizə qarşı hücumların əksəriyyətinin arxasında erməni lobbisi və onlarla müttəfiq olan bəzi yerli, özünü müxalifət adlandıran qruplaşmalar durur. Onların hədəfi Azərbaycanı ləkələmək, Azərbaycan haqqında təhrif edilmiş yalan məlumatlar yaymaqdır. Bu, informasiya müharibəsinin bir növüdür. Biz öz siyasətimizlə bütün bu yalanları, böhtanları darmadağın edirik və etməliyik. Çünki bu gün Azərbaycan reallıqları göstərir ki, ölkə inamla, sürətlə inkişaf edir. Mənim Prezident kimi təcrübəmdə bir çox hallarda xarici qonaqlarla təmaslarım, Azərbaycana ilk dəfə

gəlmiş insanlarla görüşlərim əsnasında onlar tərəfindən bir təəccüb hissi duyulurdu: yəni biz bilmirdik ki, Azərbaycan bu qədər inkişaf etmiş ölkədir, Azərbaycanda vəziyyət bu qədər yaxşıdır, şəhərlər bu qədər təmiz, səliqəli, gözəldir. İctimai ovqat müsbətdir, xalq iqtidarı dəstəkləyir. Yəni nəyə görə bu təəccüb hissləri oyanırdı? Ona görə ki, bizə qarşı çoxşaxəli, məqsədyönlü və davamlı informasiya müharibəsi aparılır. Məqsəd Azərbaycanı ləkələmək, inkişafımıza zərbə vurmaq, cəmiyyətimizin ənənəvi dayaqlarını sarsıtmaqdır. Biz buna heç cür imkan verə bilmərik və imkan vermirik. Çünki biz müstəqillik yolu ilə gedirik. Bizim öz seçimimiz vardır. Biz milli-mənəvi dəyərlər üzərində güclü dövlət qururuq. Ona görə hədəflərin biri də məhz bizim milli dəyərlərimiz, ənənələrimizdir. Çalışırlar ki, onları sarsıdaraq, ölkəmizin inkişafına zərbə vursunlar. Azərbaycan xalqı hər şeyi yaxşı bilir – biz informasiya müharibəsi şəraitində yaşayırıq və buna hazır olmalıyıq. Biz bu müharibədə ancaq öz işimiz, öz qətiyyətimizlə qalib gələ bilərik.

Bizim qarşımızda bir çox vəzifələr dayanır. Ən önəmlisi ondan ibarətdir ki, Azərbaycan öz müstəqil siyasətini aparmalıdır. Xalqımız ancaq müstəqillik şəraitində inkişaf edə bilər. Biz əsrlərboyu müstəqillikdən məhrum idik və öz seçimimizi edə bilmirdik. Bu gün biz xoşbəxtik ki, müstəqil ölkə kimi, azad xalq kimi yaşayırıq, taleyimiz öz əlimizdədir. Müstəqilliyimizin qorunması, möhkəmlənməsi ən vacib məsələlərdən biridir. 1918-ci ildə qurulmuş Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşadı.

Müstəqil Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisidir və onların niyyətlərini biz həyata keçirdik. Əminəm ki, müstəqillik yolunda bizim inkişafımız davamlı, uğurlu olacaq və Azərbaycanın dövlət müstəqilliyi əbədi olacaqdır! Sağ olun.

* * *

*Rəsmi qəbul Azərbaycan incəsənət ustalarının konsert proqramı ilə davam etdi.*

## DƏNİZKƏNARI MİLLİ PARKDA GƏZİNTİ

*28 may 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri mayın 28-də paytaxtın Dənizkənarı Milli Parkında gəzintiyə çıxmışlar.*

*Dövlət başçısı və xanımı Dənizkənarı Milli Parkda istirahət edən sakinlər və şəhərimizin qonaqları ilə görüşdülər.*

## XXVI BEYNƏLXALQ «XƏZƏR NEFT VƏ QAZ–2019» SƏRGİ VƏ KONFRANS İŞTİRAKÇILARINA

Hörmətli sərgi və konfrans iştirakçıları!

Sizi Bakı şəhərində XXVI Beynəlxalq «Xəzər neft və qaz–2019» sərgi və konfransın açılışı münasibətilə salamlayır, hamınıza cansağlığı və ölkələrinizin tərəqqisi naminə gələcək fəaliyyətinizdə müvəffəqiyyətlər arzu edirəm.

Artıq böyük nüfuza malik ənənəvi tədbiriniz təşkil olunduğu ilk vaxtlardan keçən müddət ərzində ölkəmizin neft-qaz sənayesinin başlıca istiqamətlərinin və strateji prinsiplərinin beynəlxalq aləmə çatdırılmasında aparıcı platformaya çevrilibdir. Xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən işlənib hazırlanmış və gerçəkləşdirilmiş neft strategiyasının təməl daşı olan «Əsrin müqaviləsi»nin 25-ci ildönümünə təsadüf etməsi builki sərgi və konfransın əhəmiyyətini daha da artırır.

Bu il ölkəmizin neft sənayesi tarixində daha bir hadisə ilə əlamətdardır. 70 il əvvəl, 1949-cu ildə məhz Bakıda əfsanəvi «Neft Daşları»nda ilk dəfə olaraq açıq dənizdə neft hasilatına başlanılması ilə dünya neftçıxarma sənayesi yeni dövrə qədəm qoymuşdur.

İndi Azərbaycan iri həcmdə neft və qaz ixrac edən ölkələr sırasında layiqli yer tutur. Sürətli sosial-iqtisadi

yüksəliş dövrünü yaşayan respublikamızın dinamik inkişafı nəticəsində əldə etdiyimiz nailiyyətlər milli iqtisadiyyatı şaxələndirməklə, bütün sahələrdə, o cümlədən qeyri-neft sektorunda əsaslı irəliləyişlərə gətirib çıxarıbdır.

Ölkəmiz bu gün beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınır. Biz üzərimizə götürdüyümüz öhdəlikləri layiqincə yerinə yetirməklə yanaşı, xarici sərmayədarlar üçün də əlverişli şərait yaratmışıq. Dünya neft sənayesinin inkişafında xüsusi mövqeyi ilə seçilən Azərbaycan, həmçinin müxtəlif ölkələrdə genişmiqyaslı investisiya layihələri həyata keçirməkdədir.

Ötən il «Cənub Qaz Dəhlizi» layihəsinin ilk hissəsinin rəsmi açılışı mərasimi oldu, daha sonra TANAP – Trans–Anadolu qaz kəmərinin istifadəyə verilməsi ilə bağlı təntənəli mərasim keçirildi. Layihənin icrası müstəqillik illərində enerji strategiyamızın ən yaddaqalan uğurlarındandır. TANAP eləcə də ölkəmizin iqtisadi qüdrətini və Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rolunu aydın şəkildə nümayiş etdirdi. Əminəm ki, yaxın zamanda Trans–Adriatik boru kəməri layihəsinin tamamlanması ilə böyük infrastruktur layihəsi «Cənub Qaz Dəhlizi» də icra edilmiş olacaqdır. Bu isə bizə imkan yaradacaqdır ki, Azərbaycanın zəngin qaz ehtiyatları Türkiyə və Avropa bazarlarına şaxələndirilmiş yolla qısa və təhlükəsiz şəkildə çatdırılsın.

İnanıram ki, özünün çoxillik təcrübəsi sayəsində sərgi və konfransınız aktual mövzulu dolğun məru-

zələrlə, müzakirə və fikir mübadilələri ilə qarşılıqlı anlaşma mühitində geniş iqtisadi əlaqələrimiz üçün yeni üfüqlər açacaq və səmərəli əməkdaşlığa töhfələr verəcəkdir.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 may 2019-cu il*

## XXVI BEYNƏLXALQ «XƏZƏR NEFT VƏ QAZ–2019» SƏRGİ VƏ KONFRANSIN AÇILIŞINDA İŞTİRAK

*29 may 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 29-da Bakı Sərgi Mərkəzində XXVI Beynəlxalq «Xəzər neft və qaz–2019» sərgi və konfransın, həmçinin IX Xəzər Beynəlxalq energetika və alternativ enerji sərgisinin açılışında iştirak etmişdir.*

**E n d r ü V u d** (*Böyük Britaniyanın «ITE Group Plc» şirkətinin baş məsləhətçisi*): Zati-aliləri cənab Prezident!

Xanımlar və cənablar!

Bakıda keçirilən 26-cı sərginin Təşkilat Komitəsinin adından danışmaqdan məmnunam. Bizim burada keçirdiyimiz sərgi və konfrans ilk tədbirdən indiyədək əldə olunmuş möhtəşəm nailiyyəti nümayiş etdirir. Bir çoxları kimi, hər dəfə Bakıya gələndə təkcə neft və qaz sənayesindəki inkişaf deyil – sözsüz ki, bu inkişaf nəhəngdir – həm də ölkədəki böyük inkişaf məndə dərin təəssürat yaradır. Biz bu gözəl sərginin təşkilinə göstərdiyi köməyə görə SOCAR və Energetika Nazirliyinə minnətdarıq. Düşünürəm ki, bu il buraya gələn şirkətlərin dörddəbirinin yeni olması sərginin uğurunun göstəricisidir. Sizin

hamınıza böyük uğur və səmərəli fəaliyyət arzulayıram. Çıxış üçün cənab Prezidenti tribunaya dəvət edirəm.

## Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Bu gün XXVI Beynəlxalq «Xəzər neft və qaz» sərgisi öz işinə başlayır. Bu münasibətlə sizi təbrik edirəm. Bu çox əlamətdar hadisədir. Bu sərgi dünya miqyasında çox önəmli beynəlxalq tədbirlərdən biridir.

Bu sərgi 26-cı dəfədir keçirilir və sərgiyə maraq azalmır. Çünki bu il sərgidə 30-dan çox ölkədən 300-ə yaxın şirkət iştirak edir və bu çox gözəl göstəricidir. 26 il ərzində sərgi dünyanın neft şirkətlərinin diqqətini cəlb edir. Bu onu göstərir ki, Azərbaycanın neft-qaz resursları bu gün və gələcəkdə xarici şirkətlər üçün böyük maraq kəsb edəcək. Mən birinci sərgini xüsusilə qeyd etmək istərdim. 1994-cü ildə keçirilmiş birinci sərgi Azərbaycanı dünyaya təqdim etdi, Azərbaycanın zəngin neft-qaz resursları haqqında dünyaya məlumat verdi. Çünki o vaxt Azərbaycan haqqında məlumat çox məhdud idi, bizim ölkəmiz gənc müstəqil dövlət idi, müstəqilliyinin ilk illərini yaşayırdı. Əlbəttə, dünyada, xüsusilə neft-qaz aləmində Azərbaycanın potensialı haqqında məlumat, demək olar ki, yox idi. Sərginin keçirilməsi, Azərbaycana diqqətin cəlb edilməsi gələcəkdə Azərbaycanın neft-qaz sektorunun inkişafı

üçün çox önəmli rol oynadı. Mən bunu nəzərə alaraq, sərginin iştirakçılarına bir daha minnətdarlığımı bildirmək istəyirəm. Çünki onların bu qərarı, Bakıda bu sərginin keçirilməsi və ondan sonra uzun illər ərzində bizimlə əməkdaşlıq etmələri təqdirəlayiq bir haldır.

1994-cü ildə ilk sərgi keçiriləndə ölkəmizdə vəziyyət tam fərqli idi. Azərbaycan çox ağır iqtisadi vəziyyətdə idi, siyasi müstəvidə sabitlik təzə-təzə bərpa edilmişdi. Çünki müstəqilliyimizin ilk illəri ölkəmiz, xalqımız üçün çox ağır keçmişdir. Vətəndaş müharibəsi, torpaqlarımızın işğal altına düşməsi, iqtisadi, siyasi böhran, demək olar ki, ölkəmizin inkişafına böyük zərbə vurmuşdu, ölkəmizin inkişafı ilə bağlı aydın təsəvvür yox idi. Əlbəttə, zəngin neft-qaz resurslarına malik olan ölkə üçün yeganə çıxış yolu sabitliyin bərpası və neft resurslarından səmərəli istifadə edilməsi idi ki, sərmayə qoyuluşu gəlsin və ölkəmizin iqtisadi potensialı artsın. 1994-cü ildə sərgidən yaranan mənfəət, o cümlədən siyasi mənfəət bu gün də bizə imkan verir ki, həm neft-qaz sektorumuzu, həm də, ümumiyyətlə, ölkəmizi inkişaf etdirək.

Müasir neft siyasətimiz Heydər Əliyevin adı ilə bağlıdır. Çünki məhz o, Azərbaycan rəhbərliyinə gələndən sonra ölkəmizdə vəziyyət sabitləşdi, Azərbaycan inkişaf yoluna qədəm qoydu və xarici investorlar bizə inandı. Çünki o vaxt bu inam əsas şərt idi. Bu inam olmasaydı, Azərbaycana heç kim böyük sərmayə qoymazdı. Çünki Azərbaycan o vaxt çox riskli bir ölkə

kimi tanınırdı və investorları buraya cəlb etmək üçün böyük səylər göstərilmişdir. 1994-cü ilin sentyabr ayında «Azəri–Çıraq–Günəşli» neft yataqları bloku üzrə imzalanmış kontrakt, demək olar ki, bizim inkişafımıza çox böyük təkan verdi. Təsadüfi deyil ki, bu kontraktın miqyasına və əhəmiyyətinə görə ona «Əsrin kontraktı» adı verilibdir. «Əsrin kontraktı»nın imzalanmasından sonra Azərbaycana böyük həcmdə sərmayə qoyuluşu başlandı və sonra digər kontraktlar da imzalandı. «Əsrin kontraktı»nın çox böyük əhəmiyyəti vardır. Bu gün də bu əhəmiyyət kifayət qədər böyükdür. İki il bundan əvvəl kontraktın müddəti uzadıldı, 2050-ci ilə qədər bu kontrakt qüvvədə olacaq. Yəni bu  o deməkdir ki, Azərbaycanın neft-qaz resursları, eləcə də «Azəri–Çıraq–Günəşli» neft yataqları blokundan çıxarılacaq neft, qaz bundan sonra da uzun illər ərzində Azərbaycan xalqına, dövlətinə xidmət edəcəkdir.

Onu da bildirməliyəm ki, sərginin «Şahdəniz» qaz-kondensat yatağı üzrə imzalanmış sazişə də çox böyük dəstəyi olubdur. Çünki o saziş məhz 1996-cı ildə keçirilmiş sərgi zamanı imzalanmışdır. O vaxt «Şahdəniz» yatağına xarici investorları cəlb etmək o qədər də asan məsələ deyildi. Xarici şirkətlərin əsas hissəsi neft yataqlarına daha böyük maraq göstərirdi. Çünki mənfəət baxımından, əlbəttə ki, bu daha cəlbedicidir. Qaz yataqlarına isə maraq o qədər də böyük deyildi. O vaxt bütövlükdə qaz amili enerji təhlükəsizliyi baxımından o qədər də böyük əhəmiyyət kəsb etmirdi. Buna görə «Şahdəniz» yatağı üzrə imzalanmış kontraktın da ölkəmiz üçün çox

böyük faydası oldu və bu gün biz bunun xeyrini görürük. Çünki bu gün «Şahdəniz»dən çıxarılan qaz həm daxili bazara göndərilir, eyni zamanda, bizim ixrac potensialımızı da artırır. «Şahdəniz» bu gün «Cənub Qaz Dəhlizi»nin resurs bazasıdır. Məhz «Şahdəniz» yatağının mövcudluğuna, yatağın işlənilməsinə görə bu gün nəhəng «Cənub Qaz Dəhlizi» layihəsi icra edilir.

«Azəri–Çıraq–Günəşli» neft yataqları bloku və «Şahdəniz» yatağı üzrə imzalanmış kontraktlar tarixi əhəmiyyət daşıyır. Ondan sonra da kontraktlar imzalanıbdır. Onların bəzilərinə isə xitam verilib. Biz beynəlxalq təcrübədə də tez-tez belə vəziyyətlə rastlaşırıq – qazma işləri aparılır, amma kifayət qədər mənbə aşkar olunmur. Amma yenə də deyirəm, «Şahdəniz» və «Azəri–Çıraq–Günəşli» bizim neft-qaz sektorumuzun əsas hissəsini təşkil edir.

Əlbəttə, növbəti mərhələdə neft-qaz kəmərlərinin tikintisi məsələsi gündəliyə çıxdı və bu məsələ də uğurla həll olundu. Hesab edirəm ki, bu da tarixi layihədir. 2006–2007-ci illərdə nəhəng neft-qaz kəmərlərinin istifadəyə verilməsindən sonra Azərbaycanın böyük ixrac imkanları oldu və Xəzər dənizindən çıxarılan neft, qaz həm daxili bazara, həm də xarici bazarlara göndərilməyə başlanıldı.

«Əsrin kontraktı»nın əhəmiyyəti onda idi ki, ilk dəfə olaraq Xəzər dənizinə xarici neft şirkətləri dəvət olundu və onlar Xəzər dənizinin zəngin neft-qaz yataqlarının işlənilməsi ilə məşğul olmağa başladılar. İxrac neft-qaz kəmərlərinin tikintisindən sonra

Azərbaycan yeni mərhələyə qədəm qoydu və digər yataqlar üzrə danışıqlar aparılmağa başlandı. Onların bir neçəsi artıq qüvvədədir və hesab edirəm ki, yaxın illərdə biz yeni yataqlardan enerji resurslarımızı hasil edəcəyik.

«Cənub Qaz Dəhlizi»nin reallaşması tarixi hadisədir. Bu nəhəng infrastruktur layihəsi həm ölkəmiz, həm də digər ölkələr üçün böyük əhəmiyyət kəsb edir. «Cənub Qaz Dəhlizi»nin reallaşması üçün bir çox önəmli addımlar atılıb və əlbəttə ki, burada beynəlxalq əməkdaşlıq xüsusi yer tutur. Çünki genişmiqyaslı beynəlxalq əməkdaşlıq olmasaydı, bu nəhəng layihəni icra etmək mümkün olmazdı. 2012-ci ildə Azərbaycan ilə Türkiyə arasında imzalanmış TANAP layihəsi «Cənub Qaz Dəhlizi»nin önəmli hissəsidir. Bir il bundan əvvəl mayın 29-da Səngəçal terminalında «Cənub Qaz Dəhlizi»nin rəsmi açılışı oldu. Beləliklə, bu böyük layihənin icrası istiqamətində çox önəmli addımlar atılıbdır. Bildiyiniz kimi, «Cənub Qaz Dəhlizi» 4 hissədən ibarətdir. Onlardan üçü artıq reallaşıb, dördüncü layihə də uğurla icra edilir. Keçən il TANAP-ın istifadəyə verilməsindən sonra Azərbaycan öz qaz resurslarını xarici bazarlara daha böyük həcmdə ixrac etməyə başladı. Beləliklə, «Cənub Qaz Dəhlizi»nin reallaşması üçün çox önəmli şərait yaradılıb və addımlar atılıbdır.

Azərbaycan bir çox xarici enerji şirkətləri ilə uğurlu əməkdaşlıq aparır və bu əməkdaşlığın böyük tarixçəsi vardır. Hər bir şirkətlə əməkdaşlıq aparmaq bizim üçün çox önəmlidir, ancaq mən xüsusilə *bp*

şirkətini qeyd etmək istərdim. *bp* şirkəti bizim strateji tərəfdaşımızdır, strateji investordur. Biz 25 ildir ki, əməkdaşlıq edirik. Bu əməkdaşlıq həm ölkəmiz, həm də şirkət üçün çox uğurludur. Hesab edirəm ki, bu əməkdaşlıq nümunəvi xarakter daşıyır və onun gözəl gələcəyi vardır. Çünki qeyd etdiyim kimi, təkcə «Azəri–Çıraq–Günəşli» neft yataqları bloku üzrə işlər ən azı 2050-ci ilə qədər aparılacaqdır. «Şahdəniz» qaz-kondensat yatağının işlənilməsi də bundan sonra onilliklər ərzində aparılacaqdır. Beləliklə, bizim strateji tərəfdaşlığımızın çox gözəl perspektivləri vardır.

Biz bu layihələri, əlbəttə ki, o cümlədən xarici maliyyə resurslarının hesabına icra etdik. Həm öz vəsaitimizi qoyduq, həm də beynəlxalq maliyyə qurumlarından kredit şəklində vəsait aldıq. Bu münasibətlə bu qurumların Azərbaycana dəstəyi haqqında danışmaq istərdim. Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, Avropa İnvestisiya Bankı – dünyanın bu aparıcı maliyyə qurumları «Cənub Qaz Dəhlizi»nin reallaşmasına öz maliyyə vəsaitini ayırıb və beləliklə, layihənin icrası üçün çox önəmli dəstək vermiş olublar. Bu kreditlərin ayrılması Azərbaycanın uğurlu gələcəyinə inamın təzahürüdür.

Biz bu layihənin həyata keçirilməsi üçün Avropa İttifaqı ilə əməkdaşlıq edirik. 2011-ci ildə Avropa İttifaqı ilə Azərbaycan arasında «Cənub Qaz Dəhlizi» ilə əlaqədar Birgə Bəyannamə qəbul edilibdir. Bizim təşəbbüsümüzlə hər il Bakıda «Cənub Qaz

Dəhlizi»nin Məşvərət Şurası keçirilir. Bu ilin fevral ayında 5-ci toplantı keçirilibdir. Bu toplantılarda həm görülmüş işlərə yekun vurulur, ən önəmlisi isə odur ki, görüləcək işlər haqqında danışılır. Əlbəttə, biz əminik ki, bu nəhəng layihənin uğurla icra edilməsinə nail olacağıq. Çünki bu gün həm beynəlxalq əməkdaşlıq baxımından, həm də maliyyə resursları baxımından bu layihənin reallaşması üçün heç bir problem qalmır.

Mən bir qədər əvvəl beynəlxalq əməkdaşlıq haqqında fikirlərimi bildirdim. Bir daha demək istəyirəm ki, belə nəhəng layihələri biz ancaq beynəlxalq əməkdaşlıq çərçivəsində həll edə bilərik. Bu olmasa, o layihələri icra etmək mümkün olmaz. Neft-qaz kəmərləri, investisiya qoyuluşu, beynəlxalq maliyyə qurumlarının iştirakı və birgə səylərimiz nəticəsində biz buna nail ola bildik. Hesab edirəm ki, Azərbaycan bu məsələ ilə bağlı istədiyinə tam nail ola bilibdir.

Sirr deyil ki, bu gün enerji təhlükəsizliyi məsələləri böyük əhəmiyyət daşıyır. Enerji təhlükəsizliyi məsələləri ölkələrin milli təhlükəsizliyi məsələləridir. Bu baxımdan Azərbaycan tərəfindən reallaşan və bizim təşəbbüsümüzlə həyata keçirilən layihələr həm ölkəmizin, həm də bir çox ölkələrin enerji təhlükəsizliyini təmin edir. Bu gün Azərbaycan nefti və qazı dünya bazarlarına müxtəlif yollarla ixrac edilir. Enerji təhlükəsizliyi və enerji resurslarının şaxələndirilməsi məsələləri bu gün çox böyük əhəmiyyət daşıyan məsələlərdir. Ölkəmizin bu sahədəki rolu

qiymətləndirilir. Azərbaycan bu məsələlərlə bağlı ardıcıl və uğurlu siyasət aparır.

Ölkə iqtisadiyyatı üçün bu layihələrin çox böyük əhəmiyyəti vardır. Çünki 1994-cü ildə «Əsrin kontraktı» imzalanmasaydı və Azərbaycan öz zəngin neft-qaz resurslarını dünya bazarlarına ixrac etməsəydi, bizim iqtisadi vəziyyətimiz tam fərqli ola bilərdi. Bu layihələr ölkə iqtisadiyyatına çox böyük təkan veribdir. Azərbaycanda biznes mühitinin yaxşılaşdırılması, kadr hazırlığı üçün yeni imkanlar yaradıldı. Bu gün Azərbaycanda fəaliyyət göstərən xarici şirkətlərdə və neft-qaz əməliyyatlarında iştirak edənlərin mütləq əksəriyyəti Azərbaycan vətəndaşlarıdır. Gözəl təlim və təhsil almış gənc Azərbaycan mütəxəssisləri bu gün ölkəmiz üçün çox böyük işlər görürlər. Kadr hazırlığı, biznes mühitinin yaxşılaşdırılması, beynəlxalq əməkdaşlıq – bütün bunlar bu layihələrin nəticəsində mümkün oldu və ölkəmizə böyük fayda verdi.

Dövlət Neft Fondunun yaradılması və Dövlət Neft Fondunun xətti ilə ən vacib məsələlərin həlli uğurlu neft siyasətimizin nəticəsində olubdur. 100-dən çox köçkün şəhərciyi Dövlət Neft Fondunun xətti ilə inşa edilibdir. Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi və infrastruktur layihələrinə investisiya qoyuluşu da məhz bu layihələrlə bağlıdır. Biz son illər ərzində əsas infrastruktur layihələrimizi icra etdik və bu istiqamətdə işlər davam etdirilir. Həm yol tikintisi, həm qazlaşdırılma, həm də elektrik enerjisi ilə bağlı olan məsələlər Azərbaycanda uğurla icra edilir.

Qazlaşdırılma 95 faizə çatıb. Əgər kifayət qədər qaz resurslarımız olmasaydı, bu mümkün olmazdı. Yəni bu layihələrin icrası və ümumiyyətlə, əsası Heydər Əliyev tərəfindən qoyulmuş neft strategiyasının icrası tamamilə yeni bir vəziyyət yaratdı və ölkəmiz sürətlə inkişaf etməyə başladı. Biz neftdən əldə edilən gəlirləri qeyri-neft sektorunun inkişafına, insan kapitalına qoymağa başladıq. 3000-dən çox məktəb, 600-dən çox tibb ocağının tikilməsi, yeniləşən infrastruktur, sosial layihələrin, vətəndaşların sosial problemlərinin həlli – bütün bunların təməlində bizim uğurlu neft siyasətimiz dayanır. Bu gün isə ölkə qarşısında duran əsas vəzifə neft-qaz amilindən asılılığı azaltmaq və qeyri-neft sektorunu inkişaf etdirməkdir. Bu istiqamətdə də önəmli addımlar atılır. Dünya Bankının son hesabatında biznes mühitinə görə Azərbaycan dünya miqyasında 25-ci yerdədir. Yəni bu onu göstərir ki, biz bu gün iqtisadiyyatın şaxələndirilməsi istiqamətində çox önəmli addımlar atırıq. Bilməliyik ki, neft-qaz sektoru bundan sonra da ölkə iqtisadiyyatında çox önəmli rol oynayacaqdır.

Mən bu gün Azərbaycan neftçilərinin əməyini qeyd etmək istərdim. Azərbaycanda neftçi peşəsi həmişə böyük hörmətə malik olub, bu gün də bu belədir. Azərbaycan neftçiləri ölkəmizin uğurlu inkişafı üçün çox böyük işlər görür, qəhrəmanlıq göstərir, ağır şəraitdə, dənizdə ölkəmizin qüdrətini artırırlar.

Bugünkü Azərbaycan reallıqları göstərir ki, biz düzgün yoldayıq. 1994-cü ildə başlanmış və uğurla davam etdirilən neft-qaz siyasətimiz bu gün Azərbay-

canın reallıqlarını şərtləndirən əsas amillərdən biridir. Bu gün Bakı şəhəri dünyanın ən gözəl şəhərlərindən biridir. Biz regional inkişaf proqramını uğurla icra edirik. Əlbəttə, bundan sonra da çalışmalıyıq ki, büdcəmizi daha çox qeyri-neft sektorunun hesabına təmin edək və buna yaxınlaşırıq. Ancaq onu da bilməliyik ki, neft-qaz sektoru bizim üçün prioritet sektor olaraq qalacaqdır.

Mən sərginin keçirilməsi münasibətilə sizi bir daha təbrik edirəm, sərginin təşkilatçılarına təşəkkürümü bildirirəm. Sərgiyə uğurlar arzulayıram. Sağ olun.

* * *

**K e n t  L o q s t o n** (*ABŞ Dövlət Departamentinin enerji ehtiyatları bürosunda Dövlət katibi köməkçisinin birinci müavini*): Sabahınız xeyir, zati-aliləri Prezident Əliyev!

Baş Nazir Məmmədov, Energetika naziri Şahbazov!

Nazirlər, səfirlər, xanımlar və cənablar!

Artıq 26-cı ildir ki, keçirilən bu tədbirdə Azərbaycanın qlobal enerji bazarına verdiyi töhfələri qiymətləndirmək üçün bura yenidən qayıtmaq məndə məmnunluq hissi doğurur. Əlbəttə ki, Azərbaycan «Cənub Qaz Dəhlizi» layihəsi üzrə sabit tərəqqiyə nail olub. Bu layihə Avropanın enerji təhlükəsizliyini artıracaq, Azərbaycan və tranzit ölkələr üçün yeni və etibarlı uzunmüddətli gəlir mənbəyi olacaqdır. Həmçinin Şərqi Aralıq dənizi regionundan, Mərkəzi Asiyadan və Avropa enerji bazarından olan digər öl-

kələrdən yeni təchizatçıların qoşulması ilə bu layihəni genişləndirmək də olar. Mən Prezident Əliyevi və onun qeyd etdiyi kimi, gərgin əməyi sayəsində bu əlamətdar nailiyyətin arxasında duran bütün ölkələri və şirkətləri təbrik edirəm. Amerika Birləşmiş Ştatları 10 il bundan əvvəl layihə ilə bağlı təşəbbüs irəli sürüləndə ona güclü dəstək vermişdir. Biz bu layihənin Avropanın enerji təchizatının şaxələndirilməsində mühüm rol oynaya biləcəyini və eyni zamanda, Xəzər regionuna daha böyük iqtisadi əməkdaşlığın faydalarını gətirə biləcəyini anlayırıq. Bu layihənin genişləndirilməsi üçün birlikdə çalışdığımız müddətdə və gələcək illərdə ona güclü dəstək olmağa davam edəcəyik. Biz Azərbaycanın enerji resurslarının inkişafını və dünya bazarlarına çıxışını dəstəkləyirik. Hökumətimizin ən yüksək dairələrində Azərbaycanın suverenliyinə və müstəqilliyinə dəstəyimizi nümayiş etdirmək üçün indi ABŞ Prezidenti Donald Trampın Azərbaycan Respublikasının Prezidenti zati-aliləri İlham Əliyevə ünvanladığı məktubu oxumaq istəyirəm.

*Kent Loqston Prezident Donald Trampın məktubunu oxudu.*

**«Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə**

Hörmətli cənab Prezident! Beynəlxalq «Xəzər neft və qaz–2019» sərgisinin keçirilməsinin 26-cı ildönümü ilə əlaqədar ən xoş arzularımı qəbul etməyinizi

xahiş edirəm. Azərbaycan özünün tarixində bugünkü qədər firavan və qlobal iqtisadiyyata bağlı olmamışdır. «Cənub Qaz Dəhlizi» daxil olmaqla, Azərbaycanda hasil olunan neft və qaz dünya enerji bazarlarında sabitliyi artırmaqda davam edir. Türkmənistan və Şərqi Aralıq dənizi hövzəsi ölkələri kimi digər potensial təchizatçılarla tərəfdaşlıq quraraq, Azərbaycan daha böyük liderlik rolu oynaya bilər. Ölkənizin uğurlarını genişləndirməyin əsl vaxtıdır. Amerika Birləşmiş Ştatları xarici sərmayələrin cəlb edilməsi və innovasiyaların təşviqinə xidmət edəcək iqtisadi islahatların davam etdirilməsində səylərinizi dəstəkləyir. Azərbaycanın iqtisadi uğuru bütün regiona sabitliyin gətirilməsinə yardım edəcəkdir. Mən birgə səylərimizlə Cənubi Qafqazın daha da dinc, demokratik və firavan olması üçün əməkdaşlığımızın davamlı olmasını arzulayıram.

*Səmimiyyətlə,*

**DONALD TRAMP**
**Amerika Birləşmiş Ştatlarının Prezidenti»**

*Daha sonra Böyük Britaniyanın beynəlxalq ticarət üzrə Dövlət katibi Liam Foksun videomüraciəti təqdim olundu.*

«Zati-aliləri Prezident Əliyev!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Sizin hamınızı Londondan salamlamaqdan çox məmnunam və şəxsən sizinlə birgə ola bilmədiyimə görə təəssüflənirəm.

1994-cü ildə imzalanmış «Əsrin müqaviləsi»nin 25-ci ildönümünü qeyd etdiyimiz bir vaxtda bugünkü tədbir ölkələrimiz üçün xüsusi əhəmiyyət kəsb edir. Bu həmçinin Böyük Britaniyanın Azərbaycana ilk investisiya yatırmasının təcəssümüdür. Bu investisiya ölkənin öz enerji müstəqilliyini təmin edən müasir və mütərəqqi dövlətə çevrilməsinə kömək edib. Neft və qaz sənayesi Böyük Britaniyanın Azərbaycanla ticarət əlaqələrində təməl daşı olaraq qalır. «Əsrin müqaviləsi» imzalanandan indiyədək biz birlikdə böyük mənfəət əldə etmişik. Onun müddətinin 2050-ci ilədək uzadılması bizim paylaşdığımız etimadın və *bp*-nin rəhbərlik etdiyi konsorsiumla Azərbaycan hökuməti arasında qarşılıqlı faydalı əməkdaşlığın sübutudur. Əməkdaşlığımızın dərinləşməsi hər iki ölkəyə yalnız əlavə iqtisadi mənfəət gətirə bilər. Biz birlikdə uğurlu tərəfdaşlıq və gələcək üçün möhkəm təməl yaratmışıq. Böyük Britaniyanın Azərbaycana investisiya yatırması təkcə dollar gəlirləri demək deyil, həm də Azərbaycanın yerli neft və qaz ehtiyatlarının, bacarıqların və dünya standartlarına cavab verən infrastrukturun inkişafına investisiya yatırılması deməkdir. Bu, müstəqil respublikanın dünyada öz yolu ilə getməsi üçün ehtiyatları təmin etməsi deməkdir.

Mən həmçinin Azərbaycanın Avropa enerji təhlükəsizliyinə verdiyi əhəmiyyətli töhfəni vurğulamaq istərdim. Ötən ilin mayında uğurlu açılışı olmuş «Cənub Qaz Dəhlizi» tezliklə Azərbaycan qazını Avropa bazarlarına çatdıraraq, təbii qaz üçün təhlükəsiz ixrac marşrutu yaradacaq və regionun digər ölkələri üçün

mükəmməl nümunə olacaqdır. Əlbəttə, xüsusilə Azərbaycanın iqtisadiyyatın şaxələndirilməsi siyasətini yürütdüyü bir zamanda bizim güclü və məhsuldar əlaqələrimiz enerji sahəsinin hüdudlarını aşaraq, bir çox sahələri əhatə edir. Böyük Britaniya mümkün olduğu qədər Azərbaycana şaxələndirmə ilə bağlı kömək etmək üçün öz təcrübəsini paylaşmağa hazırdır və mən bunun qarşıdakı illərdə daha da güclənməsini səbirsizliklə gözləyirəm.

Mən builki «Xəzər neft və qaz» sərgisi və konfransında hər kəsə uğurlar arzulayıram və tezliklə şəxsən iştirak etməyimi səbirsizliklə gözləyirəm.»

* * *

*Sonra Prezident İlham Əliyev sərgi ilə tanış oldu.*

*Sərgidə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti – SOCAR geniş təmsil olunur. SOCAR-ın stendində neft emalı və neft-kimya, STAR Neft Emalı zavodu, Karbamid zavodu, «SOCAR Polymer» zavodu, «Cənub Qaz Dəhlizi» və perspektiv layihələr barədə məlumat verilir.*

*Dövlət başçısına burada SOCAR-ın neft-qaz-kimya kompleksi layihəsi haqqında məlumat verildi. Layihənin əsas məqsədi ölkə əhalisini təmizlənmiş təbii qazla təmin etmək və neft-kimya məhsullarını istehsal etməkdir. Qaradağ rayonunun ərazisində reallaşdırılacaq bu layihə ildə 10 milyard kubmetr qaz emalı, 600 min ton polietilen, 130 min ton propilen istehsal etməyə imkan verəcəkdir. Burada inşaat*

*mərhələsində təqribən 15 min nəfər, istismar dövründə isə 2000 nəfər çalışacaqdır. Məhsulların Türkiyə, Avropa, Çin və digər ölkələrə ixracı nəzərdə tutulur. Zavodların 2023-cü ildə istismara verilməsi planlaşdırılır.*

*Bu il «Neft Daşları»nın 70 illiyi tamam olur. Azərbaycan neft sənayesində «Neft Daşları» yatağının çox mühüm yeri vardır. İlk dəfə burada açıq dənizdə neft və qaz hasilatına, estakada üsulu ilə yataq istismarına başlanılıb, yataqlara suvurma üsulundan istifadə olunubdur. «Neft Daşları» yatağında 70 il ərzində 175 milyon tondan çox neft, 13,5 milyard kubmetr qaz hasil edilib, 1928 quyu qazılıbdır. Ötən il bu yataqdan 945 min ton neft və 81,2 milyon kubmetr səmt qazı hasil olunub. Hesablamalara görə, «Neft Daşları»nda çıxarıla bilən 18,9 milyon ton neft ehtiyatı vardır.*

*Stenddə «Əsrin müqaviləsi»nin 25 illiyi ilə bağlı guşə yaradılıb. Ulu öndər Heydər Əliyevin qətiyyəti və iradəsi sayəsində imzalanmış müqavilə ölkəmizin həyatında çox mühüm tarixi hadisəyə çevrildi. Bu il aprelin 1-nə olan məlumata əsasən, Azərbaycanın payına 279 milyon ton mənfəət nefti düşür. «Azəri–Çıraq–Günəşli» saziş sahəsindən bu il aprelin 1-nə qədər 481,1 milyon ton neft və 156,2 milyard kubmetr qaz hasil edilib. Bakı–Tbilisi–Ceyhan neft boru kəməri vasitəsilə 382,9 milyon ton neft ixrac olunubdur.*

*Prezident İlham Əliyev bp–Azərbaycan stendinə baxdı.*

*Dövlət başçısına «Azəri–Çıraq–Günəşli» neft yataqları blokunun 25 illiyi ilə bağlı uğurlar və növbəti 25 illik plan barədə məlumat verildi. bp–Azərbaycan ölkənin və Cənubi Xəzər regionunun aparıcı əməliyyatçısı kimi fəaliyyət göstərir. Bu müddətdə bp təhlükəsiz və səmərəli əməliyyatlar həyata keçirərək, ölkənin bir sıra mühüm neft-qaz layihələrini uğurla təhvil verib. Bu layihələrə «Azəri–Çıraq–Dərinsulu Günəşli» neft yatağı, «Şahdəniz» qaz və kondensat yatağı, 3 ixrac boru kəməri, həmçinin dayazsulu «Abşeron» və «Şəfəq–Asiman», eləcə də D-230 geoloji-kəşfiyyat strukturları daxildir. İndiyədək bp tərəf-daşları ilə birgə Azərbaycanın neft-qaz layihələrinə 72 milyard*

*dollardan artıq sərmayə qoyub. bp-nin Azərbaycanda 2900-ə yaxın ixtisaslı işçisi vardır. Onların 90 faizi Azərbaycan vətəndaşıdır.*

*İtaliyanın «Saipem S.p.A.» şirkəti də sərgidə iştirak edir. Şirkət energetika və infrastruktur sektorlarında iri layihələrin mühəndisliyi, qazma və tikinti işləri sahəsində böyük təcrübəyə malikdir. «Saipem S.p.A.» ən yüksək texnologiyaları tətbiq edir. Şirkət 60-dan çox ölkədə fəaliyyət göstərir.*

*Belarusun dövlət neft-kimya konserni olan «Belneftexim» də sərgidə təmsil olunur. Şirkət iqtisadi potensialına görə dünya bazarında öz yerini tutub. Müəssisə neftin kəşfiyyatı, hasilatı, daşınması və emalı, eləcə də neft məhsullarının satışı üzrə bütün prosesləri ehtiva edir. Konsernin həyata keçirdiyi fəaliyyətin ən mühüm istiqamətlərindən biri də neft məhsulları, kimyəvi liflər və iplik istehsalıdır.*

*İtaliyanın «Maire Tecnimont» şirkəti dünyanın aparıcı şirkətlərindən biridir. Mühəndislik, satınalma və tikinti işlərini həyata keçirən və texnologiyaların hazırlanması üzrə energetika, neft-qaz, neft-kimya, habelə infrastruktur layihələrində dünyanın aparıcı müəssisələrindən biri olan bu şirkətin 40 ölkədə nümayəndəliyi vardır. Şirkət Azərbaycanda həm də SOCAR-ın neft-kimya sənayesində reallaşdırdığı «SOCAR Polymer» layihəsinə podratçı qismində cəlb edilibdir.*

*Dövlət başçısı Fransanın Total şirkətinin də stendinə baxdı. Şirkət Azərbaycanda kəşfiyyat-istehsalat fəaliyyətinə 1996-cı ildən başlayıb. 2012-ci ildə Total Xəzər dənizinin dərinliklərində «Abşeron» bloku ilə əlaqədar böyük bir kəşf edib. 2018-ci ildə Total və SOCAR «Abşeron» yatağının operatoru olan birgə əməliyyat şirkəti yaradıbdır.*

*Norveçin «Equinor» beynəlxalq energetika şirkəti «Azəri–Çıraq–Günəşli» neft yataqları blokuna sərmayə qoymaqla yanaşı, Azərbaycanda digər investisiya imkanlarını da nəzərdən keçirir. Azərbaycana sərmayə qoyan ilk xarici neft şirkətlərindən biri kimi, «Equinor» şirkəti ölkəmizdə uzun müddətdir fəaliyyət göstərir. Şirkətlə «Qarabağ» yatağı, «Əşrə-*

*fi-Dan Ulduzu-Aypara» sahəsi üzrə əməkdaşlıqla yanaşı, bərpa olunan enerji sahəsinin inkişafında birgə layihələrin həyata keçirilməsi də prioritet istiqamətlərdəndir.*

*Ukraynanın «İnterpipe» şirkəti neft-qaz, elektrik istehsalı, mexanika və konstruksiya sahələrində istifadə üçün nəzərdə tutulmuş polad boruların qlobal miqyaslı istehsalçısıdır. Şirkətin məhsulları Ukrayna, MDB, Avropa, ABŞ və Yaxın Şərq regionlarında yerləşən kommersiya ofisləri vasitəsilə dünyanın 80 ölkəsinə ixrac edilir.*

*ABŞ-ın «Hallibörton» şirkətinin əsası 1919-cu ildə qoyulub. Şirkət enerji sənayesi üzrə dünyanın ən böyük istehsal və xidmət təchizatçılarından biridir. 80-dən çox ölkədə fəaliyyət göstərən şirkət öz müştərilərinə yataqların istismarı ilə bağlı xidmətlər təklif edir.*

*Rusiyanın 10 ən böyük neft-qaz şirkətlərindən biri olan «Russneft» də sərgidə təmsil olunur. «Russneft»in hazırkı biznes modeli hasilata yönəlib. Şirkət Rusiyanın bir regionunda, eləcə də MDB ölkələrində, o cümlədən Azərbaycanda perspektivli layihələri uğurla həyata keçirir. «Russneft» müasir texnologiya və avadanlıqlar sayəsində neft-qaz hasilatı üzrə nəhəng layihələrin işlənib hazırlanması və həyata keçirilməsi baxımından böyük potensiala malikdir.*

*«Caspian Drilling Company» şirkətinin əsas məqsədi qabaqcıl dəniz qazma operatoru olmaqla, ən yüksək səviyyədə quyu mühəndisliyi, kompleks layihə idarəetməsi və qazma xidmətləri göstərməkdir. Şirkət fəaliyyətində texniki cəhətdən müasir avadanlıqlardan*

*istifadə edir. «Caspian Drilling Company» yerli statusa malik olmaqla, beynəlxalq standartlara uyğun fəaliyyət göstərir.*

*Azərbaycan şirkəti olan «Vertex» də sərgidə xidmətlərini təklif edir. Şirkətin əsas iş fəaliyyəti elektrik və şəbəkə xətlərinin çəkilməsi, elektrik avadanlığı istehsalı və quraşdırılması, metal məmulatların istehsalı, qaynaq və boruquraşdırma işləri, modul tipli binaların hazırlanmasıdır.*

*Özbəkistanın «Uzbekneftegaz» şirkəti 200-dən çox şirkəti, o cümlədən 20 birgə müəssisəni, 6 səhmdar cəmiyyəti və bir sıra digər qurumları birləşdirən müasir korporasiyadır. Holdinqin hazırkı strukturu istehsal və texnologiyanın bütün mərhələlərini əhatə edən qarşılıqlı əlaqəli layihələri səmərəli idarə etməyə imkan verir.*

*ABŞ-ın «Schlumberger» şirkəti neft və qaz sahəsində neft yataqlarının xarakterizə edilməsi, quyuların qazılması, hasilat və emal üzrə dünyanın qabaqcıl texnologiya təchizatçısıdır. Şirkət yataqların kəşfiyyat-qazma işində, boru kəmərinin və hidrokarbonların bərpasında xidmətlərini təklif edir. Avadanlıq və xidmətlərin ən geniş çeşidini sənayedə təmin edən bu qurum fəaliyyətində innovativ həllərə üstünlük verir.*

*«Nigaz» milli sənaye qrupu bir neçə şirkəti özündə birləşdirir. Şirkət fəaliyyətini yüksək texnologiyalara əsasən qurub. Bu qrup neft emalı, neft-kimya müəssisələri və digər aidiyyəti qurumlara qarşı kiber təhlükəsizliklə bağlı həlləri təklif edir.*

*Çinin «Huavei» şirkəti də sərgidə təmsil olunur. İnformasiya və kommunikasiya texnologiyaları infrastrukturunun və smart cihazların qabaqcıl dünya təchizatçılarından olan «Huavei» 4 əsas sahədə inteqrasiya edilmiş həlləri təqdim edir. Bunlara telekommunikasiya şəbəkələri, informasiya texnologiyaları, smart cihazlar və «bulud» xidmətləri daxildir.*

*İngiltərənin «Vorley» şirkəti layihələndirmə, təchizat və tikinti sahələrində müvafiq təcrübə, habelə geniş çeşiddə əməliyyat, texniki xidmət, konsaltinq və məsləhət xidmətlərini təqdim edir. Şirkət karbohidrogen, mineral, metal, kimyəvi maddələr və infrastruktur sektorlarında yeni aktivlər yaradıbdır.*

*Sərgidə Almaniya 15 şirkətlə təmsil olunur. Bu ölkənin İqtisadiyyat Nazirliyi və Alman Maşınqayırma Şirkətləri Assosiasiyasının dəstəyi ilə burada orta və kiçik şirkətlərin məhsulları təqdim edilir. Bu şirkətlər qazma, nasos, təhlükəsizlik texnikası, kəşfiyyat və hasilat üzrə ixtisaslaşan qurumlardır.*

*Prezident İlham Əliyev Türkiyənin TPAO şirkətinin stendində də oldu. Qeyri-ənənəvi kəşfiyyat, təbii qazın saxlanılması, dərin su qatlarında kəşfiyyat, boru kəməri ilə daşımalarda iştirak edən şirkət Yaxın Şərq, Afrika və Xəzər regionu kimi bölgələrdə öz biznes portfelini genişləndirməkdədir. TPAO «Şahdəniz»də 19, «Cənubi Qafqaz» boru kəmərində 19, «Azəri–Çıraq–Günəşli»də 5,73, Bakı–Tbilisi–Ceyhanda 6,53 faiz paya malikdir.*

*Tanınmış beynəlxalq platforma kimi nüfuz qazanmış və bölgəmizin neft-qaz sənayesinin mühüm tədbiri olan*

*bu sərgi hər il Xəzər regionunun əsas neft-qaz layihələrini müzakirə etmək üçün platforma hesab edilir. Sərgidə iştirak edən şirkətlər neft hasilatı və enerji resurslarının daşınmasını, neft-qaz saxlama sistemlərinin təmin edilməsi üzrə avadanlıq, xidmət və innovativ texnologiyaların geniş çeşidini, platforma və üzən qazma qurğularını, boruların çəkilməsi və boru kəmərlərinin təhlükəsizlik sistemlərinin təmin edilməsini, eləcə də servis xidmətlərini təqdim edir.*

*Sonda dövlət başçısı sərgi və konfransın Xatirə kitabını imzaladı.*

## ABŞ DÖVLƏT KATİBİ KÖMƏKÇİSİNİN BİRİNCİ MÜAVİNİ KENT LOQSTONUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*29 may 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 29-da Amerika Birləşmiş Ştatları Dövlət Departamentinin enerji ehtiyatları bürosunda ABŞ-ın Dövlət katibi köməkçisinin birinci müavini Kent Loqstonun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlət başçısı ilk növbədə, Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın göndərdiyi məktuba görə minnətdarlığını bildirdi, bunu güclü tərəfdaşlıq əlaqələrimizin göstəricisi kimi dəyərləndirdi və son bir neçə gündə ABŞ Prezidenti tərəfindən iki məktubun ünvanlanmasını yüksək qiymətləndirdi.*

*Qəbula görə minnətdarlığını bildirən Amerika Birləşmiş Ştatları Dövlət Departamentinin enerji ehtiyatları bürosunda ABŞ Dövlət katibi köməkçisinin birinci müavini Kent Loqston Bakıda keçirilən XXVI Beynəlxalq «Xəzər neft və qaz–2019» sərgi və konfransında iştirakdan məmnunluqlarını bildirdi və*

*bu mühüm tədbirin 26-cı ildönümü münasibətilə təbriklərini çatdırdı.*

*Prezident İlham Əliyev Azərbaycanda keçirilən XXVI Beynəlxalq «Xəzər neft və qaz–2019» sərgi və konfransının əhəmiyyətinə toxundu, tədbirin uzun illərdir ki, dünyanın aparıcı şirkətlərini cəlb etdiyini vurğulayaraq, Amerika Birləşmiş Ştatlarının burada geniş şəkildə təmsil olunmasının önəmini qeyd etdi.*

*Söhbət zamanı «Cənub Qaz Dəhlizi» layihəsinin icrası, energetika, bərpa olunan enerji mənbələri, biznes sahəsində əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## UEFA PREZİDENTİ ALEKSANDR ÇEFERİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*29 may 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 29-da Avropa Futbol Assosiasiyaları Birliyinin (UEFA) prezidenti Aleksandr Çeferinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlət başçısı İlham Əliyev Aleksandr Çeferin və UEFA Avropa İcraiyyə Komitəsinin üzvləri ilə əvvəlki görüşünü xatırladaraq, yenidən nümayəndə heyətinin Bakıya səfərindən məmnunluğunu ifadə etdi. Prezident İlham Əliyev Azərbaycan ilə UEFA arasında uğurlu əməkdaşlığın həyata keçirildiyini bildirdi.*

*Avropa Futbol Assosiasiyaları Birliyinin prezidenti Aleksandr Çeferin Bakıda UEFA Avropa Liqasının final oyununun keçirilməsi üçün yüksək səviyyədə hazırlıq işlərinin görüldüyünü qeyd etdi. O, Bakının çox gözəl şəhər olduğunu, müasir inkişafı və tarixi ənənələri özündə birləşdirdiyini vurğuladı, onların paytaxtımızda özlərini çox rahat hiss etdiklərini söylədi. UEFA prezidenti Aleksandr Çeferin Avropa Futbol Assosiasiyaları Birliyinin Azərbaycan Futbol Federasiyaları Assosiasiyası ilə uğurlu əməkdaşlıq həyata keçirdiyini qeyd edərək, yaradılmış şəraitə görə minnətdarlığını bildirdi.*

**LİTVA RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB GİTANAS NAUSEDAYA**

Hörmətli cənab Nauseda!

Litva Respublikasının Prezidenti vəzifəsinə seçkilərdə qələbəniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan ilə Litva arasındakı münasibətlər dinamik və ardıcıl inkişaf yolundadır. Ümidvaram ki, xalqlarımızın mənafelərinə uyğun olaraq dostluq əlaqələrimizin daha da möhkəmləndirilməsi, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımızın dərinləşdirilməsi istiqamətində birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, qarşıdakı məsul fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *30 may 2019-cu il*

**LATVİYA RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB EGİLS LEVİTSƏ**

Hörmətli cənab Levits!

Latviya Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan–Latviya münasibətləri xoş ənənələrə malikdir. Ümidvaram ki, dostluq əlaqələrimizin daha da möhkəmləndirilməsi, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımızın müvəffəqiyyətlə davam etdirilməsi yolunda birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, qarşıdakı fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *30 may 2019-cu il*

## BAKI OLİMPİYA STADİONUNDA UEFA AVROPA LİQASININ FİNAL OYUNUNA BAXIŞ

*Bakı Olimpiya stadionu*

*29 may 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri mayın 29-da Bakı Olimpiya stadionunda keçirilmiş UEFA Avropa Liqasının final qarşılaşmasına – Londonun «Arsenal» və «Çelsi» komandaları arasında baş tutmuş maraqlı oyuna baxmışlar.*

*Azərbaycanın paytaxtında çoxdandır maraqla gözlənilən futbol yarışı uğurla baş tutdu.*

*Oyunu italiyalı referi Canluka Rokki idarə etdi. Avropa Liqası tarixində ilk dəfə bu oyunda videonəzarət sistemindən istifadə olundu. Bundan başqa, bu turnirdə ilk dəfə olaraq, komandalar əlavə vaxt təyin olunacağı təqdirdə dördüncü əvəzetmədən istifadə etmək hüququ qazandılar.*

*Final oyununun möhtəşəm açılışı mərasimində ingiltərəli DJ, bəstəkar və remikser Conas Blu Bakı Olimpiya stadionuna toplaşmış azarkeşlərə unudulmaz anlar yaşatdı. O, möhtəşəm mərasimdə 150 yerli rəqqasla birlikdə səhnəyə çıxdı.*

*Şərq ilə Qərbin qovuşduğu Bakıda təşkil olunmuş bu möhtəşəm mərasimdə Conas Blunun bənzərsiz ifası azarkeşlərin coşqulu alqışları ilə qarşılandı.*

*Əsrarəngiz xüsusi effektlər Odlar yurdu üzərində səmanı işıqlandırdığı zaman, DJ Blu özünün ən böyük hitlərini ifa etdi. Bu, tamaşaçılara müsbət enerji verməklə, final oyununda mübarizə aparacaq hər iki komandaya da ehtiramın ifadəsi oldu.*

*Mərasimin ən yadda qalan hissəsi Conas Blunun bənzərsiz ifasının sədaları altında «Çelsi» və «Arsenal» komandalarının nəhəng formalarının arenaya gətirilməsi oldu.*

*Açılış mərasimindən sonra turnirin kuboku arenaya gətirildi. Daha sonra «Arsenal» və «Çelsi» komandalarının futbolçuları meydana çıxdılar.*

*200-dən çox ölkədə canlı yayımlanan final qarşılaşmasının birinci hissəsində bir neçə dəfə təhlükəli vəziyyət yaransa da, hesab açılmadı. İkinci hissəyə «Çelsi» daha fəal başladı. Bu fəallığın nəticəsində 49-cu dəqiqədə Olivye Jiru öz komandasını 1:0 hesabı ilə önə keçirdi. Qarşılaşmanın 60-cı dəqiqəsində «Çelsi» hesabda üstünlüyünü artırdı. Budəfəki qolun müəllifi Pedro Rodrigez oldu. 5 dəqiqə sonra «Arsenal»ın qapısına penalti təyin edildi. Penaltini dəqiq yerinə yetirən Eden Azar hesabı 3:0-a çatdırdı. «Arsenal» hesab arasındakı fərqi 69-cu dəqiqədə Aleks İvobinin möhtəşəm qolu ilə azaltmağa müvəffəq olsa da, 2 dəqiqə sonra Eden Azarın vurduğu qolla «Çelsi» fərqi 3 topa çıxartdı: 4:1.*

*Maraqlı idman mübarizəsi şəraitində keçən qarşılaşma elə bu hesabla da başa çatdı.*

*Bununla da «Çelsi» komandası UEFA Avropa Liqasının 2018–2019-cu illər mövsümünün qalibi oldu.*

*Matçda dubl edən Eden Azar final qarşılaşmasının ən yaxşı futbolçusu seçildi.*

*«Çelsi»nin fransalı hücumçusu Olivye Jiru isə vurduğu qol sayəsində UEFA Avropa Liqasının 2018–2019-cu il mövsümünün ən məhsuldar futbolçusu oldu. O, cari mövsümdə bu turnirdə 11 dəfə fərqlənibdir.*

*Final matçından sonra qaliblərin təntənəli mükafatlandırılması mərasimi keçirildi.*

*Qalib komandaya kuboku UEFA prezidenti Aleksandr Çeferin təqdim etdi.*

*Bununla da «Çelsi» 2012–2013-cü il mövsümündən sonra ikinci dəfə UEFA Avropa Liqasının qalibi adını qazandı.*

*«Arsenal» isə ikinci dəfə UEFA Avropa Liqasının finalında məğlub oldu.*

*Qeyd edək ki, bu oyunla peşəkar futbolda 851-ci dəfə meydana çıxan «Arsenal»ın çexiyalı qapıçısı Pyotr Çex final görüşündən sonra karyerasını başa vurdu.*

*Daha bir maraqlı məqam ondan ibarətdir ki, final qarşılaşması ilə əlaqədar tamaşaçı tutumu 70 min yerə çatdırılmış Bakı Olimpiya stadionu bu baxımdan UEFA Avropa Liqasının tarixində 20 illik rekordu yenilədi. Bakı Olimpiya stadionu bu göstərici üzrə UEFA Avropa Liqasının final matçına ev sahibliyi edən stadionlar arasında ən çox tamaşaçı tutumuna malik arena oldu. Belə ki, 1999-cu ildə «Parma» və «Marsel» komandaları Moskvanın 62 min tamaşaçı tutumuna malik «Lujniki» stadionunda üz-üzə gəlmişlər.*

*Xatırladaq ki, 2017-ci il sentyabrın 20-də UEFA İcraiyyə Komitəsi futbol üzrə UEFA Avropa Liqasının 2018–2019-cu il mövsümünün final oyununun 2019-cu il mayın 29-da Bakı Olimpiya stadionunda keçirilməsi haqqında qərar qəbul etdi. UEFA Avropa Liqasının final qarşılaşmasının Bakıda keçirilməsi ilə əlaqədar Azərbaycan paytaxtında silsilə tədbirlər təşkil olundu. Belə ki, UEFA Avropa Liqasının zəngin irsinin təbliği məqsədilə Bakıda ötən il dekabrın 22-dən bu il yanvarın 7-dək UEFA Avropa Liqası Muzeyi fəaliyyət göstəribdir.*

*Bu mötəbər futbol turnirinin kubok səyahətinə martın 9-da Cenevrədə start verildi. Martın 22–23-də Sevilya, martın 29–30-da Berlin, aprelin 5–6-da London, aprelin 12-də Milan, aprelin 20-də Moskva, mayın 10-da Parisdə olan kubok mayın 19-da Gəncədə, 21-də isə Cocuq Mərcanlıda nümayiş olunduqdan sonra Bakıya gətirildi.*

*UEFA Avropa Liqasının final qarşılaşması çərçivəsində keçirilmiş tədbirlərdən biri də martın 3-də «Bakı–2019: Ulduzlar Finalı» adlı qarşılaşma oldu. Həmin oyunda məşhur futbolçular Yeju Dudek, Maykl Essyen, Anderson Luis de Souza (Deku), Hamit Altıntop, Nihat Kahvəci, Andrey Arşavin, Revaz Arveladze, eləcə də yerli veteran futbolçulardan Nazim*

*Süleymanov və UEFA Avropa Liqasının Bakıda keçirilən final oyununun səfiri Vəli Qasımovun iştirakı ilə «Bakı–2019: Ulduzlar Finalı»nda «Qərb Ulduzları» və «Şərq Ulduzları» komandaları qarşılaşdılar.*

*UEFA Avropa Liqasının final matçının Bakı Olimpiya stadionunda keçirilməsi ilə bağlı qərar son illər sürətlə inkişaf edən Azərbaycan idmanının qazandığı növbəti uğurdur. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət idman siyasətinin Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam və inkişaf etdirilməsi nəticəsində bu gün Azərbaycan dünyada idman ölkəsi kimi tanınır. Azərbaycanın son illərdə bir neçə mötəbər beynəlxalq idman yarışına – birinci Avropa, IV İslam Həmrəyliyi oyunlarına, «Formula-1» yarışına, 42-ci Ümumdünya Şahmat Olimpiadasına yüksək səviyyədə ev sahibliyi etməsi Azərbaycanın idman ölkəsi olduğunu bir daha bütün dünyaya nümayiş etdirdi. Təsadüfi deyil ki, bu gün ən mötəbər idman qurumları nüfuzlu beynəlxalq yarışlara ev sahibliyi hüququnu tərəddüd etmədən Azərbaycana verir.*

*Belə ki, UEFA Avropa Liqasının final oyunu ilə yanaşı, 2020-ci ildə futbol üzrə Avropa çempionatının qrup mərhələsinin 3, dörddəbir final mərhələsinin 1 oyununun, bu il iyulun 20–28-də Avropa Gənclərinin Yay Olimpiya Festivalının Bakıda keçirilməsi barədə qərarlar bunun göstəricisidir.*

*İdmançılarımızın Olimpiada, dünya və Avropa çempionatları, eyni zamanda, digər beynəlxalq idman tədbirlərində qazandıqları medalların sayının ilbəil artması dövlət səviyyəsində idman sahəsinə göstərilən diqqətin nəticəsidir. Təqdirəlayiq haldır ki, uşaqlar və gənclər arasında idmana böyük maraq vardır. Bütün bunlar digər sahələr kimi, Azərbaycan idmanının da inkişafının ən parlaq dövrünü yaşadığını nümayiş etdirir.*

## ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ İLƏ GÖRÜŞ

*30 may 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 30-da ATƏT-in Minsk qrupunun Fransadan olan həmsədri Stefan Viskontini, Rusiyadan olan həmsədri İqor Popovu, ABŞ-dan olan həmsədri Endrü Şoferi və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kasprşiki qəbul etmişdir.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## POLŞA RESPUBLİKASININ PREZİDENTİ ANDJEY DUDANIN RƏSMİ QARŞILANMA MƏRASİMİ

*31 may 2019-cu il*

*Azərbaycan Respublikasına rəsmi səfərə gələn Polşa Respublikasının Prezidenti Andjey Dudanın mayın 31-də rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Polşa Respublikasının Prezidenti Andjey Dudanın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan Prezidenti İlham Əliyev Polşa Prezidenti Andjey Dudanı qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Polşa Prezidentinə raport verdi.*

*Prezident İlham Əliyev və Prezident Andjey Duda Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Polşa Prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Polşanın və Azərbaycanın Dövlət himnləri səsləndirildi.*

*Azərbaycanın dövlət və hökumət nümayəndələri Prezident Andjey Dudaya, Polşa nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və Polşa Prezidenti Andjey Dudanın qarşısından keçdi.*

*Prezidentlər rəsmi foto çəkdirdilər.*

## POLŞA RESPUBLİKASININ PREZİDENTİ ANDJEY DUDA İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*31 may 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Polşa Respublikasının Prezidenti Andjey Dudanın mayın 31-də rəsmi qarşılanma mərasimindən sonra təkbətək görüşü olmuşdur.*

*Görüşdə ölkələrimiz arasında münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi qeyd olundu. Əlaqələrimizin daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğu vurğulandı. Polşa Prezidenti Andjey Dudanın Azərbaycana rəsmi səfərinin ikitərəfli münasibətlərin genişlənməsinə töhfə verəcəyi bildirildi.*

*Söhbət zamanı ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*31 may 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Polşa Respublikasının Prezidenti Andjey Dudanın nümayəndə heyətlərinin iştirakı ilə mayın 31-də təkbətək görüş başa çatdıqdan sonra geniş tərkibdə görüşü olmuşdur.*

**İ l h a m Ə l i y e v:** Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Mən Sizi Azərbaycanda səmimiyyətlə salamlayıram. Ölkəmizə xoş gəlmisiniz! Bu Sizin Azərbaycana ilk səfərinizdir. Əminəm ki, səfər uğurlu keçəcək və səfər nəticəsində əlaqələrimiz daha da yüksək səviyyəyə qalxacaqdır.

Mən sizin gözəl ölkənizə öz səfərimi məmnuniyyətlə xatırlayıram. Biz Sizinlə çox geniş fikir mübadiləsi apardıq və gələcək planlar haqqında danışdıq. Bu gün isə yüksək səviyyəli siyasi dialoq davam etdirilir. Bu gün keçirdiyimiz təkbətək görüşdə bir daha ikitərəfli əlaqələrimizin gündəliyinə nəzər saldıq və gələcək planlar haqqında danışdıq. Bizim əlaqələrimiz çoxşaxəlidir, həm siyasi, həm iqtisadi, həm digər sahələrdə əməkdaşlıq edirik. Əminəm ki, səfəriniz bizim gələcək əməkdaşlığımıza çox güclü təkan verəcəkdir.

Bir daha Sizi səmimiyyətlə salamlayıram. Ölkəmizə xoş gəlmisiniz!

**A n d j e y  D u d a:** Zati-aliləri çox hörmətli cənab Prezident!

Məni buraya dəvət etdiyinizə görə dərin təşəkkürümü bildirirəm. Mənə göstərilən səmimi qonaqpərvərliyə görə çox minnətdaram.

Düzgün qeyd etdiniz, bu mənim Azərbaycana ilk səfərimdir. Mən Bakını ilk dəfədir ki, görürəm. Ölkə və olduqca gözəl şəhər mənə böyük təəssürat bağışladı.

Mən həmçinin fürsətdən istifadə edib Sizi təbrik etmək istəyirəm. Çünki Sizin atdığınız hər bir addım uğur gətirir. Əminəm ki, bu nəinki mənim, digərlərinin də təəssüratıdır.

Dünən biz gözəl yerlərdə olduq, gözəl abidələri gördük, həmçinin küçələrinizi seyr etdik. Bunların əsasında məhz Sizin işiniz, fəaliyyətiniz dayanır. Bu da bizdə çox yaxşı təəssürat yaradır. Sizi təbrik edirəm. Mən buraya səfər etməkdən çox şadam və açıq söyləmək istəyirəm ki, uzun illər ərzində ölkələrimiz müxtəlif sahələrdə səmərəli əməkdaşlıq ediblər.

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*31 may 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Polşa Respublikasının Prezidenti Andjey Dudanın iştirakı ilə mayın 31-də geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan–Polşa sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*«Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi ilə Polşa Respublikasının Bitki Mühafizəsi və Toxumçuluq üzrə Dövlət Müfəttişliyi arasında fitosanitariya sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu»nu Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli və Polşa Respublikasının Bitkilərin Sağlamlığı və Toxumçuluq üzrə təftiş müfəttişi Andjey Xodkovski imzaladılar.*

*«Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Polşa Respublikasının Kənd Təsərrüfatı və Kəndin İnkişafı Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu»nu Azərbaycan Respublikasının Kənd Təsərrüfatı naziri İnam Kərimov və Polşa Respublikasının Kənd Təsərrüfatı və Kəndin İnkişafı naziri Kriştof Ardanovski imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti ilə Polşa Respublikası Hökuməti arasında məxfi məlumatların mübadiləsi və qarşılıqlı mühafizəsi haqqında Saziş»i*

*Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi Mədət Quliyev və Polşa Respublikasının Daxili Təhlükəsizlik Agentliyinin sədr müavini Kriştof Vatslavek imzaladılar.*

## POLŞA RESPUBLİKASININ PREZİDENTİ ANDJEY DUDA İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*31 may 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Polşa Respublikasının Prezidenti Andjey Duda mayın 31-də sənədlərin imzalanması mərasimindən sonra mətbuata bəyanatlarla çıxış etmişlər.*

### Azərbaycan Prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

İlk növbədə, cənab Prezident, Sizi bir daha Azərbaycanda səmimiyyətlə salamlayıram, ölkəmizə xoş gəlmisiniz! Bu Sizin Azərbaycana ilk səfərinizdir. Əminəm ki, bu səfər Polşa–Azərbaycan əlaqələrinin inkişafına çox güclü təkan verəcəkdir.

Mən Sizin ölkənizə öz rəsmi səfərimi xatırlayıram. İki il bundan əvvəl biz Sizinlə Polşada görüşmüşdük və o görüş zamanı ikitərəfli əlaqələrimizin gələcək inkişafı haqqında fikir mübadiləsi aparmışdıq. Hesab edirəm ki, 2 il ərzində biz böyük yol keçmişik və müxtəlif sahələr üzrə uğurlu əməkdaşlıq formatı yaradılıb. Xüsusilə Polşa və Azərbaycan arasında

strateji tərəfdaşlıq haqqında Birgə Bəyannaməni qeyd etmək istərdim. Bu çox önəmli sənəddir və bizim əlaqələrimizin mahiyyətini əks etdirir. Biz doğrudan da strateji tərəfdaşıq.

Siyasi əlaqələrimiz yüksək səviyyədədir. Yüksək səviyyəli qarşılıqlı səfərlər bunu əyani şəkildə təsdiqləyir. Bu gün müzakirə olunan mövzularla bağlı bizdə fikir ayrılığı yoxdur. Biz istəyirik ki, ikitərəfli əlaqələrimiz bütün sahələrdə inkişaf etsin.

Hesab edirəm ki, biz iqtisadi sahədə daha da fəal işləməliyik. Çünki ticarət dövriyyəsi hələ ki, o qədər də böyük deyil, halbuki potensial vardır. Bu gün biz bu barədə də danışdıq və müəyyən etdik ki, növbəti mərhələdə biznes qurumlarının müntəzəm olaraq bir araya gəlməsi nəticəsində ticarət dövriyyəsi artmalıdır. Bu gün keçiriləcək biznes-forum, əlbəttə ki, buna nail olmaq üçün çox önəmli bir vasitədir. Bilirəm ki, forumun işinə həm Polşadan, həm Azərbaycandan çox böyük maraq vardır. Hesab edirəm ki, Polşa və Azərbaycan biznes dairələri bir-biri ilə sıx əlaqə quraraq, həm özləri, həm də ölkələrimiz üçün fayda gətirə bilər.

Hesab edirəm ki, sərmayə qoyuluşu baxımından bizim aramızda heç bir fikir ayrılığı yoxdur. Biz qarşılıqlı sərmayə qoyuluşu ilə bağlı fəal işləməliyik və ölkəmizdə gözəl sərmayə iqlimi vardır. Ümid edirəm ki, Polşa şirkətləri bu imkanlara diqqətlə baxacaqlar. Eyni zamanda, Azərbaycan şirkətlərinə də tövsiyə edirəm Polşadakı imkanlara baxsınlar ki, bizim aramızda olan iqtisadi və ticarət əlaqələri daha

da genişlənsin. Keçən il Polşada Azərbaycanın Ticarət evi açılıbdır. Bu, kiçik də olsa, önəmli addımdır. Hesab edirəm ki, bundan sonra bu istiqamətdə daha böyük addımlar atılacaq. Bu gün eyni zamanda, nəqliyyat sahəsində əməkdaşlıq haqqında fikir mübadiləsi aparıldı. Qeyd olundu ki, Şərq–Qərb və Şimal–Cənub nəqliyyat dəhlizləri ölkələrimiz üçün böyük önəm daşıyır. Azərbaycan bu sahədə öz işlərini görür. Mövcud nəqliyyat və logistika imkanları yeni bir vəziyyət yaradır. Yəni Azərbaycan nəqliyyat mərkəzlərinin birinə çevrilir və əlbəttə, ərazimizdən keçən yüklərin həcmi də əminəm ki, artacaqdır.

Energetika sahəsində əməkdaşlıq haqqında geniş fikir mübadiləsi aparıldı. Bu sahədə də böyük potensial, qarşılıqlı maraq vardır. Müvafiq qurumlar, bizim şirkətlərimiz bu məsələ ilə bağlı indi işləyir və danışıqları davam etdirirlər.

Biz bu gün eyni zamanda, digər sahələrdəki əməkdaşlıq haqqında fikir mübadiləsi apardıq. Kənd təsərrüfatı, turizm və digər sahələrdə yaxşı imkanlar vardır. Həm əldə edilmiş nailiyyətlər, həm də yeni imkanlar mövcuddur və biz bu imkanlardan istifadə etməliyik.

Cənab Prezidentlə təkbətək görüşümdə mən eyni zamanda, regional vəziyyətlə bağlı öz fikrimi bildirdim. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycanın mövqeyini ifadə etdim. Bu münaqişə beynəlxalq hüququn norma və prinsipləri əsasında öz həllini tapmalı, işğalçı qüvvələr işğal edilmiş torpaqlardan çıxmalı və ölkə-

mizin ərazi bütövlüyü bərpa edilməlidir. Bunu həm tarixi ədalət, həm də beynəlxalq hüquq tələb edir.

Bir sözlə, səfərin uğurlu keçməsi artıq reallıqdır. Əminəm ki, səfərin ikinci hissəsində də əldə ediləcək razılaşmalar bizim ümumi ikitərəfli əməkdaşlığımıza çox böyük təkan verəcək, bu əməkdaşlıq inkişaf edəcək və biz bunu istəyirik. Səfərin uğurlu keçməsi artıq onu göstərir ki, hər iki tərəfdən çox güclü siyasi iradə vardır.

Bir daha, cənab Prezident, xoş gəlmisiniz və Sizə xoş səfər arzulayıram.

**Polşa Prezidenti Andjey Dudanın bəyanatı**

Zati-aliləri cənab Prezident!

Xanımlar və cənablar!

Əvvəlcə, mən, cənab Prezident, Sizə dərin təşəkkürümü bildirirəm. Siz 2 il öncə ölkəmizə səfər etdiniz. Həmin vaxtdan etibarən bizim ikitərəfli münasibətlərimiz daha da inkişaf etdi və bu əslində Sizinlə mənim aramda olan şəxsi münasibətlərin də başlanğıcı oldu. Cənab Prezident, məni Azərbaycana, Bakıya dəvət etdiyinizə görə çox minnətdaram. Mən bu dəvəti məmnunluqla qəbul etdim və bu səfər artıq baş tutur. Cənab Prezident, Sizinlə görüşmək mənim üçün şərəf oldu. 10 il öncə Polşanın sabiq Prezidenti Lex Kaçinski Sizinlə görüşmüşdü. O vaxt o Sizi özünün yaxın dostu adlandırmışdı. Həmin vaxtdan etibarən ikitərəfli münasibətlərimiz inanılmaz dərəcədə güclənib, Polşa ilə Azərbaycan arasındakı münasibətlər

daha güclü şəkildə inkişaf edibdir. Cənab Prezident, mən Sizin bu münasibətinizi yüksək dəyərləndirirəm.

Bu gün isə mənim səfərim həyata keçirilir. Biz bu gün əməkdaşlığımızın bütün sahələrini nəzərdən keçirdik və Prezident Lex Kaçinskinin faciəvi ölümündən sonra itirilmiş vaxtı aradan qaldıra bildik. Cənab Prezident, biz daha çox səfərlər, təmaslar mübadilə etdik. Bu gün biz razılaşmalara imza atdıq. Biz artıq əməkdaşlığımızın yeni erasına başlayırıq və əldə etdiyimiz razılaşmalara, kənd təsərrüfatı sahəsindəki əməkdaşlığa artıq böyük ümidlər bəsləyə bilərik. Hesab edirəm ki, bununla da Polşa fermerlərinin ixrac imkanları daha da genişlənəcəkdir. Kənd təsərrüfatı sahəsində avadanlıqların, həmçinin kimya sənayesi məhsullarının, gübrələrin ixrac edilməsi imkanları genişlənəcəkdir. Bilirəm ki, Azərbaycanda bu sahədə inkişaf gedir. Əslində qeyd etməliyəm ki, Azərbaycan bizim mühüm ticari tərəfdaşımızdır. Məlumdur ki, 2010-cu ildən sonra bütün dünyanı maliyyə böhranı bürüdü. Buna baxmayaraq, hazırda biz ticari münasibətlərimizin səviyyəsini yenidən artırırıq.

Cənab Prezident, bu mənim cavab səfərimdir. Hesab edirəm, Sizin və mənim səfərlərimiz ölkələrimizə iqtisadi münasibətlərin genişləndirilməsi üçün yeni üfüqlər açacaqdır. Biznes-forumu təşkil etdiyinizə görə təşəkkürümü bildirirəm. Biz bu gün həmin tədbirdə iştirak edəcəyik. Həmin tədbir çərçivəsində azərbaycanlı sahibkarlar polşalı sahibkarlarla görüşəcəklər. Bu da yeni təmasların qurulmasına imkan yaradacaq və nəticədə daha çox müqavilələr

imzalanacaqdır. Bu isə bizim qarşılıqlı iqtisadi mübadilələrimizi artıracaqdır.

Hörmətli cənab Prezident, hesab edirəm ki, biz yeni imkanlar yaradırıq. Hazırda mən səbirsizliklə gözləyirəm ki, hər iki ölkənin biznes icması görüşsün. Hesab edirəm ki, Sizin ölkənizdəki Bakı Beynəlxalq Dəniz Ticarət Limanında yaradılmış azad sənaye zonasında Polşa şirkətlərinin də nümayəndəliyi olmalıdır. Sizin ölkəniz artıq bir qovşağa çevrilməkdədir və istərdik ki, Polşa şirkətləri buraya gəlməklə, fəaliyyət göstərməklə, bizim mübadilələrimizə böyük töhfə versinlər. Biz Bakı Beynəlxalq Dəniz Ticarət Limanının imkanlarından istifadə etmək istəyirik. Ümidvarıq ki, Polşa şirkətləri bu imkanlardan yararlanacaq.

Cənab Prezident, biz bu gün enerji sektoru haqqında danışdıq. Biz həmçinin multimodal daşımalar dəhlizləri haqqında fikir mübadiləsi apardıq. Burada, həmçinin Xəzər dənizi vasitəsilə Qafqaz ölkələrinə, İrana, Ukraynaya, Polşaya, Mərkəzi Asiyaya və Çinə çıxış imkanları müzakirə olundu. Bütün bunlar məhz nəqliyyat sahəsinə aid olan məsələlərdir. Həmçinin bu bağlılıq və iqtisadi münasibətlər daşımalar baxımından olduqca vacibdir ki, biz Avropa İttifaqının bir hissəsi olaraq, bu bölgədən istifadə edək. Bununla biz bu prosesləri qarşılıqlı şəkildə genişləndirə biləcəyik. Gələcəkdə neft və qaz sahəsində əməkdaşlığımızı genişləndirmək fikrindəyik. Biz Azərbaycanın ərazisindən istifadə edərək, nəqliyyat daşımaları sahəsində də azərbaycanlı həmkarlarımızla birgə

işləyəcəyik. Bildiyiniz kimi, Çin genişmiqyaslı «Bir kəmər – bir yol» təşəbbüsünü irəli sürübdür. Mənə elə gəlir ki, mühüm strateji mövqeyə malik Azərbaycan Polşa ilə birgə işləyərək, Avropaya yeni «pəncərə» aça bilər. Fikrimcə, bu hər ikimiz üçün çox vacibdir ki, biz bu dəhlizin bir hissəsi olaq.

Bu gün, cənab Prezident, Siz ərazi bütövlüyü məsələsinə toxundunuz və Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı mövqenizi bildirdiniz. Bilirik ki, bu məsələ uzun illərdir həll olunmamış qalır. Hazırda biz BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvüyük. Biz bəyan etmək istəyirik ki, Azərbaycan bu münaqişənin beynəlxalq hüquq normaları əsasında həllində hər zaman bizim dəstəyimizə arxalana bilər. Biz bu problemin sülh yolu ilə həll olunmasında Sizə yardım edəcəyik. İstəyirik arzumuzu bildirək ki, bu belə də olsun. Biz istərdik ki, Minsk qrupu çərçivəsində aparılan danışıqlar bundan sonra da davam etsin və müsbət nəticələr gətirsin. Beləliklə, bu uzunmüddətli münaqişə öz həllini tapa bilər.

Həmçinin biz istərdik ki, Avropa İttifaqı ilə Azərbaycan arasında Çərçivə Sazişinə dair aparılan danışıqlar da tezliklə başa çatdırılsın. Bu həm Azərbaycan, həm də Avropa İttifaqı vətəndaşları üçün imkanlar yaradacaq. İstərdik ki, Azərbaycan, həmçinin Dünya Ticarət Təşkilatına üzvlük baxımından da nəticələr əldə etsin. Əslində bu da bizim ikitərəfli iqtisadi münasibətlərimizə müsbət təsir göstərəcəkdir.

Sonuncu vacib bir məqamı, cənab Prezident, bildirmək istəyirəm ki, biz polşalılar tarixən Azərbay-

canda olmuşuq. Uzun illər ərzində – mən bunu xüsusi qeyd etmək istəyirəm – demək olar ki, 100 ildən də çox əvvəl Polşa memarları Azərbaycanda yaşayıb, yaradıblar. Bir çox polyaklar, Polşanın ziyalı dairələrinin təmsilçiləri də burada olublar. Burada mən Polşa memarlarını xüsusi qeyd etmək istəyirəm. Bakının özünəməxsus gözəlliyinin yaradılmasında, abidələrinin qurulmasında Polşa memarları mühüm rol oynayıblar. Polşa memarları tərəfindən yaradılmış həmin abidələrə bu gün xüsusi qayğı göstərilir. Onlar yeni çalarda öz gözəlliyi ilə bizi cəlb edir.

Cənab Prezident, mən Sizə təşəkkürümü bildirirəm ki, bu gün biz, həmçinin Bakının mərkəzində Polşa memarlarının adını daşıyan küçəni açacağıq. Küçənin adı da çox böyük rəmzi məna daşıyır. Hesab edirəm ki, obrazlı desək, Polşa memarlarının xatirəsi bir daha əbədiləşdiriləcəkdir.

Hörmətli cənab Prezident, bu binaları seyr edərkən bizim qəlbimizdə nostalji hisslər yaranır. Çünki İkinci dünya müharibəsi illərində alman faşistləri bizim şəhərlərimizin tarixi abidələrini dağıtmışlar. Biz həmin mirası yenidən bərpa etməkdə müəyyən çətinliklərlə üzləşdik. Lakin Bakıda bu abidələr çox yüksək səviyyədə qorunub saxlanılıbdır. Mən bunu bu gün böyük fərəh hissi ilə qeyd edirəm. Bu gün Bakıda – Azərbaycanın paytaxtında olarkən qeyd edirəm ki, Sizin çox qiymətli tarixi mirasınız vardır. Bu mirasın yaradılmasında Polşa memarları da iştirak ediblər.

Cənab Prezident, Sizə bir daha təşəkkürümü bildirirəm.

* * *

*Sonra Azərbaycan və Polşa prezidentləri ölkələrimizin mədəni və tarixi irsini əks etdirən poçt markalarını qarşılıqlı olaraq təqdim etdilər.*

## AZƏRBAYCAN–POLŞA BİZNES-FORUMUNDA İŞTİRAK

*Heydər Əliyev Mərkəzi*

*31 may 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Polşa Respublikasının Prezidenti Andjey Duda mayın 31-də Bakıda Heydər Əliyev Mərkəzində keçirilmiş Azərbaycan–Polşa biznes-forumunda iştirak etmişlər.*

*Dövlət başçıları biznes-forumda nitq söylədilər.*

### Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar, biznes-forum iştirakçıları!

Cənab Prezident, Sizi bir daha salamlayıram. Biz Sizinlə səhərdən bir yerdəyik. Bu gün Sizin Azərbaycana rəsmi səfəriniz çərçivəsində geniş fikir mübadiləsi aparılıb, müxtəlif mövzular ətrafında danışılıb və artıq demək olar ki, səfər çox uğurludur. Əminəm ki, bu səfər Polşa–Azərbaycan əlaqələrinin gələcək inkişafına çox böyük təkan verəcəkdir.

Bizim görüşlərimiz müntəzəm olaraq keçirilir. Mən Polşaya öz səfərimi böyük məmnuniyyətlə xa-

tırlayıram. Eyni zamanda, beynəlxalq tədbirlər çərçivəsində də görüşürük, danışırıq və bu görüşlər ikitərəfli əlaqələrimizə çox böyük fayda verir. Bu gün isə biznes-forum çərçivəsində Polşa–Azərbaycan biznes dairələrinin nümayəndələri bir araya gəliblər və bu da təbiidir. Çünki bizim yüksək səviyyədə siyasi əlaqələrimiz imkan verir ki, biznes dairələri də bir-biri ilə sıx təmasda olsunlar.

Bilirəm ki, forum çərçivəsində bir neçə saziş imzalanacaq. Bu onu göstərir ki, forumun real nəticələri olacaqdır. Amma gələcəkdə, əlbəttə, bu sazişlərin sayı daha da çox ola bilər. Çünki qarşılıqlı maraq kifayət qədər böyükdür. Sadəcə olaraq, biznes dairələri bir-birini yaxından tanımalı və biznes imkanları araşdırılmalıdır. Hesab edirəm ki, Prezident Dudanın səfəri bu baxımdan çox əhəmiyyətlidir. Çünki bəzi hallarda məlumat qıtlığı imkan vermir ki, biznes dairələri bir-biri ilə sıx əlaqə qura bilsin.

Biz çox maraqlıyıq ki, ticarət dövriyyəsi artsın. Bu gün bu barədə kifayət qədər geniş fikir mübadiləsi aparılıbdır. İxrac-idxal əməliyyatlarının artırılması üçün konkret addımlar atılır. Keçən il Polşada Azərbaycanın Ticarət evi açılıbdır. Hesab edirəm ki, bu, önəmli addımdır və Azərbaycanda istehsal olunmuş məhsullar bu Ticarət evi vasitəsilə təqdim ediləcəkdir. Biz sərmayə qoyuluşu ilə bağlı fikir mübadiləsi apardıq. Hesab edirəm ki, burada da imkanlar var, sadəcə olaraq, biz öz səylərimizi düzgün istiqamətə yönəltməliyik ki, sərmayə qoyuluşu sahəsində səmərə əldə olunsun.

Mən hesab edirəm ki, biznes dairələri üçün əməkdaşlıq çox faydalı ola bilər. Azərbaycanda, ümumiyyətlə, biznes mühiti müsbətdir və son illər ərzində bu istiqamətdə böyük irəliləyiş vardır. Dünya Bankı da bunu qeyd edir. Dünya Bankının «Doing Business–2019» hesabatında biznes mühitinin səviyyəsinə görə Azərbaycan 25-ci yerdədir və 10 ən islahatçı ölkə arasındadır. Ona görə sərmayə qoyuluşu məsələləri ilə bağlı çox böyük işlər görülür. Həm neft-qaz sektoruna, həm qeyri-neft sektoruna on milyardlarla dollar sərmayə qoyulubdur. Xarici sərmayələr lazımi səviyyədə qorunur və hər bir ölkə üçün bu önəmlidir. Çünki biznes mühitinin yaxşılaşdırılması nəticəsində həm iş adamları özlərini daha rahat hiss edirlər, həm də dövlətlər daha böyük fayda götürür.

Azərbaycanda son illər ərzində aparılan iqtisadi islahatlar imkan verir ki, biz öz maliyyə imkanlarımızı genişləndirək. Xarici dövlət borcu aşağı səviyyədədir, biz çalışırıq ki, daha da aşağı səviyyəyə endirək. Hazırda bu, ümumi daxili məhsulun 19 faizini təşkil edir. Biz beynəlxalq maliyyə qurumları ilə fəal əməkdaşlıq edirik və onlar Azərbaycanda gedən islahatlara müsbət qiymət verirlər.

Ölkəmizdə həyata keçirilən infrastruktur layihələri biznes şəraitini daha da yaxşılaşdırır. Çünki yol, kommunikasiya olan yerdə, əlbəttə, biznes dairələri də özlərini daha rahat hiss edirlər. Son illərdə Azərbaycanda infrastruktur layihələrinin icrasına çox böyük diqqət yetirilibdir. Bu sahədə əldə edilmiş nəticələr deməyə əsas verir ki, bu layihələr öz bəhrəsini verir,

həm insanlara rahatlıq gətirir, həm də iş adamlarının fəaliyyətini yüngülləşdirir. Yol tikintisi, qazlaşdırılma, elektrik enerjisi ilə bağlı aparılan bütün bu işlər, o cümlədən biznes üçün gözəl şərait yaradır.

Azərbaycanda nəqliyyat sektorunun inkişafı son illərdə prioritet məsələ kimi qalır və bu gün biz bu barədə fikir mübadiləsi apardıq. Azərbaycanda yaradılmış müasir nəqliyyat infrastrukturu həm ölkə daxilində, həm də regional çərçivədə əhəmiyyətlidir. Son illər ərzində Şərq–Qərb və Şimal–Cənub nəqliyyat dəhlizlərinin yaradılması istiqamətində atılmış addımlar artıq öz səmərəsini verir. Biz müasir nəqliyyat və logistika infrastrukturu yaratmışıq. Əlbəttə ki, bunun biznes dairələri üçün çox böyük əhəmiyyəti, çox böyük faydası vardır. Çünki nəqliyyat infrastrukturu olmadan, biznesin inkişafından söhbət belə, gedə bilməz.

Azərbaycan ənənəvi olaraq enerji sektorunun inkişafına böyük diqqət göstərir. Ancaq bizim əsas məqsədimiz qeyri-enerji sektorunun inkişafıdır. Bir sözlə, iqtisadiyyatın şaxələndirilməsi bizim üçün prioritetdir və son illərdə bu istiqamətdə addımlar atılıb. Hesab edirəm ki, Polşa–Azərbaycan biznes dairələrinin birgə fəaliyyəti nəticəsində bu sahəyə də diqqət göstəriləcəkdir.

Biz bu gün kənd təsərrüfatı sahəsində artıq nəticə hasil etmişik və Saziş imzalanıbdır. Polşanın bu sahədəki təcrübəsi bizim üçün çox əhəmiyyətlidir. Ölkəmizin inkişafı, o cümlədən iş yerlərinin yaradılması üçün kənd təsərrüfatının çox böyük əhəmiyyəti vardır.

Hesab edirəm ki, biz bu sahədə sürətli əməkdaşlıq aparmaq üçün yaxşı imkanlara malikik.

Son illərdə Azərbaycanda turizmin inkişafı geniş vüsət alıb. Polşa vətəndaşları sadələşdirilmiş viza rejimi əsasında ölkəmizə gələ bilirlər. Hesab edirəm ki, qarşılıqlı təqdimatlar keçirilməlidir. Yəni insanlarımız bir-birilərini daha yaxından tanımalıdır ki, turizm daha da sürətlə inkişaf etsin və qarşılıqlı səfərlər həyata keçirilsin.

Beləliklə, yüksək səviyyəli siyasi əlaqələr imkan verir ki, biznes sahəsində də yaxşı nəticələr olsun. Hazırda aramızdakı ticarət dövriyyəsi bizim potensialımızı əks etdirmir. Ticarət dövriyyəsini artırmaq üçün ilk növbədə, biznes dairələri daha fəal olmalıdır, biz isə öz tərəfimizdən onlara hər zaman dəstək veririk. Prezident cənab Andjey Duda ilə bugünkü biznes-forumdakı iştirakımız bu dəstəyin növbəti təzahürüdür.

Mən Polşa və Azərbaycan iş adamlarına yeni uğurlar arzulayıram. Arzu edirəm ki, sizin aranızdakı əməkdaşlıq yaxşı nəticələrə gətirib çıxarsın.

**Polşa Prezidenti Andjey Dudanın nitqi**

Hörmətli cənab Prezident!

Hörmətli nazirlər!

Hörmətli Polşa və Azərbaycan biznes nümayəndələri!

Hörmətli sahibkarlar!

Cənab Prezident, ilk növbədə, Sizə dərin təşəkkürümü bildirirəm. Biz Azərbaycanın bu sahədəki qurumlarına təşəkkürümüzü bildiririk ki, onlar bu biznes-forumu bizim üçün təşkil edib, tikinti və digər sahələrdə çalışan Azərbaycan və Polşa şirkətlərini bir araya gətiriblər.

Son illər ərzində, ümumiyyətlə, bizim münasibətlərimiz çox intensivləşibdir. Azərbaycan Cənubi Qafqaz regionunun lider ölkəsidir və Polşa şirkətləri üçün çox cəlbedici bir məkandır. Polşa tərəfi Azərbaycan ilə Avropa İttifaqı arasında bu sahədəki tərəfdaşlığın dərinləşməsində maraqlıdır. Biz Avropa İttifaqının fəal üzvüyük. Qeyd etmək istəyirəm ki, biz məhz Azərbaycan ilə Avropa İttifaqı arasında əhatəli əməkdaşlıq sazişinin imzalanmasında olduqca maraqlıyıq.

Bu gün Polşa ilə Azərbaycan arasında bir sıra razılaşmalar imzalandı. Bu da əslində bizim münasibətlərimizin yeni bir səhifəsini göstərir. Biz Polşa tərəfi olaraq uzun müddətdir Avropa İttifaqının üzvüyük və bu mövqedən çıxış edərək istərdik ki, Avropa İttifaqı öz əməkdaşlıq qapılarını daha geniş açsın və yalnız müttəfiqlər haqqında düşünməsin, həmçinin digər ölkələrlə də əməkdaşlıq imkanlarını genişləndirsin. Biz çox şadıq ki, Avropa İttifaqı və Azərbaycan əməkdaşlıq edir. Bununla biz, həmçinin ikitərəfli siyasi və iqtisadi əməkdaşlığımızı da inkişaf etdirmiş oluruq.

Bu gün iqtisadi təşəbbüslərə gəldikdə, ölkələrimiz arasında olan gündəlik göstərir ki, xalqlarımızın rifahına xidmət edən bir çox layihələr vardır. Bu

sırada nəqliyyat sahəsini, daşımaları qeyd etmək istəyirəm. Həmçinin müxtəlif istiqamətlərdə nəqliyyat dəhlizləri yaradılıbdır. Son illər ərzində Polşa xüsusən də dəniz limanlarına və dəmir yol xətlərinə malik olan dövlətlərlə öz əlaqələrini inkişaf etdirib. Bu baxımdan bizim ölkəmizdə logistika infrastrukturunun yaradılmasına da diqqət yetirilir. İstərdik ki, bu gün biz, həmçinin beynəlxalq hava limanları vasitəsilə bu sahədəki mübadilələri daha da artıraq. Biz ölkəmizdə bunu yaradırıq. Ölkəmizin coğrafi mövqeyindən istifadə edərək, biz yaxşı anlayırıq ki, bununla bağlı bir sıra üstünlüklər var və bu üstünlüklərdən istifadə olunmalıdır. Xüsusən də şimal ilə cənub, qərb ilə şərq, Avropa ilə Asiya arasında multimodal daşımalar əməliyyatları artmalıdır. Qeyd etmək istəyirəm ki, Polşa, həmçinin Trans–Xəzər daşımalar dəhlizlərində də iştirak etməkdə maraqlıdır. Biz həmçinin istərdik ki, Avropanın cənub-qərb hissəsində öz əlaqələrimizi daha da genişləndirək. Azərbaycan bu gün geniş imkanlara malik olan ölkədir və bilirik ki, böyük layihələr həyata keçirməkdədir. Azərbaycan, həmçinin Çinin «Bir kəmər – bir yol» təşəbbüsünə qoşulubdur. Bunun sayəsində Çinə və Hindistana ticarət marşrutları daha da qısalacaqdır. Bu baxımdan istərdik ki, Polşa şirkətləri Azərbaycanda daha geniş şəkildə fəaliyyət göstərsin. İstərdik ki, Polşada da Azərbaycan şirkətləri geniş şəkildə çalışsın və məhsulların ixrac-idxalı ilə məşğul olsun. Qeyd etmək istəyirəm ki, biz son illər ərzində ticarət dövriyyəsində 600 milyon dollara yaxın imkan əldə etmişik. Bu da həmçinin bizim ümumi daxili məhsulumuzun artı-

mından xəbər verir. İstərdik ki, ölkələrimiz arasında ticarət mübadilələri daha da artsın. Təbii ki, bizim aramızda ötən il ərzində geniş şəkildə artan ticarət dövriyyəsi buna yaxşı misaldır. Çünki həm Azərbaycan məhsulları Polşada, həm də Polşa məhsulları Azərbaycanda təşviq olunur.

Cənab Prezident, hörmətli iştirakçılar, ümid edirəm ki, bu gün hər iki ölkənin biznes qurumları arasında imzalanacaq sazişlər bizim təmaslarımızı daha da gücləndirəcək və yaxın gələcəkdə ticarət dövriyyəmizi artıracaqdır. İqtisadi və ticari münasibətlərimizin genişləndirilməsi baxımından, həmçinin istərdik ki, bizim xarici ticarət üzrə qurumumuz Bakıda daha geniş şəkildə fəaliyyət göstərsin və sizin də müvafiq strukturlarınız bizə qoşulsun.

Cənab Prezident, keçirdiyimiz görüşlərə, aparılmış məhsuldar fikir mübadiləsinə görə Sizə təşəkkürümü bildirirəm. İstərdim ki, ölkələrimiz bu iqtisadi faydalardan yararlansın və bundan sonra da biz Azərbaycanın və Polşanın maraqlarına xidmət edən layihələri birgə həyata keçirək. Mən Sizə işlərinizdə uğurlar arzulayıram.

## POLŞA MEMARLARININ XATİRƏSİNƏ HƏSR EDİLMİŞ LÖVHƏLƏRİN AÇILIŞI MƏRASİMİ

*31 may 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Polşa Respublikasının Prezidenti Andjey Duda mayın 31-də Bakıda Polşa memarlarının xatirəsinə həsr edilmiş lövhələrin açılışı mərasimində iştirak etmişlər.*

*Polşalı memarların adlarını əbədiləşdirmək məqsədilə Bakının tarixi məhəlləsində yerləşən küçələrdən birinə «Polşa memarları» adı verilib. Buradakı binaların birində polşalı memarlar – İosif Qoslavski, Kazimir Skureviç, İosif Ploşko və Yevgeni Skibinskinin adları həkk olunmuş xatirə lövhəsi və onların memarı olduqları bir neçə binanın daşdan yonulmuş şəkilləri vurulubdur. Xatirə lövhələrinin müəllifi Azərbaycanın Əməkdar memarı Elbay Qasımzadədir.*

*Qeyd edək ki, XIX əsrin sonu – XX əsrin əvvəllərində Bakıya əcnəbi sərmayədarlarla yanaşı, tanınmış mühəndislər, inşaat üzrə mütəxəssislər də ayaq açmaqda idi. Şəhərin ərazisi genişlənir, yeni binalar inşa edilir, rayonlar meydana gəlirdi. Bakının memarlıq simasının zənginləşməsində yerli memarlarla bərabər, əcnəbi mütəxəssislər də fəal iştirak edirdilər.*

*Şərq üslubunu heç vaxt itirməyən şəhər eyni zamanda, bir Avropa şəhərinə çevrilirdi. Bu məsələdə, ümumiyyətlə, ozamankı Bakının arxitekturasında polşalı memarlar xüsusi rol oynayırdılar. Həmin memarlar Azərbaycan paytaxtının bir sıra möhtəşəm tarixi binalarının müəllifi olublar. Məsələn, Murtuza Muxtarovun sarayı, İsmailiyyə, Bakı Şəhər İcra Hakimiyyətinin binası, Ağabala Quliyevin mülkü və bir çox tarixi binalar polşalı memarların layihələri əsasında inşa olunubdur.*

## POLŞA RESPUBLİKASININ PREZİDENTİ ANDJEY DUDANIN ŞƏRƏFİNƏ VERİLMİŞ RƏSMİ ZİYAFƏTDƏ İŞTİRAK

*31 may 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Polşa Respublikasının Prezidenti Andjey Dudanın şərəfinə mayın 31-də rəsmi ziyafət verilmişdir.*

*Rəsmi ziyafətdə çıxış edən Prezident İlham Əliyev Polşa Prezidentini və onun rəhbərlik etdiyi nümayəndə heyətini Azərbaycanda bir daha salamladı. Dövlət başçısı ölkələrimiz arasında mövcud əlaqələrin inkişafı üçün geniş imkanların olduğunu qeyd etdi.*

**İlham Əliyev:** Bu gün biz ikitərəfli əlaqələrimizi nəzərdən keçirdik. Ölkələrimiz arasında siyasi, iqtisadi, enerji, nəqliyyat, mədəni və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi üçün geniş imkanlar mövcuddur. İnanıram ki, səfəriniz zamanı apardığımız danışıqlar, əldə olunmuş razılaşmalar və imzalanmış sənədlər əlaqələrimizin daha da genişləndirilməsinə öz töhfəsini verəcəkdir.

*Xalqlarımız arasında əlaqələrin tarixi köklərinin olduğunu vurğulayan Prezident İlham Əliyev vaxtilə Azərbaycanda məskunlaşmış polşalıların ölkəmizin ictimai-siyasi və iqtisadi həyatında fəal rol oyna-*

*dıqlarını bildirdi. Tarixi münasibətlərimizin müasir dövrdə də əməkdaşlığımızın inkişafı üçün möhkəm təməl yaratdığını söyləyən dövlət başçısı bir çox sahələrdə uğurlu qarşılıqlı əlaqələrin həyata keçirildiyini vurğuladı:*

– Ölkələrimiz arasında Şərq–Qərb və Şimal–Cənub nəqliyyat dəhlizləri çərçivəsində nəqliyyat sahəsində əməkdaşlıq üçün geniş imkanlar vardır. Azərbaycan regionda təhlükəsizliyin, inkişafın və əməkdaşlığın tərəfdarıdır.

*Prezident İlham Əliyev bildirdi ki, regionun ən ağrılı problemi Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi hələ də həll olunmamış qalır. Dünya birliyi Azərbaycanın ərazi bütövlüyünü tanıyır və münaqişənin beynəlxalq hüququn norma və prinsiplərinə uyğun, ədalətli həllinin tərəfdarıdır. Prezident İlham Əliyev Polşa tərəfinə münaqişənin BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun olaraq, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini dəstəklədiyinə görə minnətdarlığını bildirdi.*

**A n d j e y D u d a:** Hörmətli cənab Prezident, hörmətli xanımlar və cənablar, əziz dostlar!

Dəvət üçün təşəkkür edirəm. Bugünkü görüşümüz ölkələrimiz və xalqlarımız arasındakı yaxşı münasibətlərin ən bariz təsdiqidir. Baxmayaraq ki, Bakı və Varşavanı 3000 kilometrdən çox məsafə ayırır, amma paytaxtınız hər bir polşalı üçün yaxın bir şəhərdir.

*Polşalı Stefan Jeromskinin «Erkən bahar» əsərinin xalqlarımızı daha da yaxınlaşdırdığını vurğulayan*

*Polşa Prezidenti Andjey Duda Polşa memarlarının xatirəsinə həsr olunmuş lövhənin açılmasını, xüsusi poçt markasının buraxılmasını və Bakının mərkəzi küçələrindən birinin «Polşa memarları» adlandırılmasını onların xatirəsinin yüksək səviyyədə anılması kimi dəyərləndirdi və buna görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi:*

– Əlaqələrimizin əsasında hər iki xalqı birləşdirən gözəl bir keçmiş vardır. İndiki zamana gəlincə isə, deyə bilərəm ki, əlaqələrin gələcəyinə əminəm. Müasir Azərbaycan Polşa tərəfindən regionda iqtisadi lider və Asiya ilə Avropanı birləşdirən körpünün qurulmasında əsas rol oynayan ölkə kimi qəbul edilir.

*Avropa İttifaqı ilə əməkdaşlığa toxunan Polşa Prezidenti qeyd etdi ki, «Şərq Tərəfdaşlığı» Proqramı Avropa İttifaqı ilə əlaqələrin daha da möhkəmləndirilməsi üçün yaxşı platformadır. Andjey Duda bir daha əminliklə bəyan etdi ki, Polşa hər zaman ərazi bütövlüyü beynəlxalq hüquqla təmin olunan suveren Azərbaycanın tərəfində olacaqdır.*

## DÜNYA BANKININ CƏNUBİ QAFQAZ ÜZRƏ REGİONAL DİREKTORU MERSİ TEMBONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*3 iyun 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 3-də Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru xanım Mersi Tembonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru Mersi Tembon Azərbaycanda fəaliyyət müddətinin başa çatdığını qeyd edərək, ötən dövr ərzində ölkəmizlə təmsil etdiyi qurumun səmərəli əməkdaşlıq həyata keçirdiyini bildirdi. Bu müddətdə ölkəmizin Dünya Bankı ilə əlaqələrinin çox uğurlu olduğunu söyləyən Mersi Tembon «Doing Business» hesabatında Azərbaycanın əhəmiyyətli dərəcədə irəli getməsini önəmli hadisə kimi dəyərləndirdi. Son illərdə Azərbaycanın sürətlə inkişaf etdiyini qeyd edən qonaq Prezident İlham Əliyevin rəhbərliyi altında Dünya Bankı ilə Azərbaycan arasında əməkdaşlıqda böyük uğurlara nail olunduğunu xüsusi vurğuladı. Ölkəmizlə əməkdaşlığın perspektivlərinə toxunan Mersi Tembon qarşıdakı illər üçün növbəti sosial-iqtisadi inkişaf*

*proqramının hazırlanmasında Dünya Bankının Azərbaycana məsləhətçi kimi dəstək verməyə hazır olduğunu nəzərə çatdırdı. Qonaq qeyd etdi ki, artıq Şimal–Cənub nəqliyyat dəhlizinin inkişafı, özünüməşğulluq sahələrində Dünya Bankı ekspertləri ilə ölkəmizin müvafiq strukturları arasında layihələrin hazırlanmasına başlanılıb. O, icbari tibbi sığorta və ədliyyə sahələrində də işlərin getdiyini bildirdi. Sonra Mersi Tembon Dünya Bankının Cənubi Qafqaz üzrə yeni regional direktoru Sebastian Molenösü təqdim edərək, əminliyini bildirdi ki, gələcək illərdə də Dünya Bankı ilə Azərbaycan arasında əməkdaşlıq uğurla davam etdiriləcəkdir.*

*Xoş sözlərə görə minnətdarlığını bildirən dövlət başçısı Azərbaycan ilə Dünya Bankı arasında əməkdaşlığın inkişaf etdirilməsində Mersi Tembonun rolunu yüksək qiymətləndirdi. Prezident İlham Əliyev ölkəmizdə Dünya Bankı ilə müxtəlif istiqamətlərdə, o cümlədən özünüməşğulluq, infrastruktur və digər sahələrdə birgə layihələrin həyata keçirilməsinin önəmini qeyd etdi. Dövlət başçısı əlaqələrimizin yeni səviyyəyə yüksəldiyini və qarşıdakı illərdə institusional islahatlar, iş yerlərinin yaradılması, biznes mühitinin daha da yaxşılaşdırılması kimi istiqamətlərdə də uğurlu əməkdaşlığın həyata keçiriləcəyinə ümidvar olduğunu bildirdi. Prezident İlham Əliyev islahatların nəticəsi olaraq, «Doing Business» hesabatında ölkəmizin 25-ci yerə yüksəlməsini və Azərbaycanın 10 ən islahatçı ölkələr siyahısına daxil olmasını önəmli hadisə kimi dəyərləndirərək, qarşıda*

*ölkə iqtisadiyyatının şaxələndirilməsi və daha da inkişaf etdirilməsi kimi mühüm vəzifələrin dayandığını vurğuladı. Prezident İlham Əliyev Dünya Bankının Cənubi Qafqaz üzrə yeni regional direktoru Sebastian Molenösə fəaliyyətində uğurlar arzuladı.*

## RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli həmvətənlər!

Sizi mübarək Ramazan bayramı münasibətilə səmimi-qəlbdən təbrik edir, hər birinizə ən xoş arzularımı çatdırıram.

Bəşər övladını xeyirxahlığa, birliyə, mənəvi kamilliyə dəvət edən, öz mahiyyəti ilə insanların ruhunu təzələyən Ramazan ayı dünya müsəlmanlarının ən əziz ayıdır. Oruc tutmaqla inanclı insanlara mənəvi-ruhi ucalığın, əxlaqi saflığın fərəhini, şəfqət, mərhəmət, həmrəylik duyğularının sevincini yaşadan Ramazan ayı ilahi hikmətlər xəzinəsi müqəddəs Quranın nazil olması ilə əlamətdardır. Ramazan bayramı günlərində mömin vətəndaşlarımız uca Yaradan qarşısında vicdani borc və vəzifələrini ləyaqətlə yerinə yetirmək, mənəvi zənginliyin üstünlüyünü yaşamaq fürsəti qazanırlar.

Azərbaycan islam sivilizasiyasının tərkib hissəsi kimi, bəşəriyyətin mədəni irsinə öz töhfələrini verib, böyük alimlər və mütəfəkkirlər yetişdiribdir. İslam və onun mahiyyətindən irəli gələn sülhpərvərlik, dözümlülük, bərabərlik, qardaşlıq və bu kimi dəyərlər Azərbaycanda tolerantlıq mühitinin, cəmiyyətdə vəhdət və harmoniyanın yaranmasında,

multikulturalizm və humanizm ideyalarının bərqərar olmasında müstəsna rol oynayıbdır.

Əziz bacı və qardaşlarım!

Bu günlər ölkəmizin hər yerində xalqımızın əmin-amanlığı üçün dualar edilir, şəhidlərimizin ölməz xatirəsi ehtiramla yad olunur. İnanıram ki, bu müqəddəs bayram günlərində sizin dua və diləkləriniz Tanrı dərgahında qəbul ediləcək, uca Yaradan öz mərhəmətini xalqımızdan əsirgəməyəcəkdir. Bir daha hər birinizi və ölkəmizin hüdudlarından kənarda yaşayan bütün soydaşlarımızı ürəkdən təbrik edir, ailələrinizə səadət, süfrələrinizə bol ruzi və bərəkət arzulayıram.

Ramazan bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *3 iyun 2019-cu il*

**İSVEÇ KRALI ƏLAHƏZRƏT**
**XVI KARL QUSTAVA**

Əlahəzrət!

Ölkənizin milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost İsveç xalqına daim sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *3 iyun 2019-cu il*

## AVROPA İTTİFAQININ XÜSUSİ NÜMAYƏNDƏSİ TOİVO KLAARIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*3 iyun 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 3-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqlar prosesinə dair fikir mübadiləsi aparıldı.*

*Söhbət zamanı, həmçinin Azərbaycan və Avropa İttifaqı arasında nəqliyyat, enerji, iqtisadiyyat və digər sahələrdə əməkdaşlığın inkişafından məmnunluq ifadə olundu, əlaqələrimizin inkişaf perspektivləri müzakirə edildi.*

**BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA KRALİÇASI ÜLYAHƏZRƏT II ELİZABETƏ**

Ülyahəzrət!

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının milli bayramı – Təvəllüd Gününüz münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirməkdən məmnunluq duyuram.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, Birləşmiş Krallığın dost xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *4 iyun 2019-cu il*

## «TARİXİ ŞƏHƏRLƏRDƏ KÜTLƏVİ TURİZM» BEYNƏLXALQ MEMARLIQ FORUMU İŞTİRAKÇILARINA

Hörmətli forum iştirakçıları!

Sizi ölkəmizin paytaxtında «Tarixi şəhərlərdə kütləvi turizm» Beynəlxalq Memarlıq Forumunun öz işinə başlaması münasibətilə səmimi təbrik edir, hər birinizə gələcək fəaliyyətinizdə uğurlar arzulayıram.

Biz ilk mötəbər forumunuzun unikal memarlıq abidələri və eyni zamanda, modern üslublu binalarla zəngin, təkrarsız görkəmə malik Bakı şəhərində təşkilini yüksək qiymətləndiririk. Bu, şəhərsalma və memarlığı özünəməxsus inkişaf yolu keçmiş çoxəsrlik Azərbaycan mədəniyyətinə ehtiramın təzahürüdür. Turizmin müasir problemləri, o cümlədən dövrümüzün reallıqları ilə yaxından səsləşən kütləvi turizm fenomeni ətrafında müzakirələrin məhz belə tarixi məkanda aparılması forumunuza aktuallıq qazandırır.

Artıq ayrıca sənaye sahəsinə çevrilmiş turizm sektoru hazırda dünya ölkələrinin iqtisadiyyatında əhəmiyyətli rol oynamaqdadır. Azərbaycanı onun təbii sərvətləri və rəngarəng coğrafi landşaftı, zəngin mədəni irsi və yenilənmiş infrastrukturu turizm baxımından cəlbedici edir. Bu mədəni və ekoloji turizm potensialı nəzərə alınaraq, respublikamızda turizm sektorunun inkişafı ən prioritet hədəflərdən biri elan edilibdir. Məqsəd təbiət abidələrimizi və xalqımızın böyük keçmişinin izini

yaşadan qədim mədəniyyət yadigarlarını geniş miqyasda tanıtmaqdır.

Vurğulamaq istərdim ki, müstəqillik illərində memarlıq və şəhərsalma sahəsində sosial inkişafın əsası kimi qiymətləndirilən mühüm işlər görmüşük. Yaşayış yerlərinin mühəndislik və nəqliyyat infrastrukturu modernləşdirilib, yüksək səviyyəli hotellər və neçə-neçə sosial obyekt inşa edilibdir. Bu işlərin uğurla gerçəkləşdirilməsi memarlarımızın fəaliyyəti ilə sıx əlaqəlidir. Onlar ölkəmizdə mədəni özünəməxsusluğun qorunub saxlanılması və əcdadlardan qalma mirasın gələcək nəsillərə layiqli şəkildə çatdırılması naminə var qüvvələri ilə çalışırlar.

Son illər memarlarımızın, xüsusən tarixi şəhərlər və kütləvi turizm arasında ahəngdarlığın təmin edilməsi üçün Beynəlxalq Memarlar İttifaqı ilə münasibətləri zəminində göstərdiyi təşəbbüs və atdığı addımlar təqdirəlayiqdir.

Ümidvaram ki, forum çərçivəsində memarların tarixi yerlərdə kütləvi turizmin idarə olunmasında roluna dair aparacağınız diskussiya və fikir mübadilələri, irəli sürəcəyiniz tövsiyə və təkliflər turizmin aktual məsələlərinin həllinə öz töhfəsini verəcək, həmçinin əməkdaşlığınızın daha da dərinləşdirilməsi və yeni istiqamətlərinin müəyyənləşdirilməsinə xidmət edəcəkdir.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 iyun 2019-cu il*

## «BAKI ÜRƏK GÜNLƏRİ» VI BEYNƏLXALQ KONQRESİNİN VƏ AVRASİYA ÜRƏK-DAMAR CƏRRAHLARI CƏMİYYƏTİNİN XV KONFRANSININ İŞTİRAKÇILARINA

Hörmətli konqres və konfrans iştirakçıları!

Sizi – Azərbaycan kardioloqlarını, kardiocərrahlarını və müxtəlif ölkələrdən respublikamızın paytaxtına gəlmiş alimləri səmimi salamlayır, konqresinizin işinə uğurlar və insanların sağlamlığı naminə nəcib fəaliyyətinizdə hər birinizə yeni nailiyyətlər arzu edirəm.

Kardiologiya və ürək-damar cərrahiyyəsinin inkişafında özünəməxsus mövqeyi ilə seçilən ənənəvi Bakı Konqresi bu gün təbabətin yeni müalicə üsulları və texnologiyalarının Azərbaycanda tətbiqinə layiqli töhfələr verməkdədir. Dünyanın mötəbər tibb mərkəzlərini təmsil edən tanınmış kardioloq alim və cərrahların iştirakı ürək-damar xəstəliklərinin müalicəsinə dair son elmi nailiyyətlərin müzakirə ediləcəyi konqresinizin yüksək nüfuzunun göstəricisidir. Gənc mütəxəssislər üçün təcrübə məşğələlərinin keçirilməsi isə onun elmi-praktiki əhəmiyyətini xüsusilə artırır.

Avrasiya Ürək-Damar Cərrahları Cəmiyyətinin XV konfransı ilə birgə təşkil edilmiş hazırkı konqresin xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsinə həsr olunmasının rəmzi mənası vardır. Heydər

Əliyev ölkəmizdə səhiyyə sisteminin davamlı təkmilləşdirilməsi üçün kifayət qədər geniş imkanlar yaratmışdır. Sonrakı dövr ərzində Azərbaycan səhiyyə sisteminin inkişafı, həmçinin kardiologiyanın dünya standartları səviyyəsinə yüksəldilməsi istiqamətində xeyli işlər görülübdür. Dünyanın məşhur kardioloji mərkəzlərində aparılan mürəkkəb əməliyyatların hazırda ölkəmizdə yeni nəsil kardioloqlar tərəfindən müvəffəqiyyətlə gerçəkləşdirilməsi təqdirəlayiqdir.

Ümidvaram ki, kardiologiyanın və ürək-damar cərrahiyyəsinin aktual məsələlərinin qabaqcıl mütəxəssislərin iştirakı ilə ətraflı müzakirəsi həkimlərimizin xarici əlaqələrini daha da möhkəmləndirəcək, beynəlxalq təcrübədən qarşılıqlı faydalanmaqla, bütövlükdə tibb elminin inkişafına xidmət edəcəkdir.

*Ən xoş arzularla,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 iyun 2019-cu il*

**PORTUQALİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MARSELU REBELU DE SOUZAYA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Portuqaliya Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq daim inkişaf edəcək və genişlənəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Portuqaliya xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 iyun 2019-cu il*

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ**

Hörmətli Vladimir Vladimiroviç!

Dövlət bayramınız – Rusiya Günü münasibətilə Sizi və Sizin şəxsinizdə dost Rusiyanın bütün xalqını Azərbaycan xalqı adından və şəxsən öz adımdan ürəkdən təbrik edirəm.

Azərbaycan ilə Rusiyanı ənənəvi sıx dostluq, mehriban qonşuluq və əməkdaşlıq münasibətləri bağlayır. Sevindirici haldır ki, xalqlarımızın iradəsini əyani şəkildə ifadə edən bu münasibətlər indi strateji tərəfdaşlıq xarakteri kəsb edir. Ölkələrimizin ən geniş spektrli məsələlər üzrə qarşılıqlı fəaliyyəti xüsusi məmnunluq doğurur. Əminəm ki, Azərbaycan ilə Rusiya arasında hərtərəfli və çoxplanlı əməkdaşlıq xalqlarımızın və ölkələrimizin mənafeyi, regionda sülh, təhlükəsizlik və sabitlik naminə bundan sonra da durmadan inkişaf edəcək və möhkəmlənəcəkdir.

Hörmətli Vladimir Vladimiroviç, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və uğurlar, bütün rusiyalılara sülh və firavanlıq arzu edirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 iyun 2019-cu il*

**QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KASIM-JOMART TOKAYEVƏ**

Hörmətli Kasım-Jomart Kemeleviç!

Qazaxıstan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Azərbaycan–Qazaxıstan münasibətləri xalqlarımızın ortaq tarixi, milli-mənəvi köklərindən qaynaqlanır. İnanıram ki, belə möhkəm təməllərə əsaslanan dövlətlərarası münasibətlərimizin və strateji tərəfdaşlığımızın bundan sonra da inkişaf etdirilməsi, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımızın daha da dərinləşdirilməsi istiqamətində birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, qardaş Qazaxıstan xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *10 iyun 2019-cu il*

## BEYNƏLXALQ MEMARLAR İTTİFAQININ PREZİDENTİ TOMAS VONYERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*10 iyun 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 10-da Beynəlxalq Memarlar İttifaqının prezidenti Tomas Vonyerın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlət başçısı «Tarixi şəhərlərdə kütləvi turizm» Beynəlxalq Memarlıq Forumunun Bakıda keçirilməsindən məmnunluğunu ifadə edərək, bu tədbirin beynəlxalq əməkdaşlıq baxımından önəmini vurğuladı. Bakının qədim tarixi ənənələrə malik olduğunu vurğulayan Prezident İlham Əliyev bununla bərabər, paytaxtımızın sürətlə inkişaf etdiyini və müasir infrastrukturun yaradıldığını nəzərə çatdırdı. Dövlət başçısı hazırda ölkəmizin xarici turistlər üçün cəlbedici məkana çevrildiyini qeyd edərək, qonaqların sayının durmadan artdığını bildirdi.*

*Beynəlxalq Memarlar İttifaqının prezidenti Tomas Vonyer Bakıya gələn hər bir qonaqda buradakı inkişaf proseslərinin, tarixi və müasir tikililərin dərin təəssürat hissi doğurduğunu qeyd etdi. O, Bakının beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilməsinin və infrastruktura qoyulan investisiyaların pay-*

*taxtımızın inkişafına böyük töhfə verdiyini vurğuladı. Tomas Vonyer nümayəndə heyəti adından «Tarixi şəhərlərdə kütləvi turizm» Beynəlxalq Memarlıq Forumunun keçirilməsi ilə bağlı göstərilən qonaqpərvərliyə görə Azərbaycan tərəfinə, o cümlədən Azərbaycan Memarlar İttifaqına minnətdarlığını bildirdi. Qonaq Bakının inkişafı ilə bağlı əldə edilmiş nailiyyətlərlə əlaqədar təbriklərini dövlət başçısına çatdırdı.*

*Xoş sözlərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev Bakıda həyata keçirilən inkişaf prosesləri ilə yanaşı, tarixi irsin qorunması işinə də böyük diqqət verildiyini qeyd etdi. Dövlət başçısı Azərbaycanda əhalinin sayının artması ilə əlaqədar müvafiq infrastruktur layihələrinin də həyata keçirilməsinə böyük önəm verildiyini bildirdi.*

*Sonda xatirə şəkli çəkdirildi.*

## ÜMUMDÜNYA GÖMRÜK TƏŞKİLATININ İNFORMASİYA TEXNOLOGİYALARI VƏ TEXNOLOJİ İNNOVASİYALAR KONFRANS VƏ SƏRGİSİ İŞTİRAKÇILARINA

Hörmətli konfrans və sərgi iştirakçıları!

Sizi ölkəmizin paytaxtı Bakı şəhərində Ümumdünya Gömrük Təşkilatının İnformasiya Texnologiyaları və Texnoloji İnnovasiyalar üzrə 2019-cu il Konfrans və Sərgisinin açılışı münasibətilə salamlayır, konfrans və sərginin işinə uğurlar arzulayıram.

Belə mötəbər tədbirin Bakı şəhərində keçirilməsini çox yüksək qiymətləndirirəm.

Öz əlverişli coğrafi yerləşməsinə görə Asiya və Avropa qitələri arasında körpü rolunu oynayan ölkəmiz Şimal–Cənub və Şərq–Qərb nəqliyyat dəhlizlərində önəmli yer tutur. Azərbaycan mövcud nəqliyyat potensialını və tranzit imkanlarını artırmaqda daim maraqlıdır və bu sahədə irimiqyaslı infrastruktur layihələri həyata keçirərək, böyük sərmayələr qoyur.

Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrində informasiya-kommunikasiya texnologiyalarının tətbiqinə daim böyük önəm verilib, informasiya cəmiyyətinin formalaşması və inkişafı məqsədilə müvafiq milli strategiyalar qəbul edilibdir.

Cəmiyyətimiz üçün vacib olan elektron xidmətlərin təşkili, «Elektron hökumət» üzrə genişmiqyaslı layihələrin həyata keçirilməsi dövlət idarəçiliyində

səmərəliliyin, şəffaflığın və operativliyin artırılmasını təmin edir.

Bu qlobal çağırışlar şəraitində Azərbaycanın gömrük xidmətində də ciddi işlər aparılır. Gömrük işi sahəsində rəqəmsal gömrük inzibatçılığının inkişaf etdirilməsi, biznes proseslərinin, gömrük nəzarətinin təşkilində, gömrük prosedurlarının sadələşdirilməsi və şəffaflığının artırılması istiqamətində ciddi layihələr həyata keçirilir və gömrük sahəsində müasir informasiya və kommunikasiya texnologiyalarının tətbiqinə və istifadəsinə xüsusi önəm verilir.

Ümumdünya Gömrük Təşkilatının hər il keçirdiyi bu tədbirdə dünyada tətbiq olunan qabaqcıl yeniliklərin nümayiş etdirilməsi beynəlxalq əməkdaşlığın zəruriliyini bir daha təsdiq edir.

Ümumdünya Gömrük Təşkilatının «Smart sərhədlər üçün yeni texnologiyalar, ticarət, səyahət və daşımalar üçün yeni imkanlar» mövzusunda konfrans və sərgisinin ölkəmizdə keçirilməsini alqışlayır, konfransın yekunları üzrə səmərəli nəticələrin əldə ediləcəyini, aparılacaq müzakirələrin və keçiriləcək görüşlərin qarşılıqlı əməkdaşlıq əlaqələrinin dərinləşməsinə və bu sahədə yeni təşəbbüslərin meydana çıxmasına mühüm töhfə verəcəyinə ümid edirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *11 iyun 2019-cu il*

## «DİNLƏRARASI VƏ SİVİLİZASİYALAR-ARASI ƏMƏKDAŞLIQDAN BƏŞƏRİ HƏMRƏYLİYƏ» MÖVZUSUNDA VYANADA KEÇİRİLMİŞ BEYNƏLXALQ KONFRANS İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!

Sizi – Avstriya Respublikasının Vyana şəhərində keçirilən «Dinlərarası və sivilizasiyalararası əməkdaşlıqdan bəşəri həmrəyliyə» mövzusunda Beynəlxalq Konfransın təşkilatçılarını və iştirakçılarını səmimi-qəlbdən salamlayıram.

Nüfuzlu beynəlxalq təşkilat rəhbərlərinin, görkəmli elm və din xadimlərinin, ictimaiyyət nümayəndələrinin iştirak etdiyi bu mötəbər konfrans dünyada cərəyan edən ictimai-siyasi proseslərdə və sivilizasiyalararası dialoqda dinlərin və milli mədəniyyətlərin qarşılıqlı münasibətləri kimi aktual məsələlərin müzakirəsinə həsr olunubdur.

Dünyada sülh, dinc birgəyaşayış, humanizm dəyərlərinin təbliği və təşviqi günümüzün vacib məsələlərindəndir. Müasir dövrün çağırışları bəşəriyyət qarşısında ciddi vəzifələr qoyur. Təsadüfi deyil ki, etnik və dini müxtəlifliyin milli sərvət kimi qorunduğu, bütün konfessiyaların azad fəaliyyəti üçün bərabər şərait yaradıldığı Azərbaycan Respublikasında multikulturalizm və tolerantlıq dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Ölkəmiz müxtəlif mədəniyyətlərin ahəngdar münasibətlərinə və humanitar əməkdaşlıq ideyalarına hərtərəfli dəstək verir, bu sahədə çoxsaylı qlobal təşəbbüslər irəli sürür. Ümumdünya

Mədəniyyətlərarası Dialoq və Beynəlxalq Humanitar forumların, BMT Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun, Dünya Dini Liderlərinin Zirvə görüşünün Bakıda keçirilməsi Azərbaycanın bu sahədəki fəaliyyətinin beynəlxalq birlik tərəfindən yüksək dəyərləndirildiyinin göstəricisidir. Biz müxtəlif dinlər və sivilizasiyalar arasında əməkdaşlığın genişlənməsinə, qlobal müstəvidə qarşılıqlı etimad mühitinin yaradılmasına mühüm töhfə olacaq daha bir beynəlxalq tədbirin – Dünya Dini Liderlərinin II Bakı Sammitinin keçirilməsi barədə qərar qəbul etmişik.

Ölkəmizin təşəbbüsü ilə keçirilən hazırkı konfransın təşkilinə Avstriya tərəfindən dəstəyi, konfransın işi üçün yaradılmış şəraiti yüksək qiymətləndirirəm. Bu tədbirin birgə keçirilməsi eyni zamanda, Azərbaycan–Avstriya əlaqələrinin, ölkələrimiz və xalqlarımız arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin bariz nümunəsidir.

İnanıram ki, xoşməramlı niyyətlərə xidmət edən Vyana Beynəlxalq Konfransı konstruktiv müzakirələr ruhunda keçəcək, bəşəri dəyərlərin təbliğinə, xalqlar arasında qarşılıqlı anlaşmaya, sivilizasiyalararası dialoqun, mədəni və mənəvi inteqrasiyanın inkişafına töhfələr verəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, konfransın işinə uğurlar diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *11 iyun 2019-cu il*

## ATƏT PARLAMENT ASSAMBLEYASININ PREZİDENTİ GEORGİ TSERETELİ İLƏ GÖRÜŞ

*11 iyun 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 11-də ATƏT Parlament Assambleyasının prezidenti Georgi Tseretelini qəbul etmişdir.*

*Görüşdə Azərbaycanda iqtisadi inkişafın sabitliyə xidmət etdiyi vurğulandı, Bakıda mühüm beynəlxalq tədbirlərin keçirilməsinin təkcə Azərbaycan üçün deyil, ümumilikdə region üçün önəm daşıdığı bildirildi.*

*Söhbət zamanı Azərbaycan–ATƏT Parlament Assambleyası əlaqələri, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli, əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

# TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN VİTSE-SPİKERİ SÜRƏYYA SADİ BİLGİÇİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*12 iyun 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 12-də Türkiyə Böyük Millət Məclisinin vitse-spikeri Sürəyya Sadi Bilgiçin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi bildirildi, parlamentlərarası əməkdaşlığın əlaqələrimizin möhkəmlənməsi işinə töhfə verdiyi vurğulandı. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli ilə bağlı məsələlər müzakirə edildi, ikitərəfli münasibətlərimizin bundan sonra da möhkəmlənəcəyinə və inkişaf edəcəyinə əminlik bildirildi.*

*Görüşdə Bakıda keçirilən Regional Təhlükəsizlik və Əməkdaşlıq üzrə Parlament Konfransının, eləcə də Dialoq və Əməkdaşlıq üzrə Bakı Parlament Platformasının Təsis Konfransının beynəlxalq parlamentlərarası əməkdaşlığın genişləndirilməsi baxımından önəmi qeyd olundu.*

## ALMANİYA BUNDESTAQININ VİTSE-PREZİDENTİ TOMAS OPPERMANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*12 iyun 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 12-də Almaniya Bundestaqının vitse-prezidenti Tomas Oppermanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Almaniya Bundestaqının vitse-prezidenti Tomas Opperman paytaxtımızda gördüyü dinamik inkişaf proseslərinin nümayəndə heyəti üzvlərinə dərin təəssürat bağışladığını bildirdi. Qonaq Bakıda keçirilən Regional Təhlükəsizlik və Əməkdaşlıq üzrə Parlament Konfransı və Dialoq və Əməkdaşlıq üzrə Bakı Parlament Platformasının Təsis Konfransına toxunaraq, bu tədbirin parlamentlərarası əməkdaşlığın inkişaf etdirilməsi, parlament diplomatiyasının gücləndirilməsi baxımından önəmini qeyd etdi.*

*Dövlət başçısı Bakıda keçirilən Regional Təhlükəsizlik və Əməkdaşlıq üzrə Parlament Konfransının, eləcə də Dialoq və Əməkdaşlıq üzrə Bakı Parlament Platformasının Təsis Konfransının beynəlxalq əlaqələrin gücləndirilməsində rolunu vurğulayaraq, bu tədbirin fikir mübadiləsinin aparılması, parla-*

*mentlərarası əməkdaşlığın genişləndirilməsi işinə töhfə verdiyini bildirdi.*

*Görüşdə Azərbaycan–Almaniya ikitərəfli münasibətləri, ölkəmizdə gedən iqtisadi inkişaf, o cümlədən kənd təsərrüfatı, turizm, informasiya texnologiyaları və digər sahələrdə mövcud əməkdaşlıq imkanları müzakirə edildi.*

*Söhbət zamanı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## ÜMUMDÜNYA GÖMRÜK TƏŞKİLATININ BAŞ KATİBİ KUNİO MİKURİYA İLƏ GÖRÜŞ

*12 iyun 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 12-də Ümumdünya Gömrük Təşkilatının baş katibi Kunio Mikuriyanı qəbul etmişdir.*

*Ümumdünya Gömrük Təşkilatının baş katibi Kunio Mikuriya Bakıda keçirilən Ümumdünya Gömrük Təşkilatının İnformasiya Texnologiyaları və Texnoloji İnnovasiyalar Konfransı və Sərgisinin yüksək səviyyədə təşkil olunmasına görə dövlətimizin başçısına minnətdarlığını bildirdi və 50-dən artıq ölkənin, eləcə də özəl və ictimai sektorun nümayəndələrinin burada bir araya gəlməsini tədbirlərin önəminin göstəricisi kimi dəyərləndirdi. Qonaq Bakının mühüm beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrildiyini vurğulayaraq, ölkəmizdə göstərilən qonaqpərvərliyi yüksək qiymətləndirdi. Kunio Mikuriya eyni zamanda, Azərbaycanın Ümumdünya Gömrük Təşkilatının Gömrük Əməkdaşlıq Şurasının sədr müavini, Avropa regionu üzrə rəhbər seçilməsi münasibətilə təbriklərini çatdırdı və qeyd etdi ki, Azərbaycan bu sahədə gələcəkdə təkcə Avropada deyil, daha geniş məkanda mühüm rol oynaya bilər. O, ölkəmizin infor-*

*masiya texnologiyaları sahəsində uğurlu beynəlxalq əməkdaşlıq həyata keçirdiyini söylədi.*

*Xoş sözlərə görə minnətdarlığını bildirən dövlətimizin başçısı Bakıda keçirilən Ümumdünya Gömrük Təşkilatının İnformasiya Texnologiyaları və Texnoloji İnnovasiyalar Konfransı və Sərgisinin önəminə toxunaraq, paytaxtımızda mühüm beynəlxalq tədbirlərin keçirilməsinin artıq ənənə xarakteri daşıdığını qeyd etdi və bunun ölkəmizin inkişafına öz töhfəsini verdiyini bildirdi. Prezident İlham Əliyev Azərbaycanda informasiya texnologiyaları sahəsinin sürətlə inkişaf etdiyini, buraya böyük investisiyaların qoyulduğunu və bu sahənin geniş potensiala malik olduğunu vurğuladı.*

*Görüşdə ölkəmizin Ümumdünya Gömrük Təşkilatı ilə uğurlu əməkdaşlıq həyata keçirdiyi bildirildi, əlaqələrimizin perspektivləri barədə fikir mübadiləsi aparıldı.*

## NİDERLAND–AZƏRBAYCAN DOSTLUQ QRUPUNUN SƏDRİ RENE VAN DER LİNDEN İLƏ GÖRÜŞ

*12 iyun 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 12-də Niderland Krallığı Senatının sabiq sədri, Avropa Şurası Parlament Assambleyasının sabiq prezidenti, Niderland–Azərbaycan Dostluq Qrupunun sədri Rene Van der Lindeni qəbul etmişdir.*

*Görüşdə Azərbaycan Respublikası ilə Niderland Krallığı arasında əlaqələrin inkişafından məmnunluq bildirildi, Rene Van der Lindenin əməkdaşlığımızın genişləndirilməsi işinə verdiyi töhfə yüksək qiymətləndirildi.*

*Söhbət zamanı Azərbaycanda iqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən nəqliyyat sahəsində Niderland şirkətlərinin iştirakının perspektivləri ətrafında fikir mübadiləsi aparıldı, gələcək əməkdaşlıq məsələlərindən danışıldı.*

## ƏSASLI ŞƏKİLDƏ TƏMİR VƏ BƏRPA OLUNMUŞ YANARDAĞ QORUĞUNUN AÇILIŞINDA İŞTİRAK

*12 iyun 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva iyunun 12-də əsaslı şəkildə təmir və bərpa olunmuş Yanardağ Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunun açılışında iştirak etmişlər.*

*Xatırladaq ki, 2017-ci il dekabrın 29-da Prezident İlham Əliyev Yanardağ Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunda olmuşdur. Dövlət başçısı o zaman buradakı çatışmazlıqları və qeyri-məqbul şəraitin olduğunu qeyd edərək, bunun ölkəmizin ümumi inkişaf səviyyəsinə uyğun gəlmədiyini bildirmişdi. Prezident İlham Əliyev oradaca qoruqdakı şəraitin qısa müddət ərzində müasir səviyyəyə çatdırılması barədə aidiyyəti dövlət qurumlarına ciddi tapşırıq vermişdi.*

*Dövlət başçısı qoruğun rəmzi açılışını bildirən lenti kəsdi.*

*Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya görülən işlər barədə məlumat verdi.*

*Bildirildi ki, qoruq yeni konsepsiyaya uyğun olaraq bərpa edilib. Abşeron rayonunun Məmmədli kəndində*

*yerləşən Yanardağ abidəsinin ərazisi Prezident İlham Əliyevin 2007-ci ildə imzaladığı sərəncamla Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğu elan edilibdir. Qoruğun fəaliyyəti Nazirlər Kabinetinin 2018-ci il 7 iyun tarixli müvafiq Qərarına əsasən, Dövlət Turizm Agentliyi tərəfindən tənzimlənir. Dövlət başçısının ötən ilin iyulunda imzaladığı sərəncama əsasən, Yanardağ Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunun müasir standartlara uyğunlaşdırılması və ərazisində yeni turizm infrastrukturunun yaradılması məqsədilə 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan vəsait ayrılıb. Qoruğun bərpası Dövlət Turizm Agentliyinə həvalə olunubdur.*

*Aparılmış yenidən qurulma işləri çərçivəsində ümumi sahəsi 64,55 hektar olan qoruğun ərazisində 3 tematik zonadan ibarət muzey, açıq hava konsertləri üçün nəzərdə tutulmuş 500 nəfərlik amfiteatr, sənətkar emalatxanaları və mağazalar, yerli sənətkarlar tərəfindən keramika, şüşə, taxta və parça kimi təbii materiallardan hazırlanmış suvenirlərin satışı məntəqəsi, parkinq turistlərin ixtiyarına verilib. 2007-ci ildən qoruq statusuna malik olan Yanardağda, həmçinin ərazidə tapılmış, yerli əhali tərəfindən istifadə edilmiş qədim daşlar və sənətkarlıq nümunələrinin, qaval daşının nümayiş etdirildiyi açıq hava muzeyi yaradılıb. Bundan əlavə, qoruq ərazisində yerli gənc rəssamların əsərlərinin nümayiş olunduğu kafe, əyləncə zonası, uşaqlar üçün oyun meydançası fəaliyyət göstərəcək. Fiziki məhdudiyyətli şəxslərin Yanardağ alovunun ətrafına enməsi üçün xüsusi yol çəkilib.*

*Bütövlükdə qoruq ərazisi abadlaşdırılaraq, müxtəlif ağaclar əkilibdir.*

*Qoruğun tərkibində Yanardağ – əbədiyaşar alov təbii abidəsi ilə yanaşı, digər maddi və mədəni irs nümunələri, təbiət abidələri də vardır. Bu abidələrə «Qurd yuvası» adlanan ilkin ibtidai icma dövrünə aid mağaralar, çoxəsrlik tarixə malik və qədim sanduqələrlə zəngin iki qəbiristanlıq, müalicəvi kükürdlü su bulaqları, hələ də aktiv fəaliyyətdə olan Qırməki palçıq vulkanı, Əlidaşı piri, Kardaşı iri təbii qaya daşları, Qırməki vadisi, qədim kurqan aiddir.*

*Ölkəmizdə mövcud olan tarixi, dini, mədəni abidələrin bərpası dövlət siyasətində mühüm yerlərdən birini tutur. Prezident İlham Əliyevin diqqəti sayəsində belə obyektlərin təmiri, bərpası, yenidən qurulması istiqamətində çox böyük işlər görülüb. Dövlət başçısının imzaladığı sərəncama əsasən, Yanardağ Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunun müasir standartlara uyğunlaşdırılması və ərazisində yeni turizm infrastrukturunun yaradılması da bu istiqamətdə görülən işlərin ardıcıl xarakter aldığını nümayiş etdirir. Azərbaycanda dövlət səviyyəsində bu istiqamətdə həyata keçirilən işlərə Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da sanballı töhfələr verir. Bu layihələrin icrası bir neçə mühüm amili birləşdirir. İlk növbədə, bu işlər tarixi, dini, mədəni abidələrə dövlətimiz tərəfindən nə qədər həssaslıqla yanaşıldığını göstərir, Azərbaycanın qədim, tarixi diyar olduğunu bir daha sübut edir. Bundan başqa, turistləri cəlb etmək baxımından da*

*Yanardağ Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunun müasir standartlara uyğunlaşdırılması mühüm rol oynayır.*

*Yanardağ qoruğunda görülən işlərlə tanışlıqdan sonra xatirə şəkli çəkdirildi.*

## AVROPA İTTİFAQININ KOMİSSARI YOHANNES HANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*13 iyun 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 13-də Avropa İttifaqının Avropa Qonşuluq Siyasəti və Genişlənmə Danışıqları Direktorluğunun komissarı Yohannes Hanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi qeyd olundu, münasibətlərimizin hazırkı vəziyyəti və perspektivləri müzakirə edildi.*

*Avropa Qonşuluq Siyasəti və Genişlənmə Danışıqları Direktorluğunun komissarı Yohannes Han bu gün iştirak etdikləri V Azərbaycan–Avropa İttifaqı biznes-forumuna toxunaraq, buraya xeyli sayda iştirakçının gəlməsini bu tədbirə verilən önəm kimi dəyərləndirdi və forum çərçivəsində iqtisadiyyatın şaxələndirilməsi ilə bağlı çox səmərəli müzakirələrin aparıldığını qeyd etdi.*

*Dövlət başçısı Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi ilə bağlı mühüm işlərin görüldüyünü və artıq yaxşı nəticələrin əldə edildiyini bildirdi. Prezident İlham Əliyev müxtəlif sahələrdə, o cüm-*

*lədən sənaye, kənd təsərrüfatı, turizm və digər sahələrdə nailiyyətlər əldə edildiyini vurğulayaraq, bütün bunların ölkənin davamlı iqtisadi inkişafı üçün yaxşı əsas yaratdığını söylədi.*

*Avropa İttifaqının Avropa Qonşuluq Siyasəti və Genişlənmə Danışıqları Direktorluğunun komissarı Yohannes Han Azərbaycanı Avropa İttifaqı üçün aparıcı tərəfdaş ölkələrdən biri kimi qiymətləndirdi və Avropa İttifaqının ölkəmiz ilə bütün sahələrdə əməkdaşlığa xüsusi diqqət yetirdiyini vurğuladı. Qonaq onu da qeyd etdi ki, Azərbaycan ilə Avropa İttifaqı arasında yeni saziş üzrə danışıqların yekunlaşması əməkdaşlığın keyfiyyətcə yeni səviyyəyə yüksəlməsinə ciddi təkan verəcək. O, Azərbaycanın Avropa İttifaqı üçün enerji sahəsində əsas strateji tərəfdaş olduğunu bildirdi və «Cənub Qaz Dəhlizi» layihəsinin qısa zamanda yekunlaşacağına əminliyini ifadə etdi. Komissar Yohannes Han, həmçinin qeyd etdi ki, Azərbaycan Avropanı geniş Avrasiya məkanı ilə birləşdirən mühüm nəqliyyat dəhlizidir və bu sahədə saziş və layihələrin imzalanması və həyata keçirilməsinin tərəfdarıdır.*

*Söhbət zamanı Azərbaycan ilə Avropa İttifaqı arasında təhsil sahəsində əməkdaşlığın inkişaf etdirilməsinin də vacibliyi vurğulandı.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, beynəlxalq və regional təhlükəsizlik məsələləri müzakirə olundu.*

**LÜKSEMBURQUN BÖYÜK HERSOQU ƏLAHƏZRƏT ANRİYƏ**

Əlahəzrət!

Ölkənizin milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Lüksemburq xalqına daim sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 iyun 2019-cu il*

**XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ XANIM KOLİNDA QRABAR-KİTAROVİÇƏ**

Hörmətli xanım Prezident!

Ölkənizin milli bayramı – Dövlətçilik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan–Xorvatiya münasibətlərinin inkişaf dinamikası məmnunluq doğurur. İnanıram ki, ölkələrimiz arasındakı strateji tərəfdaşlıq, qarşılıqlı maraq doğuran bir sıra sahələrdə əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da müvəffəqiyyətlə davam edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Xorvatiya xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21 iyun 2019-cu il*

**SLOVENİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BORUT PAHORA**

Hörmətli cənab Prezident!

Sloveniya Respublikasının milli bayramı – Dövlətçilik Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, ölkələrimiz arasındakı münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq daim dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Sloveniya xalqına əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21 iyun 2019-cu il*

**KANADANIN GENERAL-QUBERNATORU XANIM JÜLİ PEYETƏ**

Hörmətli xanım General-qubernator!

Ölkənizin milli bayramı – Kanada Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–Kanada əlaqələri, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Kanada xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 iyun 2019-cu il*

## TƏHLÜKƏSİZLİK ŞURASININ KATİBİ VƏZİFƏSİNƏ YENİ TƏYİN OLUNMUŞ RAMİL USUBOVLA GÖRÜŞ

*25 iyun 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 25-də Ramil Usubovu Təhlükəsizlik Şurasının katibi vəzifəsinə təyin olunması münasibətilə qəbul etmişdir.*

*Dövlətimizin başçısı Ramil Usubovun uzun illər Daxili İşlər naziri vəzifəsini uğurla icra etdiyini bildirdi. Bu gün Azərbaycanda ictimai-siyasi sabitliyin təmin olunduğunu vurğulayan Prezident İlham Əliyev ölkə qarşısında duran vəzifələrin lazımi səviyyədə icrası üçün təhlükəsizlik tədbirlərinin daim gündəlikdə olmasının önəmini qeyd etdi. Prezident İlham Əliyev Ramil Usubovun Təhlükəsizlik Şurasının katibi kimi məsul vəzifənin öhdəsindən layiqincə gələcəyinə əminliyini ifadə etdi və ona fəaliyyətində uğurlar arzuladı.*

*Ramil Usubov ona etimad göstərib Təhlükəsizlik Şurasının katibi kimi məsul vəzifəyə təyin edilməsi ilə əlaqədar dövlət başçısına minnətdarlığını ifadə etdi. O bildirdi ki, Daxili İşlər naziri vəzifəsində çalışdığı uzun illər ərzində rəhbərlik etdiyi nazirlik öz fəaliyyətində xalqımızın ümummilli lideri Heydər Əli-*

*yevin, sonrakı dövrlərdə isə Prezident İlham Əliyevin yüksək diqqət və qayğısını daim hiss edib. Ramil Usubov Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə sabitliyin, əmin-amanlığın təmin olunması istiqamətində həyata keçirilən tədbirlərin böyük əhəmiyyət daşıdığını xüsusi olaraq vurğuladı. O, Təhlükəsizlik Şurasının katibi vəzifəsində ona göstərilən yüksək etimadı doğrultmaq üçün səylərini əsirgəməyəcəyini bildirdi.*

## CƏMŞİD NAXÇIVANSKİ ADINA HƏRBİ LİSEYDƏ YENİDƏN QURULMA İŞLƏRİNDƏN SONRA YARADILMIŞ ŞƏRAİTLƏ TANIŞLIQ

*26 iyun 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev iyunun 26-da Müdafiə Nazirliyinin Cəmşid Naxçıvanski adına Hərbi Liseyində yenidən qurulma və əsaslı təmir işlərindən sonra yaradılmış şəraitlə tanış olmuşdur.*

*Müdafiə naziri Zakir Həsənov dövlət başçısına əsaslı təmir işləri barədə məlumat verdi.*

*Bildirildi ki, Cəmşid Naxçıvanski adına Hərbi Lisey 11 hektar ərazini əhatə edir. Burada tikinti, təmir və yenidən qurulma işlərinə 2018-ci ilin fevral ayında başlanılıb. Hərbi liseyin ərazisində qərargah binası, kursant yataqxanası, tibb məntəqəsi, hamam-camaşırxana-qazanxana kompleksi inşa edilib, eləcə də mövcud binalar əsaslı təmir olunub və qurğular yerləşdirilibdir. Hərbi liseydə sahəsi 1800 kvadrat-metr olan üçmərtəbəli yeni qərargah binası inşa olunub. Ərazidə geniş yaşıllaşdırma işləri aparılıb, abadlıq tədbirləri görülübdür. Binanın qarşısında Cəmşid Naxçıvanskinin büstü və ətrafında xatirə kompleksi yerləşir.*

*Liseyin ərazisində tibb məntəqəsi də inşa olunub. İkimərtəbəli 32 çarpayılıq tibb məntəqəsində funksional diaqnostika, həkim, oftalmoloji kabinetlər, laboratoriya, sarğı otağı, təxirəsalınmaz yardımın göstərilməsi üçün otaq, xidməti otaqlar, palatalar və müasir yeməkxana yaradılıbdır. Buradakı şərait şəxsi heyətə yüksək səviyyədə ixtisaslı tibbi yardımın göstərilməsinə imkan verir.*

*Hərbi liseydə yaradılmış qapalı idman kompleksində kursantların idmanla məşğul olmaları üçün hərtərəfli imkanlar vardır. Kompleksdə trenajor, gimnastika zalları, mini-futbol, basketbol və voleybol oyunlarının keçirilməsi üçün meydança yaradılıbdır.*

*Sonra dövlət başçısı Hərbi liseydəki Heydər Əliyev Muzeyi ilə tanış oldu. Hələ sovet dövründə gələcəkdə müstəqil Azərbaycanın milli zabit kadrlarının yetişdirilməsi zərurətini uzaqgörənliklə diqqətə alan ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1971-ci ildə Bakıda Cəmşid Naxçıvanski adına Hərbi Lisey yaradıldı. Ölkəmizə rəhbərliyinin bütün dövrlərində bu hərbi təhsil ocağına ən yüksək səviyyədə diqqət və qayğı göstərən ümummilli lider Heydər Əliyevin 1998-ci və 2002-ci illərdə imzaladığı sərəncamlarla Hərbi liseyin yaradılmasının 25 və 30 illik yubileyləri dövlət səviyyəsində geniş qeyd edildi. Muzeydə ulu öndər Heydər Əliyevin və Prezident, Ali Baş Komandan İlham Əliyevin Azərbaycanda nizami ordu quruculuğu, Silahlı Qüvvələrimizin hərbi qüdrətinin artırılması, o cümlədən Hərbi liseyin inkişafına gös-*

*tərdikləri yüksək diqqət və qayğını əks etdirən fotolar, sənədlər və nəşrlər nümayiş olunur.*

*Dövlət başçısı İlham Əliyev Hərbi liseydə təhsil alan kursantların yaşayış və məişət şəraitinin yaxşılaşdırılması məqsədilə inşa olunmuş dördmərtəbəli yataqxana korpusu ilə də tanış oldu. Yeni tikilmiş binada konfrans zalı, ideoloji, məişət və digər otaqlar zəruri avadanlıqlarla təchiz edilib. Yataqxanada kursantların qalması, istirahəti və asudə vaxtlarının səmərəli təşkili üçün hər cür şərait vardır. Liseydə üçmərtəbəli yataqxana korpusu da əsaslı təmir olunubdur.*

*Sonra Prezident İlham Əliyev Hərbi liseyin klubunda yaradılmış şəraitlə tanış oldu. Liseydə aparılmış yenidən qurulma və təmir işləri çərçivəsində klubun binası da əsaslı təmir edilib. Klubun 350 yerlik binasında mədəni-maarif tədbirlərinin keçirilməsi üçün bütün şərait vardır. Burada eyni zamanda, ölkəmizin və liseyin həyatında baş verən əlamətdar hadisələri qeyd etmək mümkündür.*

*Daha sonra dövlət başçısı kursant yeməkxanasında yaradılmış şəraitlə maraqlandı. İkimərtəbəli yeməkxana binası da əsaslı təmir olunub. Bütün avadanlıqlarla təchiz edilmiş binada eyni vaxtda 600 kursant nahar edə bilər. Burada yemək zalı, mətbəx və təsərrüfat otaqları, ərzaq və soyuducu anbarlar vardır. Dövlət başçısının qayğısı sayəsində bu gün Azərbaycan Ordusunda xidmət edən hərbi qulluqçuların qidalanması məsələsinə də xüsusi diqqət yetirilir.*

*Hərbi liseyin tədris korpusunda yaradılmış şəraitlə tanış olan Prezident İlham Əliyevə məlumat verildi ki, dördmərtəbəli bina da əsaslı təmir edilib. Burada tədris prosesi Azərbaycan dili, ictimaiyyət, riyaziyyat, informatika, xarici dil və təbiət fənn bölmələri üzrə həyata keçirilir. Korpusda fənn kabinetlərində, kimya və fizika laboratoriyalarında kursantların bilik və hazırlıqlarının artırılması üçün hər cür şərait yaradılıbdır.*

*Yenidən qurulma işləri zamanı liseyin təntənəli mərasimlər, sıra təlimləri, düzülüşlər, şəxsi heyətin sıra baxışı, döyüş və fiziki hazırlıq, eləcə də digər tədbirlərin keçirilməsi üçün sahəsi 3000 kvadratmetr olan sıra meydanı salınıb və tribuna inşa edilibdir.*

*Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqəti sayəsində son illərdə Azərbaycan Ordusu istər döyüş qabiliyyətinə, istər maddi-texniki bazasına, istərsə də müasir silah və sursat arsenalına görə dünyada lider yerlərdən birini tutur. Bu göstərir ki, Azərbaycanda ordu quruculuğuna dair bütün mühüm tədbirlər ardıcıl surətdə, dünya təcrübəsi nəzərə alınmaqla, uğurla reallaşdırılır. Dövlət başçısının rəhbərliyi ilə Silahlı Qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində atılan addımlar bu gün milli ordumuzun dünyanın ən qüdrətli orduları sırasına daxil olmasına imkan yaradıb. Görülən işlərin nəticəsidir ki, bu gün ordumuz dünyanın ən güclü 50 ordusu sırasındadır.*

*Prezident, Ali Baş Komandan İlham Əliyev 26 iyun – Silahlı Qüvvələr Günü münasibətilə Cəmşid Naxçı-*

*vanski adına Hərbi Liseyin kursantlarını və müəllimlərini təbrik etdi.*

**İ l h a m  Ə l i y e v:** Silahlı Qüvvələr Günü münasibətilə Sizi təbrik edir, hər birinizə uğurlar arzulayıram. Arzu edirəm ki, siz gözəl hərbçi kimi özünüzü göstərəsiniz.

Bilirsiniz ki, bu məktəbin təməlini ulu öndər Heydər Əliyev qoyubdur. Onun təşəbbüsü ilə bu məktəb 1971-ci ildə yaradılıbdır. Ulu öndər həmişə məktəbin fəaliyyətinə böyük diqqət yetirib. Hələ o vaxt bilirdi ki, bizə milli hərbçi kadrlar lazım olacaq və belə də oldu.

Bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Bizim ordumuzun gücü, döyüş qabiliyyəti, peşəkarlığı artır. Bu gün ordumuz ən yüksək səviyyədədir.

Ulu öndərin misilsiz xidmətləri Azərbaycan xalqının qəlbində daim yaşayır. Biz onun işini davam etdiririk. Ordu quruculuğu prosesi uğurla, sürətlə gedir. Müasir səviyyədə işlər görülür, hərbi texnika alınır, döyüş qabiliyyəti artır. Bir sözlə, bu gün Azərbaycan Ordusu öz gücünü göstərir və göstərməlidir. Biz müharibə şəraitində yaşayırıq. Müharibə hələ bitməyib və biz hər an hazır olmalıyıq ki, doğma torpaqlarımızı işğalçılardan azad edək. Əminəm ki, o gün gələcək və Azərbaycan ərazi bütövlüyünü bərpa edəcəkdir.

Bizim imkanlarımız artır, maddi vəziyyətimiz yaxşılaşır, orduya lazım olan texnika, silah və sursat alınır. Bir sözlə, biz bütün bu işləri edirik ki, daha

güclü orduya malik olaq və öz ərazi bütövlüyümüzü bərpa edək.

Azərbaycan bu gün bütün sahələrdə uğurla inkişaf edir. Əminəm ki, bu inkişaf dayanıqlı olacaq. Sizə – burada oxuyan kursantlara və çalışan müəllimlərə yeni uğurlar, cansağlığı arzulayıram. Vətənin qorunması işində siz həmişə fəal olmalısınız və öz gücünüzü göstərməlisiniz.

Sizi və bütün Azərbaycan xalqını Silahlı Qüvvələr Günü münasibətilə təbrik edir və sizə yeni uğurlar arzulayıram. Sağ olun.

## UNESKO-nun BAŞ DİREKTORU ODRE AZULENİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*30 iyun 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 30-da UNESKO-nun baş direktoru xanım Odre Azulenin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə UNESKO arasında əməkdaşlığın uğurla inkişaf etdiyi bildirildi, UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının Bakıda keçirilməsinin əhəmiyyətinə toxunuldu, dünyada bu tədbirə böyük marağın olduğu qeyd edildi.*

*UNESKO-nun baş direktoru xanım Odre Azule Azərbaycanın mədəniyyətlərarası dialoqa verdiyi töhfəni yüksək qiymətləndirdi və ölkəmizdə mədəni və tarixi irsin qorunması və təbliği istiqamətində görülən işlərin əhəmiyyətini qeyd etdi. Xanım Odre Azule Azərbaycan Elm Muzeyinin təsis edilməsi təşəbbüsünə UNESKO-nun dəstək verdiyini bildirdi.*

*Mədəniyyətlərarası dialoqa toxunan dövlət başçısı «Bakı prosesi»nin artıq böyük qlobal platformaya çevrildiyini və müxtəlif beynəlxalq təşkilatlar tərəfindən dəstəkləndiyini diqqətə çatdırdı. Prezident İlham Əliyev bildirdi ki, ölkəmizdə mədəni və təbii irsin*

*qorunması gündəlikdə duran ən önəmli məsələlərdən biridir.*

*Söhbət zamanı Azərbaycan ilə UNESKO arasında elm və təhsil sahələrində əməkdaşlığın inkişafından məmnunluq ifadə edildi, bu sahədə UNESKO-nun xətti ilə həyata keçirilən layihələrin önəmi vurğulandı.*

**BELARUS RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ALEKSANDR LUKAŞENKOYA**

Hörmətli Aleksandr Qriqoryeviç!

Sizi milli bayramınız – Böyük Vətən müharibəsində Belarusun alman faşist işğalçılarından azad edilməsi ilə əlamətdar olan Müstəqillik Günü münasibətilə ürəkdən təbrik edirəm.

Belarus həqiqətən, tarixi əhəmiyyətli bu hadisənin 75-ci ildönümünü müstəqilliyin və suverenliyin möhkəmləndirilməsi, dövlət idarəçiliyinin və siyasi sistemin təkmilləşdirilməsi və modernləşdirilməsi, dinamik və ardıcıl sosial-iqtisadi inkişaf yolunda inamla irəliləyən, firavanlaşan ölkə kimi qarşılayır.

Bu xoş fürsətdən istifadə edərək, Sizi ən yüksək səviyyədə təşkil olunmuş və bütün idman həvəskarları üçün əsl bayrama çevrilmiş, onlara parlaq çıxışlar və unudulmaz anlar bəxş etmiş ikinci Avropa oyunlarının uğurla keçirilməsi münasibətilə təbrik etmək istəyirəm.

Bu genişmiqyaslı idman bayramı xalqlar və ölkələr arasında sülhün, etimadın və qarşılıqlı anlaşmanın möhkəmləndirilməsinə şərait yaradan olimpiya hərəkatının sarsılmaz prinsiplərinə Belarusun sadiqliyini bir daha əyani şəkildə nümayiş etdirdi.

Hörmətli Aleksandr Qriqoryeviç, Sizə möhkəm cansağlığı və bütün təşəbbüslərinizdə uğurlar, qardaş Belarus xalqına isə sülh və firavanlıq arzu edirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 iyul 2019-cu il*

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB DONALD TRAMPA**

Hörmətli cənab Prezident!

Amerika Birləşmiş Ştatlarının milli bayramı– Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı yetirirəm.

Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatlarını dostluq və əməkdaşlıq münasibətləri birləşdirir. Qarşılıqlı maraq doğuran bir sıra sahələrdə əməkdaşlığımız strateji tərəfdaşlıq xarakteri daşıyır. Biz beynəlxalq təhlükəsizliyin təmin edilməsi, terrorizmə qarşı mübarizə məsələlərində çoxtərəfli qaydada fəaliyyətimizi bundan sonra da qətiyyətlə davam etdirmək əzmindəyik. Təşəbbüsçüsü olduğumuz və müvəffəqiyyətlə gerçəkləşdirdiyimiz «Cənub Qaz Dəhlizi» layihəsi isə Avropanın enerji təhlükəsizliyinin gücləndirilməsinə mühüm töhfədir. Enerji mənbələrinin və nəqlinin şaxələndirilməsinə xidmət edən layihələrimizin Birləşmiş Ştatlar tərəfindən dəstəklənməsi bizim üçün çox əhəmiyyətlidir.

Bütün bunlarla yanaşı, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin hələ də həll olunmaması xalqımızın qarşılaşdığı ən ağrılı problem ola-

raq qalmaqdadır. Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzü nəticəsində əzəli Azərbaycan torpaqları olan Dağlıq Qarabağ və ətrafındakı 7 rayon işğal olunub, 1 milyondan çox soydaşımız doğma yurd-yuvasından didərgin düşübdür. Münaqişə beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin tələblərinə, Helsinki Yekun Aktının müddəalarına əsasən, ölkəmizin ərazi bütövlüyü çərçivəsində, sülh yolu ilə və ədalətli şəkildə həll olunmalıdır. Biz bu işdə ATƏT-in Minsk qrupunun həmsədri kimi, ABŞ-ın ardıcıl və qətiyyətli mövqeyinə və şəxsən Sizin, cənab Prezident, səylərinizə böyük ümidlər bəsləyirik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Amerika xalqına daim sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 iyul 2019-cu il*

## «BAKER HUGHES, A GE COMPANY» ŞİRKƏTİNİN RƏHBƏRİ LORENZO SİMONELLİ İLƏ GÖRÜŞ

*3 iyul 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 3-də «Baker Hughes, a GE company» şirkətinin sədri, prezidenti və baş icraçı direktoru Lorenzo Simonellini qəbul etmişdir.*

*Qəbula görə minnətdarlığını bildirən Lorenzo Simonelli Prezident İlham Əliyevlə görüşdən məmnun olduğunu vurğuladı. O, Azərbaycanda böyük inkişaf proseslərinin şahidi olduğunu və ölkəmizdə neft və qaz sənayesi, turizm, idman və digər sahələrdə əldə olunmuş nailiyyətlərin önəmini qeyd etdi. Lorenzo Simonelli Azərbaycanda XIX əsrin 40-cı illərində sənaye üsulu ilə ilk neft quyusunun qazıldığını vurğulayaraq, təmsil etdiyi şirkətin Azərbaycanın neft və qaz sənayesinin inkişafına töhfə verməsindən məmnunluq hissi keçirdiyini söylədi.*

*Xoş sözlərə görə minnətdarlığını bildirən dövlət başçısı İlham Əliyev «Baker Hughes, a GE company» şirkətinin Azərbaycanla neftayırma və digər sahələrdə əməkdaşlığının uğurlu nəticələrinin ölkəmizin enerji sektorunun modernləşdirilməsinə töhfə verdiyini yüksək qiymətləndirdi. Azərbaycanda əldə olunmuş nailiy-*

*yətlərə toxunan Prezident İlham Əliyev ölkəmizin enerji, sənaye və digər sahələrdə böyük inkişaf əldə etməsinin əhəmiyyətini qeyd etdi. Dövlətimizin başçısı Lorenzo Simonellinin Azərbaycana səfərinin səmərəli keçəcəyinə əminliyini bildirdi.*

*Görüşdə əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## PİRALLAHI RAYONUNDA MƏCBURİ KÖÇKÜNLƏR ÜÇÜN SALINMIŞ YENİ YAŞAYIŞ KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİ

*5 iyul 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva iyulun 5-də Bakının Pirallahı rayonunda 306 məcburi köçkün ailəsi üçün salınmış yeni yaşayış kompleksinin istifadəyə verilməsi mərasimində iştirak etmişlər.*

*Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev görülən işlərlə bağlı məlumat verdi. Bildirildi ki, Pirallahı rayonunda yataqxanalarda və digər inzibati binalarda müvəqqəti məskunlaşmış 306 məcburi köçkün ailəsi üçün çoxmərtəbəli binalardan ibarət yeni yaşayış məhəlləsi dövlət başçısının 2011-ci ildə imzaladığı sərəncama əsasən yaradılıb. Sifarişçisi Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu, podratçısı isə «Kristal Abşeron» MTK olan yeni yaşayış məhəlləsinin ötən il başlanılmış tikinti işləri yüksək keyfiyyətlə başa çatdırılıb. Layihə üzrə doqquzmərtəbəli 3 bina tikilib ki, bunlardan ikisi 72, biri isə 162 mənzillidir. Yaşayış kompleksinə məktəb də daxildir. Burada, həmçinin digər zəruri infrastruktur obyektləri tikilib, ərazidə*

*geniş abadlıq və yaşıllaşdırma işləri görülübdür. Kompleks salınarkən elektrik, su, qaz, istilik təchizatı və suvarma sisteminin, rabitə və televiziya şəbəkəsinin qurulmasına xüsusi diqqət göstərilib. Bu, ölkə üzrə məcburi köçkünlər üçün salınmış sayca 104-cü müasir yaşayış kompleksidir.*

*Mənzillərdə yaradılmış şəraitlə tanış olan Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya məlumat verildi ki, təmirli mənzillərdən 37-si birotaqlı, 107-si ikiotaqlı, 126-sı üçotaqlı, 36-sı isə dördotaqlıdır. Mənzillərin ümumi sahəsi 24000 kvadratmetrdir. Yeni yaşayış kompleksində hazırda Pirallahı rayonundakı yataqxanalarda və digər inzibati binalarda müvəqqəti məskunlaşmış məcburi köçkün ailələri mənzillə təmin olunacaqlar.*

*Bu istiqamətdə atılan mühüm addımlardan danışarkən, Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi ilə həyata keçirilən tədbirləri də vurğulamaq lazımdır. Artıq Qaradağ rayonunda 1026 məcburi köçkün ailəsi üçün yaşayış kompleksi tikilib, Abşeron rayonunun Masazır, Mehdiabad, həmçinin Sabunçu rayonunun Ramana qəsəbələrində 470 mənzil məcburi köçkünlərə təqdim edilibdir. Heydər Əliyev Fondu tərəfindən alınmış 465 mənzilə Binəqədi rayonu, 9-cu mikrorayon ərazisindəki Təcili Tibbi Yardım Stansiyasının yarımçıq binasından məcburi köçkün ailələri köçürülüb. Sumqayıtdakı 1005 məcburi köçkün ailəsi üçün inşa olunmuş yaşayış binalarının da açılışı olub. Qeyd edək ki, 2007-ci ildə sonuncu çadır düşərgəsinin ləğv edilməsi ilə başlanmış proses*

*nəticəsində qaçqın və məcburi köçkünlər üçün indiyədək 3,5 milyon kvadratmetr yaşayış sahəsi olan müasir qəsəbələr və çoxmərtəbəli binalardan ibarət yaşayış kompleksləri salınıbdır. 2018-ci ilin sonunadək 58223 ailə və ya 300 minə yaxın qaçqın və məcburi köçkünün mənzil şəraiti yaxşılaşdırılıb. Təkcə ötən il 5923 məcburi köçkün ailəsi yeni mənzillərə köçürülüb. 2019-cu ilin birinci rübündə isə 2227 məcburi köçkün ailəsi yeni mənzillərlə təmin olunubdur.*

*Sonra Laçın rayonu Bozlu tam orta məktəbində yaradılmış şəraitlə tanış olan Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya məlumat verildi ki, bu təhsil ocağı 220 şagird-yerlikdir. Yüksək şəraiti ilə seçilən, müasir təlim avadanlıqları ilə diqqət çəkən məktəbdə təlim-tədris üçün hər cür şərait yaradılıb. Məktəbin kompüter otağında şagirdlər informasiya texnologiyalarının sirlərinə yiyələnəcəklər.*

*Prezident İlham Əliyevin təhsilin inkişafına göstərdiyi diqqət və qayğı təsdiqləyir ki, bu sahə dövlət siyasətinin mühüm prinsipləri sırasına daxil edilib. Bu proses təkcə paytaxtla məhdudlaşmır, bölgələri də əhatə edir, doğma yurdlarından didərgin düşən soydaşlarımızın təhsilinin yüksək səviyyədə qurulmasına xidmət edir.*

*Məktəbin idman zalı da zəruri avadanlıqlarla təchiz edilib və burada şagirdlərin bədən tərbiyəsi ilə məşğul olmaları üçün hər cür şərait vardır.*

*Sonra dövlət başçısı və xanımı məcburi köçkünlərlə görüşdülər.*

**İ l h a m  Ə l i y e v:** Bu gün çox əlamətdar bir gündür. Pirallahı rayonunda məcburi köçkünlər üçün gözəl evlər istifadəyə verilir. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm. Bu çox gözəl hadisədir. Bu günə qədər yararsız binalarda yaşamış köçkünlər indi bu binalarda yaşayacaqlar. Bu bir daha göstərir ki, dövlət məcburi köçkünlərə çox böyük qayğı, diqqət göstərir.

Son illərdə böyük işlər görülüb, həm Bakı şəhərində, həm də bütün bölgələrdə. Məcburi köçkünlərin məişət problemləri uğurla həll olunur. Pirallahı rayonunda yaşayan köçkünlər üçün bu gün bu binaların istifadəyə verilməsi bir daha göstərir ki, dövlət bu məsələ ilə bağlı çox ciddi tədbirlər görür.

Bu il 6000-dən çox məcburi köçkün ailəsi üçün yeni mənzillər, fərdi evlər tikilib istifadəyə veriləcəkdir. Burada isə 306 ailə üçün gözəl şərait yaradılıbdır. Sizi bir daha bu hadisə münasibətilə ürəkdən təbrik edirəm.

**S a k i n l ə r:** Çox sağ olun, cənab Prezident.

**İ l h a m  Ə l i y e v:** Ümumiyyətlə, Pirallahı rayonunun inkişafı uğurlu gedir. Burada infrastruktur obyektləri inşa edilir, yaradılır, binalar tikilir, təmir olunur. Yəni Pirallahı adası tam yeni görkəm alıb. Artıq bir neçə ildir ki, burada gedən quruculuq işləri çox müsbət nəticə verir. Siz yaxşı bilirsiniz ki, əvvəllər Pirallahıda vəziyyət o qədər də ürəkaçan deyildi. İndi isə bütün lazımi şərait yaradılıbdır.

**S e v d a  M u s a y e v a** (*Laçın rayonundan məcburi köçkün*): Çox hörmətli cənab Prezident! Əziz Mehriban xanım! İcazə verin, Sizi Pirallahı sakinləri – yəni mən

özümü də artıq Pirallahı sakini hesab edirəm, 27 ildir burada məskunlaşmışıq – məcburi köçkünlər adından və bir təhsil işçisi adından salamlayım, Sizə öz dərin minnətdarlığımı bildirim. Qaçqınlara və məcburi köçkünlərə göstərdiyiniz bu diqqət və qayğıya görə Sizə minnətdarlığımı, təşəkkürümü bildirirəm. Azərbaycanın inkişafı, tərəqqisi, dünya birliyində qüdrətli dövlətə çevrilməsi baxımından apardığınız həm xarici, həm daxili siyasəti mən bir təhsil işçisi kimi bəyənir və dəstəkləyirəm. Mən təhsil işçisi olduğuma görə bu sahədən danışacağam. Hər bir dövlətin inkişafı üçün, bilirsiniz ki, əsas onun elmi, təhsilidir. Bu danılmazdır. Ümummilli lider Heydər Əliyev həmişə müəllimə, təhsilə, elmə yüksək qiymət verirdi. Elə bu baxımdan onun apardığı siyasətin davamını sizlərdə də hiss edirik, görürük.

*Sevda Musayeva görülən bütün bu işlərə, onlara göstərilən diqqətə və məcburi köçkün ailələri üçün yeni məktəblərin inşasına, onların müasir avadanlıqlarla təmin edilməsinə görə Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya bir daha minnətdarlığını bildirdi:*

– Bir də, Mehriban xanım, Sizə gözaydınlığı verirəm. Mən də bir anayam, Siz də bir anasınız. Oğlunuz Vətən qarşısında öz borcunu şərəflə yerinə yetirib geri qayıdıbdır. Gözünüz aydın olsun.

**Mehriban Əliyeva:** Çox sağ olun. Allah bütün balaları qorusun.

**İlham Əliyev:** Çox sağ olun, təşəkkür edirəm. Biz bu şəraiti məcburi köçkünlər üçün yaradırıq. Hələ

də ağır vəziyyətdə yaşayan köçkünlərimiz var və onların problemləri də gündəlikdədir. İndi genişmiqyaslı işlər aparılır ki, tezliklə bütün köçkünlər yaxşı şəraitlə təmin olunsunlar. Ötən əsrin 90-cı illərinin əvvəllərində Ermənistanın Azərbaycana qarşı apardığı işğalçı siyasətin nəticəsində torpaqlarımız işğal altına düşüb. Bizim əsas vəzifəmiz ərazi bütövlüyümüzü bərpa etməkdir. Bu istiqamətdə işlər aparılır, həm siyasi-diplomatik sahədə, həm də ordu quruculuğu sahəsində.

Məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üçün Dövlət Proqramı da qəbul edilib. Proqram əsasında evlər tikilir, qəsəbələr salınır. 100-dən çox qəsəbə salınıb və bu istiqamətdə bundan sonra da işlər aparılacaqdır. Qeyd etdiyim kimi, bu il ən azı 6000 ailə yeni mənzillərlə təmin ediləcək. Gələn il ondan da çox yeni evlərin tikilməsi nəzərdə tutulur.

**Mehriban Əliyeva:** Bir daha təbrik edirəm.

**Kəmalə Musayeva** (*Laçın rayonundan məcburi köçkün*): Hörmətli cənab Prezident, hörmətli Mehriban xanım! Biz də Sizi salamlayırıq və məskunlaşdığımız Pirallahı rayonunda Sizi yenidən görməyimizə çox şadıq. Sizin apardığınız uğurlu və məqsədyönlü siyasətin nəticəsidir ki, bu gün doğma Azərbaycanımız gündən-günə yenilənir, sürətli və dinamik inkişaf yolundadır. Siz daim məcburi köçkünlərə öz diqqət və qayğınızı göstərirsiniz. Hörmətli Mehriban xanım, biz çox yaxşı xatırlayırıq ki, Siz Birinci vitse-prezident təyin olunandan sonra ilk

müşavirənizi məhz məcburi köçkün və qaçqınların sosial problemlərinin həllinə həsr etdiniz. Siz xeyirxah, nəcib əməllərinizlə bizim xalqımız, vətənimiz üçün seçilmişlərdənsiniz. Bunun üçün biz Sizə çox minnətdarıq.

**Mehriban Əliyeva:** Çox sağ olun, çox minnətdaram.

**Kəmalə Musayeva:** Hörmətli cənab Prezident, hörmətli Mehriban xanım, bizim məskunlaşdığımız Pirallahı rayonuna Sizin diqqətiniz də gözümüzün qarşısındadır. Yəni çox qısa müddətdə yaradılmasına baxmayaraq, Pirallahı rayonunun da siması gündən-günə, ildən-ilə yenilənir. Pirallahı gündən-günə gözəlləşir, burada yeni zavodlar açılıbdır. Şpris zavodu açılıb, Dərman zavodu tikilir, yeni-yeni parklar salınır. Məcburi köçkünlər üçün belə gözəl qəsəbə salınıbdır. Pirallahı rayonunun sakinləri üçün sosial evlər tikilir. Biz bütün bunlar üçün Sizə dərin minnətdarlığımızı bildiririk.

*10 saylı Birləşmiş Şəhər Xəstəxanasında çalışdığını deyən Kəmalə Musayeva səhiyyə sahəsində aparılan islahatları da vurğuladı. Pirallahı rayon sakinləri, məcburi köçkünlər və səhiyyə işçiləri adından dövlət başçısına və xanımına bir daha minnətdarlığını bildirən Kəmalə Musayeva Prezident İlham Əliyevin rəhbərliyi ilə doğma torpağa qayıdacaqlarına inandıqlarını qeyd etdi.*

**İlham Əliyev:** Çox sağ olun, təşəkkür edirəm. Xoş sözlərə görə sizə minnətdaram.

Pirallahı rayonunda doğrudan da işlər sürətlə gedir. Quruculuq işləri geniş vüsət alıbdır. İş yerlərinin

yaradılması istiqamətində də işlər aparılır. Qeyd etdiyiniz kimi, bir müddət bundan əvvəl Şpris zavodu istifadəyə verildi. Digər böyük Dərman zavodunun tikintisi gedir. Bu zavodun fəaliyyəti nəticəsində yenə də iş yerlərinin yaradılması nəzərdə tutulur. Burada, Pirallahı rayonunda köçkünlər uzun illərdir ki, yaşayırlar. Köçkünlərin əksəriyyəti Laçın rayonundandır. Laçın rayonu 1992-ci ilin may ayında işğal altına düşübdür. Laçın və Kəlbəcər rayonlarının işğal altına düşməsi Ermənistanla Dağlıq Qarabağ arasında əlaqə yaratdı. Ulu öndər Heydər Əliyevin səyləri nəticəsində Ermənistanın işğalçı siyasətinin qarşısının alınması üçün böyük işlər görüldü. Uğurlu Horadiz əməliyyatı aparıldı. Beləliklə, Azərbaycan işğal olunmuş torpaqların bir hissəsini azad edə bildi.

Sonrakı dövrlərdə ordu quruculuğu istiqamətində görülən işlərin nəticəsində 2016-cı ildə torpaqlarımızın bir hissəsi də işğalçılardan azad edildi. Ərazi bütövlüyümüzün bərpası bizim üçün əsas məsələdir.

**Cəbrayıl Heydərov** (*Laçın rayonundan məcburi köçkün*): Möhtərəm cənab Prezident, hörmətli Mehriban xanım! Sizi Pirallahı rayonunda görməyimizə çox şadıq. Sizi salamlayırıq, «Xoş gəlmisiniz!» – deyirik.

Biz sadə insanlar Sizi görməyə həmişə sevinirik. Sizin hər gəlişiniz bizdə qurub-yaratmaq eşqi yaradır. Mən Pirallahı rayonunda məskunlaşmış laçınlı məcburi köçkün kimi, qeyd etmək istəyirəm ki, Pirallahı rayonu gündən-günə çiçəklənir, inkişaf edir. Sizin rəhbərliyinizlə həyata keçirilən islahatlar nəticəsində Pirallahı rayonunda böyük quruculuq-abadlıq işləri aparılıb, bütün infrastruktur layihələri icra olunubdur. Mən Pirallahı rayonunda sahibkarlıq fəaliyyəti ilə məşğul oluram. Sahibkarlıq fəaliyyətinə başlayanda cəmi 2 nəfər işçimiz olub. Bu gün

50-yə yaxın işçimiz vardır. Biz işimizlə xalqımıza, dövlətimizə xidmət etməyə çalışırıq. Sizin dəstəyiniz, xüsusilə son illərdə verdiyiniz sərəncamlar, fərmanlar, sahibkarlara göstərdiyiniz diqqət və qayğı nəticəsində biz Pirallahı rayonunda sahibkarlıq fəaliyyəti ilə – bunu tam səmimiyyətlə deyirəm, cənab Prezident – heç bir maneə olmadan, tam sərbəst məşğuluq. Rayonda da bizim üçün əlverişli şərait yaradılıb. Qarşımızda duran əsas məqsəd ölkəmizin idxaldan asılılığını azaltmaq, yeni iş yerləri yaratmaq, insanların həyat şəraitini yaxşılaşdırmaqdır. Rayonumuzda aparılmış işlərin nəticəsində yeni iş yerlərinin açılması, əlverişli biznes mühitinin yaradılması, əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması bizim işimizə də öz müsbət təsirini göstəribdir. Cənab Prezident, Pirallahı rayonunda yaşayan məcburi köçkünlərin əksəriyyəti Laçın rayonundandır. Bu rayonda 286 ailə yaşayır, 1104 nəfər məskunlaşıb. 286 ailədən 110-u Laçın rayonundandır.

*Cəbrayıl Heydərov qeyd etdi ki, onlar da ölkəmizin, dövlətimizin inkişafı üçün əllərindən gələni edir və ən böyük arzuları torpaqlarımızın işğaldan azad olunması, sahibkarlıq fəaliyyətini öz doğma torpaqlarında davam etdirməkdir. Prezident İlham Əliyevin həm daxili, həm də xarici siyasətini dəstəklədiklərini nəzərə çatdıran Cəbrayıl Heydərov dövlət başçısının torpaqlarımızın azad olunması üçün haqq səsimizi bütün ali məclislərdən dünyaya çatdırdığını vurğuladı:*

– Sonda Pirallahıda məskunlaşmış məcburi köçkünlər adından, ailəmiz adından Sizə minnətdarlığımı bildirirəm. Həmişə Sizi dəstəkləyirik, dəstəkləyəcəyik. Allah Sizi qorusun, cənab Prezident.

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun, təşəkkür edirəm. Sahibkarlığın inkişafı ilə bağlı çox ciddi addımlar atılıb. Hesab edirəm ki, bu istiqamətdə nailiyyətlər çox ümidvericidir. Bu gün Azərbaycanda güclü sahibkarlar sinfi yaranıbdır. İqtisadi inkişafımızın şaxələndirilməsi istiqamətində sahibkarların çox böyük rolu vardır. Dövlət öz tərəfindən çox ciddi islahatların aparılması istiqamətində addımlar atır və bu islahatlar yaxşı nəticələr verir.

Bizim gəlirlərimiz artır. Bu ilin 6 ayında gəlirlərimiz təxminən 400 milyon manatdan çox artıbdır. Biz ilk növbədə, bu vəsaiti sosial layihələrə istiqamətləndiririk. Bildiyiniz kimi, bu il çox ciddi sosial paket təsdiqləndi, müavinətlər, o cümlədən məcburi köçkünlər üçün nəzərdə tutulmuş müavinətlər 50 faiz artırıldı. Problemli kreditlərlə bağlı məsələ öz həllini tapdı. Maaşlar, pensiyalar artırıldı. Bu, əlbəttə ki, islahatların birbaşa nəticəsidir. Çünki bu islahatlar bizə əlavə gəlir gətirir və biz bu gəliri ilk növbədə, sosial sahəyə yönəldirik. Sosial sahə bundan sonra da bizim üçün prioritet sahə olacaq. Çünki Azərbaycan vətəndaşları ildən-ilə daha da yaxşı yaşamalıdır və biz buna nail olacağıq.

# İTALİYA RESPUBLİKASI VENETO REGİONUNUN PREZİDENTİ LUKA ZAYANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*6 iyul 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 6-da İtaliya Respublikası Veneto regionunun prezidenti Luka Zayanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Prezident İlham Əliyev Azərbaycan–İtaliya əməkdaşlığının siyasi, iqtisadi, energetika, mədəniyyət və digər sahələrdə çox uğurla inkişaf etdiyini və ölkələrimizin strateji tərəfdaşlıq əlaqələrini möhkəmləndirdiklərini söylədi.*

*Dövlət başçısı bildirdi ki, qarşılıqlı maraqlara əsaslanan Azərbaycan–İtaliya əlaqələri uğurlu əməkdaşlığın gözəl nümunələrindən biridir. Prezident İlham Əliyev ötən il İtaliya Prezidenti Sercio Mattarellanın Azərbaycana səfərini bu istiqamətdə atılmış önəmli addımlardan biri kimi dəyərləndirdi. İtaliya şirkətlərinin Azərbaycanda böyük layihələrdəki uğurlu fəaliyyətinə toxunan Prezident İlham Əliyev «Cənub Qaz Dəhlizi» layihəsinin əhəmiyyətini vurğuladı. «Cənub Qaz Dəhlizi»nin əməkdaşlıq üçün genişmiqyaslı bir layihə olduğunu qeyd edən dövlət başçısı bu layihənin Azərbaycan–İtaliya əlaqələrinə və*

*eyni zamanda, regional əməkdaşlığın inkişafına əsaslı töhfə verdiyini və marşrut boyunca yerləşən ölkələri bir-birinə yaxınlaşdırdığını diqqətə çatdırdı. Dövlət başçısı İtaliya nümayəndə heyətinin ölkəmizə səfərinin Azərbaycan–İtaliya əlaqələrinin daha da inkişaf etdirilməsi üçün önəmli addım olacağını vurğuladı.*

*Qəbula görə minnətdarlığını bildirən İtaliyanın Veneto regionunun prezidenti Luka Zaya iki ölkə arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi baxımından regionlararası əlaqələrin əhəmiyyətini vurğuladı. O, təmsil etdiyi region haqqında dövlət başçısına məlumat verərək, əməkdaşlığımızın inkişafı üçün böyük potensialın olduğunu bildirdi. Azəbaycanın İtaliyanın Veneto regionunda yaxşı tanıdığını qeyd edən Luka Zaya «Venesiya Biennalesi» Beynəlxalq İncəsənət Sərgisi çərçivəsində Azərbaycan pavilyonunun daim böyük maraqla qarşılandığını söylədi. O eyni zamanda, Bakıda keçirilən UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının önəmini də vurğuladı. Görüşdə iştirak edən İtaliya Respublikası Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyinin Dövlət katibi Quqlielmo Pikki Azərbaycan ilə İtaliya arasında strateji əlaqələrin mövcudluğunu qeyd edərək, ölkələrimizin əməkdaşlığının daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğunu bildirdi. O, TAP layihəsinin yekunlaşmaq üzrə olduğunu vurğulayaraq, «Cənub Qaz Dəhlizi» layihəsinin əhəmiyyətini bir daha qeyd etdi.*

*Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## «XAN SARAYI İLƏ BİRGƏ ŞƏKİNİN TARİXİ MƏRKƏZİ»NİN UNESKO-nun ÜMUMDÜNYA İRS SİYAHISINA DAXİL EDİLMƏSİ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli həmvətənlər!

Bu gün Bakıda UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasında Azərbaycanın «Xan sarayı ilə birgə Şəkinin tarixi mərkəzi» UNESKO-nun Ümumdünya irs siyahısına daxil edilibdir.

Azərbaycanın ən qədim şəhərlərindən olan Şəkinin tarixi hissəsi yüzillər boyu ölkəmizin mədəniyyət mərkəzlərindən biri kimi tanınıbdır. Unikal abidələrlə zəngin Şəki şəhərinin tarixi hissəsinin mühafizəsi və inkişafı daim dövlətin diqqətində saxlanılıbdır.

Son illər Azərbaycanın mədəni irsinin dünya səviyyəsində tanıdılması və qorunması istiqamətində çoxsaylı layihələr həyata keçirilibdir. Qeyd edilməlidir ki, bu fəaliyyətlər beynəlxalq təşkilatlarla, xüsusən dünya mədəniyyəti, təhsili və elminə məsul olan UNESKO ilə sıx əməkdaşlıq şəraitində gerçəkləşdirilir. Təsadüfi deyil ki, «İçərişəhər, Qız qalası və Şirvanşahlar Saray Kompleksi», «Qobustan Qaya Sənəti Mədəni Landşaftı» UNESKO-nun Ümumdünya irs siyahısında, həmçinin xalqımızın qeyri-maddi mədəni irsinin 13 nümunəsi UNESKO-nun Qeyri-maddi mədəni irs

siyahısında yer alır. Bu hadisələr Azərbaycan xalqının ümumbəşər mədəniyyətinə verdiyi töhfənin beynəlxalq miqyasda bir daha etirafıdır.

Əziz həmvətənlər!

Şəkinin tarixi mərkəzində keçmişimizi özündə təcəssüm etdirən Şəki Xan sarayı, karvansaralar, məscid və minarələr, qədim körpülər, sənətkarlıq emalatxanaları və yaşayış evləri bu gündən etibarən təkcə xalqımızın deyil, bəşəriyyətin mədəni irsi hesab olunur.

UNESKO tərəfindən «Xan sarayı ilə birgə Şəkinin tarixi mərkəzi»nin Ümumdünya irsi elan edilməsi münasibətilə bütün Azərbaycan xalqını təbrik edirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 iyul 2019-cu il*

## AZƏRBAYCAN RESPUBLİKASININ DİPLOMATİK XİDMƏT ORQANLARININ 100 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ VI MÜŞAVİRƏNİN İŞTİRAKÇILARINA

Hörmətli müşavirə iştirakçıları!

Sizi salamlayır və Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının 100 illik yubileyi münasibətilə təbrik edirəm.

Şərqdə, müsəlman dünyasında ilk parlament respublikasının – Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması haqqında İstiqlal Bəyannaməsində təsbit olunduğu kimi, bütün millətlərlə dost münasibətlər yaratmaq Cümhuriyyətin xarici siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyən edilmişdir.

Ötən il 100 illik yubileyini qeyd etdiyimiz Azərbaycan Xalq Cümhuriyyəti fəaliyyət göstərdiyi qısa müddət ərzində böyük işlər görə bilmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti Xarici İşlər Nazirliyinin Katibliyinə dair müvəqqəti təlimatın 1919-cu ildə qəbul edildiyi tarix – iyulun 9-u Azərbaycan Respublikasının diplomatik xidmət orqanları əməkdaşlarının peşə bayramı günü kimi qeyd edilir. Bu gün həmin tarixdən 100 il keçir.

Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi, 1991-ci ildə müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikası da Azərbaycan Xalq Cümhuriyyətinin

üzləşdiyi çətinliklərlə qarşılaşmışdı. Ermənistan tərəfindən Azərbaycana qarşı ərazi iddiaları və torpaqlarımızın işğalı, mürəkkəb siyasi proseslər, sosial-iqtisadi problemlər müstəqilliyini yenicə bərpa etmiş Azərbaycan Respublikasının taleyini sual altına qoymuşdu.

1993-cü ilin iyununda xalqın israrlı tələbi ilə Heydər Əliyevin hakimiyyətə qayıdışı tariximizdə dönüş nöqtəsi oldu. Heydər Əliyev Azərbaycanı o ağır vəziyyətdən qurtararaq, inkişaf yoluna çıxardı, ölkəmiz bütün sahələrdə inamla irəliyə doğru addımlamağa başladı və xarici siyasət strategiyamızın təməl prinsipləri müəyyən olundu. Ötən dövr ərzində biz güclü, qüdrətli dövlət qura bildik və bu gün biz əminliklə deyə bilərik ki, Azərbaycan dövləti heç vaxt indiki kimi güclü olmamışdır.

Bu gün Azərbaycan, sözün əsl mənasında, müstəqil siyasət aparan, beynəlxalq aləmdə böyük nüfuza malik olan bir ölkədir. Bizimlə əməkdaşlıq edən ölkələrin sayı daim artır. Biz dünyanın ən mötəbər qurumu olan BMT Təhlükəsizlik Şurasına iki dəfə sədrlik etmişik. Biz bütün digər aparıcı beynəlxalq təşkilatlarla çox sıx əməkdaşlıq edirik. Azərbaycan bütün dünyada etibarlı tərəfdaş kimi tanınır, mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi edir və buna görə də ölkəmizə böyük hörmət və rəğbətlə yanaşırlar.

Ölkəmizin xarici siyasəti uğurlu daxili siyasətimizin davamıdır. Müstəqilliyimizin möhkəmləndirilməsində, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında, ölkəmizin beynəlxalq birliyin fəal üzvünə

çevrilməsində diplomatlarımızın, diplomatik xidmət orqanlarımızın müstəsna xidmətləri vardır.

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünə son qoyulması, işğal olunmuş ərazilərimizin azad edilməsi və ölkəmizin beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyü və suverenliyinin bərpa edilməsi xarici siyasətimizin gündəliyində duran ən vacib məsələdir. Ardıcıl diplomatik səylərimiz nəticəsində beynəlxalq ictimaiyyət ölkəmizin ərazi bütövlüyü və suverenliyini, münaqişənin məhz bu prinsiplər əsasında həllini qətiyyətlə dəstəkləyir.

Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının 100 illik yubileyi münasibətilə Xarici İşlər Nazirliyinin, səfirliklərimizin və nümayəndəliklərimizin əməkdaşlarına, xarici siyasət sahəsində çalışan bütün şəxslərə bir daha ən səmimi təbriklərimi yetirir, Azərbaycanın milli maraqlarının qorunması, ölkəmizin beynəlxalq aləmdə layiqincə təmsil olunması və xarici siyasət xəttinin müvəffəqiyyətlə həyata keçirilməsi kimi məsul və şərəfli işdə uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *8 iyul 2019-cu il*

**MONQOLUSTAN PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB XALTMAAQİYN BATTULQAYA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan–Monqolustan əlaqələri, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq, bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Monqolustan xalqına daim sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *8 iyul 2019-cu il*

## İTALİYA RESPUBLİKASININ TURİZM, MEŞƏÇİLİK, QİDA VƏ KƏND TƏSƏRRÜFATI NAZİRİ CAN MARKO CENTİNAYONUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*8 iyul 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 8-də İtaliya Respublikasının Turizm, Meşəçilik, Qida və Kənd Təsərrüfatı naziri Can Marko Centinayonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlət başçısı Azərbaycan–İtaliya ikitərəfli münasibətlərin yüksək səviyyədə olduğunu, siyasi, iqtisadi və digər sahələrdə əlaqələrimizin genişlənməsindən məmnunluğunu bildirdi. Prezident İlham Əliyev İtaliya Prezidenti Sercio Mattarellanın Bakıya keçənilki səfərini ölkələrimiz arasında münasibətlərin uğurlu inkişafının göstəricisi kimi dəyərləndirdi.*

*Dövlət başçısı əlaqələrimizin müxtəlif istiqamətləri üzrə konkret işlərin həyata keçirildiyini və əməkdaşlıq üçün yeni imkanların açıldığını diqqətə çatdırdı. Prezident İlham Əliyev İtaliya şirkətlərinin Azərbaycanda uzun illər uğurla fəaliyyət göstərdiklərini vurğulayaraq, müxtəlif səviyyəli qarşılıqlı səfərlərin ikitərəfli münasibətlərin inkişafı baxımından önəmini qeyd etdi.*

*Qəbula görə minnətdarlığını bildirən nazir Can Marko Centinayo İtaliya ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin bütün sahələrdə yüksək səviyyədə olduğunu vurğuladı. O, keçən il İtaliya Prezidenti Sercio Mattarellanın ölkəmizə səfərini əlaqələrimizin genişləndirilməsi işinə töhfə verdiyini söylədi. Nazir UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasında iştirak etdiyini bildirərək, həmin sessiyada «Xan sarayı ilə birgə Şəkinin tarixi mərkəzi»nin UNESKO-nun Ümumdünya irs siyahısına daxil olması münasibətilə təbriklərini çatdırdı və bu sessiyanın İtaliya üçün də əlamətdar olduğunu qeyd etdi.*

*Dövlət başçısı UNESKO-nun Ümumdünya İrs Komitəsinin Bakıda keçirilən 43-cü sessiyasının mühüm tədbir olduğunu nəzərə çatdıraraq, bu sessiyada «Xan sarayı ilə birgə Şəkinin tarixi mərkəzi»nin UNESKO-nun Ümumdünya irs siyahısına daxil edilməsini çox əlamətdar tarixi hadisə kimi dəyərləndirdi və Azərbaycanın qədim tarixə və mədəniyyətə malik olduğunu vurğuladı.*

*Söhbət zamanı Azərbaycan ilə İtaliya arasında mədəniyyət və turizm sahələrində əməkdaşlığın genişləndirilməsinə dair fikir mübadiləsi aparıldı, ölkələrimizin mədəni əlaqələrinin inkişafında dahi Azərbaycan şairi Nizami Gəncəvinin heykəlinin Roma şəhərində ucaldılmasının və Azərbaycanın Roma şəhərində aparılan arxeoloji işlərə verdiyi dəstəyin əhəmiyyəti qeyd olundu.*

## AVROPA İTTİFAQI ŞURASININ PREZİDENTİ DONALD TUSK İLƏ GÖRÜŞ

*9 iyul 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iyulun 9-da Avropa İttifaqı Şurasının Prezidenti Donald Tusk ilə təkbətək görüşü olmuşdur.*

*Sonra tərəflər geniş tərkibdə görüşdülər.*

*Prezident İlham Əliyev Avropa İttifaqı Şurasının Prezidenti Donald Tusku qarşıladı.*

**İ l h a m Ə l i y e v:** Cənab Prezident, Azərbaycana xoş gəlmisiniz! Sizi ölkəmizdə görməyə çox şadıq. Mən Sizin Azərbaycana bundan əvvəlki səfərinizi xatırlayıram. O vaxtdan indiyə kimi Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlər uğurla inkişaf edibdir.

Biz çoxsaylı görüşlər keçirmişik və çox uğurla inkişaf edən əməkdaşlığımızla bağlı geniş spektrli məsələləri müzakirə etmişik. Bu çox sahələri əhatə edir və biz tərəfdaşlığımızı yeni səviyyəyə yüksəltməyə nail olmuşuq.

Əminəm ki, səfər çox uğurlu olacaq. Əlbəttə, biz gündəliyimizdə duran məsələləri müzakirə edəcəyik və Avropa İttifaqı ilə Azərbaycan arasında gələcək əməkdaşlığı planlaşdıracağıq. Qarşıdakı illərdə biz tərəfdaşlığın müsbət məcrada inkişafını davam

etdirəcəyik, bu da Azərbaycanın maraqlarına xidmət edir. Ümidvaram ki, uğurla həyata keçirdiyimiz bütün layihələr yaxşı nəticələr verəcək. Bir daha xoş gəlmisiniz! Sizə ölkəmizdə xoş vaxt keçirməyi arzulayıram.

**D o n a l d T u s k** (*Avropa İttifaqı Şurasının Prezidenti*): Təşəkkür edirəm, cənab Prezident. Sizin qonağınız qismində burada – Bakıda, Azərbaycanda olmaq hər zaman böyük məmnuniyyətdir. Bu yəqin ki, mənim Avropa İttifaqı Şurasının Prezidenti qismində Bakıya son səfərimdir. Mənim niyyətim Avropada bizim hamımız üçün Sizin ölkənizlə mümkün qədər ən yaxşı əlaqələrə sahib olmağın nə dərəcədə mühüm olduğunu vurğulamaqdan ibarətdir. Mənim mesajım tamamilə aydındır.

Bizim əlaqələrimizə gəldikdə, Sizin şəxsi rolunuzun, şəxsi iştirakınızın nə dərəcədə əhəmiyyətli olduğunu bilmənizi istəyirəm. Mən Sizin səylərinizi həqiqətən, qiymətləndirirəm. Siz hər zaman çox konstruktivsiniz və Sizin çox müsbət və konstruktiv rolunuz sayəsində bizim görüşlərimiz də olduqca səmərəli keçir. Bir daha təşəkkür edirəm, cənab Prezident.

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Donald Tuskla təkbətək görüşü başa çatdıqdan sonra işçi naharı çərçivəsində geniş tərkibdə görüşü oldu.*

# AVROPA İTTİFAQI ŞURASININ PREZİDENTİ DONALD TUSK İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*9 iyul 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avropa İttifaqı Şurasının Prezidenti Donald Tusk iyulun 9-da mətbuata bəyanatlarla çıxış etmişlər.*

## Azərbaycan Prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident, əziz qonaqlar, xanımlar və cənablar!

İlk növbədə, mən bir daha Avropa İttifaqı Şurasının Prezidenti cənab Donald Tusku Azərbaycanda salamlamaq istərdim. Bu, cənab Prezidentin ölkəmizə ilk səfəri deyil, Avropa İttifaqı Şurasının Prezidenti qismində ikinci səfəridir. Mən dəfələrlə Brüsseldə səfərdə olmuşam. Beləliklə, bu bizim çox fəal siyasi dialoq apardığımızı göstərir. Cənab Prezidentin bugünkü səfəri bir daha nümayiş etdirir ki, Avropa Komissiyası ilə Azərbaycan arasında əlaqələrin çox müsbət dinamikası vardır.

Bu gün təkbətək və nümayəndə heyətlərinin iştirakı ilə görüşlərimiz zamanı biz ikitərəfli əməkdaşlığımıza dair geniş spektrli məsələləri, regional inkişaf və təhlükəsizlik məsələlərini, yeni sazişlə bağlı Avropa Komissiyası ilə Azərbaycan arasında davam edən danışıqları müzakirə etdik. Danışıqların perspektivləri ilə bağlı fikirlərimizi ifadə etdik. Danışıqlar uğurla davam edir. Bir çox məsələlər artıq öz həllini tapıb. Hazırda biz yaxşı tərəfdaşlıq ruhunda digər məsələlər üzərində işləyirik. Ötən il Avropa Komissiyası ilə Azərbaycan arasında «Tərəfdaşlıq prioritetləri» sənədi qəbul olundu. Bu çox mühüm sənəddir. Burada Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığına dəstək ifadə olunur. Bu gün Cənab Prezidentlə təkbətək görüşümüz zamanı mən ona Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı mövqemiz barədə məlumat verdim. Münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə əsasən həll olunmalıdır. Uzun illərdir ərazilərimiz erməni işğalı altındadır. 1 milyondan çox qaçqın və məcburi köçkün bu təcavüz və işğaldan əziyyət çəkir. Bizim qəti mövqemiz ondan ibarətdir ki, münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. Səylərimiz münaqişənin ən tez bir zamanda həllinə yönəlib. Münaqişənin indiyədək həll olunmamasının əsas səbəbi Ermənistanın qeyri-konstruktiv mövqeyidir. Qeyd etməliyəm ki, beynəlxalq ictimaiyyətin və ATƏT-in Minsk qrupunun səyləri münaqişənin tez bir zamanda

həllinə yönəlməlidir. Status-kvo qəbuledilməzdir və dəyişməlidir. Status-kvonun dəyişməsi Azərbaycan ərazilərinin işğaldan azad edilməsinin başlanılması deməkdir.

Bu gün biz, həmçinin enerji təhlükəsizliyi, nəqliyyat sektoru ilə bağlı məsələləri də müzakirə etdik. Azərbaycan və Avropa İttifaqı bu sahələrdə çox konstruktiv əməkdaşlıq edir. «Cənub Qaz Dəhlizi» layihəsi uğurla həyata keçirilir. Nəqliyyat sektoruna gəlincə, Azərbaycanda logistika və nəqliyyat sahəsinə yatırılan investisiyalar bizə mühüm nəqliyyat «hab»ına çevrilmək imkanı verib. Şərq–Qərb və Şimal–Cənub nəqliyyat dəhlizləri ölkəmizin ərazisindən keçir. Sözsüz ki, coğrafi mövqeyimiz üstünlük yaradır, lakin nəqliyyat sektoruna investisiyalar yatırılmasaydı, coğrafi mövqeyimiz o qədər də böyük məna kəsb etməzdi. Bu səbəbdən də son illərdə bizim bu istiqamətdəki səylərimiz artıq yaxşı nəticələr verir, Azərbaycan mühüm tranzit ölkəyə çevrilir. Gələcəkdə bizim tranzit ölkə kimi rolumuz sözsüz ki, artacaqdır.

Biz digər sektorlarda da yaxşı əməkdaşlıq edirik. Ümidvarıq ki, bütün planlarımız həyata keçiriləcək. Çünki Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələr tərəfdaşlıq ruhu və qarşılıqlı dəstəyə əsaslanır. Mən bu əlaqələrin inkişafına verdiyi şəxsi töhfəyə görə xüsusilə Prezident Tuska minnətdarlığımı bildirmək istərdim. O, Azərbaycandakı vəziyyətə yaxşı bələddir. Onun bizim yaxınlaşmağımızda rolu çox mühümdür. Biz də öz tərəfimizdən, Avropa İttifaqı ilə Azərbaycan arasında əməkdaşlığı gücləndirmək üçün çox işlər

görürük. Mən həmçinin qeyd etmək istərdim ki, Azərbaycan Avropa İttifaqının bir neçə üzv ölkəsi ilə strateji tərəfdaşlığa dair sənədləri qəbul edib və ya imzalayıb. Bu da bizim əməkdaşlığımıza yaxşı töhfədir.

Cənab Prezident, bir daha xoş gəlmisiniz! Bu gün bizimlə olduğunuza görə təşəkkür edirəm.

**Avropa İttifaqı Şurasının Prezidenti Donald Tuskun bəyanatı**

Əvvəla, bizi səmimi qarşıladığınıza və bizə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə təşəkkür edirəm, cənab Prezident. Bakıya qayıtmaq məndə həqiqətən də məmnunluq hissi doğurur. Vərəqdə «küləklər şəhəri» yazılıb, mən bilirəm, bu, Bakının ənənəvi adıdır, lakin bu gün şəhər çox sakit görünür.

Azərbaycan çox nadir ölkələrdəndir. Ölkəniz özündə ənənə və müasirliyi birləşdirir. Bu günün mürəkkəb coğrafi landşaftındakı strateji mövqenizə görə Siz həm şərqə, həm də qərbə doğru baxırsınız. Əvvəllər də qeyd etdiyim kimi, Avropa İttifaqı Azərbaycanın suverenliyini, müstəqilliyini və ərazi bütövlüyünü dəstəkləyir. Avropa İttifaqı və Azərbaycan hər il bir-birinə daha da yaxınlaşır. Münasibətlərimiz intensivləşib və mənim bugünkü səfərim buna aydın işarədir. 2018-ci ildə biz tərəfdaşlıq üzrə prioritetləri müəyyən etdik və Ümumi Aviasiya Məkanı üzrə Saziş, habelə yeni Avropa İttifaqı–Azərbaycan Sazişi üzrə danışıqlar yekunlaşmaq

üzrədir. İqtisadiyyatlarımız bunlardan faydalanacaq və bizim siyasi, biznes və mədəni münasibətlərimiz dərinləşəcəkdir. Əlbəttə, biz, sözün həqiqi mənasında, bizi birləşdirən «Cənub Qaz Dəhlizi»ni unutmamalıyıq. Bu müsbət məqam tərəfdaşlığımızı daha yüksək səviyyəyə qaldırmalı, bütün xalqlarımız üçün birbaşa faydalı olmalı, Azərbaycanın islahatlar və iqtisadi şaxələndirmə prosesini müşayiət etməlidir.

Azərbaycan özünü nəqliyyat və logistika qovşağına çevirmək üçün mühüm addımlar atıb. Mən Azərbaycanın şərq və qərb, eyni zamanda, şimal və cənub tərəfdaşları üçün iddialarının təcəssümü olan Bakı limanına səfər etməyi səbirsizliklə gözləyirəm. Bu gün Prezident Əliyevlə apardığım müzakirələrdə mən Azərbaycanla əməkdaşlığı daha da dərinləşdirmək üçün Avropa İttifaqının hazır olduğunu bir daha təsdiq etdim və eyni zamanda, bizim qanunun aliliyi, insan hüquqları və əsas azadlıqlara nə qədər böyük önəm verdiyimizi vurğuladım. Avropa İttifaqı hesab edir ki, həqiqətən, açıq olan cəmiyyət uzunmüddətli sabitliyin və bütün vətəndaşlar üçün yaxşı həyatın ən gözəl təminatıdır.

Regionda sabitliyə istinad edərək, biz həmçinin həll olunmamış Dağlıq Qarabağ münaqişəsini də müzakirə etdik. Bu münaqişə hərbi yolla yox, yalnız beynəlxalq hüquq prinsipləri əsasında siyasi yolla öz həllini tapmalıdır. Avropa İttifaqı Minsk qrupu həmsədrlərinin səylərini və Helsinki Yekun Aktının əsas prinsipləri əsasında diqqətin münaqişənin ədalətli və davamlı həllinə yönəlməsini tamamilə dəstəkləyir.

Biz ümumilikdə gərginliyin azalmasını yüksək dəyərləndiririk, lakin təmas xətti boyunca son itkilər həmsədrlər kimi, bizi də narahat edir. Güc tətbiq etməmək üçün təmkinli olmaq önəmlidir, lakin eyni zamanda, sülhə və səmərəli danışıqların aparılmasına imkan verən ab-havanın bərpasına yönəlmiş tədbirlər də mühüm əhəmiyyət kəsb edir. Avropa İttifaqı artıq sülhün qurulmasına yönəlmiş fəaliyyətləri dəstəkləyir və xalqları sülhə hazırlamaq üçün konkret tədbirlərlə kömək etməyə hazırdır.

Nəhayət, bu gün günün ikinci yarısında mən Qobustana səfər etmək şərəfinə nail olacağam. Romalı legionerlər tərəfindən qaya üzərində çəkilən təsvirlər Azərbaycanın minilliklər ərzində Avropada necə də mühüm yer tutduğunun sübutudur. Bu zaman dönəmində mən tərəfdaşlığımızı gələcək illərdə inkişaf etdirəcəyimizi səbirsizliklə gözləyirəm. Sağ olun.

## «İSLAM SİVİLİZASİYASI QAFQAZDA» II BEYNƏLXALQ SİMPOZİUM İŞTİRAKÇILARINA

Hörmətli simpozium iştirakçıları!

Sizi ölkəmizin paytaxtı Bakı şəhərində salamlamaqdan məmnun olduğumu bildirir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

Etnik-mədəni müxtəlifliyi və təbii-coğrafi zənginlikləri ilə dünyanın unikal guşələrindən olan Qafqazın son 1400 illik tarixi islam dini ilə bağlıdır. Azərbaycanda, o cümlədən Qafqazın müxtəlif bölgələrində bu dinə məxsus çoxsaylı maddi və qeyri-maddi mədəniyyət nümunələri islam sivilizasiyasının regiondakı dərin köklərindən xəbər verir. Bu gün Qafqazda yaşayan xalqların bir çoxunun mədəniyyətinin əsasını islam dəyərləri təşkil edir.

İslam VII əsrin ortalarından etibarən Azərbaycanda yayılmağa başlamış və ölkəmiz islam sivilizasiyasının tarixi-mədəni mərkəzlərindən birinə çevrilmişdir. Xalqımız yüzillər boyu belə bir mədəni və mənəvi müstəvidə bəşəri fikir tarixinə böyük şəxsiyyətlər bəxş etmiş, dünya şöhrətli azərbaycanlı alim və mütəfəkkirlər, söz və sənət dühaları islam mədəniyyətinin inkişafında müstəsna xidmətlər göstərmişlər.

Tarixən olduğu kimi, bu gün də Azərbaycanda islami dəyərlərin qorunmasına xüsusi əhəmiyyət verilir. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 9–11 dekabr 1998-ci ildə «İslam sivilizasiyası Qafqazda» Beynəlxalq simpoziumunun Bakıda keçirilməsi xalqımızın öz tarixi keçmişinə və milli-mənəvi dəyərlərinə bağlılığının bariz nümunəsi idi.

2017-ci ilin Azərbaycan Respublikasında «İslam həmrəyliyi ili» elan edilməsi və IV İslam Həmrəyliyi oyunlarının Azərbaycanda keçirilməsi müasir narahat dünyamıza əmin-amanlıq və həmrəylik çağırışları kimi qiymətləndirilməlidir. Bir sıra ölkələrdə islamofobiyanın vüsət aldığı hazırkı dövrdə biz insanları birliyə, bərabərliyə, sülhə və tolerantlığa dəvət edən ümumbəşəri islam dəyərlərinin təbliği istiqamətində ardıcıl səylərimizi, eyni zamanda, mədəniyyətlərarası dialoq və əməkdaşlıq təşəbbüslərimizi bundan sonra da davam etdirəcəyik.

«İslam sivilizasiyası Qafqazda» II Beynəlxalq simpoziumun maraqlı və konstruktiv müzakirələr şəraitində keçəcəyinə, Azərbaycanın, ümumilikdə Qafqazın islam sivilizasiyasının inkişafındakı tarixi yerinin və rolunun araşdırılmasına yeni töhfələr verəcəyinə əminliyimi bildirir, toplantınızın işinə uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *10 iyul 2019-cu il*

**MONTENEQRONUN PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB MİLO CUKANOVİÇƏ**

Hörmətli cənab Prezident!

Monteneqronun milli bayramı münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Monteneqro arasındakı dostluq və əməkdaşlıq münasibətləri ardıcıl şəkildə inkişaf edərək, xalqlarımızın rifahına bundan sonra da töhfələr verəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *10 iyul 2019-cu il*

## MEDEF-ə ÜZV OLAN ŞİRKƏTLƏRİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*10 iyul 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 10-da Fransa Sahibkarlar Təşkilatına – MEDEF-ə üzv olan şirkətlərin nümayəndələrini qəbul etmişdir.*

**İ l h a m Ə l i y e v:** Mən MEDEF-dən belə böyük nümayəndə heyətini görməyə şadam. Bu bizim əməkdaşlığımızın yaxşı nümunəsidir. Bilirsiniz ki, mən Parisdə və Bakıda MEDEF üzvləri ilə dəfələrlə görüşmüşəm. Üç il əvvəl böyük nümayəndə heyətinin səfərini xatırlayıram və indi müxtəlif şirkətlərin 40 nümayəndəsi ölkəmizdə səfərdədir. Bu, həqiqətən də tərəfdaşlığımızın çox yaxşı nümunəsidir. Bu, Azərbaycanda fəaliyyət göstərməyə böyük marağın olduğunu nümayiş etdirir. Sizin təmsil etdiyiniz bir çox şirkətlər ölkəmizdə müxtəlif layihələrdə artıq iştirak edir.

Azərbaycanın iqtisadi inkişafı sürətlə gedir. Hazırda biz əsasən iqtisadiyyatımızın şaxələndirilməsi üzərində işləyirik. Çünki bu, əsas prioritetdir. Bu gün neft-qaz sektorundan asılılığın azaldılması bizim əsas vəzifəmizdir. Biz iqtisadiyyatımızın şaxələndirilməsi üçün əlimizdən gələni etməyə çalışırıq. Bu, asan

deyil, lakin düşünürəm ki, biz yaxşı irəliləyişə nail olmuşuq.

*Prezident İlham Əliyev bu ilin iqtisadi göstəricilərinə nəzər salaraq bildirdi ki, qeyri-enerji sektoru 3 faizdən çox artıb və kənd təsərrüfatında bu il rekord həcmdə, təxminən 13 faiz artım olubdur. Qeyri-enerji sənayesində isə artım təxminən 15 faiz təşkil edir. Şaxələndirmənin yaxşı nəticələr verdiyini söyləyən dövlət başçısı əmin olduğunu bildirdi ki, yerli və xarici şirkətlərin fəal iştirakı ilə Azərbaycan öz məqsədlərinə çatacaqdır. Prezident İlham Əliyev nümayəndə heyətinin Azərbaycanda bir çox görüşlər keçirəcəyini deyərək, səfərin çox səmərəli keçəcəyinə ümidvar olduğunu bildirdi.*

**Jofrua Ru de Beziö** (*MEDEF Biznes Şurasının prezidenti* ): Zati-aliləri, minnətdaram. Bizi burada qəbul etdiyinizə görə təşəkkür edirik. Burada olmaq bizim üçün böyük məmnuniyyət və şərəfdir. Şəxsən mən ilk dəfədir ki, Azərbaycanda, Bakıda səfərdəyəm. Məmnuniyyətlə qeyd etmək istərdim ki, bu mənim Avropa İttifaqından kənara ilk səfərimdir. Mən ilk ölkə kimi, Azərbaycanı seçdim. Bu da fransız biznes ictimaiyyətinin ölkəyə olan marağının göstəricisidir. Bildiyiniz kimi, MEDEF 170 min şirkətin üzv olduğu təşkilatdır. Bu gün mən böyük bir nümayəndə heyətinin tərkibindəyəm.

*Jofrua Ru de Beziö nümayəndə heyətinə bank, tikinti, enerji, ətraf mühit, tədbirlərin təşkili, yeni texnologiya sahələrini təmsil edən şirkətlərin daxil olduğunu və onların 12 sektoru əhatə etdiyini bildirdi.*

*Bu şirkətləri dəstəkləmək və onları Azərbaycanın böyük potensialı olduğuna inandırmaq çox vacibdir – deyən MEDEF Biznes Şurasının prezidenti nümayəndə heyətində qeyri-neft sektorunu təmsil edən şirkətlərin əksəriyyət təşkil etdiyini vurğuladı.*

*Fransanın Azərbaycandakı səfiri Orelia Buşez fransız şirkətləri ilə yüksək səviyyədə görüşə görə Prezident İlham Əliyevə təşəkkür etdi. O, fransız şirkətlərinin Azərbaycanda həvəslə fəaliyyət göstərdiyini bildirdi. Prezident İlham Əliyevin çıxışlarında iqtisadiyyatın şaxələndirilməsi ilə bağlı söylədiyi fikirlərin diqqət doğurduğunu qeyd edən Orelia Buşez Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi ilə bağlı artıq nəticələrin göründüyünü və bunun burada təmsil olunmuş şirkətlərin fəaliyyət müxtəlifliyində də öz əksini tapdığını vurğuladı. Səfir fransız şirkətlərinin Azərbaycan iqtisadiyyatının inkişafına səmərəli töhfə verəcəyinə əminliyini bildirdi.*

*MEDEF-in beynəlxalq Fransa–Azərbaycan qrupunun rəhbəri, SUEZ qrupun baş direktor müavini xanım Mari-Anj Döbon bugünkü qəbula görə minnətdarlığını bildirərək, SUEZ şirkətinin Azərbaycanda fəaliyyətinə verdiyi dəstəyə görə dövlətimizin başçısına təşəkkür etdi. Bir sıra yerli şirkət və agentliklərlə infrastrukturun təkmilləşdirilməsi ilə bağlı əməkdaşlıq etdiklərini söyləyən Mari-Anj Döbon ölkəmizdə bu sahədə görülən işlərin həm iqtisadi inkişaf baxımından, həm də vətəndaşların həyatı üçün önəmli olduğunu bildirdi, SUEZ-in bu işlərə bundan sonra da töhfə verəcəyinə ümidvar olduğunu diqqətə çatdırdı. Mari-Anj*

*Döbon ətraf mühitin qorunması sahəsində ölkəmizdə icra olunan layihələrə dəstək göstərməyə, bu sahədə infrastrukturun inkişafına töhfə verməyə hazır olduqlarını bildirdi.*

*Görüşdə enerji, nəqliyyat, kənd təsərrüfatı, bərpa olunan enerji, yüksək texnologiyalar və digər sahələrdə əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## NATO MÜTTƏFİQ QÜVVƏLƏRİNİN AVROPADAKI ALİ KOMANDANI TOD VOLTERSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*10 iyul 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 10-da NATO Müttəfiq Qüvvələrinin Avropadakı Ali Komandanı ilə Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi–Rusiya Müdafiə nazirinin birinci müavini arasında keçirilən görüşdə iştirak etmək üçün Bakıya gələn NATO Müttəfiq Qüvvələrinin Avropadakı Ali Komandanı Tod Voltersin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Söhbət zamanı Bakıda beynəlxalq əhəmiyyətli mühüm görüşlərin keçirilməsindən məmnunluq ifadə olundu.*

*Görüşdə Azərbaycan ilə NATO arasında əməkdaşlıq, ölkəmizin Əfqanıstanda «Qətiyyətli dəstək» missiyasına töhfəsi məsələləri müzakirə edildi.*

## RUSİYA FEDERASİYASI SİLAHLI QÜVVƏLƏRİNİN BAŞ QƏRARGAH RƏİSİ VALERİ GERASİMOVUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*10 iyul 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 10-da Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi–Rusiya Müdafiə nazirinin birinci müavini ilə NATO Müttəfiq Qüvvələrinin Avropadakı Ali Komandanı arasında keçirilən görüşdə iştirak etmək üçün Bakıda səfərdə olan Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi – Rusiya Müdafiə nazirinin birinci müavini Valeri Gerasimovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə beynəlxalq səviyyədə mühüm danışıqların mütəmadi olaraq Bakıda aparılmasının əhəmiyyəti qeyd edildi.*

*Söhbət zamanı Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, hərbi və hərbi-texniki sahədə əməkdaşlığın genişləndirilməsindən məmnunluq ifadə olundu.*

*Görüşdə hərbi və hərbi-texniki sahədə əlaqələrin inkişaf perspektivləri ilə bağlı məsələlər ətrafında müzakirələr aparıldı.*

**FRANSA RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB EMMANUEL MAKRONA**

Hörmətli cənab Prezident!

Fransa Respublikasının milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Azərbaycan–Fransa əlaqələri xoş ənənələrə malikdir. Ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı və daha da möhkəmləndirilməsi istiqamətində atdığımız addımlar bu ənənələri bilavasitə zənginləşdirməkdədir.

Məmnunluqla qeyd etmək istəyirəm ki, qarşılıqlı faydalı əməkdaşlığımız özünün geniş spektri ilə səciyyələnir. Yüksək səviyyəli siyasi təmaslarımız iqtisadi və humanitar sahələrdəki birgə işimizlə müşayiət olunur.

Bütün bunlarla yanaşı, xalqımızın qarşılaşdığı ən ağrılı problem olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasında ATƏT-in Minsk qrupunun həmsədri kimi, Fransanın qətiyyətli və obyektiv mövqeyinə, şəxsən Sizin, cənab Prezident, səylərinizə böyük ümidlər bəsləyirik. Münaqişə beynəlxalq hüququn norma və prinsiplərinə, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin

tələblərinə, Helsinki Yekun Aktının müddəalarına uyğun olaraq, ölkəmizin ərazi bütövlüyü çərçivəsində, sülh yolu ilə və ədalətli şəkildə həll olunmalıdır.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Fransa xalqına daim sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *11 iyul 2019-cu il*

**AVROPA İTTİFAQI ŞURASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ŞARL MİŞELƏ**

Hörmətli cənab Mişel!

Avropa İttifaqı Şurasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin daha da genişlənməsi, əməkdaşlığımızın hərtərəfli inkişafı və dərinləşməsi istiqamətində birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, qarşıdakı məsul fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 iyul 2019-cu il*

**AVROPA KOMİSSİYASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ XANIM URSULA VON DER LEYENƏ**

Hörmətli xanım Von der Leyen!

Avropa Komissiyasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Avropa İttifaqı arasındakı əməkdaşlıq qarşılıqlı maraqlarımıza uyğun olaraq bundan sonra da müvəffəqiyyətlə inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, qarşıdakı məsul işinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 iyul 2019-cu il*

**BELÇİKA KRALI**
**ƏLAHƏZRƏT FİLİPƏ**

Əlahəzrət!

Belçikanın milli bayramı münasibətilə Sizi və bütün belçikalıları öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Belçika xalqına daim sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 iyul 2019-cu il*

**MİSİR ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜLFƏTTAH ƏS-SİSİYƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – İnqilab Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan–Misir əlaqələri, ənənəvi dostluq və əməkdaşlıq münasibətlərimiz xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Misir xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 iyul 2019-cu il*

## SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ ƏDLİYYƏ NAZİRİ VƏLİD BİN MƏHƏMMƏD ƏL-SƏMAANİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*19 iyul 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 19-da Səudiyyə Ərəbistanı Krallığının Ədliyyə naziri Vəlid bin Məhəmməd əl-Səmaaninin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Prezident İlham Əliyev ölkələrimizin ədliyyə və məhkəmə orqanları arasında əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğunu söylədi və Səudiyyə Ərəbistanı Krallığının Ədliyyə naziri Vəlid bin Məhəmməd əl-Səmaaninin Azərbaycana səfərinin bu əlaqələrin inkişafına öz töhfəsini verəcəyinə əminliyini ifadə etdi. Xalqlarımız arasında münasibətlərə toxunan Prezident İlham Əliyev Səudiyyə Ərəbistanı Krallığından Azərbaycana gələn turistlərin sayının daim artmasını bu münasibətlərin yaxşı göstəricisi kimi dəyərləndirdi.*

*Səudiyyə Ərəbistanı Krallığının Ədliyyə naziri Vəlid bin Məhəmməd əl-Səmaani ilk növbədə, İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səudun və Səudiyyə Ərəbistanı Krallığının vəliəhdi Məhəmməd bin Salman*

*bin Əbdüləziz Al Səudun salamlarını dövlət başçısına və Azərbaycan xalqına çatdırdı. Qonaq vurğuladı ki, İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səud Azərbaycanla əlaqələrin yüksək səviyyədə olduğunu bildirib və bu əlaqələrin daha da inkişaf etdirilməsi əzmini ifadə edibdir. Vəlid bin Məhəmməd əl-Səmaani paytaxtımızda gördüyü inkişaf proseslərinin dərin təəssürat yaratdığını qeyd etdi. O, Bakıda azərbaycanlı həmkarları ilə görüşlərin uğurla keçdiyini, Azərbaycanın ədliyyə sistemi sahəsində əldə olunmuş yeniliklərin maraq doğurduğunu nəzərə çatdırdı.*

*Prezident İlham Əliyev İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səudun və vəliəhd Məhəmməd bin Salman bin Əbdüləziz Al Səudun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Səudiyyə Ərəbistanının Kralına və vəliəhdinə çatdırmağı xahiş etdi.*

*Söhbət zamanı ikitərəfli münasibətlərin müxtəlif aspektləri müzakirə edildi.*

## QƏTƏR DÖVLƏTİNİN BƏLƏDİYYƏ VƏ ƏTRAF MÜHİT NAZİRİ ABDULLAH BİN ƏBDÜLƏZİZ BİN TURKİ ƏL-SUBAİE İLƏ GÖRÜŞ

*19 iyul 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 19-da Qətərin Bələdiyyə və Ətraf Mühit naziri Abdullah bin Əbdüləziz bin Turki əl-Subaieni qəbul etmişdir.*

*Nazir Abdullah bin Əbdüləziz bin Turki əl-Subaie Qətər Dövlətinin Əmiri şeyx Təmim bin Həməd əl-Taninin salamlarını dövlət başçısına çatdırdı. O, Azərbaycanda müvafiq qurumların rəhbərləri ilə müxtəlif istiqamətlərdə əməkdaşlığın perspektivləri barədə səmərəli müzakirələrin aparıldığını diqqətə çatdırdı.*

*Dövlətimizin başçısı Qətər Dövlətinin Əmiri şeyx Təmim bin Həməd əl-Taninin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Qətər Dövlətinin Əmirinə çatdırmağı xahiş etdi. Prezident İlham Əliyev Qətərin Bələdiyyə və Ətraf Mühit nazirinin Azərbaycana səfərinin iki ölkə arasında əlaqələrin genişlənməsi işinə töhfə verəcəyinə əmin olduğunu bildirdi.*

*Söhbət zamanı ekologiya, kənd təsərrüfatı, ərzaq təhlükəsizliyi və digər sahələrdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## AVROPA OLİMPİYA KOMİTƏLƏRİNİN PREZİDENTİ YANEŞ KOSYANÇİÇ İLƏ GÖRÜŞ

*20 iyul 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 20-də Avropa Olimpiya Komitələrinin prezidenti Yaneş Kosyançiçi qəbul etmişdir.*

*Avropa Olimpiya Komitələrinin prezidenti Yaneş Kosyançiç Azərbaycana səfərindən böyük məmnunluq hissi keçirdiyini bildirdi. Yaneş Kosyançiç XV Avropa Gənclər Yay Olimpiya Festivalının yüksək səviyyədə təşkil olunduğunu qeyd edərək, bu tədbirin böyük önəm daşıdığını və gələcək olimpiya medallarının qazanılması üçün çox yaxşı hazırlıq prosesi olduğunu bildirdi. Yaneş Kosyançiç Azərbaycanın beynəlxalq idman aləmində güclü mövqelərə malik olduğunu söyləyərək, bu işlərdə Prezident İlham Əliyevin rolunu xüsusi vurğuladı.*

*Xoş sözlərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev Bakıda XV Avropa Gənclər Yay Olimpiya Festivalının keçirilməsi ilə bağlı hazırlıq işlərinin tamamlandığını qeyd etdi və bu tədbirin önəmini vurğuladı. Dövlət başçısı idmanın Azərbaycanda prioritet sahələrdən biri olduğunu bildirərək, idmançılarımızın beynəlxalq yarışlarda böyük nailiyyətlər qazandığını*

*və Azərbaycanda mühüm beynəlxalq idman tədbirlərinin uğurla keçirildiyini qeyd etdi.*

*Sonra Avropa Olimpiya Komitələrinin prezidenti Yaneş Kosyançiç dövlət başçısına xatirə hədiyyəsi təqdim etdi.*

## XV AVROPA GƏNCLƏR YAY OLİMPİYA FESTİVALININ TƏNTƏNƏLİ AÇILIŞI MƏRASİMİ

*21 iyul 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin rəhbəri İlham Əliyev, Azərbaycanın Birinci vitse-prezidenti xanım Mehriban Əliyeva və Avropa Olimpiya Komitələrinin prezidenti Yaneş Kosyançiç iyulun 21-də «Baku Crystal Hall»da keçirilmiş «Bakı–2019» XV Avropa Gənclər Yay Olimpiya Festivalının təntənəli açılışı mərasimində iştirak etmişlər.*

*Son illərdə ardıcıl bir sıra mötəbər idman yarışlarına ən yüksək səviyyədə ev sahibliyi edən Bakı yenidən Avropanın, eləcə də dünyanın diqqət mərkəzinə çevrilibdir.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Avropa Olimpiya Komitələrinin prezidenti Yaneş Kosyançiç, növbəti Avropa Gənclər Yay Olimpiya Festivalının keçiriləcəyi Slovakiyanın Baş Nazirinin müavini Riçard Rasi və Avropa Olimpiya Komitələrinin rəhbərliyi ilə görüşdülər.*

*Avropa Gənclər Yay Olimpiya Festivalı Beynəlxalq Olimpiya Komitəsinin himayəsi altında keçirilir və 25 ildən artıq ənənəsi olan Avropa Olimpiya Ko-*

*mitələrinin (AOK) qürur mənbəyidir. Bu festival 14–18 yaş arası gənc idmançılar üçün ilk çoxprofilli Avropa tədbiridir. Tək illərdə, iki ildə bir dəfə keçirilən qış və yay festivalları da vardır.*

*Tədbir olimpiya bayrağı altında keçirilir və olimpiya ənənələri ilə zəngindir: alovlanan məşəldən başlayaraq, idmançı və rəsmilərin and içməsinə qədər. Avropanın bir çox yüksələn idman ulduzları beynəlxalq arenada ilk addımlarını məhz Avropa Gənclər Yay Olimpiya Festivalı zamanı atırlar. Bütün iştirakçılar burada qazandıqları dostluq və təcrübəni özləri ilə həmişəlik evlərinə aparacaqlar, bəziləri üçün isə bu festival olimpiya zirvəsinə bir yüksəliş olacaqdır. Avropa Gənclər Yay Olimpiya Festivalı Avropa gənclərini Atletlər kəndində simvolik olaraq birləşdirir. Bu festival idmançıların olimpiya hadisələrinin ruhunu hiss etməyə və yeni qələbələrə ilhamlanmağa yol açacaq Olimpiya oyunlarına bir qapıdır.*

*«Zirvələrə hazırıq» devizi altında keçirilən «Bakı–2019» XV Avropa Gənclər Yay Olimpiya Festivalının talismanları Cırtdan və Bəbirdir. Paytaxt Bakının 12 idman obyektində 7 gün davam edəcək mötəbər turnirdə 48 ölkədən 3900 atlet idmanın 10 növü–idman gimnastikası, atletika, basketbol, velosiped idmanı, həndbol, cüdo, üzgüçülük, tennis, voleybol və güləş yarışlarında mübarizəyə qoşulub. İştirakçıların 52 faizi oğlan, 48 faizi isə qızdır. İdmançılar 135 dəst medal uğrunda güclərini sınayırlar. Mükafatçılar*

*üçün ümumilikdə 930 medal hazırlanıb. Medalların 300-ü qızıl, 300-ü gümüş, 330-u isə bürüncdür.*

*Azərbaycan festivala 122 idmançı ilə qatılıb. Heyətdə güləşçilər və yüngül atletlər sayca üstünlük təşkil edirlər. Azərbaycan bu idman növlərinin hər biri üzrə 18 nəfərlə təmsil olunur. Bundan başqa, cüdo yarışlarında 12, bədii gimnastikada 4, velosiped idmanında 6, tennisdə 4, üzgüçülük yarışlarında 6 idmançımız mübarizəyə qoşulub. Komanda idman növlərində isə voleybol və basketbol yığmalarımızın hər birinin heyətinə 12 idmançı daxil edilib. Oğlanlardan və qızlardan ibarət həndbol komandalarımızda ümumilikdə 30 oyunçu yer alıbdır.*

*Festival günlərində idman obyektlərində 3500-dən çox könüllü fəaliyyət göstərəcəkdir.*

*Qeyd edək ki, Azərbaycan Avropa gənclərinin olimpiya festivallarında 1993-cü ildən təmsil olunmağa başlanıb. Həmin il Hollandiyanın Valkensvard şəhərində keçirilmiş festivalda 43 ölkənin idmançıları mübarizə aparmış, Azərbaycan komandası 1 qızıl və 2 gümüş medalla ümumi hesabda 17-ci olmuşdur. 1995-ci ildə Böyük Britaniyanın Bat şəhərində keçirilmiş növbəti festivalda isə cəmi 1 gümüş medal qazanılmışdır.*

*1997-ci ildə İlham Əliyev Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti seçildikdən sonra gənc idmançılarımız bu festivallarda daha böyük uğurlar qazanmağa başladılar. 1999-cu ildə Danimarkanın Esbyerq şəhərində keçirilmiş festivalda 3 bürünc medal qazanmış komandamız 2001-ci ildə İspaniyanın*

*Mursiya şəhərində 2 gümüş və 2 bürünc, 2 il sonra Parisdə 2 gümüş və 1 bürünc, 2005-ci ildə İtaliyanın Linyano şəhərində 2 qızıl və 4 bürünc medala sahib oldu. Azərbaycan ən yüksək nailiyyətinə 2007-ci ildə Serbiyanın paytaxtı Belqradda təşkil olunmuş festivalda 7 qızıl medal qazanmaqla imza atdı. Həmin yarışda ölkəmiz ümumi komanda hesabında 6-cı yeri tutdu.*

*2009-cu ildə Finlandiyanın Tampere şəhərində 3 qızıl, 1 gümüş, 1 bürünc, 2011-ci ildə Türkiyənin Trabzon şəhərində 1 qızıl, 2 gümüş, 2013-cü ildə Hollandiyanın Utrext şəhərində 2 qızıl, 1 bürünc, 2015-ci ildə Tbilisidə 2 qızıl, 1 gümüş, 2 bürünc, 2017-ci ildə Macarıstanın Györ şəhərində keçirilmiş festivalda isə 1 gümüş və 1 bürünc medal qazanıldı.*

*Nüfuzlu idman xadimləri, ekspertlər Azərbaycan paytaxtında keçirilən Avropa Gənclər Olimpiya Festivalının yüksək səviyyədə təşkil olunduğunu qeyd edirlər. Avropa Olimpiya Komitələrinin prezidenti Yaneş Kosyançiç Bakının əvvəlki turnirlərdə olduğu kimi, bu festivala da uğurla ev sahibliyi edəcəyini vurğuladı.*

**Yaneş Kasyançiç:** Bakı festivalın təşkilinə tam hazırdır. Şəhər yalnız irimiqyaslı tədbirlərin keçirilməsi üçün lazım olan infrastruktura malik deyil, o həm də özündə digər əsas komponentləri– yüksək təşkilatçılıq, həvəs və səmimiliyi birləşdirir. İnanıram ki, XV Avropa Gənclər Yay Olimpiya Festivalı böyük müvəffəqiyyətlə keçəcəkdir.

*«Baku Crystal Hall»a toplaşmış tamaşaçılar və yüz minlərlə televiziya izləyiciləri təntənəli açılış mərasiminin unudulmaz anlarının şahidi oldular.*

*Bakı vaxtı ilə saat 20:00-da XV Avropa Gənclər Yay Olimpiya Festivalının təntənəli açılışı mərasimi başlandı. Əvvəlcə Azərbaycan Respublikasının Dövlət himninin sədaları altında Milli Qvardiyanın əsgərləri Dövlət bayrağını təntənəli şəkildə meydana gətirərək ucaltdılar.*

*Bundan sonra, demək olar ki, bütün olimpiya tədbirlərinin açılışı mərasimlərinin ənənəvi hissəsi olan atletlərin paradı başlandı.*

*İlk olaraq Olimpiya oyunlarını dünyaya bəxş etmiş ölkənin – Yunanıstan idmançıları səhnəyə daxil oldular. Digər ölkələrin komandaları onların arxasınca əlifba sırası ilə gəldilər.*

*İdmançıların keçidini ev sahibi – Azərbaycan atletləri tamamladı. Üçrəngli bayrağımızı 15 yaşlı cüdoçu, 2018-ci ildə Yeniyetmələrin Yay Olimpiya oyunlarının və Avropa Kubokunun qalibi Vüqar Talıbov apardı.*

*Azərbaycan Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və «Baku Crystal Hall»a toplaşmış tamaşaçılar idmançılarımızı hərarətlə salamladılar.*

*Atletlərin paradından sonra festivala ev sahibliyi edən Azərbaycan haqqında film nümayiş etdirildi. Filmdə ölkəmizin tarixi, mədəniyyəti, təbiəti, adət-ənənələri, eləcə də paytaxt Bakının görməli yerləri haqqında kadrlar nümayiş olundu.*

*Azərbaycan Respublikası Baş Nazirinin birinci müavini, XV Avropa Gənclər Yay Olimpiya Festiva-*

*lının Təşkilat Komitəsinin sədri Yaqub Eyyubov və Avropa Olimpiya Komitələrinin prezidenti Yaneş Kosyançiç səhnəyə gəldilər.*

**Y a q u b  E y y u b o v** (*XV Avropa Gənclər Yay Olimpiya Festivalının Təşkilat Komitəsinin sədri*):

Möhtərəm cənab Prezident!

Hörmətli Avropa Olimpiya Komitələrinin prezidenti cənab Yaneş Kosyançiç!

Hörmətli beynəlxalq və milli federasiyaların rəsmiləri!

Əziz gənc idmançılar, xanımlar və cənablar!

XV Avropa Gənclər Olimpiya Festivalında iştirak etmək üçün Odlar yurdu Azərbaycana gəlmiş bütün dəyərli qonaqları səmimi-qəlbdən salamlayır, zəngin mədəniyyətə və tarixə malik ölkəmizə «Xoş gəlmisiniz!» – deyirəm.

Azərbaycan yüksək idman nailiyyətlərinə malik bir ölkədir. Bu nailiyyətlərin əsası isə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulubdur. Məhz onun təşəbbüsü ilə Azərbaycan beynəlxalq olimpiya hərəkatına qoşulub, ölkəmizdə olimpiya komplekslərinin, müxtəlif idman qurğuları və mərkəzlərinin tikintisinə start verilibdir. Azərbaycanı müasir, dünyəvi, sabit və demokratik ölkəyə çevirən Heydər Əliyevin uzaqgörən siyasətini hazırda Azərbaycan Respublikasının Prezidenti və Milli Olimpiya Komitəsinin rəhbəri cənab İlham Əliyev əzmlə davam etdirir. Onun idmançılara göstərdiyi xüsusi diqqət və qayğı nəticəsində əldə edilmiş nailiyyətlər müqayisə olunmayacaq dərəcədə artıbdır.

Hazırda Bakı şəhərində və Azərbaycanın bütün regionlarında 50-yə yaxın Olimpiya İdman Kompleksi fəaliyyət göstərir ki, bu da güclü idmançılar hazırlanması ilə yanaşı, əhalinin sağlam həyat tərzi sürməsinə də hərtərəfli şərait yaradır.

Azərbaycan ən mötəbər beynəlxalq idman tədbirlərinin, idmanın müxtəlif növləri üzrə dünya və Avropa çempionatlarının, dünya kuboku və Qran-pri yarışlarının keçirilməsində kifayət qədər böyük təcrübəyə malik bir ölkədir. Xüsusilə qeyd etmək istəyirəm ki, bu silsilədən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın sədri olduğu Təşkilat Komitəsinin rəhbərliyi ilə Bakı şəhərində keçirilmiş ilk Avropa oyunları və IV İslam Həmrəyliyi oyunları kimi beynəlxalq miqyaslı idman tədbirləri yüksək peşəkarlığı ilə bütün dünyada əks-sədaya səbəb olubdur. Biz əminik ki, bu gün açılışını etdiyimiz və Avropanın 48 ölkəsindən 3900 gənc idmançının qatıldığı XV Avropa Gənclər Olimpiya Festivalı da ən yüksək səviyyədə keçirəcəyimiz növbəti idman tədbirlərindən biri olacaqdır. Yarışlar Bakıda 12 möhtəşəm idman arenasında idmanın 10 növü üzrə keçiriləcəkdir.

Əziz gənc atletlər, bizim üçün çox sevindirici haldır ki, siz ilk böyük beynəlxalq uğurunuzu məhz Azərbaycanda qazana bilərsiniz. Heç şübhəsiz deyə bilərik ki, sizin aranızda gələcək olimpiya, dünya və Avropa çempionları olacaqdır. Əminik ki, siz gənclər aparacağınız idman mübarizəsi ilə yanaşı, bir-birinizlə yaxından tanış olacaq, özünüzə çoxlu dost və rəfiqə

tapacaq, öz bacarıq, mədəniyyət və tarixlərinizi paylaşacaq, o cümlədən keçmiş və müasirliyin vəhdətini təşkil edən əzəmətli Bakımızın füsunkar gözəlliyindən zövq alacaqsınız.

Ənənəvi olaraq bu festivalın da işinə könüllülər cəlb olunublar. 3500 gənc könüllü festivalın təşkili və yüksək səviyyədə keçirilməsində yaxından iştirak edəcək. Biz onların hər birinə dərin təşəkkür və ehtiramımızı bildiririk.

Möhtərəm cənab Prezident, XV Avropa Gənclər Olimpiya Festivalının Təşkilat Komitəsi Avropa Olimpiya Komitələrinin qarşımıza qoyduğu bütün tələbləri yerinə yetirib və Azərbaycan bu festivalın keçirilməsinə tam hazırdır.

Fürsətdən istifadə edərək, bu mötəbər yarışın keçirilməsində Azərbaycana etimad göstərmiş Avropa Olimpiya Komitələrinin rəhbərliyinə dərin minnətdarlığımı bildirirəm.

Bütün gəncləri, bütün idman ictimaiyyətini bu bayram münasibətilə bir daha ürəkdən təbrik edir, gənc idmançılara qələbə sevincləri və azarkeşlərin böyük marağına səbəb olacaq gərgin mübarizə nümayiş etdirməyi arzulayıram.

Əziz gənclər, qoy bu festival sizin üçün idman, sülh və dostluq bayramı olsun.

**Yaneş Kosyançiç** (*Avropa Olimpiya Komitələrinin prezidenti*): Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyev!

Hörmətli rəsmilər!

Avropa Olimpiya Komitəsi İcraiyyə Komitəsinin üzvləri!

Avropa Milli Olimpiya Komitələrinin prezidentləri və katibləri!

Hörmətli idmançılar!

Əziz azərbaycanlı idmansevərlər!

Biz Avropa Olimpiya Komitəsinin nümayəndələri üçün Bakıya, Odlar yurdunun küləklər şəhərinə gəlmək, elə öz evimizə gəlmək deməkdir. 4 il öncə biz sizin əvəzolunmaz köməyinizlə ilk Avropa oyunlarını təşkil etdik. Həmin oyunlar möhtəşəm hadisə oldu və Belarusda, Minskdə ikinci oyunlar keçirildikdən, həmçinin Polşanın Malopolska bölgəsinin Krakov şəhərində üçüncü oyunların təşkil olunması haqqında qəbul edilmiş qərardan sonra fəxrlə deyə bilərik ki, biz birlikdə yeni ənənəni başladıq. Biz yeni Avropa olimpiya irsinin təməlini qoyduq.

Sizin təşkilatçılıq bacarığınıza və bu sahəyə bağlılığınıza bizim heç bir şübhəmiz yoxdur. Sizin qətiyyətiniz, işinizin keyfiyyəti, könüllülərinizin mehribanlığı bizə məlumdur. Biz bilirik ki, ölkənizin ən yaxşı sərmayəsi onun gənclərinə qoyulan sərmayədir.

Hörmətli idmançılar!

Avropa Gənclər Olimpiya Festivalı gələcək çempionlar və olimpiya medalçıları üçün əsl sınaq meydanıdır. Bu sizin üçün çox az sayda istisnalarla çox idman növlü ilk olimpiya təcrübəsidir. Bu sizdə idmanın inkişafında yeni səhifənin açılması deməkdir. Burada sizin bacarığınızı nümayiş etdirmək üçün nadir şans vardır. Bu şans göstərir ki, siz yarışlarda qələbəyə

qadirsiniz və ola bilsin ki, digər Avropa ölkələrində sizinlə həmyaşıd olan qız və oğlanlardan daha yaxşısınız. Bu həmçinin Avropada idmançıların yeni nəslinin olimpiya idealları, bütün xalqlar arasında sülh, dostluq və əməkdaşlıq amalları, bütövlük, inklüzivlik, həmrəylik, düzgünlük və ədalətli oyun ideyaları ilə formalaşdırılmasını sübuta yetirmək fürsətidir.

Mən həmçinin Bakı sakinlərini və Azərbaycan xalqını səmimi-qəlbdən salamlayıram. Bizi bir daha qəbul etdiyinizə görə çox sağ olun.

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev XV Avropa Gənclər Yay Olimpiya Festivalını açıq elan etdi.*

*Beynəlxalq Olimpiya Komitəsinin bayrağı arenaya gətirildi. Bayrağı Azərbaycanın tanınmış idmançıları, olimpiya çempionları Elnur Məmmədli (cüdo), Zemfira Meftahəddinova (atıcılıq), Nazim Hüseynov (cüdo), Namiq Abdullayev (güləş), Rəfiqə Şabanova (həndbol) və Lyudmila Şubina (həndbol) arenaya gətirdilər.*

*Beynəlxalq Olimpiya Komitəsinin bayrağı bu qurumun himninin sədaları altında Azərbaycanın Dövlət bayrağı ilə yanaşı ucaldıldı.*

*Sonra Fəxriyə Tağızadə atletlər, Ələkbər Həsənov hakimlər və Rəşad Əbdürrəhmanov məşqçilər adından təntənəli şəkildə and içdilər. Bu andlar bütün iştirakçılara və tamaşaçılara sağlam rəqabət, ədalətli hakimlik və olimpiya hərəkatının prinsip və*

*ideallarına riayət edilməsinin ən yüksək prioritetə sahib olmasını xatırladır.*

*Daha sonra ən həyəcanlı an yetişdi və 2004-cü ildə Afina Olimpiadasının qalibi, Yunan-Roma güləşçisi Fərid Mansurov XV Avropa Gənclər Yay Olimpiya Festivalının məşəlini «Baku Crystal Hall»un məşəl kasasına gətirdi.*

*Bu zaman ekranda «Məşəlin yolu» filmi nümayiş olundu. Kadrlarda məşəlin paytaxtın bütün idman obyektləri boyunca möhtəşəm səyahəti və statistika təqdim edildi. Festivalın məşəli açılış mərasiminin keçirildiyi «Baku Crystal Hall»a çatana qədər Roma şəhərindən çox böyük yol qət edibdir.*

*XV Avropa Gənclər Yay Olimpiya Festivalının məşəli alovlandırıldı. Məşəl yarışlar bitənədək yanacaq, şəhərimizin mayakı olacaqdır.*

*Məşəlin yandırılmasından sonra «Qələbə elementləri» səhnə şousu nümayiş etdirildi. «Azərbaycana xoş gəlmisiniz!» – Avropa Gənclər Yay Olimpiya Festivalının açılışı mərasiminin art şousunun birinci hissəsi belə adlanır. Ekranlarda Bakının fantastik mənzərəsi görünür. Bu mənzərəni fantastik edən sadəcə, onun gözəlliyi yox, həm də burada şəhərin bütün tarixi və müasir görməli yerlərinin bir araya gəlməsidir. Bəli, bu Bakıdır! Həm qədim, həm də çox müasir. Ənənələri qoruyan və yeniliklərə açıq Bakı. Bu yeniliyin rəmzi fəal və həyat gücü ilə zəngin gənclərdir. Səhnədəki dinamik kompozisiyada rəqqaslar, akrobatlar, parkur və breyk-dans ustaları öz məharətlərini göstərirlər. Bütün art şounun quruluşunda təxminən 500 gənc iştirak*

*edir. Bu günün hekayəsi zəfərə aparan yol haqqındadır.*

*Sonra «Külək haqqında əfsanə» süjeti təqdim olundu. Bu hekayənin baş qəhrəmanları oğlan və qızdır. Onlar öz valideynlərilə Bakının rəmzlərindən biri olan küləyin adı ilə şəhərin yaranmasını söyləyirlər. Azərbaycan – Odlar yurdu, Bakı isə küləklər şəhəridir. O, Xəzər dənizi ilə əhatə olunmuş yarımadada, hər 3 tərəfdən küləyə açıq olan məkanda yerləşir. Ekranda Azərbaycanın təbiətini, onun zənginliyini və nadirliyini görürük.*

*Daha sonra «Şəhərin yaranması» kompozisiyası təqdim edildi. Şəhərin ruhu oyanır. Bu şəhərdə insan yaratmaq, sevmək və yaşamaq istəyir. Səhnədə şəhərin salınması simvolik olaraq nümayiş etdirildi. Səhnədə iri butafor kərpiclər, pilləkənlər, fənərlər və evlər daşıyan rəqqaslar «Şəhərin doğulması» teatr-rəqs tamaşasını ifa etdilər. Akrobat və rəqqaslar hərəkətli və müasir paytaxtın mənzərəsini yaratdılar. Bu nömrədə çoxlu rekvizit və dekorasiyalardan istifadə edilib (evlərin fasadı, nəhəng kərpiclər, gül ləkləri, ağaclar, skamyalar, fənərlər). Kompozisiyada şəhərin necə yarandığı nümayiş olundu. Beləliklə, səhnədə rəmzi şəhərin tikintisi sona çatdı və işlərin yekunlaşmasını bayram etmək vaxtı gəldi.*

*Bunun ardınca «Şəhər Günü bayramı» adlı vokal-xoreoqrafik kompozisiya təqdim olundu. Səhnədə vokalçılar, musiqiçilər, rəqqaslar və aktyorlar çıxış etdilər. İstənilən ölkənin xalqını yaxşı tanımaq üçün yəqin ki, onun bayramlarını necə keçirdiyinə baxmaq*

*lazımdır. Azərbaycanın bayramlarında mədəniyyət zənginliyi, milli kolorit və xalqın ənənəsi yaşayır. Əlbəttə ki, hər bir qonaq məşhur Azərbaycan qonaqpərvərliyini mütləq yüksək qiymətləndirir. Paytaxt Bakının əsas gözəlliyi onun nadir memarlığından və sakinlərindən qaynaqlanır. Paytaxtın küçələri ilə gəzişərkən qeyri-ixtiyari olaraq bu şəhərin öz ab-havası və ruhu olduğunu düşünürsən. Burada insanlar da fərqlidir. Onlar qonaqpərvər, mehriban, ilk çağırışında sənə kömək etməyə hazır, ürəyiaçıq və səmimi-dirlər. Bakı şəhərinin əsl dəyəri də elə bundadır.*

*Açılış mərasiminin daha bir maraqlı məqamı «Elementlər» adlanır. «Həyat kitabı», «Od», «Xarıbülbül gülü», «Çörək» və «Zeytun budağı» – bu rəmzlərin hər biri adət-ənənələri, nəsillərin enerjisini və xalq mədəniyyətini özündə əks etdirir. Səhnədə artistlər qismində Azərbaycan Gimnastika Federasiyasının idmançıları çıxış edirlər.*

*«Həyat kitabı» – əcdadların müdrikliyi və ruhunun gücü insana doğru yol seçməyə kömək edir. Həyat kitabı müdriklik və bilik mənbəyidir.*

*«Od» – ruha və millətin gücünə inam atəşi. O, insanları ruhlandırır. Zərdüştlərin Atəşgah məbədi sönməyən alovu ilə əsrlərboyu bütün dünyanın zəvvarlarını cəlb edib. İllər və əsrlər keçir, dünya dəyişir, məbəd isə yerində qalır və iztirab çəkən insanların yoluna nur saçır. Yerdən çıxan alov idmançılarımıza zəfərə gedən yolda hər zaman kömək edir.*

*«Xarıbülbül gülü»– görünməmiş gözəlliyə malik Xarıbülbül gülü yalnız Azərbaycanda bitir. Öz görünüşünə görə xarıbülbül gülü bülbülə bənzəyir: iki ləçək onun qanadları, mərkəzdəki bir ləçək isə dimdikli quş başına bənzəyir. Gülün adı da elə bundan əmələ gəlib: «xar» – Azərbaycan dilində tərcüməsi «tikan», «bülbül» isə –*

*bülbül deməkdir. Bir çox əfsanə və rəvayətlər bu valehedici və zərif gül ilə bağlıdır.*

*«Çörək» – ananın bişirdiyi çörək yaşam gücü verir. Nəsil, inamın gücü və vətən sevgisi qəhrəmanı zəfərə aparan yola gətirir. Bu an muğam səslənir. 2008-ci ildə UNESKO muğamı bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şah əsərlərindən biri kimi elan edibdir.*

*«Zəfər»–idmançılara güc və çeviklik, enerji və dözümlülük, mübarizlik və dəqiqlik lazımdır. Bütün bu keyfiyyətləri gənc azərbaycanlı idmançılar arenada nümayiş etdirirlər. Bu idmançılardan hər biri, əlbəttə ki, zəfərin rəmzi olan zeytun budağına layiqdir.*

*Nəhayət, təntənəli mərasimin «Final» kompozisiyası başlandı. «Bakı–2019» Avropa Gənclər Yay Olimpiya Festivalının hər bir iştirakçısı indi öz arzusunu, öz yolunu xatırlayır və ümid edir ki, bu yol onu qələbəyə aparacaq. Bütün idmançılara uğurlar, layiqli rəqiblər və qələbə əzmi arzulayırıq. Qoy doğma evi xatırladan çörək, arzuya aparan alov, əcdadların güc və müdrikliyini verən kitab, sülh və sevgi rəmzi olan xarıbülbül hər zaman onlarla olsun. O zaman zəfər rəmzi olan zeytun budağının başlarının üzərində ucaldılacaq an daha da yaxınlaşacaqdır.*

*Sonda bütün iştirakçı ölkələrin bayraqları səhnədə dalğalandı.*

*«Bakı–2019» XV Avropa Gənclər Yay Olimpiya Festivalının təntənəli açılışı mərasimi başa çatdı.*

*Beləliklə, Azərbaycan orijinallığı ilə diqqəti cəlb edən, tamaşaçıları vəcdə gətirən daha bir mərasimlə festivalın tarixində mühüm yer tutacaq növbəti parlaq səhifə yazdı.*

## ÇİN KOMMUNİST PARTİYASI MƏRKƏZİ KOMİTƏSİNİN ŞÖBƏ MÜDİRİ SUN TAONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*22 iyul 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 22-də Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Sun Taonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlət başçısı Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirdi. Çinə son səfərini məmnunluqla xatırladan Prezident İlham Əliyev Çin Xalq Respublikasının Sədri Si Cinpinlə görüşü zamanı münasibətlərimizin gələcək inkişafı ilə bağlı səmərəli danışıqların aparıldığını qeyd etdi və bu səfər zamanı 10 mühüm sənədin imzalanmasının və Çinin aparıcı şirkətlərinin rəhbərləri ilə keçirdiyi görüşlərin əməkdaşlığın genişləndirilməsi baxımından önəmli olduğunu diqqətə çatdırdı. Prezident İlham Əliyev bu yaxınlarda Çinin Sian şəhərindən Azərbaycana yük qatarının gəlməsini əməkdaşlığımızın iqtisadi, nəqliyyat sahələrində yaxşı perspektivlərə malik olmasının göstəricisi kimi dəyərləndirdi.*

*Dövlət başçısı münasibətlərimizin inkişafında müxtəlifsəviyyəli qarşılıqlı səfərlərin rolunu qeyd edərək, Çinin Xarici İşlər nazirinin bu il ölkəmizə səfərinin əlaqələrimizin yaxşı göstəricisi olduğunu söylədi.*

*Xoş sözlərə görə minnətdarlığını bildirən Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Sun Tao ilk növbədə, Çin Xalq Respublikasının Sədri Si Cinpinin salamlarını dövlətimizin başçısına çatdırdı. Sun Tao qeyd etdi ki, Çin Xalq Respublikası Sədrinin və Azərbaycan Respublikası Prezidentinin rəhbərliyi ilə müxtəlif sahələri əhatə edən əlaqələrimiz uğurla inkişaf edir. Qonaq qeyd etdi ki, Azərbaycan Prezidenti İlham Əliyevin uzaqgörən və düşünülmüş siyasəti nəticəsində ölkəmizdə bütün sahələrdə ciddi uğurlar qazanılıbdır.*

*Sun Tao bu ilin aprelində Pekində keçirilmiş «Bir kəmər – bir yol» Beynəlxalq Forumda Prezident İlham Əliyevin iştirakının önəmini qeyd etdi. O bu səfər zamanı Çin Xalq Respublikasının Sədri ilə Azərbaycan Prezidenti arasında əlaqələrin genişləndirilməsi ilə bağlı mühüm razılaşmaların əldə edilməsinin əhəmiyyətini vurğuladı.*

*Dövlət başçısı İlham Əliyev Çin Xalq Respublikasının Sədri Si Cinpinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Çin Xalq Respublikasının Sədrinə çatdırmağı xahiş etdi.*

*Görüşdə iki ölkənin hakim partiyaları arasında əlaqələrin inkişafından məmnunluq ifadə olundu və bu çərçivədə gənclərin, elm adamlarının və ictimai xadimlərin səfər mübadilələrinin həyata keçirilməsinin vacibliyi qeyd edildi.*

**MALDİV RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB İBRAHİM MƏHƏMMƏD SOLİHƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı–Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Maldiv xalqına əmin-amanlıq və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 iyul 2019-cu il*

## KOLUMBİYA RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ LUİS ANTONİO DİMATE KARDENAS İLƏ GÖRÜŞ

*23 iyul 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 23-də Kolumbiya Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Luis Antonio Dimate Kardenasın etimadnaməsini qəbul etmişdir.*

*Səfir Luis Antonio Dimate Kardenas Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Luis Antonio Dimate Kardenas etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Dövlət başçısı Kolumbiya səfirinin Azərbaycanda fəaliyyətə başlamasının önəmini qeyd edərək, bunu tərəfdaşlıq əlaqələrimizin göstəricisi kimi dəyərləndirdi. Prezident İlham Əliyev Azərbaycanla Kolumbiya arasında siyasi əlaqələrin yaxşı səviyyədə olduğunu bildirərək, iqtisadi əməkdaşlığın genişləndirilməsinin zəruriliyini vurğuladı.*

*Dövlət başçısı bu baxımdan ticarət, qarşılıqlı investisiya sahələrində əlaqələrin qurulması üçün yaxşı potensialın mövcud olduğunu nəzərə çatdırdı. Prezi-*

*dent İlham Əliyev Luis Antonio Dimate Kardenasın səfir kimi fəaliyyəti dövründə ikitərəfli münasibətlərimizin inkişafına töhfə verəcəyinə ümidvar olduğunu bildirdi.*

*Səfir Luis Antonio Dimate Kardenas ilk növbədə, Kolumbiya Respublikasının Prezidenti İvan Duke Markesin salamlarını dövlət başçımıza çatdırdı.*

*Luis Antonio Dimate Kardenas Azərbaycana səfir təyin olunmasından məmnunluq hissi keçirdiyini qeyd edərək, ölkəmizdə gedən inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını bildirdi. Səfir Azərbaycanın sosial-iqtisadi sahələrdə böyük uğurlar qazandığını vurğulayaraq, bununla bağlı dövlət başçısına təbriklərini çatdırdı. O, ikitərəfli siyasi əlaqələrin çox yaxşı səviyyədə olduğunu qeyd edərək, iqtisadi sahədə əməkdaşlığın genişləndirilməsinin vacibliyini vurğuladı.*

*Dövlət başçısı İlham Əliyev Kolumbiya Respublikasının Prezidenti İvan Duke Markesin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Kolumbiya Prezidentinə çatdırmağı xahiş etdi.*

## MALAYZİYANIN AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ YUBAZLAN BİN YUSOF İLƏ GÖRÜŞ

*23 iyul 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 23-də Malayziyanın ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Yubazlan bin Yusofun etimadnaməsini qəbul etmişdir.*

*Səfir Yubazlan bin Yusof Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Yubazlan bin Yusof etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Prezident İlham Əliyev Azərbaycanla Malayziya arasında siyasi sahədə əlaqələrin uğurla inkişaf etdiyini bildirərək, ölkəmizin iqtisadi, ticari, investisiya, turizm və digər sahələrdə əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu diqqətə çatdırdı.*

*Dövlət başçısı Azərbaycanla Malayziyanın beynəlxalq təşkilatlarda, o cümlədən BMT-də, İslam Əməkdaşlıq Təşkilatında bir-birini dəstəkləməsinin önəmini qeyd etdi. Azərbaycan Prezidenti İlham Əliyev Yubazlan bin Yusofun səfirlik fəaliyyəti dövründə əlaqələrimizin daha da inkişaf etdirilməsi işinə töhfə verəcəyinə ümidvar olduğunu bildirdi.*

*Səfir Yubazlan bin Yusof Malayziyanın ali rəhbərliyinin salamlarını dövlət başçısına çatdırdı. Yubazlan bin Yusof fəaliyyəti dövründə münasibətlərimizin inkişafı, xalqlarımız arasında əlaqələrin möhkəmləndirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini bildirdi.*

*Dövlət başçısı İlham Əliyev Malayziyanın ali rəhbərliyinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Malayziyanın ali rəhbərliyinə çatdırmağı xahiş etdi.*

## İSVEÇRƏ KONFEDERASİYASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ XANIM MURİEL PENEVEYRE İLƏ GÖRÜŞ

*23 iyul 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 23-də İsveçrə Konfederasiyasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri xanım Muriel Peneveyrenin etimadnaməsini qəbul etmişdir.*

*Səfir Muriel Peneveyre Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Muriel Peneveyre etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Prezident İlham Əliyev Azərbaycanla İsveçrə arasında əlaqələrin yüksək səviyyədə olduğunu və fəal dialoqun aparıldığını qeyd etdi. Dövlət başçısı İsveçrə Prezidenti ilə bu ilin yanvarında keçirdiyi görüşü məmnunluqla xatırlatdı. Prezident İlham Əliyev İsveçrə prezidentlərinin Azərbaycana səfərlərinin, Davos Forumu çərçivəsində yüksək səviyyəli mütəmadi görüşlərin əlaqələrimizin möhkəmləndirilməsinin yaxşı nümunəsi olduğunu vurğuladı. Dövlət başçısı iqtisadi əməkdaşlıq, qarşılıqlı investisiya qoyuluşu sahələrin-*

*də əlaqələrin dinamik inkişaf etdiyini bildirdi, İsveçrənin çoxlu sayda şirkətinin Azərbaycanda uğurlu fəaliyyət göstərdiyini, mühüm layihələrin icrasında iştirak etdiyini diqqətə çatdırdı.*

*Azərbaycanda səfir təyin olunmasından şərəf duyduğunu bildirən Muriel Peneveyre səfirlik fəaliyyəti dövründə əlaqələrin genişləndirilməsi, o cümlədən ölkəmizin regionlarının daha yaxşı tanınması istiqamətində səylərini əsirgəməyəcəyini söylədi. O bu yaxınlarda Bakıda keçirilmiş UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasında iştirak etdiyini məmnunluqla qeyd edərək, «Xan sarayı ilə birgə Şəkinin tarixi mərkəzi»nin UNESKO-nun Ümumdünya irs siyahısına daxil edilməsi münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdı.*

## ALMANİYA FEDERATİV RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ VOLFQANQ MANİQ İLƏ GÖRÜŞ

*23 iyul 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 23-də Almaniya Federativ Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Volfqanq Maniqin etimadnaməsini qəbul etmişdir.*

*SəfirVolfqanq Maniq Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Volfqanq Maniq etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Dövlət başçısı Azərbaycan ilə Almaniya arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi, ticarət, turizm və digər sahələrdə uğurla inkişaf etdiyini bildirərək, əlaqələrimizin bundan sonra daha da genişlənməsi üçün yaxşı imkanların olduğunu söylədi. Prezident İlham Əliyev münasibətlərimizin inkişafında yüksək səviyyəli səfərlərin önəminə toxunaraq, ötən il Federal Kansler xanım Angela Merkelin Azərbaycana səfəri zamanı ikitərəfli münasibətlərin inkişafı ilə bağlı səmərəli müzakirələrin aparıldığını qeyd etdi*

*və bildirdi ki, bu səfər əlaqələrimizin daha da genişləndirilməsinə əsaslı təkan veribdir. Almaniya şirkətlərinin uzun illərdir Azərbaycanda sənaye, infrastruktur, kənd təsərrüfatı və digər sahələrdə uğurlu fəaliyyət göstərdiyini bildirən dövlət başçısı bu şirkətlərin qeyri-enerji sektorunda, Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi istiqamətində də fəal iştirak etdiyini vurğuladı. Prezident İlham Əliyev qeyri-enerji sektorunun inkişafının Azərbaycanda prioritet sahə olduğunu və bu istiqamətdə son illər böyük uğurların qazanıldığını bildirdi.*

*Ölkələrimiz arasında mədəni-humanitar əlaqələrin vacibliyinə toxunan Prezident İlham Əliyev 200 il bundan əvvəl Azərbaycanda məskunlaşmış almanların mədəni irsinə dövlətimiz tərəfindən qayğı göstərildiyini bildirdi.*

*Dövlətimizin başçısı Volfqanq Maniqin fəaliyyəti dövründə əlaqələrimizin uğurlu inkişafının davam etdiriləcəyinə ümidvar olduğunu ifadə etdi.*

*Ölkələrimiz arasında əlaqələrin uğurlu inkişafına toxunan səfir Volfqanq Maniq Azərbaycanın Almaniya üçün Cənubi Qafqazda ən mühüm iqtisadi tərəfdaş olduğunu vurğulayaraq, ölkəsinin Azərbaycanın enerji, sənaye və qeyri-neft sahələrinin inkişafında, iqtisadiyyatın şaxələndirilməsi üzrə əməkdaşlıqda maraqlı olduğunu bildirdi.*

*Volfqanq Maniq öz növbəsində, 200 il bundan öncə Azərbaycanda məskunlaşmış almanların tarixi və mədəni irsinin qorunub saxlanılması məqsədilə Azərbaycan tərəfindən görülmüş işlərin yüksək qiymətləndirildiyini diqqətə çatdırdı.*

## ÇİN XALQ RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ XANIM QO MİN İLƏ GÖRÜŞ

*23 iyul 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 23-də Çin Xalq Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri xanım Qo Minin etimadnaməsini qəbul etmişdir.*

*Səfir Qo Min Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Xanım Qo Min etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Prezident İlham Əliyev Azərbaycanla Çin arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirərək, yüksək səviyyəli görüşlərin əlaqələrimizin inkişafında rolunu qeyd etdi. Bu ilin aprelində Pekində keçirilmiş «Bir kəmər – bir yol» Beynəlxalq Forumda iştirak etmək üçün Çinə səfərini xatırladan Prezident İlham Əliyev bu səfər zamanı Çin Xalq Respublikasının Sədri Si Cinpinlə görüşünün ölkələrimizin ikitərəfli əlaqələrin genişləndirilməsində maraqlı olduqlarını bir daha göstərdiyini qeyd etdi.*

*Dövlət başçısı bu səfər çərçivəsində iqtisadiyyat, sənaye, investisiya sahələrini əhatə edən 10 mühüm sənədin imzalanmasının ikitərəfli münasibətlərin daha da genişləndirilməsi baxımından önəmini vurğuladı. Prezident İlham Əliyev eyni zamanda, 2015-ci ildə Çin Xalq Respublikasına dövlət səfərinin əlaqələrimizin inkişafında mühüm rol oynadığını diqqətə çatdırdı.*

*Dövlət başçısı qeyd etdi ki, Azərbaycanla Çinin iqtisadi əməkdaşlığı uğurla inkişaf edir və bu baxımdan bu yaxınlarda Çinin Sian şəhərindən Azərbaycana yük qatarının gəlməsi nəqliyyat sahəsində əlaqələrin yaxşı perspektivlərə malik olduğunu nümayiş etdirir. Prezident İlham Əliyev eyni zamanda, bildirdi ki, Çindən Azərbaycana gələn turistlərin sayının artması da əlaqələrin inkişaf etməsinin yaxşı göstəricisidir.*

*Səfir Qo Min ilk növbədə, Çin Xalq Respublikasının Sədri Si Cinpinin salamlarını və ən xoş arzularını dövlət başçısına çatdırdı. Qo Min ikitərəfli münasibətlərimizin yüksək səviyyədə olduğu bir dövrdə Azərbaycanda səfir təyin olunmasından şərəf hissi duyduğunu söylədi. Səfirlik fəaliyyəti dövründə Prezident İlham Əliyevin Çin Xalq Respublikasına son səfəri zamanı Çin Xalq Respublikasının Sədri Si Cinpinlə əldə olunmuş mühüm razılaşmaların reallaşdırılması istiqamətində səylərini əsirgəməyəcəyini bildirdi. Səfir mühüm məsələlərlə bağlı ölkələrimizin bir-birini dəstəkləməsini münasibətlərimizin inkişafının mühüm göstəricisi kimi dəyərləndirdi. Azərbayca-*

*nın çox gözəl ölkə olduğunu qeyd edən Qo Min respublikamıza Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə bundan sonra da uğurlu inkişaf arzuladı.*

*Dövlət başçısı Çin Xalq Respublikasının Sədri Si Cinpinin salamlarına və ən xoş arzularına görə minnətdarlığını bildirdi, onun da salamlarını və ən xoş arzularını Çin Xalq Respublikasının Sədrinə çatdırmağı xahiş etdi.*

## BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB BORİS CONSONA

Hörmətli cənab Baş Nazir!

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş Naziri vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Biz Azərbaycan ilə Birləşmiş Krallıq arasındakı münasibətlərin inkişafına böyük əhəmiyyət veririk. Bu mənada qarşılıqlı səmərəli əməkdaşlığımız məmnunluq doğurur.

Neft-qaz hasilatı və nəqli sahəsindəki əməkdaşlığımızı xüsusi qeyd etmək istərdim. Enerji sektorunda uzun illərdən bəri müvəffəqiyyətlə davam edən birgə fəaliyyətimiz, gerçəkləşdirdiyimiz irimiqyaslı transmilli layihələr qlobal enerji təhlükəsizliyinin təmin edilməsinə böyük töhfədir.

İnanıram ki, qarşılıqlı maraqlarımıza uyğun olaraq, Azərbaycan ilə Birləşmiş Krallıq arasındakı münasibətlərin inkişafı istiqamətində Sizinlə birgə səylər göstərəcəyik.

Sizə ən xoş arzularımı yetirir, qarşıdakı məsul fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,* **İLHAM ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 iyul 2019-cu il*

## BEYNƏLXALQ ASTRONAVTİKA FEDERASİYASININ PREZİDENTİ JAN-İV LÖ QAL İLƏ GÖRÜŞ

*24 iyul 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 24-də Beynəlxalq Astronavtika Federasiyasının prezidenti, Fransa Kosmik Agentliyinin rəhbəri Jan-İv Lö Qalı qəbul etmişdir.*

*Görüşdə Azərbaycanda kosmik sənayenin inkişafında əldə edilmiş uğurlar qeyd olundu, yüksək texnologiyaların, o cümlədən kosmik sənayenin ölkəmizdə prioritet sahələrdən biri olduğu bildirildi, Azərbaycanın artıq üçüncü süni peykinin orbitə buraxılması mühüm hadisə kimi dəyərləndirildi və ölkəmizin dünya kosmik ailəsinin üzvü olmasının əhəmiyyəti vurğulandı.*

*Söhbət zamanı Azərbaycan ilə Fransa arasında əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən kosmik sənaye sahəsində uğurla inkişaf etdiyi bildirildi, ölkəmizin Beynəlxalq Astronavtika Federasiyası ilə əməkdaşlığının genişləndirilməsindən məmnunluq ifadə olundu.*

*Görüşdə əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

**PERU RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB MARTİN VİZKARRA KORNEXOYA**

Hörmətli cənab Prezident!

Peru Respublikasının milli bayramı–Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı ürəkdən təbrik edirəm.

Ümidvaram ki, ölkələrimiz arasında ikitərəfli əlaqələr dostluq və əməkdaşlıq ruhunda inkişaf edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə və xalqınıza ən xoş arzularımı yetirirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 iyul 2019-cu il*

**MƏRAKEŞ KRALI ƏLAHƏZRƏT**
**VI MƏHƏMMƏDƏ**

Əlahəzrət!

Əziz qardaşım!

Mərakeş Krallığının milli bayramı–Taxt-tac Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Mərakeş arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın iradəsinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, qardaş Mərakeş xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *26 iyul 2019-cu il*

**İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB UELİ MAURERƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan–İsveçrə əlaqələri, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İsveçrə xalqına daim sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 iyul 2019-cu il*

## FRANSA RESPUBLİKASININ İQTİSADİYYAT VƏ MALİYYƏ NAZİRİ BRÜNO LE MERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*29 iyul 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 29-da Fransa Respublikasının İqtisadiyyat və Maliyyə naziri Brüno Le Merin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Fransaya keçənilki uğurlu səfərini məmnunluqla xatırladan dövlətimizin başçısı Fransa Prezidenti Emmanuel Makron ilə keçirilmiş səmərəli müzakirələri Azərbaycanla Fransa arasında tərəfdaşlıq əlaqələrinin inkişafına xidmət edən amil kimi dəyərləndirdi. Prezident İlham Əliyev iqtisadi əməkdaşlığımızın uğurla inkişaf etdiyini bildirərək, bu baxımdan biznes əlaqələrinin və biznes nümayəndələrinin qarşılıqlı səfərlərinin önəmini qeyd etdi.*

*Dövlət başçısı fransız şirkətlərinin Azərbaycandakı səmərəli fəaliyyətini qeyd edərək, onların sayının artmasından məmnunluğunu ifadə etdi. Prezident İlham Əliyev investisiya sahəsində də yaxşı əməkdaşlığın həyata keçirildiyini vurğuladı. Dövlət başçısı Fransanın İqtisadiyyat və Maliyyə naziri Brüno Le Merin ölkəmizə səfərinin əməkdaşlığımızın perspek-*

*tivlərinin müzakirəsi üçün yaxşı imkan yaratdığını və bu səfərin əlaqələrimizin daha da inkişaf etdirilməsinə töhfə verəcəyinə ümidvar olduğunu bildirdi.*

*Fransanın İqtisadiyyat və Maliyyə naziri Brüno Le Mer ilk növbədə, Fransa Respublikasının Prezidenti Emmanuel Makronun salamlarını dövlət başçısına çatdırdı. Brüno Le Mer Bakının abadlığının və inkişafının onlarda xoş təəssürat doğurduğunu vurğuladı. O, Fransa tərəfinin Azərbaycanla siyasi və iqtisadi sahələrdə əməkdaşlığı genişləndirməkdə maraqlı olduğunu bildirdi.*

*Söhbət zamanı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycanın mövqeyi bir daha vurğulandı, münaqişənin nizama salınması ilə əlaqədar fikir mübadiləsi aparıldı.*

*Görüşdə neft, qaz, nəqliyyat, infrastruktur, ekologiya və digər sahələrdə əməkdaşlıq və görüləcək işlər müzakirə edildi.*

*Dövlət başçısı Fransa Respublikasının Prezidenti Emmanuel Makronun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Fransa Prezidentinə çatdırmağı xahiş etdi.*

## SOSİAL-İQTİSADİ SAHƏ İLƏ BAĞLI MÜŞAVİRƏDƏ İŞTİRAK

*31 iyul 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 31-də sosial-iqtisadi sahə ilə bağlı müşavirə keçirmişdir.*

**İ l h a m  Ə l i y e v:** İlin əvvəlində qarşımıza qoyduğumuz vəzifələr icra edilir, ölkəmiz inamla inkişaf edir, böyük infrastruktur layihələri icra olunur. Ümumi iqtisadi vəziyyət çox müsbətdir və bu özünü rəqəmlərdə də əks etdirir.

İqtisadiyyatımız bu ilin 6 ayında 2,4 faiz, qeyri-neft sektorumuz 3,2 faiz artıbdır. Ən sevindirici göstərici qeyri-neft sənayesindədir. Burada artım 15,7 faizdir. Bu onu göstərir ki, son illərdə sənayeləşmə siyasətimiz gözəl nəticələr verir. Sənayemizin qeyri-neft sektoru rekord addımlarla irəliləyir. Bu sahədə bu il istifadəyə verilmiş iri müəssisələrin rolu kifayət qədər böyükdür. Bildiyiniz kimi, Karbamid zavodu, «SOCAR Polymer» zavodu istifadəyə verilib və bu zavodların istehsal həcmi kifayət qədər böyükdür. Eyni zamanda, kiçik və orta sahibkarlığın inkişafı üçün lazımi addımlar atılır. Beləliklə, 6 ayda qeyri-neft sənayemizin 15,7 faiz artımı, əlbəttə ki, çox sevindirici haldır.

Kənd təsərrüfatında da rekord göstərici əldə edilib. Kənd təsərrüfatı bu ilin 6 ayında 13 faiz artıbdır, xüsusilə bitkiçilik hesabına. Bitkiçilik 25 faiz artıbdır. Bu onu göstərir ki, qoyulmuş investisiyalar, aparılmış islahatlar, verilmiş subsidiyalar, kənd təsərrüfatına elmi yanaşma öz nəticəsini verməkdədir. Əminəm ki, gələcək illərdə kənd təsərrüfatı dayanıqlı şəkildə inkişaf edəcək və beləliklə, həm məşğulluğun, həm də kənd təsərrüfatı ixracının artırılmasına xidmət göstərəcəkdir.

Ticarət dövriyyəmiz də kifayət qədər artıb – 20 faizdən çox. Qeyri-neft ixracımız 15 faiz artıbdır. 6 ayda ölkə iqtisadiyyatına 6 milyard dollardan çox sərmayə qoyulub. Bu sərmayənin böyük hissəsi qeyri-neft sektoruna qoyulan sərmayədir. İnflyasiya cəmi 2,5 faizdir. Bu da yaxşı göstəricidir, əhalinin gəlirləri 6,6 faiz artıb. Büdcə daxilolmaları Vergilər Nazirliyinin, Dövlət Gömrük Komitəsinin xətti ilə 440 milyon manatdan çox artıb, yəni plandan əlavə yığılıb və bu da aparılan islahatların təzahürüdür.

Bir sözlə, bütün iqtisadi göstəricilər onu deməyə əsas verir ki, biz düzgün istiqamətdə inkişaf edirik və qarşıda duran bütün vəzifələri icra edirik.

Bildiyiniz kimi, bu ilin əvvəlində çox böyük sosial paket təsdiqləndi və bu sosial təşəbbüslər 4 milyondan çox insanı əhatə edir. Çox önəmli addımlar atılıb – minimum əməkhaqqı, minimum pensiya əhəmiyyətli dərəcədə qaldırılıbdır. Birinci dəfə də 40 faiz, ikinci dəfə də 40 faiz artıbdır, bu, artıq sentyabr ayından ödəniləcəkdir. Minimum əməkhaqqı təxminən 2 dəfə

qaldırılıb, 130 manatdan 250 manata çatdırılıb. Pensiya isə 116 manatdan 200 manata çatdırılıb. Bu da çox əhəmiyyətli artımdır və əlbəttə ki, buna böyük maliyyə vəsaiti lazımdır. Biz əlavə gəlirlərimizin, demək olar ki, tam həcmini sosial sahəyə yönəldirik. Çünki sosial sahə bizim üçün prioritet sahədir və hər zaman bu sahə diqqət mərkəzində olub, bu gün də belədir. Azərbaycan vətəndaşlarının rifahı, onların yaşayış səviyyəsi daim diqqət mərkəzindədir və imkan daxilində biz bu məsələləri həll edirik. Onu da bildirməliyəm ki, bu sosial paketin həyata keçirilməsi üçün çox böyük maliyyə vəsaiti tələb olunur. Biz buraya təxminən 2 dəfə artımın olduğu sosial müavinətləri də əlavə edə bilərik. Məcburi köçkünlərə verilən müavinət 50 faiz artıb, problemli kreditlərlə bağlı məsələ öz həllini tapıb, digər sosial təşəbbüslər irəli sürülüb və bu bir daha göstərir ki, bizim siyasətimiz sosial yönümlü siyasətdir.

Bu proqramın və təşəbbüslərin həyata keçirilməsi ilə əlaqədar görülmüş işlərlə bağlı məlumat üçün söz verilir Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayevə.

**S a h i l  B a b a y e v** (*Əmək və Əhalinin Sosial Müdafiəsi naziri*): Möhtərəm cənab Prezident, Siz ilin əvvəlində bəyan etmişdiniz ki, bu il sosial inkişafla bağlı çox fərqli bir il olacaqdır. Həqiqətən də Sizin təşəbbüsünüzlə 2 böyük sosial islahat paketi qəbul edildi. Birinci paket 3 milyon insanı əhatə etdi və ümumi illik maliyyə tələbi 1,6 milyard manata bərabər idi. Bu sosial islahat paketi artıq tam şəkildə

icra olunub və həm pensiyaçılarımızın, həm də işləyən vətəndaşlarımızın əmək haqları artırılıbdır. İkinci sosial paketlə bağlı hazırlıq işləri artıq yekunlaşıb və sentyabr ayının 1-dən etibarən minimum əməkhaqqının 250 manata çatdırılması, dövlət sektorunda çalışan əlavə 400 min insanın kateqoriyasından asılı olaraq 20–50 faiz civarında əmək haqlarının artırılması, eyni zamanda, oktyabrın 1-dən etibarən 750 min pensiyaçının pensiyasının artırılması ilə bağlı bütün hazırlıq işləri artıq yekunlaşdırılıbdır. Ümumilikdə hər iki paketin ümumi dəyəri cari il üçün 2,3 milyard manat, növbəti il üçün isə 3 milyard manatdır və 4,2 milyon insanı əhatə edəcəkdir. Minimum əməkhaqqında, demək olar ki, 2 dəfə artım, minimum pensiyada 72 faizlik artım nəticəsində Azərbaycanda minimum pensiya MDB məkanında alıcılıq qabiliyyətinə görə birinci, minimum əməkhaqqı isə ikinci göstərici olacaqdır.

Əlavə olaraq, tapşırığınıza əsasən, müavinət və təqaüdlərin artırılması sahəsində görülən işlər ümumilikdə 1,3 milyon insanı əhatə etdi və bunlardan 300 mindən çoxu məhz əlilliyi olan şəxslər, 500 minə qədəri məcburi köçkün, 100 mindən çoxu isə tələbə və gənclər idi. Ümumilikdə bu müavinət və təqaüdlər əhalinin sosial cəhətdən ən həssas təbəqəsini əhatə etdi və onların gəlirləri çox əhəmiyyətli şəkildə artdı.

Sizin digər bir sosial təşəbbüsünüz olaraq, ötən ilin sonlarında qanunvericiliyə edilmiş dəyişiklik nəticəsində ölkəmizdə ciddi şəkildə sosial sığorta amnistiyası elan edildi və 2006-cı ildən 2018-ci ilədək sosial sığorta sahəsində cüzi ödəniş etmiş şəxslərə

belə, 25 il sığorta stajı tətbiq edildi. Bunun nəticəsində yanvar ayının 1-dən etibarən avtomatik pensiya təyinatına başlanıldı. Avtomatik pensiya təyinatı bu gün artıq 13 min insanı əhatə edir. Onlar hər hansı bir ünvana getmədən, hər hansı bir müraciət etmədən pensiya təyinatlarını ən səmərəli və sürətli şəkildə əldə edirlər. Bu siyasətin davamı olaraq, bu sahədə şəffaflığın və səmərəliliyin təmin edilməsi üçün il ərzində pensiyaya çıxan vətəndaşlarımızın 80 faizi əhatə olunacaqdır. Digər avtomatlaşdırılma tədbirləri də davam etdiriləcəkdir. O cümlədən müavinət və təqaüdlərin təyinatında avtomatlaşdırılma tədbirləri bitdikdən sonra cari il üçün 180 min müraciətin tam şəkildə, praktik qaydada, vətəndaşların hər hansı bir ünvana getmələrinə ehtiyac olmadan təmin edilməsi həyata keçiriləcəkdir.

**İlham Əliyev:** Özünüməşğulluq proqramı ilə bağlı hansı işlər görülür? Çünki ilin əvvəlində biz planlaşdırırdıq ki, bu proqram təqribən 7000 insanı əhatə edəcək, amma həyat göstərir ki, rəqəm artır və tələbat da artır. Yəni bu sahədə hansı işlər görülüb və proqramın əhatə dairəsi nə qədər genişlənəcəkdir?

**Sahil Babayev:** Cənab Prezident, Sizin tapşırığınızla ötən il biz 6000 ailəni əhatə edə bildik və 6000 ailə mikro və kiçik biznesə başlaması üçün aktivlərlə təmin edildi. Sizin göstərişinizə əsasən, bu il üçün İşsizlikdən Sığorta Fondunun büdcəsinə müvafiq dəyişiklik edildi və əlavə vəsaitin cəlb olunması nəticəsində 10 min ailənin bu il özünüməşğulluq proqramı ilə əhatə edilməsi planlaşdırılır. Müraciətlər

çoxdur, əhalinin bu proqrama çox böyük marağı və rəğbəti vardır. Cari ilin ilk 6 ayı ərzində 45 minə yaxın müraciət olub. Bunları nəzərə alaraq, ötən ildən növbədə qalan insanlara və bu il müraciət edənlərin arasında isə əlilliyi olan şəxslərə, məcburi köçkünlərə, şəhid ailələrinə və həssas kateqoriyadan olan digər insanlara üstünlük verilir. Artıq 4000 nəfər bu il təlimlərdən keçib, 1100 nəfər aktivlər əldə edibdir. Əlavə olaraq BMT-nin İnkişaf Proqramı layihəyə cəlb olunub, 1000 nəfərə yaxın ailə məhz BMT-nin İnkişaf Proqramı tərəfindən təmin ediləcəkdir. Sizin göstərişlərinizə uyğun olaraq, Dünya Bankı ilə müzakirələr yekun mərhələyə çatıb. Sentyabr ayında Dünya Bankı layihə təklifini Azərbaycan hökumətinə təqdim edəcək və gələn ildən bu layihəyə qoşulacaqdır. Ümumilikdə layihənin ilkin göstəriciləri çox müsbətdir. Əlbəttə, ikiillik dövrün yekun monitorinqinin nəticələrini götürmək olar, amma ilk 6 ayın göstəriciləri göstərir ki, əhalinin bu proqrama həm böyük rəğbəti var, həm də bu mexanizmdən ciddi şəkildə yararlanırlar.

**İlham Əliyev:** Bəli, biz bu məsələləri beynəlxalq maliyyə qurumları ilə də müzakirə etmişik. Dünya Bankı ilə bu ilin əvvəlində müzakirələr aparıldı və biz onları bu proqrama dəvət etdik. Dünya Bankının bu proqramda iştirakı təbii ki, bizə əlavə maliyyə resursu verəcəkdir.

May ayında açılmış DOST Mərkəzinin fəaliyyəti haqqında nə deyə bilərsiniz?

**S a h i l B a b a y e v:** Cənab Prezident, Sizin iştirakınızla DOST Mərkəzi açıldıqdan sonra həqiqətən də çox böyük rəğbət qazanıbdır. 2 aydan bir az artıq dövrdə 20 min vətəndaşımız bu mərkəzə müraciət edib. Hər bir müraciətçi xidmət gördükdən sonra orada elektron qaydada xidmətin səviyyəsini qiymətləndirir. Bu günə vətəndaşlarımızın tam məmnunluq səviyyəsi 93 faizi keçibdir, 4 faiz də əlavə olaraq, qismən məmnun vətəndaşlarımızdır. Biz bu göstəricini daim bu səviyyədə saxlamağa çalışacağıq. Bu gün artıq 126 xidmətin hər biri DOST Mərkəzində göstərilir. Sizin göstərişlərinizə uyğun olaraq, ilin sonunadək növbəti mərkəzin açılması istiqamətində ciddi iş aparılır. Daha 3 mərkəzin açılması üçün işlər görülür. Düşünürük ki, ilin sonuna və növbəti ilin birinci rübünə kimi bu 3 mərkəz də açılacaq və beləliklə, biz Bakının 80 faizini əhatə etmiş olacağıq. Növbəti mərhələdə daha bir mərkəz açdıqdan sonra Bakı şəhəri tam əhatə olunacaq. Regionlarımızda da DOST mərkəzlərinin açılması sahəsində iş başlanacaq. DOST Mərkəzinin, DOST konsepsiyasının bir mexanizmi də elektron və onlayn xidmətlərin göstərilməsi məsələsidir. Bununla bağlı orada çox müasir «Çağrı mərkəzi» qurulub. Vətəndaşlarımızdan gələn müraciətlərin sayından və onların məmnunluq səviyyəsindən görünür ki, «Çağrı mərkəzi» vasitəsilə bir çoxları onlara lazım olan xidməti əldə edərək, mərkəzə gəlməyə də ciddi ehtiyac duymurlar. Düşünürük ki, DOST Mərkəzi Sizin növbəti təşəbbüsünüz olaraq, Azərbaycanın bir brendinə çevriləcəkdir.

May ayında Bakı şəhərində Beynəlxalq Sosial Təminat Agentliyinin Avropa Forumu keçirildi və 55 ölkənin sosial təminat agentliklərinin rəhbərləri DOST Mərkəzini ziyarət etdilər. Onların da ilkin qiymətləndirməsi çox yüksək oldu. İnanırıq ki, qısa müddət ərzində bu şəbəkə genişləndiriləcək, ölkə ərazisini tam şəkildə əhatə edəcəkdir.

**İ l h a m  Ə l i y e v:** Bu ilin əvvəlində regionların sosial-iqtisadi inkişafı üzrə dördüncü Dövlət Proqramı qəbul edilib. Bu çox genişmiqyaslı proqramdır. Baxmayaraq ki, son illərdə infrastruktur layihələri ilə bağlı bir çox işlər görülüb, bu günə qədər həllini tapmayan məsələlər də bu proqramın icrası nəticəsində öz həllini tapacaqdır. Bu sahə bizim üçün prioritet sahədir. Həm elektrik enerjisi ilə təchizat, qazlaşdırılma, içməli su sahələrində, həm də suvarma layihələrinin icrası istiqamətində bir çox işlər görülüb və gözəl nəticələr vardır. Beləliklə, Azərbaycanda qazlaşdırılmanın səviyyəsi 96 faizə yaxınlaşır. Nadir ölkələrdə bu qədər qazlaşdırılma aparılır. Elektrik enerjisi ilə bağlı böyük generasiya gücləri yaradılıb və Azərbaycan bu baxımdan yenə də ön sıralardadır. Çünki biz öz enerji təhlükəsizliyimizi təmin edə bilmişik. Bu il mövcud stansiyalarda aparılmış yenidən qurulma işləri nəticəsində əlavə generasiya gücü əldə ediləcəkdir. Bütün bölgələrimizdə içməli su layihələri icra edilir və bu il də bir neçə şəhərin içməli su problemi həll olunacaqdır. Buna çox böyük diqqət göstərilir. Hər il təxminən 100 min hektar torpağın suvarılması ya yaxşılaşır, ya da ki, suvarılmayan torpaqlara su çəki-

lir. Bu da çox önəmli məsələdir və bu məsələ ilə bağlı əlavə addımlar atılacaqdır.

Bütövlükdə ilin əvvəlindən icra edilən proqramın əsas göstəriciləri haqqında danışmaq üçün söz verilir İqtisadiyyat naziri Şahin Mustafayevə.

**Şahin Mustafayev** (*İqtisadiyyat naziri*): Möhtərəm cənab Prezident, həqiqətən, Siz 2004-cü ildən başlayaraq, ölkədə regionların sosial-iqtisadi inkişafına böyük diqqət yetirirsiniz və apardığınız sosial-iqtisadi inkişaf strategiyasının əsas istiqamətlərindən biri də məhz regionların tarazlı və davamlı inkişafıdır.

Qeyd etdiyiniz kimi, artıq bu ilin əvvəlində təsdiq etdiyiniz regionların sosial-iqtisadi inkişafı üzrə dördüncü Dövlət Proqramının icrasına başlanılıbdır. Üç Dövlət Proqramı böyük uğurla icra olunub və yekun nəticə olaraq, əhalinin rifahının yüksəlməsinə yönəlmiş dövlət proqramlarının icrası, sözün əsl mənasında, Azərbaycanın regionlarının simasını köklü surətdə dəyişibdir. Regionların indiki vəziyyəti 15 il bundan əvvəlki vəziyyətindən həqiqətən, köklü şəkildə fərqlənir. Bu inkişafda qəbul etdirdiyiniz proqramların rolu müstəsna əhəmiyyət kəsb edir.

Bu ilin əvvəlində təsdiqlədiyiniz dördüncü proqramın icrası uğurla davam etdirilir. Dövlət İnvestisiya Proqramında nəzərdə tutulmuş vəsaitlərin böyük hissəsi ilk növbədə, bu proqramın əsas istiqaməti olan infrastruktur layihələrinin icrasına yönəldilibdir. Eyni zamanda, bu proqram regionlarda kommunal xidmətlərin səviyyəsinin yüksəldilməsi, infrastruktur

təminatının yaxşılaşdırılması ilə yanaşı, sosial infrastrukturun yaxşılaşdırılmasına da yönəldilib və ciddi nəticələr verir. Həmçinin Dövlət Proqramının icrası kənd yerlərini də əhatə etməklə, məşğulluğun təmin olunması istiqamətində atılmış vacib addımlardan biridir. Bu gün artıq qeyd etmək olar ki, regionlarda yaradılmış biznes mühiti, kənd təsərrüfatı və sənayenin inkişafı üçün infrastruktur artıq öz bəhrəsini verməkdədir və bölgələrdə məşğulluğun təmin olunmasında əsas rol oynayır.

Mən regionlarda yaradılmış 9 sənaye parkı və məhəllələr haqqında qısa məlumat vermək istəyirəm. Artıq sənaye parkları və məhəllələrdə 78 rezident qeydiyyatdan keçib, 45 rezident artıq fəaliyyətə başlayıbdır. Nəzərdə tutulmuş 6,4 milyard manat sərmayədən artıq 5,7 milyard manatı faktiki olaraq qoyulub və bu layihələrin yerinə yetirilməsi nəticəsində 11000-dən çox yeni iş yeri açılıbdır. Eyni zamanda, bu layihələrin fəaliyyəti nəticəsində artıq 1,5 milyard manatlıq məhsul istehsal olunub ki, onun da 300 milyon manatlıq hissəsi ixraca yönəlibdir.

Həmçinin tapşırığınızla regionlarda iş yerlərinin açılması və məşğulluğun təmin olunması istiqamətində kənd təsərrüfatı üçün vacib olan aqroparkların və iri fermer təsərrüfatlarının yaradılması istiqamətində ciddi işlər aparılır. Tapşırığınıza uyğun olaraq, 51 aqroparkın yaradılması istiqamətində ciddi addımlar atılıb. Artıq nəticələr vardır. 22 aqropark faktiki fəaliyyətdədir, bu ilin sonuna qədər 11 aqroparkın fəaliyyətə başlamasını gözləyirik. Bu layihələrin

icrası nəticəsində ölkə iqtisadiyyatına 2,4 milyard manat əlavə investisiya qoyulacaq, 4000-dən çox yeni iş yeri yaradılacaqdır. Həmçinin investisiyaların təşviqi sahəsində görülən işlər də regionların inkişafına müsbət təsir göstərir və investisiyaların təşviqi mexanizmi uğurlu nəticələr verir. Bu günədək 400-ə yaxın layihə təşviq olunub və onların nəticəsində ölkə iqtisadiyyatına 3,4 milyard manat sərmayə qoyulubdur. Bunların nəticəsində 16 mindən çox yeni iş yerinin açılması artıq reallaşıbdır.

Aydındır ki, biznes mühiti üçün layiqli, səviyyəli infrastrukturun mövcudluğu əsas şərtdir. Bu baxımdan qeyd etdiyiniz infrastruktur layihələrinin icrasının davam etdirilməsi regional proqramın əsas məqsədlərindən biridir. Qeyd etdiyiniz kimi, elektrik, qaz təchizatı, yolların çəkilməsi, xüsusilə kənd yollarının çəkilməsi və son illər ərzində Sizin tapşırığınızla bu istiqamətdə görülən işlər doğrudan da regionlardakı vəziyyəti ciddi surətdə dəyişib. Artıq kənd yerlərində mövcud olan köhnə yolların əksəriyyəti yüksək səviyyədə təmir olunub. Bu da həm əhalinin rifahının yaxşılaşdırılmasına, həm də iqtisadiyyatın inkişafına çox müsbət təsir göstəribdir.

Siz meliorasiya sahəsində görülən işləri qeyd etdiniz. Min kilometrlərlə kollektor-drenaj sistemləri təmizlənir, subartezian quyuları qazılır, əhalinin istifadəsinə verilir. Eyni zamanda, Siz hər il bu proqrama ciddi diqqət göstərir, onu şəxsən təsdiq edirsiniz. Bu quyuların kəndbəkənd dislokasiyasına

Siz özünüz nəzarət edirsiniz və bunun çox gözəl nəticələri göz qabağındadır.

Mən xüsusilə sosial sahədə görülmüş işləri vurğulamaq istəyirəm. Cənab Prezident, regionların sosial-iqtisadi inkişafı proqramlarının əsas məqsədlərindən biri də məhz sosial sahədə layihələrin həyata keçirilməsi idi. Bu sahədə də böyük həcmdə işlər görülüb, 3000-dən çox məktəb yenidən tikilib və ya əsaslı şəkildə təmir olunubdur. İki ildir artıq yeni yanaşma da mövcuddur – modul tipli məktəblərin tikintisinə başlanılıbdır. Bu, ilk növbədə, kiçik kəndlərdə, ucqar regionlarda yerləşən kənd məktəblərinə aid idi. Bu proqram da uğurla icra olunur. Sizi əmin etmək istəyirəm ki, proqramda nəzərdə tutulmuş bütün işlər yerinə yetiriləcəkdir.

Cənab Prezident, qeyd etmək istəyirəm ki, proqramda nəzərdə tutulmuş bütün tədbirlərin icrasına nəzarət olunur. Bu nəzarət göstərir ki, nəzərdə tutulmuş işlər Sizin müəyyən etdiyiniz vaxtda yüksək keyfiyyətlə icra olunacaqdır.

**İ l h a m  Ə l i y e v:** Biznes mühitinin yaxşılaşdırılması istiqamətində çox ciddi addımlar atılıb. Dünya Bankının «Doing Business» proqramı çərçivəsində Azərbaycan 10 ən islahatçı ölkələr sırasındadır və biz 32 pillə irəliləyərək, hazırda 25-ci yerdəyik. Əlbəttə, bu, Azərbaycana investisiyaların cəlb edilməsi üçün müsbət rol oynayır və oynayacaqdır. Bütün aparıcı beynəlxalq maliyyə qurumları bu sahədəki fəaliyyətimizi yüksək qiymətləndirir.

O ki qaldı infrastruktur layihələrinə, əlbəttə, bir çox layihələr icra edilib, o cümlədən sosial infrastrukturla bağlı və bu il də icra ediləcəkdir. Onlarla məktəb tikiləcək, 10 şəhərdə Mərkəzi Xəstəxana yenidən tikiləcək, yaxud da ki, əsaslı təmir olunub istifadəyə veriləcəkdir. Olimpiya kompleksləri– 3 Olimpiya Kompleksinin açılışı nəzərdə tutulur, biri artıq açılıbdır. Digər sosial infrastruktur layihələrinin icrası ilə bağlı konkret proqramlar, planlar var və bunlar bizim Dövlət İnvestisiya Proqramında öz əksini tapır.

Güzəştli şərtlərlə verilən kreditlərin həcmi bu il 170 milyon manat səviyyəsində idi. Bunların neçə faizi icra olunub və hazırda vəziyyət nə yerdədir?

**Ş a h i n  M u s t a f a y e v:** Bu ilin 6 ayında sahibkarlara 50 milyon manatadək güzəştli kredit ayrılıb. İlin ikinci yarısında 120 milyon manat həcmində güzəştli kredit veriləcək. Layihələr qəbul olunub, baxılıb və hazır layihələr müəyyənləşdirilibdir.

**İ l h a m  Ə l i y e v:** Yol tikintisi də Azərbaycanda geniş vüsət alıb. Son 15 il ərzində 15000 kilometr yol çəkilib. Bu il də kənd yollarının, şəhərlərarası yolların çəkilişi nəzərdə tutulur – təxminən 1000 kilometrə yaxın yolun çəkilişi. Məndə olan məlumata görə, 6 ayda təxminən 400 kilometrə yaxın avtomobil yolu çəkilib. Bu, demək olar ki, Azərbaycanda yol infrastrukturunun tamamilə yenilənməsinə gətirib çıxartdı. Təsadüfi deyil ki, Davos Dünya İqtisadi Forumunun hesabatında avtomobil yollarının keyfiyyətinə görə Azərbaycan dünyada 34-cü yerdədir. Əminəm ki, bizim yerimiz daha da irəliləyəcək. Çünki bu sahəyə doğrudan

da çox böyük investisiyalar qoyulur və bundan sonra da qoyulacaqdır.

Mən qeyd etdim ki, bizim büdcə daxilolmalarımız artır. Eyni zamanda, valyuta ehtiyatlarımız da artır. Valyuta ehtiyatlarımız rekord həddə çatıb – 49 milyard dollar səviyyəsindədir. Bu bizim böyük sərvətimiz, böyük uğurumuzdur. Bu ilin 6 ayında valyuta ehtiyatlarımız 4 milyard dollar artıb. Biz bu vəsaitdən çox qənaətlə istifadə edirik. Məhz buna görə hətta böhranlı, neftin qiyməti aşağı olan illərdə biz öz valyuta resurslarımızı qorumuşuq və artırmışıq. Məqsəd də məhz ildən-ilə valyuta ehtiyatlarımızı artırmaq və bununla paralel olaraq xarici dövlət borcumuzu əhəmiyyətli dərəcədə aşağı salmaq idi. 1 il ərzində xarici borcumuz 4 faiz aşağı düşüb və təxminən 19 faiz səviyyəsindədir. Bu, dünya miqyasında ən gözəl göstəricilərdən biri hesab olunur. Çünki bəzi ölkələrdə xarici dövlət borcu ümumi daxili məhsuldan da artıqdır, yaxud da ki, ona bərabərdir. Bizdə isə bu, 19 faizdir. Biz bu sahədə bundan sonra da çox diqqətli olmalıyıq. Ancaq strateji əhəmiyyət daşıyan layihələrə kreditlərin alınması mümkündür. Çünki bizim öz daxili imkanlarımız var və biz bu imkanlardan istifadə etməliyik.

İnflyasiya, qeyd etdiyim kimi, 2,5 faizdir. Bu, yaxşı göstəricidir. Manatın məzənnəsi də sabitdir. Makroiqtisadi vəziyyətlə və ümumiyyətlə, bu sahədə görülmüş işlərlə, planlarla bağlı söz verilir Mərkəzi Bankın İdarə Heyətinin sədri Elman Rüstəmova.

**E l m a n R ü s t ə m o v** (*Mərkəzi Bankın İdarə Heyətinin sədri*): Təşəkkür edirəm, cənab Prezident.

Bütövlükdə ölkənin makroiqtisadi sabitliyi onun xarici ticarət və daxili maliyyə balanslarının tarazlığından ibarətdir, ondan asılıdır. Bu istiqamətdə artıq Siz qeyd etdiniz, əlverişli şəraitdə Azərbaycanın həm xarici ticarət balansı 2,9 milyard dollar həcmində profisitlidir, o cümlədən bizim xarici ödəmə balansımız da profisitlidir. Cari ildə – artıq Siz qeyd etdiniz – bizim ixracımız 15 faizdən çox artıb. Amma fərəhli hal odur ki, artıq qeyri-neft ixracımız ümumi ixracdan geri qalmır, o da 15 faiz səviyyəsində artıb və qeyri-neft idxalının əhəmiyyətini üstələməkdədir.

Neftin qiyməti ilin əvvəlindən 20 faizə qədər artıb və 66 dollardır. Bu bizim daxili proqnozlarımızdan, yəni büdcə və sosial-iqtisadi proqnozlardan 6 dollar çoxdur. Siz qeyd etdiyiniz kimi, strateji valyuta ehtiyatlarımız son illərdə əhəmiyyətli dərəcədə artıbdır. Biz inamla bütövlükdə böhrandan öncəki səviyyəni bərpa etməyə doğru gedirik. 49 milyard dollar bizim ümumi daxili məhsuldan daha çoxdur. Bu, Azərbaycanın həm yüksək beynəlxalq ödəmə qabiliyyətini, həm də yüksək maliyyə təhlükəsizliyini ifadə edir.

Mərkəzi Bankın özünün də valyuta ehtiyatları artır. Cari ildə biz valyuta ehtiyatlarımızı 330 milyon dollardan çox artırmışıq. Amma diqqətinizi ona cəlb etmək istəyirəm ki, Sizin qoyduğunuz məsələ – valyuta ehtiyatlarının idarə olunmasının effektivliyinin artırılması olduqca mühüm məsələdir. Bu vəsaitin təxminən 100 milyon dollardan çoxunu biz 6 ayda xarici idarəetmədən almışıq, baxmayaraq ki, beynəlxalq maliyyə bazarlarında vəziyyət kifayət

qədər mürəkkəb və faiz dərəcələri aşağıdır. Biz ili 3,2 faiz gəlirlə başa vurmağı düşünürük.

Manatın məzənnəsi sabitdir və sabit olaraq qalır. Xarici balansın müsbət olması, ixracın şaxələndirilməsi istiqamətində görülmüş işlər, valyuta təklifinin genişləndirilməsi və bazarda müsbət gözləntilər daxili valyuta bazarında əhəmiyyətli profisit yaradıb. Mən bunu Sizə məruzə etmişəm. Bu gün Mərkəzi Bankın sterilizasiyası ilə birlikdə daxili valyuta bazarında 1 milyard ABŞ dollarından çox profisit mövcuddur. Bu isə bütövlükdə manatın məzənnəsinin nəinki bugünkü sabitliyinə, həm də bütövlükdə gözlənilən sabitliyinə təminat verir.

Baxmayaraq ki, məzənnəmiz sabitdir, biz tərəfdaş olan ölkələrlə, ticarət tərəfdaşlarımızla xarici rəqabət qabiliyyətimizi izləyirik. Altı ay ərzində manatın real məzənnəsi 1,2 faiz ucuzlaşıbdır.

İnflyasiya hədəf diapazonu çərçivəsində həm hökumətin, həm də Mərkəzi Bankın hədəfindən də aşağı səviyyədədir. Baxmayaraq ki, olduqca presedentsiz sosial tədbirlər həyata keçirilir, sosial siyasət gücləndirilir, daxili tələb genişləndirilir, lakin bütövlükdə idarəetmənin yaxşılaşdırılması, görülən tədbirlər və manatın məzənnəsinin sabitliyi inflyasiyanın aşağı səviyyədə formalaşmasını şərtləndirir.

İnflyasiyanın idarə olunmasında inflyasiya gözləntiləri olduqca mühüm rol oynayır. Biz özümüz Dövlət Statistika Komitəsi ilə birlikdə 4000-dən çox ailə təsərrüfatında sorğular aparmışıq. Bütövlükdə gələcəkdə ilin sonuna qədər inflyasiyanın sürətlənmə-

sini gözləyən əhalinin sayı 2 faizdir. Yəni əhalinin 98 faizi ilin qalan dövründə inflyasiyanın sürətlənməsinə inanmır. O cümlədən biznesdə bütövlükdə makroiqtisadi sabitliyə, inflyasiyanın dinamikasına olan inam da – orada da sorğular aparmışıq – kifayət qədər yuxarıdır.

Bütövlükdə inflyasiya səviyyəsinin aşağı olması şəraitində Mərkəzi Bank ardıcıl olaraq monetar siyasətin, pul-kredit siyasətinin yumşaldılması fonunda addımlar atır. Uçot dərəcəsini 2018-ci ildən bu günə kimi 18 faizdən 8,25 faizə qədər endirmişik. Monetar siyasətin yumşaldılmasının digər istiqaməti bütövlükdə kəmiyyət yumşaldılması, yəni bizim iqtisadiyyata verdiyimiz pulun həcmidir. Cari ildə bu, 9 faizdir. Amma cənab Prezident, son 2 ildə pul bazası deyilən bizim əsas göstəricimiz 37 faizdən çox qalxıbdır. Bu da aşağı inflyasiya şəraitində iqtisadiyyatda canlanma, kredit aktivliyinin artması istiqamətində edilir ki, bankların kifayət qədər öz resursları olsun və bu vəsaitlərdən istifadə edə bilsinlər.

İqtisadiyyatda faiz dərəcələrinin aşağı düşməsini müşahidə edirik, baxmayaraq ki, ümumi fondu formalaşdıran yüksək istehlak kreditlərinin faizləri olur. Amma yeni verilmiş biznes kreditlərinin orta faiz dərəcəsi cari ildə 11 faizdir və 5 faizdən də aşağı düşüb. Bu bizim uçot dərəcəsinə yaxındır. Bu onu göstərir ki, Mərkəzi Bankın uçot dərəcəsi, faiz siyasəti artıq bütövlükdə biznes kreditləri üzrə həm də əhalinin əmanətlərinin faizinin formalaşmasında mühüm rol oynamağa başlayıbdır.

De-dollarlaşmaya gəlincə deməliyəm ki, o böhran dövründə bizdə dollarlaşma baş verdi. Bu gün isə biz görürük ki, dollarlaşma aşağı düşməyə başlayıb. Fiziki şəxslərin əmanətlərinin dollarlaşması 2016-cı ildə pik nöqtədəki 85 faizdən 56 faizə, kreditlərin dollarlaşması müvafiq olaraq 52 faizdən 35 faizə qədər aşağı düşübdür.

Kredit aktivliyi davam edir. Cari ilin 6 ayında kreditlər 3,6 faiz artıb. Lakin bu zaman başlıca olaraq, bu artım 9 faizdən çox istehlak kreditləri tərəfindən baş verib. Amma biznes kreditləri, real sektora verilmiş kreditlər bir qədər – 0,3 faiz azalıbdır. Hesab edirik ki, biz diqqətli olmalıyıq. İstehlak kreditlərinin artması diqqətlə izlənilməlidir. Həm bütövlükdə əhalinin borc yükünün artmasını, həm də bank sektorunun portfelində bunun 50 faizə yaxınlaşmasını izləməliyik ki, sabah bu, problem yaratmasın.

Bu gün bank sektorunda əhəmiyyətli likvidlik vardır. Amma biz yenə də görürük ki, biznes kreditləri artmır. Görünür, kompleks requlyativ, stimullaşdırıcı tədbirlər görmək lazım gələcək ki, bu kreditlər real sektora getsin və ölkədə daxili investisiya prosesini dəstəkləsin.

Əhalinin devalvasiya dövründə zərər gördüyü valyuta kreditlərinin Sizin fərmanınız və təşəbbüsünüzlə kompensasiya olunması prosesi tam başa çatıb, bu vəsaitlər əhaliyə ödənilibdir. Manat kreditlərinin restrukturizasiyası üzrə hazırlıq işləri yekunlaşıbdır. Yaxın vaxtlarda biz əlaqədar qurumlarla birlikdə bu vəsaitlərin əhaliyə verilməsini təmin edəcəyik.

İqtisadi artım haqqında deyildi, bu davamlıdır. 6 rübdür ki, ümumi iqtisadi artım, 10 rübdür ki, qeyri-neft sektorunda iqtisadi artım davam edir. Bu onun davamlılığını göstərir. Cənab Prezident, ilin sonuna qədər qarşıda duran vəzifə makroiqtisadi sabitliyin qorunub saxlanılması və onun inkişaf etdirilməsindən ibarətdir. Biz bunu təmin etməliyik. Sentyabr ayında Sizin fərmanla müəyyən etdiyiniz sosial paketin ikinci mərhələsi başlanır. Bütövlükdə bunu təkcə sosial bir paket kimi yox, həm də yeni iqtisadi artım modelinin bir amili kimi görürük. Çünki əhalinin daxili tələbatının canlanması daxili istehsalın canlanmasına, ixracın şaxələnməsinə dəstək verəcək. Amma başlıca vəzifəmiz bütövlükdə bu sosial proqramların, əhalinin real gəlirlərinin artması prosesini dəstəkləmək, aşağı inflyasiyaya nail olmaqdır. Burada Mərkəzi Bankın hökumətlə çox yaxşı əlaqələndirilmiş işi nəzərdə tutulur. Biz bu məsələləri Maliyyə Sabitliyi Şurasında müntəzəm müzakirə edirik. Hesab edirik ki, biz buna nail ola biləcəyik.

**İ l h a m Ə l i y e v:** Mən büdcə daxilolmaları ilə bağlı rəqəmi səsləndirdim. Vergilər Nazirliyi və Gömrük Komitəsinin xətti ilə 440 milyon manatdan çox - vəsait daxil olub. Hesab edirəm ki, biz ilin sonuna qədər bu yolla gedəcəyik. İndi proqnoz vermək çətindir, amma hesab edirəm ki, plandan əlavə, təxminən 700–800 milyon manat vəsait gözlənilir.

**M i k a y ı l C a b b a r o v** (*Vergilər naziri*): Möhtərəm cənab Prezident, icazənizlə çox qısa olaraq mən mövcud vəziyyət barədə məruzə edim. Altı ayda icmal büdcəsinə cari daxilolma Vergilər Nazirliyi tərəfindən

təmin olunub və 4 milyard 954 milyon manat təşkil edibdir. Bunun 3 milyard 633 milyon manatı vergi və dövlət rüsumları, 1 milyard 321 milyon manatı isə məcburi sosial sığorta və işsizlikdən sığorta haqqıdır. Bu, müvafiq olaraq 108,8 faiz vergilər üzrə və müvafiq olaraq 112,5 və 116 faiz məcburi sosial sığorta və işsizlikdən sığorta üzrə rəqəmlərdir. İnanırıq ki, biz bu tempin saxlanılmasına nail olacağıq və hörmətli həmkarlarımızla yaxından işləyirik. Bizdə olan məlumata görə, Dövlət Gömrük Komitəsi də altı ayda proqnozun 108 faiz icrasını təşkil edib. Bu nəticələrin kökündə duran əsas amillər ilk növbədə, vergi siyasəti, inzibatçılıq və Sizin rəhbərliyinizlə həyata keçirilən islahatlar olub. İkincisi, həmkar qurumlarımızla yaxından, komanda şəklində birgə işimiz, məlumat mübadiləmiz, üçüncüsü, vergi ödəyiciləri ilə münasibətlərimizin təbiətinin dəyişdirilməsi və nəhayət, «kölgə iqtisadiyyatı» ilə mübarizədə uğurlarımız, o cümlədən dövriyyə və iş yerlərinin «kölgə»dən çıxarılmasıdır.

İcazənizlə, mən xüsusilə maraq kəsb edən müəyyən meyillərə diqqətinizi cəlb etmək istərdim. Belə ki, vergi daxilolmalarında qeyri-neft sektorunun payı 70,1 faizə çatıb. Bu, 2018-ci ildəki 65,8 faizlə müqayisədə əhəmiyyətli artımdır. Ümumilikdə qeyri-neft sektoru üzrə daxilolmanın artım tempi 14,3 faiz təşkil edib. Bu da iqtisadiyyatın müvafiq sektorunun artım tempini üstələyir və illik proqnozun 51,1 faizini artıq icra etmişik. Qeyri-neft sektorunun özündə isə özəl sektorun payı çox yüksəkdir – 77 faiz özəl sektor tərəfindən

təmin edilib. Vergi islahatları nəticəsində əmək müqavilələrinin sayında əhəmiyyətli artım qeydə alınıb. Toplam altı ay ərzində 101 min yeni əmək müqaviləsi qeydiyyata alınıbdır. Bu rəqəmin 77 mini özəl qeyri-neft sektorunda qeydə alınıbdır. Bu da Sizin göstərişinizlə həyata keçirilən vergi güzəşti islahatının birbaşa nəticəsidir. Onu da qeyd etmək istəyirəm ki, vətəndaşlarımızın sərəncamında yalnız bu vergi güzəştindən qalan məbləğ altı ay ərzində 150 milyon manat təşkil edib, hansı ki, əvvəlki illərdə vergi qismində ödənilirdi. Bu proses davam edir. Bu günə olan rəqəmlər də onu göstərir ki, iyul ayında da bu proses eyni sürətlə davam edib. Aktiv obyektlərin sayında 14 faiz aktiv artım, əlavə dəyər vergi ödəyicilərinin sayında isə 40 faiz artım müşahidə edirik. Son olaraq, vergi nəzarəti tədbirlərinin azaldılmasını mən xüsusi olaraq qeyd etmək istəyirəm. Belə ki, 2018-ci illə müqayisədə səyyar vergi yoxlamalarının sayı 2,7 dəfə, 2017-ci illə müqayisədə isə 6 dəfə azaldılıb. Sevindirici hal ondan ibarətdir ki, biz həmişə özəl sektoru, ümumiyyətlə, iqtisadiyyatın, vergi siyasətinin və inzibatçılığın təsirində izləməyə çalışırıq. Özəl sektorun bank sistemində Azərbaycan manatı ilə olan hesablarında qalıq artımını nəzərinizə çatdırmaq istəyirəm. 1 il ərzində 49 faiz, ilin əvvəlindən isə 20 faiz artıbdır. Bu da hesab edirik ki, həm biznesin nağdlaşmadan əməliyyatlara keçməsinin, həm də ölkə iqtisadiyyatına olan inamın göstəricisidir.

**İlham Əliyev:** Büdcənin icrası ilə bağlı vəziyyət nə yerdədir? Samir Şərifov, qısa məlumat verin.

**S a m i r  Ş ə r i f o v** (*Maliyyə naziri*): Cənab Prezident, 2019-cu ilin dövlət büdcəsinin altı aylıq icrasının göstəriciləri ölkə iqtisadiyyatında baş verən dinamik prosesləri təsdiqləyir. Belə ki, dövlət büdcəsinin xərcləri 100,2 faiz səviyyəsində icra olunub – 10 milyard 951 milyon manat. Dövlət büdcəsinin gəlirləri isə 10 milyard 406 milyon manat məbləğində icra edilib. Dövlət büdcəsinin xərcləri artıqlaması ilə icra olunub. Deməliyəm ki, Siz artıq qeyd etdiyiniz kimi, cənab Prezident, büdcəni əsas təmin edən orqanlar, yəni Vergilər Nazirliyi və Dövlət Gömrük Komitəsi tərəfindən proqnoz göstəriciləri 108 faiz icra olunub. Çox yüksək göstəricilərdir. Vergilər Nazirliyinin xətti ilə yaxşı göstəricilərin biri də ondan ibarətdir ki, vergi daxilolmalarının 70 faizini qeyri-neft gəlirləri təşkil edib. Sair daxilolmalarda da vəziyyət qənaətbəxşdir, yəni büdcədənkənar daxilolmalar olub. Biz gözlədiyimiz templərdən bir qədər aşağı olsa da, ümid edirik ki, ilin sonuna kimi bu vəziyyət tam düzələcəkdir.

Cənab Prezident, mən bəzi məsələlərə xüsusi olaraq toxunmaq istərdim. Burada vergi və gömrük rüsum yığımlarının təmin olunmasında hesab edirəm ki, böyük məsələlərdən biri bizim dövlət əsaslı vəsait qoyuluşu xərclərimizin ahəngdar icra olunmasıdır. Qeyd etməliyəm ki, cari ildə 5 milyard 980 milyon dövlət əsaslı vəsait qoyuluşu üzrə xərclərimizin hələ ki, 37 faizi 6 ay ərzində icra olunub. Bunun bəzi obyektiv səbəbləri vardır. Onunla bağlıdır ki, bu məbləğdə təxminən 1 milyard 140 milyon manat kreditlər nəzərdə tutulub. Bu kreditlərin istifadə əmsalı əfsuslar olsun ki, o

qədər də yüksək deyil. Hesab edirik, bizim aidiyyəti qurumlarımız, hansılar ki, bu kreditlərin icrası ilə məşğuldur, onlar bu sahədə işlərini sürətləndirməlidir. Bəzi hallar, şübhəsiz, təkcə onlardan asılı deyil. Müəyyən satınalma prosedurları var, beynəlxalq maliyyə qurumları tərəfindən onlar gözlənilməlidir. Bu da müəyyən vaxt tələb edir. Bir sıra hallarda Azərbaycan dövlət satınalmaları haqqında qanunvericiliyə uyğun tədbirlər görülməlidir. Hesab edirik ki, bunların ləngiməsi nəticəsində dövlət büdcəsinin vəsaitləri, əsasən də infrastruktur layihələrinin həyata keçirilməsi üzrə müəyyən geriləmələr vardır. Bu isə bizim vergi, gömrük orqanlarının işidir. Nəticə etibarilə, dövlət büdcəsinin gəlirlər proqnozunun və xərclərinin icrasında bizə müəyyən maneələr yarada bilər. Ona görə biz çalışırıq ki, dövlət büdcəsinin xərcləri ahəngdar icra olunsun və xərclərin böyük bir hissəsi ilin sonuna – noyabr–dekabr aylarına təsadüf etməsin.

Dövlət büdcəsinin icrası tam təmin olunur. O cümlədən Sizin tərəfinizdən qəbul edilmiş sosial təşəbbüslər proqramı tam maliyyələşdirilir. Kreditlərlə bağlı Sizin qəbul etdiyiniz çox humanist qərarınızın icrası aidiyyəti orqanlar tərəfindən qısa müddət ərzində təmin olunubdur.

Dövlət borcu sahəsində də, cənab Prezident, bütün öhdəliklər yerinə yetirilməkdədir. Sizin tərəfinizdən təsdiq olunmuş orta və uzunmüddətli dövlət borcunun idarə edilməsi strategiyasına tam əməl olunmaqdadır. Siz qeyd etdiyiniz kimi, borcun səviyyəsini endirməyə nail olmuşuq və biz bu səviyyənin saxlanılmasını təmin

edirik. Cənab Prezident, onu da qeyd etmək istərdim ki, eyni zamanda, dövlət tərəfindən bəzi əhəmiyyətli layihələrə dövlət zəmanətləri verilir. O cümlədən, belə mühüm layihələrdən biri də «Cənub Qaz Dəhlizi» layihəsidir. Sevindirici haldır ki, bu layihə üzrə nəzərdə tutulmuş maliyyələşdirməyə tam ehtiyac yaranmamışdır, lakin xarici maliyyə qurumları ilə danışıqlar aparılmışdı, yəni onlar bu vəsaiti ayırmağa hazır idilər. Amma birinci paket olaraq, biz 2 milyardlıq borclanmadan imtina etdik, buna ehtiyac qalmadı. İndi də əlavə sevindirici haldır ki, artıq Çoxtərəfli İnvestisiyalar üzrə Zəmanət Agentliyi ilə bizim «Cənub Qaz Dəhlizi» şirkəti tərəfindən kredit müqaviləsi bağlanılıb – 750 milyon dollar məbləğində. İndi isə o kreditin götürülməsinə ehtiyac yoxdur. Yəni həm o layihə üzrə qənaət hesabına, həm də layihənin işə salınması ilə əlaqədar bizim o şirkətimiz artıq sərbəst maliyyə axınına malik olub və o vəsait hesabına bu borcları təmin edir.

Ümumiyyətlə, cənab Prezident, qeyd etmək istərdim ki, ilin sonunadək dövlət büdcəsi qarşısında olan öhdəliklərin tam təmin edilməsi üçün bütün şərait yaradılıb. Ələlxüsus, çox ümidverici haldır ki, bizim dövlət büdcəsinə daxilolmanı təmin edən orqanlar tərəfindən proqnoz göstəricilər artımlarla icra olunmaqdadır.

**İ l h a m Ə l i y e v:** Kənd təsərrüfatında bu il rekord göstərici əldə edilib. Qeyd etdiyim kimi, bu, aparılan islahatlar nəticəsində mümkün olub. Müxtəlif istiqamətli addımlar kənd təsərrüfatında canlanmaya

gətirib çıxarıb. Əlbəttə, dövlət dəstəyi hər zaman olduğu kimi, bu il də göstərilir, bundan sonra da göstəriləcəkdir. Bu istiqamətdə atılmış addımlar artıq real nəticələr verir və kənd təsərrüfatı uğurla inkişaf edir. Əsasən bitkiçilik sahəsində, heyvandarlıqda artım təxminən 3 faizə yaxındır. Hesab edirəm, bu sahəyə daha da böyük diqqət göstərilməlidir ki, heyvandarlıq da əhəmiyyətli dərəcədə artsın.

Məndə olan məlumata görə, taxıl istehsalı 40 faiz artıb. Məhsuldarlıq da kifayət qədər yüksəkdir. Əvvəlki illərlə müqayisədə indi orta məhsuldarlıq 30 sentnerdən çoxdur. Ancaq elə təsərrüfatlar var ki, orada məhsuldarlıq 60 sentner və ondan da çoxdur. Yəni bu onu göstərir ki, müasir yanaşma, kənd təsərrüfatının elmi əsaslarla inkişafı məhsuldarlığı xeyli artırır və artıracaqdır.

Digər məhsulların istehsalı da artıb – bostan məhsulları təxminən 40 faiz, meyvə 20 faizdən çox, barama 25 faiz, tərəvəz 14 faiz. Yəni ixracımız da artır və əlbəttə ki, növbəti illərdə biz bu istiqamətdə öz siyasətimizi apararaq, özümüzü daha da böyük nəticələrə çatdıracağıq.

Bu sahədə görülmüş işlərlə bağlı söz verilir Kənd Təsərrüfatı naziri İnam Kərimova.

**İnam Kərimov** (*Kənd Təsərrüfatı naziri*): Möhtərəm cənab Prezident, Sizin tərəfinizdən həyata keçirilən aqrar islahatlar üzrə tədbirlər davam etdirilir. Görülmüş sistemli tədbirlər öz müsbət nəticəsini verməkdədir. Bütün sahələrdə, həmçinin bitkiçilik və heyvandarlıq sahələrində artım müşahidə edilir. Bu il

bizim qarşımızda duran əsas vəzifələrdən biri fermerlərin daim yanında olmaq, onların üzləşdikləri problemlərin həllində yaxından iştirak etməkdir. Bizim əsas qayğımız və vəzifəmiz əkin balansımızı təşkil edən taxılçılıqla bağlı olub. Bu il 1 milyon 12 min hektarda taxıl əkini həyata keçirilib. Bunun 670 min hektarını buğda, 342 min hektarını isə arpa əkini təşkil edib. Həyata keçirilmiş tədbirlər nəticəsində əsas məsələ düzgün texniki təminatın təmin edilməsi olub. Belə ki, hər il fermerlərimiz bu sahə ilə bağlı çoxsaylı müraciətlər ediblər. Amma dislokasiya sisteminin qurulması, xüsusilə də müasir avadanlıqlardan istifadə edilməsi, kombaynlara GPS quraşdırılması və onların düzgün dislokasiyası nəticəsində bu il taxıl biçini 20 gün tez başa çatıb. Məhsuldarlıq da bu il daha yüksək olub. Ötən ilə nisbətən hər hektardan təxminən 2 sentner daha çox məhsul əldə edilib. Bununla yanaşı, hazırda qarşımızda duran əsas vəzifə pambıqçılığın inkişafı ilə bağlıdır. Pambığın tədarükü növbəti aydan – sentyabrdan başlayacaq. Həm texnika, həm də gübrə ilə tam təminat üçün işlər həyata keçiriləcəkdir.

Cənab Prezident, fermerləri sevindirən əsas hallardan biri də odur ki, Sizin lizinq fəaliyyəti ilə bağlı həyata keçirdiyiniz islahat nəticəsində artıq bazarda tam liberallaşma mövcuddur. Artıq dövlət tərəfindən tətbiq edilən güzəştlər və subsidiyalar bütün təchizatçı şirkətlərə tətbiq edilir. Bazarda texnikanın qiymətində təxminən 30 faiz ucuzlaşma baş verib. Subsidiyalarla bağlı Sizin həyata keçirdiyiniz islahat nəticəsində, hesab edirik ki, gübrələrlə əlaqədar bu liberallaşma

gələn ildən tam həyata keçiriləcəkdir. Gübrənin həm əlçatanlığı təmin ediləcək, həm də qiymətində kifayət qədər ucuzlaşma baş verəcəkdir. Hazırda bizim qarşımızda duran vəzifə gübrənin əlçatanlığını daha da yaxşılaşdırmaqdır. Çünki bəzi hallarda fermerlərimiz gübrənin əldə edilməsi üçün böyük məsafələr qət etməyə çalışırlar. Ona görə də Kənd Təsərrüfatı Nazirliyi bu ildən gübrənin səyyar satışını həyata keçirib və onu fermerlərin birbaşa həyətlərinə və təsərrüfatlarına çatdırıbdır.

Möhtərəm cənab Prezident, qarşımıza qoyduğunuz əsas vəzifələrdən biri elektron kənd təsərrüfatının təşviqidir. Hazırda artıq 300 mindən çox fermer elektron kənd təsərrüfatında qeydiyyatdan keçib. Gələn ilin yanvar ayında subsidiyaların verilməsi tam elektron formada həyata keçiriləcək. Elektron kənd təsərrüfatı sistemi, həmçinin imkan verəcəkdir ki, biz əvvəlcədən fermerlərimizin əkinlərini planlaşdıraq və proqnozlaşdıraq. Belə ki, fermerlərimiz mütləq qaydada öz əkin planlarını elektron kənd təsərrüfatında bəyan etməlidirlər. Bununla yanaşı, Sizin tərəfinizdən həyata keçirilən digər vacib islahat yeni subsidiya sistemi ilə bağlıdır. Hazırda subsidiya sisteminin tətbiqi ilə bağlı hazırlıq işləri həyata keçirilir. 2020-ci ilin yanvar ayından artıq subsidiyalar yeni sistemlə veriləcəkdir. Bu da ilk növbədə, məhsuldarlığın, məşğulluğun artırılmasına, ərzaq təhlükəsizliyinin daha da yaxşılaşdırılmasına və bizim kənd təsərrüfatı sahəsində ixrac potensialımızın yaxşılaşdırılmasına imkan verəcəkdir.

**İ l h a m Ə l i y e v:** Bu sahədə də işlər uğurla gedir. Kənd təsərrüfatı hər bir ölkə üçün önəmli sahədir. Ərzaq təhlükəsizliyinin təmin edilməsi bizim üçün əsas vəzifədir, eyni zamanda, biz öz ixrac imkanlarımızı da genişləndiririk. Fermerlərə əlavə güzəştlər edilir. Texnika ilə bağlı təminat yüksək səviyyədədir. Bu il 700-dən çox texnikanın satılması artıq təmin edilibdir. Əvvəlki illərdə böyük sayda kənd təsərrüfatı texnikasının alınması hesabına biz bu sahənin inkişafına nail ola bildik. Əlbəttə, burada müasir texnologiyalar, müasir suvarma sistemləri əsas rol oynayır. İndi Azərbaycanda Azot Gübrəsi zavodu da fəaliyyət göstərir. Yəni xaricdən azot gübrəsinin alınmasına ehtiyac qalmır. Pivot tipli suvarma sistemləri Azərbaycanda istehsal edilməyə başlanılıb. Yəni bu sahədə biz özümüzü təmin etmək üçün, əlbəttə ki, çox ciddi addımlar atırıq. Əminəm ki, növbəti illərdə bu sahədə daha da böyük nəticələr əldə ediləcəkdir.

Məndə olan məlumata görə, bizdə nağdsız ödənişlər hələ də aşağı səviyyədədir. Hesab edirəm ki, bu sahədə çox ciddi addımlar atılmalıdır. Çünki biz çalışmalıyıq ki, nağdsız ödənişlərin həcmi artsın. POS-terminalların sayı da artmalıdır. Ancaq mənə verilən məlumata görə, onların sayı artmır. Bu problem öz həllini tapmalıdır. Çünki nağdsız ödənişlərin aşağı səviyyədə olması, əlbəttə, «kölgə iqtisadiyyatı»nı qidalandırır. «Kölgə iqtisadiyyatı» ilə mübarizə bizim üçün indi əsas məsələlərdən biridir. Bu gün burada verilən məlumat göstərir ki, bu istiqamətdə önəmli

addımlar atılıb. 100 mindən çox əmək müqaviləsi bağlanılıb. Halbuki bu insanlar əvvəllər «kölgə iqtisadiyyatı»nda fəaliyyət göstərirdilər. Nağdsız ödənişlərin aşağı səviyyədə olması, əlbəttə ki, qəbuledilməzdir. Tapşırıq verirəm ki, bu məsələ təhlil edilsin və ciddi addımlar atılsın. Nağdsız ödənişlərin ümumi həcmi Azərbaycanda 2 milyard 300 milyon dollardır. Elədir?

**N a t i q Ə m i r o v** (*Prezidentin İqtisadi Siyasət və Sənaye Məsələləri üzrə köməkçisi*): Bəli, nağd çıxarılan məbləğlər istisna olmaqla.

**İ l h a m Ə l i y e v:** Bu sahəyə çox ciddi diqqət göstərilməlidir. Baxmayaraq ki, inflyasiya aşağı səviyyədədir, ancaq bəzi hallarda süni qiymət artımı da müşahidə olunur. Müvafiq qurumlar bu məsələ ilə ciddi məşğul olmalıdır. Mənə məlumat verilən kimi, dərhal göstərişlər verilir. Yəni istehlak bazarına daim nəzarət olmalıdır. Çünki burada kartel sövdələşmələri də istisna deyil. Əlbəttə, biz süni qiymət artımına yol verə bilmərik. Bu sahə daim diqqət mərkəzində, ciddi nəzarət altında olmalıdır.

Bakı şəhərində bir çox layihələr icra edilir, o cümlədən kommunal təsərrüfat yenilənir, 400-dən çox lift alınıb və quraşdırılır, abadlaşdırılan 50-dən çox nümunəvi həyət artıq vətəndaşların sərəncamına verilib. Şəhər nəqliyyatı üçün 300 yeni müasir avtobus gətirilir və bu doğrudan da böyük irəliləyiş olacaqdır. Çünki şəhər nəqliyyatının müasirləşdirilməsi bizim üçün çox önəmlidir – həm vətəndaşların rahatlığı, həm də təhlükəsizlik baxımından. Metro vaqonları alınır və

metro tikintisi həyata keçirilir. Deyə bilərəm ki, Bakı o şəhərlərdəndir ki, burada metro tikintisi aparılır və postsovet məkanında biz bu sahədə də sayılan şəhərlər sırasındayıq. Ümumiyyətlə, Bakı şəhərinin abadlaşdırılması, müasirləşdirilməsi, gözəlləşdirilməsi istiqamətində çox böyük işlər görülüb. Bu gün Bakı dünyanın ən gözəl şəhərlərindən biridir. Ancaq mövcud problemlər də vardır. Bu problemlərin həlli daim diqqət mərkəzində olmalıdır.

Küçə işıqlandırılması hələ də lazımi səviyyədə deyil. Şəhərin mərkəzi təbii ki, işıqlandırılır, ancaq bəzi yerlərdə işıqlandırılma yoxdur. Bu məsələyə çox ciddi diqqət göstərilməlidir. İndi məişət tullantılarının idarə olunması istiqamətində addımlar atılır. Bir neçə il bundan əvvəl Balaxanıda böyük Məişət Tullantıları zavodu inşa edilib, poliqon salınıb, çeşidləmə aparılır. Biz zəncir yaratmalıyıq. Qapıdan Məişət Tullantıları zavoduna qədər vahid zəncir olmalıdır. Hazırda beynəlxalq məsləhətçilərin iştirakı ilə bu layihə Bakı şəhərində icra edilir. Şəhərətrafı dəmir yolu xəttinin çəkilişi davam edir. Bu da çox önəmli layihədir. Bakıda yeni istirahət zonaları yaradılır. Bakı bu gün parklar, bağlar şəhəridir, istirahət zonaları vətəndaşların sərəncamına verilir və bu, əhali tərəfindən yüksək qiymətləndirilir.

İnşaat sektorunun canlandırılması istiqamətində addımlar atılır. Hazırda Bakı şəhərində bir neçə yüz yaşayış binasının tikintisi gedir. Bu, müsbət haldır. Bu, inşaat materialları sektoruna da müsbət təsir göstərir, iş yerlərinin açılması üçün şərait yaradır.

Onu da bildirməliyəm ki, ilin əvvəlindən 60 min yeni iş yeri açılıb. Onların bir hissəsi dövlət sektorunda açılıbdır. Biz bunu ona görə edirik ki, işsizlik aşağı səviyyədə olsun. Ona görə ödənişli ictimai iş yerlərinin yaradılması istiqamətində önəmli addımlar atılıb və təxminən 40 minə yaxın ödənişli ictimai iş yeri yaradılıbdır.

Bu bizim sosial sahədə gördüyümüz işlərdir. Yəni bu iş yerləri açılır ki, vətəndaşlar işlə təmin olunsunlar. Ancaq özəl sektor iş yerlərinin yaradılmasına öz töhfəsini daha böyük həcmdə verməlidir. Özəl sektorun nümayəndələri ilə aparılmış iş nəticəsində biz bu sahədə də artım görürük. İqtisadi canlanma, əlbəttə ki, iş yerlərinin yaradılmasına da gətirib çıxarır. Çünki bu, daimi proses olmalıdır.

Bizim əhalimiz artır. Müstəqillik dövründə əhalimiz təxminən 3 milyon nəfər artıb. Bu il biz 10 milyonuncu vətəndaşın dünyaya gəlməsini sevinclə qeyd etdik. Bu bizim böyük sərvətimizdir, amma digər tərəfdən, deməyə əsas verir ki, biz daim iş yerlərinin yaradılması ilə məşğul olmalıyıq. Sosial infrastrukturun yaradılması ilə məşğul olmalıyıq, nəqliyyat sahəsində əlavə tədbirlər görülməlidir ki, artan əhali, vətəndaşlar özlərini rahat hiss etsinlər, işlə təmin olunsunlar. Bir daha demək istəyirəm ki, bu, daimi prosesdir. Çünki Azərbaycanın uğurlu inkişafı, sənaye sahəsində, iqtisadi sahədə inkişaf əhalinin artımına bilavasitə təsir edən amildir və biz buna daim hazır olmalıyıq.

İqtisadi artım üçün yeni mənbələr axtarılmalıdır ki, bu, dayanıqlı olsun. Qeyri-neft sektorunun inkişafı

burada əsas rol oynayır. Ancaq onu da bilməliyik ki, bu gün iqtisadi inkişafımız üçün əsas sektor neft-qaz sektorudur. Bu sahədə də çox önəmli addımlar atılıb. «Cənub Qaz Dəhlizi»nin icrası ilə bağlı çox əhəmiyyətli işlər görülüb. Hazırda «Cənub Qaz Dəhlizi»nin icrası sona yaxınlaşır. Artıq onun sonuncu seqmentinin icrası başa çatır. Bu, tarixi layihədir. «Cənub Qaz Dəhlizi»nin fəaliyyətə başlaması nəticəsində Azərbaycan əlavə gəlir əldə edəcəkdir. Hesab edirəm ki, 6 ayda görülmüş işlər təqdirəlayiqdir.

Azərbaycan dayanıqlı inkişaf yolu ilə gedir. Bir neçə il bundan əvvəl dünyanı sarsıdan və bizə də təsirsiz ötüşməyən iqtisadi-maliyyə böhranı artıq arxada qalıb. Biz bu böhrandan şərəflə çıxa bildik. Öz valyuta resurslarımızı qoruya bildik və artırdıq. Qeyd etdiyim kimi, təkcə 6 ay ərzində 4 milyard dollar əlavə valyuta ehtiyatları toplamışıq. Əlbəttə, bu bizim gələcək işlərimiz üçün də yaxşı şərait yaradır. Ancaq vergi, gömrük sistemində aparılan islahatlar, inzibatçılıq sahəsində görülən işlər və daxilolmaların artımı, əlbəttə ki, büdcəmizin əsas mənbəyi olmalıdır. Biz vəsaitdən çox qənaətlə istifadə etməliyik. Xüsusilə dövlət investisiya layihələrinə çox ciddi nəzarət olmalıdır. Dövlət şirkətlərində korporativ idarəetmə sistemi yaradılmalıdır. Bu məsələ ilə bağlı göstərişlər verilib. Hesab edirəm ki, biz tezliklə müasir korporativ qaydalarla idarə olunan şirkətləri görəcəyik. Yəni bu çox önəmli məsələdir. İqtisadi sahədə bundan sonrakı inkişaf üçün, əlbəttə ki, biz xarici ekspertləri də cəlb etməliyik və edirik. Biz beynəlxalq maliyyə qurumları ilə fəal

işləyirik və bu iş bundan sonra da davam etdiriləcək. Yəni iqtisadiyyatın yeni modeli– bu gün tələbat bundan ibarətdir. 2025-ci ilə qədər nəzərdə tutulmuş «Strateji Yol Xəritəsi» bu məsələlərə cavab verir.

Azərbaycan innovasiyalar, müasir idarəetmə, liberal iqtisadiyyat yolu ilə inkişaf etməlidir. Bunun üçün bütün lazımi tədbirlər görülüb. Təsadüfi deyil ki, bunu beynəlxalq maliyyə qurumları da qeyd edir. Biznes mühitinin yaxşılaşdırılması istiqamətində aparılmış işlər göstərir ki, bu gün iqtisadi sahədə Azərbaycan dünya miqyasında uğurla inkişaf edən ölkələr sırasındadır. Bununla paralel olaraq, biz sosial sahəyə də çox böyük diqqət göstəririk. Bu il reallaşan layihələr – milyardlarla dollar həcmində ölçülən bu layihələr, bu təşəbbüslər bizim niyyətimizi və siyasətimizi göstərir. Göstərir ki, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Bizim iqtisadi gücümüz sosial sahəyə bilavasitə təsir etməlidir və edir. Biz bundan sonra da bu yolla gedəcəyik. Əminəm ki, ilin sonuna qədər nəzərdə tutulmuş bütün vəzifələr icra ediləcəkdir.

## OMAN SULTANLIĞININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ QASİM MƏHƏMMƏD SALİM ƏL-SALHİ İLƏ GÖRÜŞ

*2 avqust 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 2-də Oman Sultanlığının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Qasim Məhəmməd Salim əl-Salhinin etimadnaməsini qəbul etmişdir.*

*Səfir Qasim Məhəmməd Salim əl-Salhi Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Qasim Məhəmməd Salim əl-Salhi etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Dövlət başçısı ölkələrimiz arasında ikitərəfli münasibətlərin yaxşı səviyyədə olduğunu, siyasi əlaqələrin məmnunluq doğurduğunu bildirərək, təmasların daha da fəallaşdırılmasının və əməkdaşlığımızın əhatə dairəsinin genişləndirilməsinin vacibliyini qeyd etdi. Prezident İlham Əliyev biznes dairələri arasında əlaqələrin qurulmasının önəmini vurğuladı.*

*Səfir Qasim Məhəmməd Salim əl-Salhi ilk növbədə, Oman Sultanı Qabus bin Said əl-Saidin salamlarını*

*dövlətimizin başçısına çatdırdı. O, ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin genişləndirilməsinin zəruriliyini qeyd edərək, səfir kimi fəaliyyəti dövründə bu istiqamətdə səylərini əsirgəməyəcəyini bildirdi.*

*Dövlətimizin başçısı Oman Sultanı Qabus bin Said əl-Saidin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Oman Sultanına çatdırmağı xahiş etdi.*

*Söhbət zamanı təhsil sahəsində əməkdaşlıq, o cümlədən, universitetlər arası əlaqələr məsələlərinə də toxunuldu.*

## LAOS XALQ DEMOKRATİK RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ SİVİENQPXET PXETVORASAK İLƏ GÖRÜŞ

*2 avqust 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 2-də Laos Xalq Demokratik Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Sivienqpxet Pxetvorasakın etimadnaməsini qəbul etmişdir.*

*Səfir Sivienqpxet Pxetvorasak Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Sivienqpxet Pxetvorasak etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Dövlət başçısı əlaqələrimizin daha da genişləndirilməsi və əməkdaşlıq üçün konkret sahələrin müəyyənləşdirilməsinin önəmini vurğuladı. Müxtəlifsəviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətini qeyd edən Prezident İlham Əliyev bu səfərlər zamanı əlaqələrimizin daha da inkişafı ilə bağlı səmərəli müzakirələrin aparıldığını bildirdi.*

*Səfir Sivienqpxet Pxetvorasak Laos Prezidenti Bunyanq Voraçitin salamlarını dövlətimizin başçısına çatdırdı. Sivienqpxet Pxetvorasak əlaqələrimizin inkişafına Azərbaycan tərəfinin verdiyi dəstəyi Laos*

*hökuməti və xalqının yüksək qiymətləndirdiklərini söylədi. Sivienqpxet Pxetvorasak öz növbəsində, müxtəlifsəviyyəli qarşılıqlı səfərlərin əlaqələrimizin inkişafına töhfə verdiyini qeyd etdi. Səfir ikitərəfli münasibətlərimizin müxtəlif istiqamətlərdə uğurla inkişaf etdiyini və yaxşı ənənələrə əsaslanan əlaqələrimizin bundan sonra daha da genişləndiriləcəyinə əmin olduğunu bildirdi.*

*Dövlət başçısı İlham Əliyev Laos Prezidenti Bunyanq Varaçitin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Laos Prezidentinə çatdırmağı xahiş etdi.*

*Söhbət zamanı ölkələrimiz arasında iqtisadi, ticari, humanitar, turizm və digər sahələrdə əməkdaşlığın inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıldı.*

## TÜRKDİLLİ DÖVLƏTLƏRİN XÜSUSİ XİDMƏT ORQANLARI KONFRANSININ 22-ci İCLAS İŞTİRAKÇILARINA

Hörmətli iclas iştirakçıları!

Sizi Türkdilli Dövlətlərin Xüsusi Xidmət Orqanları Konfransının 22-ci iclasında ürəkdən salamlayıram.

Azərbaycan Respublikası beynəlxalq təhlükəsizliyin təmin edilməsi sahəsində əməkdaşlığın genişləndirilməsinə böyük əhəmiyyət verir. Müasir dünyada sülhə və sabitliyə yeni, daha təhlükəli təhdidlər yaranmaqdadır. Bu təhdidlərin vaxtında aşkarlanaraq, qarşısının alınması bütün dövlətlərin milli maraqları və davamlı inkişafı baxımından son dərəcə vacibdir. Regional, hətta qlobal xarakterli təhlükələrin dəf edilməsi üçün dünya dövlətlərinin fəaliyyətinin əlaqələndirilməsi zəruridir.

Qardaş türkdilli dövlətlərlə əlaqələrin möhkəmlənməsi Azərbaycan üçün xüsusi önəm daşıyır. Müxtəlif formatlarda həyata keçirilən əməkdaşlığımız qarşıda duran bir çox məsələlərin həlli, o cümlədən regional təhlükəsizliyin təmin edilməsi, ekstremizm, terrorçuluq və separatçılıq, qeyri-qanuni miqrasiya, narkotik maddələrin qanunsuz dövriyyəsi, transmilli mütəşəkkil cinayətkar qrupların fəaliyyətinin qarşısının alınması istiqamətində səylərimizin birləşməsinə yönəlibdir.

Dövlətlərimizin üzləşdiyi risk və təhdidlərlə mübarizədə xüsusi xidmət orqanları müstəsna rol oynayır. Bu mənada, Türkdilli Dövlətlərin Xüsusi Xidmət Orqanlarının Konfransı ölkələrimizin təhlükəsizliyinin təmin edilməsi sahəsindəki fəaliyyətimizi əlaqələndirməyə və XXI əsrin çağırışlarına birlikdə cavab tapmağa imkan verən səmərəli vasitələrdən biridir.

Əminəm ki, bu iclas tərəfdaş qurumlar arasında təcrübə mübadiləsi və analitik-informasiya dəstəyi üçün əlverişli şərait yaradacaq və bununla da beynəlxalq təhlükəsizliyin təmin edilməsinə töhfə verəcəkdir.

Bir daha sizi Azərbaycanda salamlayır, işinizdə uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 avqust 2019-cu il*

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB DONALD TRAMPA**

Hörmətli cənab Prezident!

Texas, Ohayo və İllinoys ştatlarında törədilmiş silahlı hücumlar nəticəsində insan tələfatı və yaralananlar barədə xəbərdən olduqca kədərləndim.

Bu dəhşətli hadisələr ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Amerika xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 avqust 2019-cu il*

**SİNQAPUR RESPUBLİKASININ
PREZİDENTİ
XANIM HƏLİMƏ YAQUBA**

Hörmətli xanım Prezident!

Sinqapurun milli bayramı münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yeti-rir, xalqınıza əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 avqust 2019-cu il*

## PİRALLAHI RAYON İCRA HAKİMİYYƏTİNİN YENİ İNZİBATİ BİNASINDA YARADILMIŞ ŞƏRAİTLƏ TANIŞLIQ

*7 avqust 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva avqustun 7-də Pirallahı rayonunda olmuşlar.*

*Pirallahı Rayon İcra Hakimiyyətinin başçısı Vasif İmanov Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya görülən işlər və rayonun perspektiv inkişafı ilə bağlı layihələr barədə məlumat verdi.*

*Sonra dövlət başçısı və xanımı Pirallahı Rayon İcra Hakimiyyətinin yeni inzibati binasında yaradılmış şəraitlə tanış oldular.*

*Prezident İlham Əliyevin «Bakı şəhərinin Pirallahı rayonunda tikinti-quruculuq işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında» 2017-ci ildə imzaladığı sərəncama əsasən, rayon icra hakimiyyəti üçün dördmərtəbəli bina inşa olunub. Binada operativ-idarəetmə, vətəndaşların qəbulu, iş otaqları, akt və konfrans zalları, kitabxana və digər zəruri otaqlar vardır. Bina bütün lazımi avadanlıq və sistemlərlə təchiz edilib. Otaqların hamısı müasir tələblər səviyyəsində qurulubdur.*

*Yeni binada yaradılmış şərait ölkədə dövlət idarəçiliyi sisteminin təkmilləşdirilməsinin daim diqqət mərkəzində olduğunu bir daha təsdiqləyir. Bundan başqa, müasir memarlıq üslubunda inşa olunmuş bu bina rayonun görkəminə də xüsusi gözəllik verir. Rayon icra hakimiyyəti üçün inşa olunmuş binanın ətrafında genişmiqyaslı abadlıq-quruculuq işləri görülüb, fəvvarə quraşdırılıb, işıqlandırma sistemi yaradılıb, 1000-dən çox ağac və gül-çiçək əkilib, yaşıllıq zolağı salınıbdır.*

## QEYDLƏR

**1. Ramazan ayı** – Quranın nazil olduğu ay. – 5–11, 30–51.

**2. Birləşmiş Millətlər Təşkilatı** (BMT) – müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərargahı Nyu Yorkda yerləşir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. BMT-nin Nizamnaməsi 1945-ci il iyulun 26-da San Fransisko Konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalanıb və 1945-ci il oktyabrın 24-də qüvvəyə minib. Hazırda BMT-yə 193 dövlət daxildir.

BMT-nin əsas orqanları Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və İctimai Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və Katiblikdir. Azərbaycan Respublikası 1992-ci ildən BMT-nin üzvüdür.

Dövlətimizin apardığı uğurlu xarici siyasət nəticəsində Azərbaycan 2011-ci ilin oktyabr ayında BMT Təhlükəsizlik Surasına qeyri-daimi üzv qəbul olunmuşdur. – 6, 260, 281.

**3. İslam Əməkdaşlıq Təşkilatı** (İƏT) – 1969–2011-ci illərdə İslam Konfransı Təşkilatı adlanırdı. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamna-

məsinə görə İslam Əməkdaşlıq Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv dövlətlər arasında əməkdaşlığa yönəlmişdir. İqamətgahı Ciddədə yerləşir. Azərbaycan 1991-ci ildən İƏT-in üzvüdür. – 6, 8, 47, 260.

**4. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü 1 səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 6, 11, 48, 123, 137, 190, 208, 216, 230.

**5. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4,4 min $km^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildən muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq, Dağlıq Qarabağın işğalına başladılar. Dağlıq Qarabağın və ətraf rayonların işğaldan azad edilməsi üçün BMT-nin 822, 853, 874, 884 saylı qətnamələri olmasına baxmayaraq, Ermə-

nistan silahlı qüvvələri hələ də Azərbaycan torpaqlarını işğal altında saxlayır. – 6, 7, 9, 10, 37, 47, 48, 66, 70, 110, 119, 123, 137, 145, 160, 161, 163, 172, 189, 190, 200, 216, 219, 230, 274.

**6. Naxçıvan** – Azərbaycan Respublikasında şəhər, Naxçıvan Muxtar Respublikasının paytaxtı. Sahəsi 26,8 $km^2$, əhalisi 92,1 min nəfərdir. Azərbaycanın ən qədim şəhərlərindəndir. Müasir Naxçıvan Qədim, Antik və orta əsr şəhər yerinin xarabalıqları üzərində yerləşmişdir. E.ə. IX–VI əsrlərdə qədim Manna və Midiyanın, eramızın əvvəllərində Albaniyanın, IV əsrdən Sasanilərin tərkibində olmuşdur. 654-cü ildə isə Naxçıvanı ərəblər işğal etmişlər. Azərbaycan Atabəylər dövlətinin (1136–1225) paytaxtlarından biri olmuşdur. 1828-ci il Türkmənçay müqaviləsinə qədər Naxçıvan müxtəlif dövlətlərin nüfuz dairəsində olub, məhz bu ildən Rusiya imperiyasına birləşdirilib və qəza mərkəzinə çevrilibdir. 1924-cü il fevralın 9-da isə Naxçıvan MSSR təşkil ediləndən muxtar respublikanın paytaxtıdır. – 8, 68.

**7. Əl-Qüds –** Dünyanın ən qədim şəhərlərindən biri. Ərazisi 125,1 $km^2$, əhalisi 901 min nəfərdir. Müsəlman, yəhudi və xristianların «müqəddəs şəhəri» adlanır. Şəhər haqqında ilk məlumat e.ə. II minilliyin ortalarına aiddir. Müxtəlif vaxtlarda müxtəlif dölətlərin hakimiyyəti altında olmuşdur. 1920–47-ci illərdə İngiltərənin Fələstin mandatlıq ərazisinin inzibati

mərkəzi idi. 1947-ci ildən isə BMT-nin idarəsi altında xüsusi rejimli müstəqil inzibati vahid oldu. 1948–49-cu illər Ərəb–İsrail müharibəsindən sonra şəhər iki hissəyə bölündü: qərb hissəsi İsrailə, şərq hissəsi isə İordaniyaya verildi. 1950-ci ilin yanvarında İsrail qeyri-qanuni olaraq, Qüdsün qərb hissəsini dövlətin paytaxtı elan etdi, 1967-ci ildə isə şəhərin şərq hissəsini də işğal etdi.

Şəhər qədim müsəlman, yəhudi və xristian abidələri ilə zəngindir. –9.

**8. Kəşmir** – Asiyada tarixi vilayət. Qədimdə və orta əsrlərdə Hindistan ərazisində yaranmış müxtəlif dövlət birləşmələrinin tərkibində olmuşdur. 1846-cı ildə ingilislər Kəşmiri işğal edib 7,5 milyon rupi ödənclə Sammi knyazlığına vermişlər. 1947-ci ilin avqustunda yaradılmış müstəqil Hindistan dövləti Kəşmiri öz ərazisinə qatmağa çalışır. Hal-hazırda Kəşmirin şimal-qərb hissəsi Pakistanın, qalan hissəsi isə Hindistanın (1949) nəzarəti altındadır. 1956-cı ildə «Hindistan İttifaqının tərkib hissəsi» elan edilib. Hindistanla Pakistan arasında bir neçə dəfə hərbi münaqişə baş versə də, bu problem hələ də öz həllini tapmamışdır. – 9.

**9. Mehriban Əliyeva,** M e h r i b a n A r i f q ı- z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə

M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə akademik M.Krasnovun rəhbərliyi altında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondunu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün 3 dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə UNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005–2017-ci illərdə Milli Məclisin üzvü olmuşdur. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inki-

şafına, milli mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilən ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 12, 25, 28, 32, 38, 64, 75, 105, 167, 193, 194, 195, 196, 197, 198–202.

**10. Rusiya,** R u s i y a F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17,125 milyon km$^2$, əhalisi 146,5 milyon nəfərdir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir.
Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 12–13, 22–23, 59, 97, 110, 152, 229, 241, 247.

**11. Ukrayna** – Cənub-Şərqi Avropada dövlət. Sahəsi 603,5 min km$^2$, əhalisi 42,4 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı Radadır. Paytaxtı Kiyev şəhəridir. – 14, 96, 122.

**12. Cavid Qurbanov,** C a v i d Q ə n b ə r o ğ l u (d.1958) – mühəndis, texniki elmlər üzrə fəlsəfə doktoru. 2007-ci ildən «Azəryolservis» Açıq Səhmdar Cə-

miyyətinin, 2015-ci ildən «Azərbaycan Dəmir Yolları» Qapalı Səhmdar Cəmiyyətinin sədri, 2005-ci ildən isə Azərbaycan Respublikası Milli Məclisinin üzvüdür. Azərbaycan Voleybol Federasiyasının prezidentidir.

Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 18.

**13. Aleksandr Sergeyev (**d.1955) – Rusiya fiziki, 2017-ci ildən Rusiya Federasiyası Elmlər Akademiyasının Prezidentidir. – 22–23.

**14**. **İordaniya,** İ o r d a n i y a H a ş i m i l ə r K r a l- l ı ğ ı – Qərbi Asiyada dövlət. Sahəsi 92,3 min km$^2$, əhalisi 10,1 milyon nəfərdir. İnzibati ərazisi 8 əyalətə bölünür. Dövlət başçısı Kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Əmman şəhəridir. – 24.

**15. II Abdullah,** A b d u l l a h b i n H ü s e y n (d.1962) – 1999-cu ildən İordaniya Haşimilər Krallığının Kralıdır. – 24.

**16. Təzəpir məscidi** – Azərbaycan memarlıq abidəsi. 1905–1914-cü illərdə tikilmişdir (memarı Zivərbəy Əhmədbəyov). Kvadrat planlı Təzəpir məscidinin baş fasadındakı üçtağlı eyvan, cinahlarındakı minarələr və günbəz aydın və dəbdəbəli memarlıq kompozisiyası əmələ gətirir. Məscidin böyük ibadət zalı günbəzlə örtülmüşdür. İbadət zalının quruluşu yerli memarlıq

konstruksiyaları ilə işlənmiş, günbəzi saxlayan çatmatağ formalarından istifadə olunmuşdur. Təzəpir Bakı–Abşeron dini tikililəri arasında xüsusi yer tutur. – 25–28, 49.

**17. Füzuli,** Məhəmməd Süleyman oğlu (1494–1556) – Azərbaycanın dahi şairi və mütəfəkkiri. Azərbaycan, fars və ərəb dillərində qəzəl, poema, qəsidə, müsəddəs, rübai, qitə və s. yazmışdır. Aşiqanə qəzəlləri ilə lirik şair kimi şöhrətlənmişdir. Yaradıcılığının zirvəsi olan «Leyli və Məcnun» poeması Azərbaycan, eləcə də Şərq və dünya poeziyasının nadir incilərindəndir. Kərbəlada dəfn edilmişdir. – 28.

**18. Gürcüstan** – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min $km^2$, əhalisi 3,7 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 29.

**19. Salome Zurabişvili** (d.1952) – Fransa və Gürcüstanın siyasi xadimi. 2004–2005-ci illərdə Gürcüstanın Xarici İşlər naziri olmuşdur. 2018-ci ildən Gürcüstanın Prezidentidir. – 29.

**20. Şeyxülislam Hacı Allahşükür Paşazadə,** Allahşükür Hümmət oğlu (d.1949) – 1980-ci ildən Qafqaz Müsəlmanları Ruhani İdarəsinin, 1990-cı ildən Qafqaz Xalqları Ali Dini Şurasının sədridir. Azər-

baycan Respublikasının «Şöhrət», «Şərəf», «İstiqlal» və «Heydər Əliyev» ordenləri ilə təltif edilmişdir. – 30–39.

**21. Heydər Əliyev,** H e y d ə r Ə l i r z a o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), 2 dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin

martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Azərbaycan Respublikası Ali Sovetinin Sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın ozamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi, iyulun

24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H.Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon Sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində

Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən Prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 31, 36, 38, 44, 45, 62, 63, 65, 66, 67, 76, 149, 180, 197, 200, 208, 246.

**22. Zərifə xanım Əliyeva,** Z ə r i f ə Ə z i z q ı z ı (1923–1985) – görkəmli Azərbaycan oftalmoloqu. Tibb elmləri doktoru, professor, Azərbaycan Milli EA-nın akademiki, Rusiya Tibb EA-nın akademiki, Azərbaycan Respublikasının Əməkdar elm xadimi. Görkəmli siyasi və dövlət xadimi Əziz Əliyevin qızı, ulu öndər Heydər Əliyevin həyat yoldaşı, Prezident İlham Əliyevin anasıdır. Zərifə xanımın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri vardır. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların müəllifidir. Həmçinin yüksəkixtisaslı səhiyyə kadrlarının hazırlanmasına böyük

əmək sərf etmişdir. O, Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, «Vestnik oftalmologii» (Moskva) jurnalının redaksiya heyətinin üzvü olmuşdur. Yüksək elmi nailiyyətlərinə görə SSRİ Tibb EA-nın M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. – 31.

**23. Məhəmməd peyğəmbər**(əleyhissəlam) (570/571–632) – islamın banisi, siyasi və dövlət xadimi. İslama görə Məhəmməd əleyhissəlam böyük peyğəmbər və «Allahın elçisi» sayılmış, bütün müsəlmanların müqəddəs kitabı Quranı  xalqa çatdırmışdır. – 34

**24. Cocuq Mərcanlı –** Azərbaycan Respublikasının Cəbrayıl rayonu Çaxırlı inzibati ərazi vahidində kənd. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. 1994-cü ilin əvvəlində kənd Azərbaycan Ordusu tərəfindən erməni işğalından azad edilmişdir. Cocuq Mərcanlı cəbhə xəttinə çox yaxın olduğuna görə əhali kəndə qayıda bilməmişdir. 2016-cı ildə Cocuq Mərcanlı kəndinə yaxın yerləşən Lələtəpə yüksəkliyi Azərbaycan Ordusu tərəfindən işğaldan azad edilmişdir. Kənd tamamilə bərpa olunmuş, azərbaycanlılar öz doğma kəndlərinə qayıtmışlar. – 35, 48.

**25. Məkkə –** Səudiyyə Ərəbistanının qərbində şəhər. Salınma tarixi məlum deyildir. İslamın banisi həzrəti Məhəmməd peyğəmbər Məkkədə doğulmuşdur. VII əsrdən müsəlmanların müqəddəs şəhəri və ziyarətgahıdır. – 36.

**26. Murtuza Muxtarov,** M u r t u z a  M u x t a r  o ğ l u (1857–1920) – milli Azərbaycan burjuaziyasının görkəmli nümayəndəsi, iri neft sahibkarı, mesenat. Adı daha çox Bakıda neftçıxarma texnologiyasının inkişafı ilə bağlıdır. O, demək olar ki, Bakının bütün xeyriyyə cəmiyyətlərinin, həmçinin Peterburq müsəlman xeyriyyə cəmiyyətinin fəxri üzvü və ali, orta ixtisas məktəblərinin tələbələri üçün 40 təqaüdün təsisçisi idi. Bakıda bir sıra əzəmətli binalar tikdirmişdir. 1910-cu ildə Əmircan kəndində tikdirdiyi məscid indiyədək öz memarlıq quruluşu və üslubuna görə göz oxşayır. – 38, 135.

**27. Albert Aqarunov** (1969–1992) – Azərbaycan əsgəri, Qarabağ müharibəsi iştirakçısı. Azərbaycanın Milli Qəhrəmanı. – 41.

**28. Fransisk** (d.1936) – 266-cı Roma Papası, indiki Vatikan hökmdarı. Cənubi amerikalı və Yezuit ordenindən ilk Papa. 2013-cü ildə Roma Papası seçildikdən sonra Fransisk adını qəbul etmişdir. – 43.

**29. Fransa,** Fransa Respublikası – Qərbi Avropada dövlət. Sahəsi 643,8 min km$^2$, əhalisi 67 milyon nəfərdir. İnzibati cəhətdən 101 departamentə bölünür. Qanunverici orqanı iki palatadan ibarət parlamentdir. İcra hakimiyyəti Prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 46, 110, 224–226, 230–231, 270, 274–275.

**30. Bibiheybət məscidi** – Bakının Şıx kəndində türbə. Rəvayətə görə, türbədə şiələrin yeddinci imamı Museyi Kazımın qızı Həkimə xanım və onun Heybət adlı nökəri dəfn olunmuşlar. «Bibiheybət» adının da buradan yarandığı güman edilir. Başqa rəvayətə görə, səkkizinci imam Rzanın qızı və bacısı Bakı yaxınlığında məskən salmış, burada da vəfat etmişlər. Onların dəfn olunduğu yerdə türbə, onun yanında isə 20 metrlik minarəsi olan məscid tikilmişdir. Məscidin XIII əsrin sonunda tikildiyi ehtimal edilir. Məscid sovetlər vaxtında yerlə yeksan edilmişdir. Respublikamız müstəqillik qazandıqdan sonra Prezident Heydər Əliyevin təşəbbüsü ilə yenidən tikilmişdir. – 49.

**31. Şamaxı Cümə məscidi** – 743–744-cü illərdə inşa edilmiş dini mərkəz. Cənubi Qafqazda Dərbənd Cümə məscidindən sonra ən qədim məsciddir. Orta əsrlərdə bərpa edilmiş məscid 1856 və 1902-ci illərdə Şamaxı zəlzələləri zamanı dağılmış, birinci dəfə Qasım bəy Hacıbababəyov, ikinci dəfə isə İosif Ploşko tərəfindən bərpa edilmişdir. 1918-ci ildə ermənilər

tərəfindən tamamilə yandırılmışdır. 2010–2013-cü illərdə Prezident İlham Əliyevin sərəncamına əsasən, əsaslı surətdə təmir edilmişdir. Məscid Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən tarixi mədəniyyət abidəsi kimi qeydiyyata alınmışdır. – 49.

**32. İmamzadə piri,** İ m a m z a d ə t ü r b ə s i – orta əsrlərə aid memarlıq abidəsi. Üzərindəki kitabənin imam Məhəmməd Bagırın oğlu İbrahimin (? – 739) qəbri üstündə tikildiyi və general-leytenant İsrafil bəy Yadigarzadənin təşəbbüsü ilə bərpa edildiyi (1878–79) göstərilir. İmamzadə türbəsinin tikildiyi tarix dəqiq müəyyən edilməmişdir. Memarlıq quruluşuna görə türbənin XIV əsrin sonu – XV əsrin əvvəllərində, ətrafındakı kompleksin isə XVII əsrdə tikildiyi ehtimal olunur. Türbənin hündürlüyü 12 metr, günbəzin hündürlüyü 2,7 metr, diametri 4,4 metrdir. Günbəzə mavi kaşıdan üzlük çəkilmişdir «Göy imam» adı da bununla əlaqədardır. – 49.

**33. Çin Xalq Respublikası** (ÇXR) – Mərkəzi və Şərqi Asiyada dövlət. Sahəsi 9,6 milyon km$^2$, əhalisi 1,4 milyard nəfərdir. İnzibati cəhətdən 22 əyalətə (Tayvansız), 5 muxtar rayona və mərkəz tabeliyində olan 3 şəhərə (Pekin, Şanxay, Tyantszin) bölünür. Ali dövlət hakimiyyəti orqanı Ümumçin Xalq Nümayəndələri Məclisidir. Dövlət başçısı Çin Xalq

Respublikasının Sədridir. Paytaxtı Pekin şəhəridir. – 52–54, 98, 122, 132, 255–256, 266–268.

**34. Van Yi (**d.1953) – Çinin dövlət xadimi. 2013-cü ildən Çin Xalq Respublikasının Xarici İşlər naziridir. – 52–54.

**35. Si Cinpin** (d.1953) – Çinin dövlət və siyasi xadimi, fəaliyyətdə olan Çin Kommunist Partiyasi Mərkəzi Komitəsinin Baş katibi, 2013-cü ildən Çin Xalq Respublikasının, ÇXR Mərkəzi Hərbi Şurasının Sədridir. – 52, 54, 255, 256, 266, 267, 268.

**36. Almaniya,** Almaniya Federativ Respublikası – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min km$^2$, əhalisi 83 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı Prezident, hökumət başçısı Federal Kanslerdir. Ali qanunverici hakimiyyət orqanı parlamentdən – Bundestaq və Bundesratdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 55–56, 162–163, 264–265.

**37. Angela Merkel** (d.1954) – Almaniyanın siyasi və dövlət xadimi. Xristian-Demokrat İttifaqı Partiyasının lideri, 2005-ci ildən Almaniyanın Federal Kansleridir. – 55, 264.

**38. İtaliya,** İtaliya Respublikası – Avropanın cənubunda dövlət. Ərazisinə Alp dağ-

larının qərb yamacları, Padan düzənliyi, Apennin yarımadası, Siciliya və Sardiniya adaları daxildir. Sahəsi 301,3 min km$^2$, əhalisi 61 milyon nəfərdir. İnzibati cəhətdən 20 vilayətə bölünür. Paytaxtı Roma şəhəridir. – 57, 95, 203–204, 211–212.

**39. Sercio Mattarella** (d.1941) – İtaliyanın siyasi və dövlət xadimi. 2015-ci ildən İtaliya Respublikasının Prezidentidir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 57, 212.

**40. Efiopiya** – Şərqi Afrikada dövlət. Sahəsi 1,104 min km$^2$, əhalisi 102,4 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Əddis-Əbəbə şəhəridir. – 58.

**41. Sahle-Vork Zevde** (d.1950) – Efiopiya diplomatı. 2018-ci ildən Efiopiya Federativ Demokratik Respublikasının Prezidentidir. – 58.

**42. İndoneziya,** İ n d o n e z i y a R e s p u b l i- k a s ı – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 1,9 milyon km$^2$, əhalisi 266,3 milyon nəfərdir. İnzibati ərazisi 32 əyalətə və əyalət statusu olan 2 xüsusi inzibati əraziyə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı parlament – Xalq Nümayəndələri Şurasıdır. Paytaxtı Cakarta şəhəridir. – 60.

**43. Coko Vidodo** (d.1961) – 2014-cü ildən İndoneziya Respublikasının Prezidentidir. – 60.

**44. Azərbaycan Xalq Cümhuriyyəti** – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay ( 1918-ci il mayın 28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr–1920, 28 aprel) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli Fərmanı ilə respublikada dövlət dili türk (Azərbaycan) dili elan edildi. Azərbaycan Respublikasının parlamenti 1919-cu il avqustun 11-də «Azərbaycan vətəndaşlığı haqqında» Qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919–20-ci tədris ilində 100 gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan Dövlət Bankı yaradıldı, 1918-ci ilin martında dağı-

dılmış neft sənayesi və Bakı–Batum neft kəməri bərpa edildi. – 61–74, 207.

**45. Qafqaz İslam Ordusu** – Azərbaycanın istiqlalı elan olunduqdan (1918, 28 may) sonra Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti hərbi yardım üçün rəsmi olaraq Osmanlı dövlətinə müraciət etdi. 1918-ci ildə Batumda iki dövlət arasında bağlanmış müqavilənin (Batum müqaviləsi – 1918) şərtlərinə uyğun olaraq, Mürsəl Paşanın komandanlığı altında Beşinci Qafqaz firqəsi Azərbaycana göndərildi. Bu firqəyə rəhbərlik Nuru Paşaya həvalə edildi. Qafqaz İslam Ordusu, türk və Azərbaycan hərbi qüvvələri Gəncə ermənilərini tərk-silah edib, Qaraməryəm, Kürdəmir, Şamaxı, Binəqədi döyüşlərində bolşevik-daşnak qüvvələrinə ağır zərbələr endirərək, bütün cəbhəboyu onları geri çəkilməyə məcbur etdilər. Bu əməliyyat Azərbaycan dövlətinin paytaxtı Bakının azad edilməsi ilə nəticələndi. Qafqaz İslam Ordusunun ən uğurlu əməliyyatlarından biri Qarabağı erməni-daşnak quldurlarından, Cümhuriyyətin şimalını isə biçeraxovçu rus müdafiəçilərindən azad etməsi idi. Birinci dünya müharibəsində (1914–1918) Osmanlı dövlətinin məğlub olması nəticəsində (Mudros barışığı, 1918) Qafqaz İslam Ordusu ləğv olundu və türk hərbi hissələri geri çağırıldı. – 65.

**46. Naxçıvan Muxtar Respublikası** (1920–23-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923–24-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924–90-cı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası,

1990-cı ildən Naxçıvan Muxtar Respublikası) – Azərbaycan Respublikasının tərkibində muxtar dövlət. Sahəsi 5,5 min km$^2$, əhalisi 440 min nəfərdir. Hazırda 7 inzibati rayonu (Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur, Kəngərli), 4 şəhəri (Naxçıvan, Ordubad, Culfa, Şərur), 9 qəsəbəsi, 160 kəndi vardır. – 65.

**47. Füzuli rayonu** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1386 km$^2$, əhalisi 125,4 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 67.

**48. Cəbrayıl** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1050 km$^2$, əhalisi 76,6 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 67.

**49. Ağdərə** – Azərbaycan ərazisində (Dağlıq Qarabağ Muxtar Vilayəti) inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1993-cü ildə Ağdərə rayonunun mərkəzi və bir çox kəndləri Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 67.

**50. «Əsrin müqaviləsi» –** 1994-cü il sentyabrın 20-də Bakıda «Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasil olunan neftin pay

şəklində bölüşdürülməsi» haqqında dünyanın 11 ən iri neft şirkəti ilə bağlanmış müqavilə. – 76.

**51. «Cənub Qaz Dəhlizi»** – Azərbaycanda hasil olunan enerjidaşıyıcılarını Gürcüstan və Türkiyə vasitəsilə Qərb bazarlarına nəql edir. – 77, 83, 84, 85, 189, 203, 217, 299, 307.

**52. Türkiyə,** T ü r k i y ə C ü m h u r i y y ə t i – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min $km^2$, əhalisi 80,8 milyon nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Dövlət başçısı Prezident, ali qanunverici orqanı Türkiyə Böyük Millət Məclisidir. Paytaxtı Ankara şəhəridir. – 77, 93, 99, 161.

**53. TANAP –** Trans – Anadolu qaz boru kəməri. Kəmər 2018-ci ildə istifadəyə verilmişdir. Kəmərin uzunluğu 2000 km-dir. Borudan ildə təxminən 16 milyard $m^3$ qaz ötürüləcək. Qaz Türkiyə – Bolqarıstan və Türkiyə –Yunanıstan sərhədindən Avropa ölkələrinə nəql ediləcəkdir. – 77, 84.

**54. Böyük Britaniya,** B ö y ü k B r i t a n i y a v ə Ş i m a l i İ r l a n d i y a B i r l ə ş m i ş K r a l l ı ğ ı – Qərbi Avropada dövlət. Böyük Britaniya adası, İrlandiya adasının şimal-şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min $km^2$, əhalisi 65,6 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququn-

da olan şəhərlərə bölünür. Böyük Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 79–80, 91–93, 146, 269.

**55. SOCAR,** Azərbaycan Respublika-sı Dövlət Neft Şirkəti (ARDNŞ) – Azərbaycan Respublikası ərazisində neft sərvətlərindən istifadəni vahid siyasət əsasında həyata keçirən, neft sənayesinin idarəetmə strukturunu təkmilləşdirən, yanacaq enerji kompleksinin inkişafını təmin edən şirkət. Respublikanın bütün ərazisində (quru və dənizdə) neft və qaz yataqlarının axtarışı, kəşfiyyatı və işlənilməsi, emalı və nəqli, həmçinin onlardan alınan məhsulların daxili və xarici bazarlarda satışı ilə məşğul olur. 1992-ci ildə «Azərneft» Dövlət Konserninin və «Azərneftkimya» İstehsalat Birliyinin bazasında yaradılmışdır. ARDNŞ Azərbaycan Respublikasının təmsilçisi kimi, dünyanın tanınmış neft şirkətləri ilə «Hasilatın Pay Bölgüsü» Sazişi üzrə 30-a qədər neft müqaviləsi imzalamışdır.

ARDNŞ 2008-ci ildən mühasibat hesablarının beynəlxalq standartlarına keçmişdir. – 79, 93.

**56. «Azəri–Çıraq–Günəşli» –** Xəzərin Azərbaycan sektorunda ən iri neft yataqları bloku. Bakıdan təxminən 120 km şərqdə yerləşən bu yataqlar Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) adından *bp* şirkəti tərəfindən işlənilir. – 82, 83, 85, 94.

**57. «Şahdəniz» –** Xəzər dənizinin Azərbaycan sektorunda ən böyük və ən zəngin qaz yataqlarından biri. – 82, 83.

**58. Avropa İttifaqı** (Aİ) – Avropa dövlətlərinin ən iri inteqrasiya birliyi. Avropa İttifaqına 28 dövlət daxildir.

Avropa İttifaqının yaradılması haqqında müqavilə 1993-cü ildə Maastrixtdə imzalanmışdır. Aİ azadlıq, demokratiya, insan hüquqları və azadlıqlarına hörmət, həmçinin hüququn aliliyi prinsiplərinə – üzv dövlətlər üçün ümumi olan prinsiplərə əsaslanır.

